ELNARƏ ZEYNALOVA

Xaqani Şirvani yaradıcılığına konseptual baxış

(ƏRƏBCƏ İRSİ ƏSASINDA)

BAKI – 2026

Elmi redaktorlar: **Rafael Baba oğlu Hüseynov**
filologiya elmləri doktoru
akademik

Aida Şahlar qızı Qasımova
filologiya elmləri doktoru
professor

Rəyçilər: **İmamverdi Yavər oğlu Həmidov**
filologiya elmləri doktoru
professor

Fəridə Əhəd qızı Əzizova
filologiya elmləri doktoru
professor

Layihə rəhbəri: **Xanım Aydın**

Elnarə Aydın qızı Zeynalova. Xaqani Şirvani yaradıcılığına konseptual baxış *(ərəbcə irsi əsasında)*.
Bakı, "Zərdabi-Nəşr", 2026, 392 s.

ISBN 978-9952-611-88-5

Xaqani Şirvaninin 900 illik yubileyi münasibəti ilə hazırlanmış bu kitab 2024-cü ildə Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının 15.01.2024-cü il tarixli 01 saylı qərarı ilə "Elm" nəşriyyatı tərəfindən "Xaqani Şirvaninin ərəbcə əsərlərinin izi ilə" adı ilə çap olunmuş monoqrafiyanın genişləndirilmiş və təkmilləşdirilmış variantıdır. Şairin ərəbcə yazdığı əsərlər əsasında hazırlanmış kitabda, farsca yazılmış əsərlərə də müraciət edilmiş, onların tərcümə və şərhlərində yol verilən nöqsanlardan bəhs edilmişdir. Kitabda, eləcə də, şairin ərəbcə əsərlərinin öyrənilməsində əhəmiyyətli hesab olunan Azərbaycan, Türkiyə, Rusiya, Fransa və İrlandiya kitabxanalarının fondlarındakı əlyazma nüsxələrinin paleoqrafik və tekstoloji xüsusiyyətləri barədə məlumat verilmişdir. Həmin əlyazmaların köməyilə, Azərbaycanda ilk dəfə olaraq, şairin ərəbcə yazdığı əsərlərin küll halında elmi-tənqidi mətni hazırlanmış və kitabın sonuna əlavə edilmişdir. Gələcəkdə daha da təkmilləşdirilməsi nəzərdə tutulan həmin mətnin kitaba daxil edilməsi ərəbdilli mütəxəssislər arasında Xaqaninin ərəbcə əsərlərinə maraq oyatmaq məqsədi daşıyır.

© Elnarə Zeynalova, 2026

ÖN SÖZ

On ikinci əsri Azərbaycan ədəbiyyatının "qızıl dövrü" adlandıranlar haqlıdırlar. Məhz bu əsrdə Azərbaycan şeirində və nəsrində güclü bir sıçrayış baş verir, bir-birinin ardınca müxtəlif ədəbi istiqamətlərdə fəaliyyət göstərən güclü şair və yazıçılar qələm çalmağa başlayırlar. Bu əsr içərisində yaşayıb-yaratmış Nizami Gəncəvi, Xosrov ibn Əbubəkr əl-Ustad, Məhsəti Gəncəvi, Fələki Şirvani, Mücirəddin Beyləqani kimi dünyəvi irsə sahib qüdrətli ədəbi şəxsiyyətlər yalnız Azərbaycanın deyil, bütöv Yaxın və Orta Şərq xalqları ədəbiyyatının aparıcı simalarına çevrilirlər. Sonralar onların hər birinin ardıcılları yaranır, ədəbiyyata gətirdikləri yeniliklər Azərbaycanın və digər xalqların ədibləri tərəfindən davam etdirilir. Bu ulduzlar silsiləsinin içərisində Xaqani Şirvaninin yeri məxsusidir.

Xaqani Azərbaycan və dünya ədəbiyyatının nadir simaları cərgəsində şərəfli yer tutur. Onun qəsidə yaradıcılığı, bu janra bəxş elədiyi yeni keyfiyyətlər, Şərq poeziyasında ilk mənzum səyahətnaməni yaratması, ədəbiyyatımızdakı azadfikirliliyin ilk carçılarından biri kimi tanınması şairin ağır ədəbi çəkisinin bariz göstəriciləridir.

Bir neçə dili mükəmməl bilən Xaqani Şirvaninin farsca yazdığı "Divan"ı və digər əsərləri bu və ya digər dərəcədə araşdırılsa da, bu istiqamətdə XX əsrdən etibarən milli ədəbiyyatşünaslığımızda bir neçə dissertasiya və monoqrafiyalar yazılsa da, yenə də Xaqani yaradıcılığı ilə bağlı görülməli işlər az deyil. Bu baxımdan şairin ərəbdilli irsi diqqətə daha çox möhtacdır. Çünki indiyədək onun ərəb dilində ortaya qoyduğu ədəbi miras haqqında mükəmməl bir tədqiqat aparılmamışdır. Təqdim olunan monoqrafiyanın aktuallığı və əhəmiyyəti ilk növbədə bununla bağlıdır, yəni monoqrafiyada, milli ədəbiyyatşünaslığımızda ilk dəfə olaraq, Xaqani Şirvaninin əldə olan ərəbdilli yaradıcılıq nümunələri müxtəlif istiqamətlərdən təhlil edilmiş, şairin bioq-

rafiyası və çoxdilli, çoxjanrlı, çoxmövzulu, çoxqəhrəmanlı yaradıcılığı, haqlı olaraq, Cənubi Qafqazın multikultural müstəvisində seyr edilmiş və bu mühitin bariz və ayrılmaz parçası kimi araşdırılmışdır.

Monoqrafiyanın əsas tədqiqat obyekti Xaqani Şirvaninin ərəb dilində yazdığı əsərlərdir. Bu əsərləri geniş şəkildə təhlil edən tədqiqatçı şairin ərəbcə bizə gəlib çatan irsini janr, forma və məzmun özəllikləri baxımından öyrənmiş və əsərlərdən gətirilən nümunələr əsasında öz fikrini əsaslandırmışdır. Tədqiqatda mənzum əsərlərlə yanaşı, mənsur əsərlərdən də bəhs olunması müsbət hal olub, monoqrafiyanın elmi dəyərini artırır. Çünki ədəbiyyatşünaslıqda klassik nəsrə müraciətə tez-tez rast gəlinmir.

Xaqaninin farsca irsinin bədii xüsusiyyətləri haqqında son dövrdə həm Azərbaycanda, həm də İranda bir sıra maraqlı araşdırmalar aparılmışdır. Amma şairin ərəbdilli poeziyası belə təhlillərdən kənarda qalmışdır. Ona görə də monoqrafiyada Xaqaninin ərəbdilli şeirlərinin poetik məziyyətlərinin yerli-yataqlı təhlil edilməsi özlüyündə yeni bir addım kimi qiymətləndirilməlidir. Ustad sənətkarın mükəmməl bildiyi digər bir əcnəbi dildə – ərəbcədə şeir texnikasını hansı məharətlə tətbiq etməsinin burada aydınlaşan lövhəsi onun farscadakı poetik qabiliyyətinin hüdudlarını da daha doğru görüb-duymağa imkan yaradır, hər iki dildə onun bu dillərin əsl sahiblərindən az olmayan qüdrətə malik olduğunu əyan edir.

Monoqrafiya bir yandan Xaqaninin özünün yaradıcılığında indiyədək "Ağ ləkə" kimi qalmış, az öyrənilmiş ərəbdilli məhsullar haqqında dolğun təsəvvür yaradırsa, digər tərəfdən Azərbaycanın ərəbdilli ədəbiyyatının, bütöv ərəbdilli Yaxın və Orta Şərq ədəbiyyatı kontekstində Azərbaycanın yeri və rolunun daha düzgün anlaşılmasına meydan açır.

Monoqrafiyanın əsas məziyyətlərindən biri də budur ki, müəllif yalnız çap məhsullarına, başqa araşdırıcıların nəşr etdir-

miş olduğu mətnlərə əsaslanmamış, yeri düşdükcə ilkin mənbələrə, əlyazmalara müraciət etmişdir. Orta əsr müəlliflərini tədqiq edənlərin birinci vəzifəsi də məhz məxəzlərlə işləməkdir.

İmkan daxilində Xaqani Şirvaninin öz əsərləri, eləcə də, onun ədəbi irsi haqqında indiyə qədər aparılmış irili-xırdalı bütün araşdırmalarla tanış olmuş, məqamı yetişdikcə onları öz təhlil proseslərinə cəlb etmiş Elnarə Zeynalovanın bu monoqrafiyası Xaqaninin ərəbcə əsərlərinin gələcəkdə daha dərindən öyrənilməsi üçün bir zəmindir.

Rafael HÜSEYNOV

GİRİŞ

Əvət, oxumaq bərəkəti sayəsindədir ki, məlhəmli dülgər Əli kişinin oğlu Şirvan şahlarının sərmayeyi-təfaxürü olan "Xaqani" ləqəbini onlardan almağa kəsbi-ləyaqət edib. Xaqani Şirvani kimi bir şöhrəti-əbədiyə nail olur ki, bu gün bütün üdəba, şüəra və füzəla indində şayani-təqdir olmaqla biz şirvanlılar, xassə biz Şirvan şairləri onunla təfaxür etməkdə haqlı qalıyoruz. İştə, oxumanın bəxş etdiyi fayda budur!

Mirzə Ələkbər Sabir

Orta əsrlərdə ərəb dilinin Yaxın və Orta Şərqdə geniş intişarı İslam dini ilə bağlı idi. Bu dildən əvvəlcə din və dövlət işlərində daha çox istifadə olunsa da, ərəblərin apardığı uğurlu siyasət nəticəsində getdikcə onun əhatə dairəsi daha da genişləndi və nəticədə, ərəb dili Şərqdə elm və mədəniyyət dilinə çevrildi. Həmin dövrdə elmin bir çox sahələrinə, eləcə də fəlsəfə, din, poeziya ilə bağlı biliklərə sahib olmağın əsas yolu ərəb dilini öyrənmək hesab olunurdu. Zəmanənin tələbinə uyğun olaraq, Azərbaycan ziyalıları da mürəkkəb qaydaları, sərf, nəhv, i'rab kimi özəllikləri ilə fərqlənən ərəb dilini bütün incəlikləri ilə öyrənərək, fəsahət, bəlağət, bədi', i'caz, bəyan kimi ərəb dilinə xas olan poetik xüsusiyyətləri mənimsəyərək bu dildə kamil əsərlər yaratmağa başladılar.

VII–XII əsrlərdə ərəbcə yazmış Azərbaycan şair və ədiblərinin həyat və yaradıcılığını tədqiq edən Malik Mahmudov (1938–1991) Azərbaycanda anadan olub, ilk təhsilini burada alan ərəbdilli alimlərin ilk nümayəndələrinə yalnız IX əsrdə təsadüf olunduğunu yazırdı.[1]

[1] *Mahmudov, M*. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər (VII–XII əsrlər). Bakı: Şərq-Qərb, 2006, s. 29

XI əsrdə ərəbcə yazan Azərbaycan şairləri haqqında məlumata artıq ərəb mənbələrində də rast gəlinirdi; Əli Əbul-Hasən əl-Baxərzinin (v. 467/1074) "Dumyətul-qasr va 'usratu 'əhlil-'asr" məcmuəsində Mənsur Təbrizi, Xətibi Urməvi, Hüseyn Təbrizi, Xəttat Nizami Təbrizi, Əli Təbrizi, İskafi Zəncani, Xətib Təbrizi kimi ərəbcə yazmış səkkiz Azərbaycan şairi haqqında məlumat verilib. Bu qiymətli mənbə belə deməyə əsas verir ki, XI əsrdə ərəbcə yazan şairlərimiz əvvəlki dövrlərdə yaranmış ərəbdilli Azərbaycan ədəbiyyatının ənənələrini mənimsəyərək, onu daha da inkişaf etdirmişlər.

XII əsrdə poeziyada fars dili ərəb dilini üstələməyə başladı. Amma buna baxmayaraq, şair və ədiblər arasında ərəb dilinə, ərəb ədəbiyyatına maraq uzun müddət davam etdi. Buna görə də, həmin dövrdə Azərbaycan mədəniyyətinin inkişafında hər iki dil aparıcı rola malik idi. XII əsr şairlərindən olan Əfzələddin Bədil bin Əli Nəccar Xaqani Şirvaninin (1120/1126–1185/1199) əsərləri bu fikri təsdiqləyən ən etibarlı mənbələrdəndir. Şairin ikidilli yaradıcılığı orta əsrlər klassik ədəbiyyatımızın məhdud tarixi-coğrafi müstəviyə sığmayıb, bütünlükdə Şərqdə gedən ədəbi yenilikləri özündə əks etdirdiyinin göstəricisidir.

Xaqani Şirvani klassik Şərq ədəbiyyatı tarixində qəsidə janrının əsas ustalarından biri hesab olunur. Onun əsərlərinə əsrlər boyu nəzirələr yazılmış, poeziyaya gətirdiyi yeniliklər təqlid edilmişdir. Buna görə də, klassik farsdilli ədəbiyyatın görkəmli tədqiqatçıları Qafqazın və müsəlman Şərqinin öyrənilməsi üçün Xaqaninin əsərlərinin böyük əhəmiyyətini xüsusi olaraq vurğulamışlar.[1]

Xaqaninin ədəbi irsi şairin öz yaradıcılığına müraciət edən tədqiqatçılarla yanaşı, həmin dövrün tarixini, siyasi vəziyyətini, ədəbi proseslərini, yaxud Xaqaninin müasirlərini, yaratdığı ədəbi

[1] *Марр, Ю. Н., Чайкин, К. И.* Хакани, Незами, Руставели. Тбилиси: Мецниереба, 1966, с. 158

məktəbin davamçılarını araşdıran yerli və əcnəbi tədqiqatçıların da diqqət mərkəzində olmuşdur. Bu da Xaqani irsinə müraciətin aktuallığını göstərən amillərdəndir.

Şirvan intellektual mühitinin ən görkəmli nümayəndəsi, Azərbaycanda yaranmış farsdilli poeziyanın ən mürəkkəb nümayəndəsi kimi qələmə verilən Xaqani yaradıcılığına həsr olunmuş bu monoqrafiya, həm də bu vaxta qədər araşdırılmamış, diqqətdən kənarda qalmış məsələləri işıqlandırması ilə aktuallıq kəsb edir.

Azərbaycanda Xaqani ilə bağlı geniş araşdırmaların tarixi keçən əsrin əvvəllərinə gedib çıxır. Şairin həyat və yaradıcılığı ilə bağlı bəzi məsələlərə Həmid Araslı (1902–1983), Məmmədağa Sultanov (1910–1991), Qafar Kəndli-Herisçi (1923–1997), Solmaz Rzaquluzadə (1931–2020) və s. kimi tədqiqatçıların fəaliyyəti sayəsində aydınlıq gətirilmişdir. Bu sahədə ilk tədqiqatın müəllifi M. Sultanov olsa da, ən geniş və əhatəli iş Q. Kəndli-Herisçinin adı ilə bağlıdır. Belə ki, alim "Xaqani Şirvani (həyatı, dövrü və mühiti)" adlı irihəcmli monoqrafiyasında şairin həyat və yaradıcılığının bütün mərhələlərini özündə əks etdirən beytləri xırdalığına qədər izah etmiş və bir sıra yeni məlumat üzə çıxartmışdır.

Sonrakı illərdə də Xaqaninin yaradıcılığı ilə bağlı araşdırmalar davam etmişdir. Lakin aparılan araşdırmalarda şairin, əsasən, farsdilli əsərləri tədqiqata cəlb olunmuş, yaradıcılığının ikinci qolunu təşkil edən ərəbdilli irsi kölgədə qalmış, xüsusi tədqiqat işinin mövzusu kimi ədəbi təhlilə cəlb edilməmişdir. VII–XII əsrlərin ərəbcə yazmış azərbaycanlı şair və ədibləri haqqında fundamental araşdırma aparmış M. Mahmudov Xaqani kimi əsasən, fars dilində yazan müqtədir bir şairin öz yaradıcılığında ərəb dilindən də istifadə etməsini, bu dildə gözəl şeirlər yazmasını ərəb dilinin XII əsrdə Azərbaycanda geniş işləndiyini təsdiq edən güclü amil kimi

qiymətləndirsə də,[1] öz kitabında Xaqanidən bəhs etməmişdir. Müəllif bunun səbəbini iki cür izah etmişdir:

1) XII əsrdə fars dili poeziyanı öz təsir dairəsinə saldığından, Xaqani kimi sənətkarların ərəb dilində yazdıqları şeirlər onların yaradıcılıq istiqamətini müəyyənləşdirə bilməmişdir;

2) Tədqiqat işində iki dildə yazmış şəxsiyyətlərə deyil, yalnız ərəb dilində yazmış sənətkarlara yer verilmişdir. Xaqaninin ərəbcə şeirləri onun ümumi yaradıcılığından ayrılıqda tədqiq oluna bilməz.[2]

Görkəmli alimin bu fikri ilə qismən razılaşmaq olar. Necə ki, biz orta əsrlər Azərbaycan mədəni irsinə həm müxtəlif xalqların müştərək məhsulu olan İslam mədəniyyətinin ayrılmaz hissəsi kimi, həm də özünün spesifik xüsusiyyətlərini qoruyub saxlayan müstəqil mədəniyyət kimi yanaşırıq, eləcə də iki və ya üç dildə əsərlər yazmış müəlliflərin yaradıcılığına həm küll halında, həm də müəyyən bir dilin imkanları, həmin dildə yaranan mədəniyyət çərçivəsində yanaşa bilərik. Məsələn, "Xaqani Şirvani yaradıcılığına konseptual baxış (ərəbcə irsi əsasında)" monoqrafiyasının əsas tədqiqat obyekti ərəbsə əsərlərdir. Burada şairin ərəb dilində yazdığı əsərlər ilk dəfə tədqiqat obyektinə çevrilmiş, onların həcmi, janrı, məzmunu, poetikası öyrənilmiş və onun ərəbdilli əsərləri haqqında ümumi təsəvvür yaradılmışdır. Amma bəzi məsələlərə aydınlıq gətirmək üçün, yeri gəldikcə, farsca olan əsərlərinə də müraciət olunmuş, müəyyən paralellər aparılmışdır.

Belə yanaşma Xaqaninin ancaq ərəbcə yazdığı əsərlərə aid deyil. Farsca yazdığı əsərlər haqqında da eyni fikri səsləndirmək olar. Çünki şairin əsas yaradıcılığı fars dilində olsa da, burada ərəbdilli mədəniyyətin təsiri öz sözünü deyir və belə beytlərin mənasını açıqlamaq üçün mütləq ərəb dili, ərəb ədəbiyyatı, İslam dini, ərəb

[1] *Mahmudov, M*. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər. B., 2006, s. 103
[2] *Mahmudov, M*. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər. B., 2006, s. 9-10

coğrafi məkanları və s. araşdırılmalıdır, yəni şairin hər iki dildə yazdığı əsərləri xüsusi olaraq tədqiq etmək olar, amma onun dünyagörüşündən, ictimai-siyasi mövqeyindən, dini-fəlsəfi baxışlarından, yaradıcılığının əsas istiqamətlərindən danışarkən hər iki dildə yazdığı əsərlər nəzərə alınmalı və ümumi nəticə əsasında fikir yürüdülməlidir.

Xaqaninin ərəb dilində yazdığı əsərlərdən dövrümüzə az bir hissə gəlib çatsa da, onların əhatə dairəsi çox genişdir. Burada ərəb coğrafi məkanları, İslam tarixi, Səlcuqilər dövləti, Dərbənd, Şirvanla bağlı tarixi məqamlar öz əksini tapıb. Onların tədqiqi həm şairin həyat və yaradıcılığı ilə bağlı yeni məlumatların əldə olunması, həm də XII əsrə aid tarixi faktların üzə çıxarılması üçün vacibdir. Fars dilində yazdığı əsərlər kimi, ərəbcə yazdığı əsərlər də yüksək sənətkarlığı, mövzu rəngarəngliyi, tarixi məqamları əks etdirməsi ilə diqqəti cəlb edir.

Qeyd olunduğu kimi, Xaqaninin ərəbcə əsərləri onun ümumi yaradıcılığının ayrılmaz hissəsini təşkil edir və bəzi məsələlərə aydınlıq gətirmək üçün mütləq şəkildə onun hər iki dildə yazdığı əsərlərə müraciət olunmalıdır. Araşdırmanın əsas tədqiqat obyekti ərəbcə əsərlər olduğuna görə monoqrafiyada əsas diqqət ərəbcə əsərlərə yönəldilmiş və şairin yaradıcılığının ən az öyrənilmiş bu sahəsi haqqında mümkün qədər geniş məlumat verməyə cəhd olunmuşdur.

Şairin ərəbcə əsərləri (məktubları istisna) müxtəlif İran alimləri tərəfindən hazırlanmış divanların sonunda tam və ya qismən öz əksini tapıb. Amma onları daha ətraflı öyrənmək üçün bu divanlar kifayət etmir. Ərəb və fars dillərində yazıb-yaratmış orta əsr şair və ədiblərin yaradıcılığının tərcüməsi və tədqiqi zamanı orijinal mənbələrdən istifadə, əlyazmalara müraciət ədəbiyyatşünaslıq elmində çox aktualdır. Ona görə də, monoqrafiyada divanlarla yanaşı, müxtəlif ölkələrdə saxlanılan əlyazma nüsxələrinə də müraciət edilmişdir. Onların tədqiqata cəlb olunması şairin ərəbcə əsərləri ilə bağlı bir sıra faktların üzə çıxarılmasına

kömək etdi. Monoqrafiyanın müvafiq fəsillərində ətraflı şəkildə bəhs olunan həmin faktları, tədqiqat işinin elmi yeniliyi kimi müddəalar şəklində belə göstərmək olar:

–Xaqaninin ancaq ərəbcə yazdığı əsərlərdən ibarət əlyazma elmə məlum deyil. Onun ərəbcə əsərləri divan və külliyyatlarında fars dilində yazdığı əsərlərlə qarışıq şəkildə yer alıb;

–Şairin ərəbcə əsərləri arasında 171 beytdən ibarət ən böyük qəsidəsinin ünvanlandığı şəxs mənbələrdə müxtəlif şəkillərdə təqdim edilmişdir. Həmin qəsidə müraciət etdiyimiz əksər əlyazmalarda 4 beytdən ibarət şeir şəklində verilmişdir. Qəsidəyə tam şəkildə ancaq 3 əlyazmada rast gəlindi. Onlardan ikisində – M–247 şifrəli Bakı nüsxəsi və Persan 1816 şifrəli Fransa Milli Kitabxanasına aid əlyazmada qəsidə adsız, C 61 şifrəli Sankt-Peterburq nüsxəsində isə *Şirvanşah Cəlal əd-Din Mənuçehrin mədhi* adı altında təqdim olunub. Monoqrafiyada tarixi və ədəbi mənbələrə, əsərin məzmununa və Şirvanşahların daşıdıqları titullara əsasən, xaqanişünaslıqda ilk dəfə olaraq, qəsidənin şirvanşah Cəlal əd-Din I Axsitana həsr olunduğu iddia edilmişdir;

–Şairin yaradıcılığında müşahidə olunan boşluqlardan biri onun nəsri ilə bağlıdır. Monoqrafiyada, Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə, şairin ərəbcə yazdığı iki məktub tədqiqata cəlb edilmiş və məktubların əks olunduğu əlyazmalar (*Süleymaniye kütüphanesi Damad İbrahim Paşa Koleksiyonu'nda* yer alan 233028 və *Chester Beatty* kitabxanasındakı MS 3798 şifrəli əlyazmalar) və məktubların ümumi məzmunu haqqında məlumat verilmişdir.

–*Chester Beatty* (İrlandiya/Dublin) kitabxanasındakı MS 3798 şifrəli əlyazmanın hazırlanma tarixinə əsasən Xaqaninin hicri tarixi ilə təxminən 580-ci ildə vəfat etməsi fikri irəli sürülmüşdür.

–Ərəb alimi İməd əd-Din əl-İsfəhani əl-Kətibin (519–597/1125–1201) "Xəridətul-qasr va cəridətul-'asr" kitabında aşkar olunan ərəbdilli Azərbaycan şairi Əbu Nəcm əl-Xunəci haqqında məlumat verilmiş, onun mənsub olduğu Xunəc şəhəri ilə bağlı məlumata Xaqaninin ərəbcə yazdığı birinci məktubda da rast gəlindiyi göstərilmiş və bu fakta əsaslanaraq, Xaqaninin məktubları orta əsrlərdə Azərbaycan şəhərləri, eləcə də Azərbaycanda sufiliyin yayılması haqqında məlumat verən yeni mənbə kimi qiymətləndirilmişdir;

–əlyazmalardan aşkar olunan 2 yeni beytə (C 61 şifrəli Sankt-Peterburq nüsxəsi – 1 beyt; *Süleymaniye Kütüphanesi Fatih koleksiyonu* 242153 nömrəli əlyazma – 1 beyt) əsasən şairin ərəbcə yazdığı əsərlərdən elmə 504 beytin, iki müqəddimənin (dibaçə) və iki məktubun məlum olduğu qeyd edilmişdir.

–orta əsr ərəb alimi Zəkəriyyə bin Mahmud əl-Qəzvininin (605–682/1203–1283) "'Əsərul-bilad va 'əxbərul-'ibad" əsərində Xaqani haqqında verdiyi məlumatın həm orijinal mətni, həm də Azərbaycan dilinə tərcüməsi kitaba daxil edilmişdir.

–Azərbaycan ədəbiyyatı tarixində ilk dəfə, Xaqaninin ərəb dilində yazdığı əsərlərin elmi-tənqidi mətni tam halda işlənib hazırlanmış və kitabın sonunda oxuculara təqdim edilmişdir.

Gələcəkdə daha da təkmilləşdirilməsi nəzərdə tutulan həmin mətnin monoqrafiyaya əlavə olunması ərəbdilli mütəxəssislər arasında Xaqani yaradıcılığına maraq oyatmaq məqsədi daşıyır.

XAQANİNİ FORMALAŞDIRAN İCTİMAİ-SİYASİ MÜHİT

VII əsrdə Ərəbistan yarımadasında yeni bir din – İslam dini zühur etdi. Bu dinin zühuru və sürətlə yarımadanın hüdudlarını aşaraq qonşu əraziləri öz nüfuzu altına alması ilə bəşər sivilizasiyası tarixində əsrlər boyu öz təsirini qoruyub saxlayan güclü bir mədəniyyətin formalaşması prosesinə təkan verildi. İlk dövrlərdə yeni yaranan mədəniyyətin mərkəzində ərəb xalqı, ərəb dili, ərəb mədəniyyəti dururdu. Ərəblər təkallahlığı yaymaq adı altında qonşu əraziləri fəth edir və fəth olunan ərazilərdə öz qayda-qanunlarını yaratmağa çalışırdılar. M. Mahmudova görə: "*Ərəblər itaət altına aldıqları xalqlara üç şey verə bilmişdilər: 1. Hələ sistemləşdirilməmiş, cilalanmamış İslam dinini. 2. Son dərəcə zəngin söz ehtiyatına malik olan, lakin müəyyən qəlibə salınmamış ərəb dilini. 3. Bədəvi ərəbin düşüncə psixologiyasından yaranmış, möhkəm qafiyə və vəzn sisteminə malik, lakin məzmun və ideyaca yoxsul cahiliyyə poeziyasını*".[1]

Zaman keçdikcə, bu 3 vacib element – din, dil və poeziya sistemləşdirildi, nizama salındı, cilalandı. Nəticədə, həm ərəb mədəniyyətinin, həm işğal olunan ərazilərin, ən əsası isə ümumşərq mədəniyyətinin inkişafında yeni mərhələ yarandı.

Əməvilər (بنو أمية) (661–750) sülaləsinin hakimiyyəti illərində ərəb təəssübkeşliyi siyasəti yürüdülür, ərəb mədəniyyəti digər xalqların mədəniyyətinə qarşı qoyulurdu. Amma Abbasilər sülaləsinin (750–1258) hakimiyyətə gəlməsi ilə vəziyyət dəyişdi. Həmin dövrdə dövlətin idarə olunması ilə yanaşı, mədəniyyətdə də yeni meyarlar yarandı və mədəniyyət öz yekcinsliyini itirdi.

"*Abbasilər dövründə müxtəlif xalqların təfəkkür tərzi, maddi-mədəni sərvətləri bir toplu halında çıxış edir. Buna görə*

[1] *Mahmudov, M.* Piyada... Təbrizdən Şama qədər. Bakı: Yazıçı, 1982, s. 10

də Abbasilər dövründə yaranan mədəniyyət sırf ərəb mədəniyyəti deyil, ərəbdilli mədəniyyət sayılır".[1]

Xilafətə daxil olan xalqların ziyalıları elmi və ədəbi yaradıcılıqlarında, əsasən, ərəb dilindən istifadə edir, bu dilin köməyi ilə elmin müxtəlif sahələrinə bələd olur, eləcə də yeni yaranan mədəniyyəti öz əsərləri ilə zənginləşdirirdilər. Beləliklə, ərəb deyil, ümumşərq, ümumislam mədəniyyətinin formalaşması prosesinə təkan verildi. Mehmet Fuat Köprülünün (1890–1966) sözləri ilə desək, *"İslam mədəniyyəti", öz əsaslarını təbii ərəblərdən almaqla bərabər, ən ziyadə yıxdığı əski mədəniyyətlərin və dinlərin qalan ünsürləri sayəsində inkişaf etmiş fərqli kültürlərə malik müxtəlif qövmləri əhatə edə biləcək qüvvətli və cihan-şümül bir mədəniyyəti ancaq o sayədə vücuda gətirə bilmişdir. Yoxsa yalnız çöl mədəniyyətinin ünsürləri təkbaşına bu qədər böyük bir iş görməyə qadir ola bilməzdi. Necə ki, "İslam ümməti" dediyimiz kütlə sırf ərəblərdən ibarət deyilsə, "İslam Mədəniyyəti" də yalnız ərəblərin məhsulu deyildir"*.[2]

Abbasilərin dövründə Şərqdə elm və mədəniyyətin bir neçə mühüm mərkəzi yarandı. Bu mərkəzlərdə sanki mədəniyyətin bəlli bir sahəsi üzrə "ixtisaslaşma" gedirdi. Bəsrə və Kufənin mədəni və elmi inkişafı daha çox qrammatika və dilçilik sahələri ilə bağlı idisə, Bağdad ədəbiyyatın, poeziyanın mərkəzi hesab olunurdu. Bu da Abbasilərin hakimiyyəti dövründə yalnız dövlət idarəçiliyində deyil, bütün sahələrdə özünü göstərən fars təsiri ilə bağlı idi. Həmin dövrdə dini və elmi əsərlər ərəb dilində yazılır, bədii dil kimi də fars dilinə üstünlük verilirdi.

Azərbaycan ziyalıları Şərqdə gedən ədəbi prosesdən nəinki kənarda qalmır, əksinə, hər iki dildə gedən ədəbi, elmi, fəlsəfi fikrin inkişafında yaxından iştirak edirdilər. XII əsrin məşhur

[1] *Mahmudov, M*. Klassik ərəb ədəbiyyatı. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2011, s. 79

[2] *Köprülü, M. F*. Türk edebiyatı tarihi. İstanbul: Ötüken, 1980, s. 86

şairi Əfzələddin Xaqani Şirvani də belə şəxsiyyətlərdən hesab olunur. Azərbaycan, eləcə də Şərq ədəbiyyatının tanınmış simalarından olan Xaqani Şirvanşahlar dövlətinin çiçəklənmə dövründə yaşayıb-yaradıb. Onun yaradıcılığı həmin dövrdə Şirvanda və ona qonşu ölkələrdə cərəyan edən siyasi və ədəbi proseslərlə sıx surətdə bağlı olub.

Orta əsr ehkamlarına boyun əyməyən, dinə, fəlsəfəyə, poeziyaya şəxsi baxışı olan Xaqaninin əsərləri özünəməxsus cəhətləri ilə seçilir. Əsərlərinin mövzusu real həyatla bağlı idisə, məzmunu şairin şəxsi təfəkkürünün və dünyagörüşünün inikası idi. Burada yunan və İslam fəlsəfəsi, xristianlıq və İslam, saray və xalq həyatı ilə bağlı xüsusiyyətlər paralel şəkildə öz əksini tapmışdır.

Xaqani Şirvaninin yaşadığı XII əsr Şərqin həm siyasi, həm də ədəbi inkişafı cəhətdən ən mürəkkəb dövrü kimi xarakterizə olunur. Siyasi cəhətdən baxsaq, bu dövrdə Qafqazda, əsasən, Gürcü çarlığı, Şirvanşahlar və Eldənizlər (Eldəgizlər) dövləti hakimiyyətdə idi. Səlcuqilər dövlətinin, ərəb xilafətinin, rusların, fasrların da təsirini nəzərə alsaq, həmin dövrdə Qafqazda siyasi vəziyyətin mürəkkəb olduğunu təsəvvür etmək çətin deyil. Xristian Gürcü çarlığı Şirvanşahlar dövləti ilə çox yaxın münasibətdə idi. Tarixçi Rauf Hüseynzadə bu yaxın münasibəti Gürcü çarlığı üçün daha əlverilşi hesab etmişdir: *"Beləliklə, dövrün reallıqlarını və müsəlman aləmindən, ilk növbədə isə Azərbaycan Atabəylər dövlətindən gələ biləcək təhlükəni hiss edən Gürcü çarlığı XII əsrdə nəinki daxildə tolerant dini siyasət yürütməli, eləcə də xarici siyasətdə ehtiyatlı olmalı idi. Buna görə də, Baqratilər Şirvanşahlarla ancaq pozitiv münasibətdə olmalı idilər"*.[1] Onlar arasında münasibətlərin möhkəmlənməsi hər iki dövlətin ortaq mənafeyinə xidmət edirdi. XII əsr Azərbaycan-gürcü əlaqələrinin inkişafına təbii ki, yaxın Şərqdə ge-

[1] *Гусейн-Заде, Р. А.* Кавказ и Сельджуки. Баку: Кавказ, 2010, с. 120

dən siyasi hadisələr – Ön Asiyada müsəlman dövlətlərinin hakimiyyətinin aparıcı qüvvə olması da öz təsirini göstərirdi. Təsadüfi deyildir ki, XII əsrdə gürcü cəmiyyətində ərəb, fars və türk terminologiyası dominantlıq təşkil edirdi (*amid, asnaf, ustad, amil, dərbazi;* titullarda: *vəzir, əmir, atabək* və s.).[1]

XII əsr Yaxın Şərqdə Səlcuqilər dövlətinin gücləndiyi dövrə təsadüf edir. XI əsrdən etibarən, yəni Alp Arslanın (1063–1072) hakimiyyəti dövründə Səlcuqilər getdikcə daha böyük əraziləri fəth etdilər. Həmin dövr həm mərkəzi hakimiyyətin güclənməsi, həm də mədəniyyətin çiçəklənmə dövrü kimi xarakterizə olunur. Əgər əvvəlki sultanlar mədəniyyəti ikinci dərəcəli hesab edib, onun idarəsini öz əmirlərinə həvalə edirdilərsə, Alp Arslan və ondan sonra hakimiyyətə gələnlər elmin, ədəbiyyatın inkişafına xüsusi diqqət göstərir, şairlərə, alimlərə, ədiblərə himayədarlıq edirdilər. Təbii ki, burada Alp Arslan və Məlik şahın (1072–1092) vəziri olmuş Xacə Nizam əl-Mulkun (1018–1092) böyük rolu olmuşdur. Onun sayəsində bu sülalə Şərqdə mədəniyyəti inkişaf etdirən türk sülaləsi kimi tarixə düşdü. Həmin dövrdə mülki işlər fars, dini-şəri işlər ərəb, xarici siyasi əlaqələr fars-ərəb dillərində aparılırdı.[2] Mədəniyyət də bu iki dildə inkişaf etdiyindən Səlcuqilərin dövründə ədib və şairlər ikidilli idilər, yəni XI–XII əsr ədəbiyyatına xas olan əsas cəhətlərdən biri ikidilli ədəbiyyatın yaranması idi.[3] Baba Tahir (1000–1055), Nasir Xosrov (1004–1088), Abdul-Malik əl-Cuveyni (1028–1085), Ömər Xəyyam (1048–1131), Əbul-Hasən əl-Baxərzi (v. 1074), Fərid əd-Din Əttar (1145–1229) və Şərqin digər tanınmış qələm əhli iki dildə yazıb-yaradıblar. Xaqani Şirvani də bu ədəbi prosesdən kənarda qalmamış və ümumşərq

[1] *Гусейн-Заде, Р. А*. Кавказ и Сельджуки. Баку: Кавказ, 2010, с. 114

[2] *Sultanov, R*. Nizamülmülkün həyat və fəaliyyəti haqqında // Əbu Əli Həsən ibn Əli Xacə Nizamülmülk. Siyasətnamə. Bakı: Elm, 1987, s. 7

[3] التونجي، محمد. حول الادب في العصر السلجوقي. منشورات مكتبة قورينا، ١٩٧٤، ص. ١١٠

mədəniyyətinin inkişafına iki dildə yazdığı əsərləri ilə bir yenilik qatmışdır.

Şairin iki dildə yazıb-yaratması iki cür izah oluna bilər. Birincisi, yuxarıda qeyd olunduğu kimi, dövrün tələbi idi, yəni həmin dövrdə Şərq poeziyasında iki dildə divan yaratmaq bir növ tələbat idi. Yevgeniy Eduardoviç Bertels (1890–1957) Məhəmməd Füzulinin ərəbcə yazdığı əsərləri tədqiq edərkən orta əsr şairlərinin dil məsələsinə də toxunmuşdur. Alimin fikrincə, orta əsrlərdə türklər arasında ərəb dili elm dili, fars dili poeziya dili, türk dili isə məişət dili *(язык обихода, быта)* olmuşdur, yəni təhsil alan türk dövrün tələbinə uyğun olaraq fars ədəbi dilini ən azı "Gülüstan" səviyyəsində,[1] ərəb dilini isə "Əl-Qur'ənul-Kərim"i oxumaq səviyyəsində bilməli idi. Bu da onların mədəni cəhətdən daha yaxşı inkişafına səbəb oldu. Fəridə Əzizovanın sözləri ilə desək: "*Türk şairlərinin ikidilliliyi, bəzən də çoxdilliliyi türk təfəkkür tərzinin inkişafına şərait yaratmışdır*".[2]

Azərbaycan ədəbi məktəbinin nümayəndələri dövrün tələbatına uyğun olaraq, fars və ərəb ədəbi dillərini mükəmməl şəkildə mənimsəmiş və bu dillərdə zəngin ədəbi xəzinə yaratmışlar. Onların yaratdığı xəzinədən yeri gəldikdə, fars və ərəbdilli şairlər də bəhrələnmişlər. Rafael Hüseynov yazır: *"Azərbaycan ədəbiyyatı dünyanın ən möcüzəli söz xəzinələrindəndir ki, ana dilindəkindən başqa fars və ərəbcə də kitabxanalara sığmayan qiymətli örnəkləri mövcuddur. Eyni zamanda mənşəyi, quruluşu, qayda və qanunları ilə bir-birindən tam fərqli üç dildə – türkcə, farsca, ərəbcə divanlar bağlamaq şair üçün nadir keyfiyyətdir. Dünya ədəbiyyatının ümumi mənzərəsi içində qeyri-*

[1] *Бертельс, Е. Э.* Избранные труды. Низами и Фузули. Москва: Издательство восточной литературы, 1962, с. 505

[2] *Азизова, Ф.* Арабизированные авторы в эволюции арабской классической поэзии. Баку: Элм, 2009, с. 76

adi hünər kimi görünən bu qabiliyyət orta əsrlər poeziyamız üçün adi haldır".[1]

Belə dahilər sırasına daxil olan Qətran Təbrizi, Fələki Şirvani, Xaqani Şirvani, Mücirəddin Beyləqani, Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi və digər söz ustadlarımız ərəb, fars ədəbiyyatını kor-koranə təqlid etməmiş, onun inkişafına öz töhfələrini vermişlər.

Bəzən Azərbaycan şairləri başqa dildə yazdıqları əsərlərə görə mənsub olduqları xalqdan uzaqlaşdırılaraq fərqli mədəniyyətin nümayəndələri kimi təqdim olunurlar. Xaqani də əksər mənbələrdə farsdilli ədəbiyyatın yox, İran ədəbiyyatının nümayəndəsi kimi təqdim olunur. Amma ana dilində əsər yazmamağı müdrik Şərqin yetirmələri olan Qətran, Xaqani, Nizami kimi sənətkarların yaradıcılığının faciəsi kimi qiymətləndirən Q. Kəndli-Herisçinin qeyd etdiyi kimi, *"....qövmilik yalnız dillə məhdud deyildir"*.[2] Fars poetikasını Xaqani əsərlərindən gətirilən nümunələrsiz təsəvvür edə bilməyən Oleq Lyudviqoviç Vilçevskinin (1902–1964) fikrincə, öz müasirləri arasında ən çox Xaqani Azərbaycan şairi adlandırıla bilər.[3] Çünki Xaqani milli mənsubiyyətini, şirvanlı olduğunu hər iki dildə yazdığı əsərlərində dilə gətirmiş və əsərlərində Azərbaycan xalqına məxsus adət-ənənələrdən söz açmaqla, el məsəllərindən istifadə etməklə hansı xalqın oğlu olduğunu göstərmişdir. Mirzə İbrahimov (1911–1993) bu cəhəti çox gözəl vurğulamışdır: *"Xaqani əsərlərini fars və ərəbcə yazmışdır. Lakin onların milli formasını və aidiyyatını müəyyən edən keyfiyyətlər şairin poetik idrakındadır, varlığı dərk və təsvir etməsinin xüsusiyyətlərində, obrazlar,*

---

[1] *Hüseynov, R. B*. Məhsəti – necə varsa. Bakı: Yazıçı, 1989, s. 4

[2] *Kəndli-Herisçi, Q*. Xaqani Şirvani (həyatı, dövrü, mühiti). Bakı: Elm, 1988, s. 58

[3] *Вильчевский, О. Л.* Хакани. Некоторые черты творчества и мировоззрения поэта // Москва-Ленинград: Советское Востоковедение, 1957. № 4, с. 63

metaforlar silsiləsində özünü göstərir ki, bunlar Azərbaycan ruhu, Azərbaycan zövqü, Azərbaycan bədii təfəkkür və həyatından qidalanmışdır. Əsərlərində çoxlu Azərbaycan məsəlləri, obrazlı ifadələri və sözləri də işlənir ki, bu da çox əhəmiyyətlidir".[1]

Xaqaninin iki dildə əsərlər yaratmasının ikinci səbəbi keçdiyi həyat yolu ilə bağlı ola bilər. Belə ki, şairin "tərcümeyihalı" kimi həyatının əsas məqamları haqqında məlumat verən "Tuhfətul-İraqeyn" ("İki İraqın töhfəsi") əsərinə görə, o, ərəb dilini əmisindən öyrənib. Dövrünün savadlı adamlarından olan Kafiyəddin Ömər ibn Osman təbii ki, ərəb dilini bilmədən elmin sirlərinə vaqif olmağın imkansızlığını nəzərə alaraq, bu dili qardaşı oğluna bütün incəliklərinə qədər öyrətmişdi. "Tuhfətul-İraqeyn" əsərindən götürülmüş aşağıdakı beytlər bu iki şəxs arasında olan münasibəti əks etdirməklə yanaşı, şairin ərəb dilini öyrəndiyi mənbələri, eləcə də bu dil vasitəsi ilə hansı bilikləri əldə etdiyini göstərir:

داده بکفم کتاب اصلاح آموخته سقط زند ارواح
فرموده مطالعات وتکرار در مجمل رمز وعین اسرار
من شاهد خاص اودر آن جدّ او ابن دُرید و من مبرّد[2]

"Kitab-i islah"ı ovcuma qoyaraq, öyrətdi "Saqtuz-zənd"i və "Ərvah"ı,

Rəmzi cümlələrdə, sirlər gözündə buyurdu təkrarı, mütaliəni.

Mən şahidi-xassam, o isə baba, o, İbn Dureyddir, mənsə Mubərrad.

(Fars dilindən filoloji tərcümə: Lalə Əlizadə)

Birinci beytdəki "Kitab-i islah" İbn əs-Sikkitin (186–244/802–858) "İslah əl-mantıq" əsərinə işarədir. "Saqtuz-zənd"

[1] *Xaqani Şirvani.* Seçilmiş əsərləri (tərtib edən: M. Sultanov). Bakı: Yazıçı, 1987, s. 22

[2] خاقاني شرواني. تحفة العراقين. کتابخانه مجلس شورای اسلامی. ص. ۲۱۹–۲۲۰

("Çaxmaqdaşının qığılcımı") سقط الزند – Xətib Təbrizinin (1030–1109) ustadı olmuş məşhur ərəb şairi, filosofu Əbul-'Alə əl-Mə'arri'nin (363–449/973–1057) birinci şeir divanının adıdır. Beytdən belə məlum olur ki, gözünün açılması və sirlərə vaqif olması üçün əmisi öz şagirdinə İbn əs-Sikkitin və Əbul-'Alə əl-Mə'arrinin əsərlərini vermiş, şair də onların vasitəsi ilə ərəb dilini incəliklərinə qədər öyrənmişdir. Nəticədə, şagird Bəsrə ədəbi mühitinin nümayəndəsi olan اشعر العلماء واعلم الشعراء *alimlərin ən duyumlusu, şairlərin ən elmlisi* [1]– kimi qiymətləndirilən ədib, şair, dilçi, alim Muhammməd bin əl-Hasən bin Dureyd bin Atahiyə (223–321/837–933)[2] kimi biliyə sahib ustadı sayəsində sərf və nəhv qanunlarını ərəb dili və ədəbiyyatının bilicilərindən hesab olunan Əbul-Abbas Muhammməd bin Yəzid bin Abdul-Əkbər əl-Mubərrad (210–286/825–899) səviyyəsində öyrənmiş, bu dilin dərinliklərinə varmışdır.

Xaqaninin yaradıcılığı həyatı ilə sıx şəkildə bağlıdır. Şərq ədəbiyyatında yüksək qiymətləndirilən "Tuhfətul-İraqeyn" əsərinin müəyyən hissəsi məhz şairin ailəsinə, yaxınlarına həsr olunub. *"Xaqaninin digər əsərləri ilə müqayisədə daha asan dilə malik məsnəvi formasında yazılan"*[3] ictimai, fəlsəfi məzmunlu bu poema şairin həm həyatını, daxili aləmini, həm də yaşadığı dövrün ab-havasını öyrənmək üçün qiymətli mənbə hesab olunur.

Ümumiyyətlə, şairin həyatının qısa icmalını belə təqdim etmək olar: Şamaxıda zəhmətkeş bir ailədə doğulan kiçik İbrahimin ata babası toxucu, ana babası aşbaz, atası dülgər, əmisi əczaçı və dövrünün tanınmış ziyalılarından olmuşdur. Atasından

---

[1] الحموى، ياقوت. معجم الادباء. في عشرين جزءا، الجزء الثامن عشر. بغداد: مطبوعات دار المأمون، هـ ١٣٥٥ / ١٩٣٦م . ص. ١٢٩

[2] إبن قتيبة. ألشعر والشعراء، الجزء الاول. القاهرة: دار الحديث. دون تاريخ، ص. ٣١١؛ الحموى، ياقوت. معجم الادباء، الجزء الثامن عشر. بغداد، هـ ١٣٥٥ / ١٩٣٦م. ص. ١٢٧

[3] Persian Literature / an introduction by Reuben Levy, M. A. London: Oxford University Press, 1945, p. 43

çox əmisi Kafiyəddin Ömərin və əmisi oğlu Vəhid əd-Dinin himayəsi altında böyümüşdür. Uşaqlıqdan şeirə, poeziyaya maraq göstərən şair bu iki şəxs sayəsində təhsil alaraq getdikcə püxtələşmiş və Məlikuş-şuəra Əbul-Əla Gəncəvi sayəsində Şirvanşahların sarayına dəvət olunmuşdur. *Hassənul-Əcəm* (Əcəmlərin Hassəni), *Həqaiqi, Bədil, Əfzəl* təxəllüsləri ilə yazan gənc şair saraya qəbul olunduqdan sonra *Xaqani* kimi məşhurlaşmışdır. Əvvəlcə saray həyatı gənc şairə xoş gəlsə də, sonralar özünü azadlığı əlindən alınmış dustağa bənzətmişdir. Şair saraydan canını qurtarmaq istəsə də bu, mümkün olmamışdır. Həmin dövrdə saraylara yol tapmaq nə qədər çətin idisə, oradan yaxa qurtarmaq ondan da çətin idi. Orta əslərdə yaşamış şairlərin saray təcrübələri göstərir ki, saray mühiti, saray həyatı ədib və şairlər üçün həmişə uğurlu olmamış, əksinə, bəzən onların həyatı böyük təhlükə yaratmışdır. XI–XII əsr alimi Əbu Bəkr Muhəmməd ət-Turtuşi (451–520/1059–1126) yazırdı: *"Hökmdarla dostluq edən xoşbəxt ola bilməz, çünki hökmdarın nə əhdi, nə vəfası, nə yaxını, nə də qohumu olar"*.[1]

Nəsihətlər məcmuəsi olan "Kəlilə və Dimnə"də də üç əsas təhlükəli şeydən biri hökmdarla dostluq etmək hesab olunub. Çünki hökmdarlar, kimliyindən asılı olmayaraq, onlara itaət etmək istəməyənlərə qarşı amansız olur, cəza tədbirlərinə əl atır, şairləri cinayətkar kimi həbsxanaya saldırmaqdan çəkinmirdilər. Klassik ərəb ədəbiyyatının nadir simalarından hesab olunan Əhməd ibn Huseyn ibn Abdus-Saməd əl-Mutənəbbi (303–354/915–965) öz saray təcrübəsini belə xarakterizə etmişdir: "*mən bu hökmdarlardan bezmişəm, əvvəl insanı şirin vədələrlə saraylarına çağırır, sonra onunla əsir kimi davranırlar; çıxıb getmək imkanı da olmur*".[2]

---

[1] الطرطوشي، أبو بكر. سراج الملوك. تحقيق جعفر البياتي. رياض، ١٩٩٠، ص. ٢٥٨

[2] *Qasımova, A*. Ərəb ədəbiyyatı. Bakı, 2023, s. 440
(A.Qasımova. Ərəb ədəbiyyatı.pdf)

Hökmdar-şair münasibətlərinin belə acı tərəfi Xaqanidən də yan keçməmişdir. Qısa müddətdə Şirvan hökmdarının hüsn-rəğbətini qazanan gənc şair cəsarətli fikirləri, kəskin qələmi, heç kimə bənzəməyən üslubu ilə çoxlarının həsəd və qısqanclıq obyektinə çevrilmiş, nəticədə, iftiraya uğramışdır. O, çox sevdiyi Vətənə xəyanətdə suçlanaraq həbs edilmiş və Şabran qalasına salınmışdır. Təzkirələrdə, tarixi mənbələrdə Xaqaninin həbs tarixi və səbəbi barəsində müxtəlif məlumat olsa da, onlar rəvayət xarakter daşıyır. Məsələn, orta əsr alimi, təzkirəçisi Zəkəriyyə bin Mahmud əl-Qəzvini "Əsərul-biləd va əxbərul-'ibəd" əsərində Şirvandan bəhs edərkən, Xaqani Şirvaniyə daha çox yer ayırmışdır. Müəllif Xaqanini filosof-şair kimi qələmə vermiş, onun çox gözəl əsərlər yazdığını və həmin əsərləri ilə müasirlərindən fərqləndiyini qeyd etmişdir. Əl-Qəzvininin məlumatı ilk dəfə bu monoqrafiyada işıqlandırıldığına görə onu tam şəkildə göstərməyi vacib bildik:

ينسب إليها الحكيم الفاضل أفضل الدين الخاقاني، كان رجلا حكيما شاعرا، اخترع صنفا من الكلام انفرد به، وكان قادرا على نظم القريض جدّا، محترزا، عن الرذائل التي تركبها الشعراء، محافظا على المروءة والديانة، حتى ان صاحب شروان أراد رجلا يستعمله في بعض اشغاله فقال له وزيره: ما لهذا الشغل مثل الخاقاني! فطلبه وعرض عليه، فأبّى وقال: إني لست من رجال هذا الشغل! فقال الوزير: الزمه به إلزاما! فحبسه على ذلك فبقي في الحبس أيّاما لم يقبل، فقال الملك للوزير: حبسته وما جاء منه شيء! فقال الوزير: ما عملت شيئاً، حبسته في دار خالية وحده وهو ما يريد إلا هذا، احبسه في حبس الجناة! فحبسه مع السراق والعيارين فيأتيه أحدهم يقول: على أي ذنب حُبست؟ ويأتيه الآخر يقول: انشدني قصيدة! فلما رأى شدّة الحال ومقاساة الاغيار يوما واحدا، بعث إلى الملك: إنى رضيت بكلّ ما أردت، كلّ شيء و لا هذا! فأخرجه و ولّاه ذلك الشغل.[1]

"Görkəmli müdrik Əfzələddin Xaqani oraya (Şirvana) aiddir. O, filosof-şair olub, fərqli nitq növü icad edib, şairlərin

[1] القزويني، زكرياء بن محمود. آثار البلاد وأخبار العباد. بيروت: دار الصادر، ١٣٨٠ هـ - ١٩٦٠ م. ص. ٦٠١

yol verdikləri nöqsanlara yol vermədən, əxlaqı və dini qoruyub saxlamaqla yaxşı yazmağı bacarıb, Şirvan hökmdarı bəzi işlərini həvalə etmək üçün adam axtarır. Vəziri ona "bu işdə Xaqanidən başqası ola bilməz" deyir. Hökmdar Xaqanini çağırıb bu işi ona təklif edir. Xaqani etiraz edərək deyir: "mən bu işi edə biləcək adam deyiləm". Vəzir deyir: "Bunu onun boynuna zorla qoyun!" Xaqani həbs edilir. Bir müddət həbsdə qalsa da, dediyindən dönmür. Hökmdar vəzirinə deyir: "Onu həbs etdik, amma bundan bir şey çıxmadı". Vəziri "sən heç nə etməmisən, sadəcə onu boş otağa salmısan, o, bundan başqa heç nə istəyə bilməzdi. Onu cinayətkarların yanına saldır" – deyə cavab verir. Hökmdar Xaqanini oğrularla, avaralarla bir yerə saldırır. Onlardan biri Xaqanidən niyə həbs olunduğunu soruşur, digəri ona qəsidə yazmasını istəyir... Xaqani belə çətin vəziyyətə bir gün tab gətirə bilir. Xəbər göndərir ki, istədikləri hər şeyə razıdır, təki oradan çıxsın. Öz istəyinə nail olan hökmdar onu həbsdən azad etdirir və işi ona tapşırır".

Eyni rəvayət Sultan Mahmud Qəznəvinin (971–1030) "Şahnamə"ni yazmağı Əbulqasim Firdovsinin (940–1020) boynuna qoymaq üçün vəzirin məsləhəti ilə onu həbs etməsi ilə bağlı da söylənilir,[1]yəni rəvayətin həqiqəti nə dərəcədə əks etdirdiyini müəyyənləşdirmək çətindir. Amma xəlifənin Xaqaniyə dəbirlik təklifi, şairin isə bu işə könlü olmadığı faktı onun əsərlərində özünü göstərir. Məsələn, farsca yazdığı bir şeirində şair *Günəş* olmaq varkən, *dəbîr-i çarx, dəbîr-i fələk* kimi məşhur olan *Utarid* olmaq istəmir:

خليفه گويد: خاقانيا! دبيری كن — كه پايگاه ترا بر فلک گذارم سر.
دبيرم آری سحر آفرين گه انشا — وليک زحمت اين شغل را ندارم سر.
بد ستگاه دبيری مرا چه فخر كه من — بپايكاه وزيری فرو نيارم سر
چو أفتاب ضميرم عطاردی چه كنم — كلاه عاريتی را چرا سپارم سر[2]

[1] *Həbiboğlu, V*. Abbasqulu ağa Bakıxanov. Bakı: Gənclik, 1992, s. 146-147
[2] خاقاني شروانى. ديوان. بتصحيح عليّ عبد الرسولى، تهران، ١٣١٦، ص. ٦٣٨- ٦٣٩

Xəlifə deyir: ey Xaqani, gəl mənə katib ol,
Ki, sənin cəlalını göylərə qaldırım.
Düzdür ki, mən öz nəsrimlə xariqə yaradan bir katibəm,
Lakin mənim bu işə meylim yoxdur.
Katibliklə (dəbirliklə) mən necə fəxr edə biləcəyəm ki,
Mən vəzirlik dərəcəsinə də baş əymirəm.
Mənim könlüm bir Günəşdir, Ütarid olmaqla nə fəxr edə bilərəm?
Mən başımı burhovuz papağa tapşıra bilmərəm.
(başıma müvəqqəti papaq qoymaq istəmirəm).[1]

Xaqaninin həbsxanada çətin günlər keçirdiyi dəqiq məlumdur. Onun II Mənuçehrin, yoxsa I Axsitanın hakimiyyəti illərində həbs olunması ilə bağlı fikirlər üst-üstə düşmür. Bəzi mənbələrə görə, o, iki dəfə – birinci dəfə II Mənuçehrin, ikinci dəfə isə I Axsitanın dövründə həbs edilib.

(**Qeyd:** Xaqaninin yaradıcılığı, əsasən, şirvanşah II Mənuçehr (530–555/1136–1160) və I Axsitan (555–593/1160–1196) dövrü ilə bağlıdır. Xaqaninin mədh etdiyi Mənuçehr Şirvanın tarixindən bəhs olunan mənbələrin bəzilərində III Mənuçehr, bəzilərində isə II Mənuçehr kimi qeyd edilmişdir. Monoqrafiyada müxtəlif mənbələr nəzərə alınmış və *II Mənuçehr* variantına üstünlük verilmişdir. Eyni hal hökmdarların, şairlərin doğum, hakimiyyət, vəfat tarixləri ilə də bağlı ola bilər.)

Saraydan uzaqlaşma çabaları nəticəsiz qalan Xaqani çarəni Şirvandan uzaqlaşmaqda, yəni səyahətlərdə görmüşdür. Orta əsrlərdə "Elm Çində də olsa, ardınca get" kimi dini buyuruğa sözün əsl mənasında əməl olunurdu. Buna görə də həmin dövrdə uzaq səyahətlərə meyl çox böyük idi.

Xəlil Yusifli (1935–2022) səyahətlərə olan marağı belə açıqlamışdır: *"Şərqdə səyahət etmək kamilliyin əlamətlərindən*

[1] *Darabadi, Q.* Xaqani Şirvani əsərlərinin sətri tərcüməsi. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun arxivi, inv. № 634, vərəq 53

biri sayılırdı. İnsanın səyahətlərdə püxtələşdiyi qeyd edilirdi".[1] Məsələn, Xətib Təbrizi filologiya ilə bağlı bəzi suallarına cavab tapmaq üçün piyada Təbrizdən Mə'arra şəhərinə yollanmışdır.[2]

Səyahətlərə böyük meyl göstərən Xaqani "İki İraqın töhfəsi" əsərinin dibaçəsində yazırdı: "*...Mən Şərvan məhbəsində idim. Birdən ilahi səs mənə dedi: "Əgər yüksəlmək istəyirsənsə, ayaq götür, yola çıx ki, dövlətə zəhmətlə çatmaq olar..."*[3] Təbii ki, burada dövlət dedikdə o, elmi, biliyi; zəhmət dedikdə isə öz dövründə səfər etməyin ağır, çətin olmasını nəzərdə tutmuşdur. Məhz həmin əsərdə Xaqani səfər zamanı biliyin birə min artmasına, savadlı adamlara qalib gəlməyin çətin olduğuna işarə etmiş və səyahətin böyük insanlara bəzək olduğunu qeyd etmişdir.

Şair hökmdardan izin alaraq səyahətə çıxmış, Şərqin bir sıra məmləkətlərini gəzmişdir. Etdiyi səfərlər onun dünyagörüşündə, elminin artmasında böyük rol oynamış, həm şəxsiyyət kimi formalaşmasına, həm də əsərlərinin mövzu cəhətdən zənginləşməsinə səbəb olmuşdur. O, ərəb dili biliklərini də səyahətlər zamanı təkmilləşdirmiş və bu dildə əsərlər yaratmışdır.

Şair əsərlərində gəzdiyi ölkələrdən geniş bəhs etsə də, yaradıcılığı üçün vətən, yurd sevgisi daha xarakterikdir. Avropa oxucusunu ilk dəfə Xaqani yaradıcılığı ilə tanış edən avstriyalı şərqşünas Hammer-Purqştal (1774–1856) onu qədim Yunanıstanın ən görkəmli lirik şairləri sırasına daxil olan Pindarla müqayisə etmiş və onu "Şərqin Pindarı" adlandırmışdır.[4] Ukraynalı şərqşünas Aqafanqel Yefimoviç Krımski (1871–1942) bu bənzətməni uğurlu hesab etməsə də, qədim ellin mədəniyyətinin təmsilçisi ilə farsdilli ədəbiyyatın görkəmli nümayəndəsi ara-

---

[1] *Yusifov, X.Y.* Şərqdə intibah və Nizami Gəncəvi. Bakı: Yazıçı, 1982, s. 17

[2] *Mahmudov, M*. Piyada... Təbrizdən Şama qədər. Bakı, 1982, s. 35

[3] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1987, s. 27

[4] *Khanykoff, N*. Memoire sur Khagani, Poete Persan du XII s. // Journal Asiatique, t IV. 1864, p. 197

sında bəzi oxşar cəhətlərin olması faktını inkar etməmiş və hər iki şairin vətənpərvər ruhda əsərlər yazdığını onlar arasındakı oxşar cəhətlərdən biri kimi qiymətləndirmişdir.[1]

Xaqani həyatının son illərini Təbrizdə keçirmiş, orada vəfat edərək "Maqbəratuş-şuəra"da ("Şairlər məzarlığı") dəfn olunmuşdur.

Xaqaninin sadə ailədən çıxması, ana babasının aşbaz, atasının dülgər olması ilə bağlı məlumatlar bəzi xırda detalları nəzərə almasaq, demək olar ki, bütün mənbələrdə üst-üstə düşür. Şairin əsərlərində öz ailəsindən danışmasını, onları əsərlərinin qəhrəmanı etməsini O. L. Vilçevski, Q. Kəndli-Herisçi, R. Hüseynov kimi alimlər yüksək qiymətləndirmiş, zəhmətkeş sadə insanların XII yüzillikdə real gerçək insan obrazları sırasına daxil edilməsini alqışlamışlar. Bunu *"Ədəbiyyatı həyatla daha sıx bağlamaqda tutarlı, üzülməz və yeni bir addım kimi"*[2] qələmə verən Q. Kəndli-Herisçiyə görə, *"Xaqani bu kimi şerlərində yaxınlarının – zəhmət adamlarının əmək, mənəviyyat və soyunu böyük bir sevgi ilə tərənnüm etmiş, yaxınlarının adlarını çəkməyi, soyunu alqışlamağı, onlardan yazmağı özü üçün bir başucalıq saymışdır"*.[3]

O. L. Vilçevski şairin zəhmətkeş təbəqəyə olan bağlılığını, sevgisini təsdiq etsə də, Xaqaninin əsil-nəcabətini şübhə altına almışdır. Karl Germanoviç Zalemana (1849–1916) istinad edərək, əvvəlcə əmisi Mirzə Kəfini onun faktiki atası hesab etmiş, daha sonra *isə "xristian qadının qeyri-qanuni oğlu, dülgərin ögey oğlu, əczaçının tələbəsi"*[4] kimi təqdim etmişdir. Alimə görə, şairin qanuni atası məlum olmamış, atalığı dülgər Əliyə hörmət etsə də, atasızlığını özünə bir alçaqlıq saymışdır.

---

[1] *Крымский, А. Е*. Низами и его современники. Баку: Элм, 1981, с. 393

[2] *Kəndli-Herisçi, Q*. Xaqani Şirvani. Bakı, 1988, s. 115

[3] *Kəndli-Herisçi, Q*. Xaqani Şirvani. Bakı, 1988, s.116

[4] *Вильчевский, О. Л*. Хакани. Советское Востоковедение, 1957. № 4, с. 75

Şairin öz əsərlərində həmin məlumatı təsdiqləyəcək fikirlər öz əksini tapmasa da, Jan Rypka (1886–1968) bu ehtimalla razılaşmışdır.[1]

Əsərlərində anasını, əmisini, əmisi oğlunu, babasını mədh edən şair, atasının sərtliyindən, anasını incitməsindən, ailəsini tərk etməsindən də bəhs etmişdir. Belə məlumat ehtiva edən beytlər, təbii ki, bu günün şərtləri daxilində yox, Xaqani dövrü çərçivəsində qiymətləndirilməlidir. Çünki şairin dövrü elə bir dövrdür ki, təhsil almaq çətin idi. Oğlan uşaqları ailədə, əsasən, ata-babalarının sənətini davam etdirirdilər. Xaqaninin babası, atası sənətkar olsalar da, şair söz mülkündə sənət əsərləri yaratmağa üstünlük vermişdir. Bu barədə M. İbrahimovun fikirləri maraqlıdır: *"Xaqaninin dülgər atası Əli onun şair olmasına razı deyildi; çox istəyirdi ki, oğlu "faydalı", çörək çıxaran bir peşə sahibi olsun. Şərq aləmində ta qədim zamandan dərzilik, dülgərlik, dəmirçilik, hətta alış-veriş (ticarət) "halal kəsb" hesab olunduğundan, dülgər Əli də oğlunun belə bir peşəyə, əlbəttə, birinci növbədə dülgərlik peşəsinə yiyələnməsini istəyirdi. Görünür, oğlunun dülgərlik peşəsinə meyl göstərməməsi və ailənin maddi çətinlikləri Əli kişini acıqlandırır, bəzən dözümsüz, səbirsiz olmağa vadar edirdi. Bu səbəbdən o, oğlu ilə sərt rəftar etməyə də məcbur olmuşdur".*[2]

Bu da Şərq mühiti üçün xarakterik bir hal idi. Məsələn, yeddi əsr sonra Xaqaninin öz həmyerlisi Mirzə Ələkbər Sabir ata sənətinə – baqqallığa yiyə çıxmadığına görə atası ilə üz-göz olmuş və atasından maraq göstərdiyi dəftər-qələmə görə şapalaq almışdı. Xaqani–Nəccar Əli münasibəti də məhz bu adət-ənənələr çərçivəsində izah olunmalıdır.

---

[1] *Рипка, Ян.* История персидской и таджикской литературы. Перевод с чешского. Москва: Прогресс, 1970, с. 200

[2] *Xaqani Şirvani.* Seçilmiş əsərləri. Bakı, 1987, s. 7

Şairin əmisinin dövrünün tanınmış ziyalılarından olduğunu nəzərə alaraq belə ehtimal etmək olar ki, kiçik İbrahim təhsilə can atdığı üçün əmisinə atasından daha çox meyl göstərmiş, bu da ata-oğul arasında soyuqluğu artırmışdır. Atası ilə soyuq münasibət şairin həm də anasına bağlanmasına səbəb olmuşdur. Xaqani anasını Muhəmməd peyğəmbərin ﷺ qızı Zəhra ilə müqayisə etmiş, özünün ona olan məhəbbətini həm Peyğəmbər, həm də ana sevgisi ilə tarixdə iz buraxmış Uveys əl-Qaraninin (28–37/594–657) məhəbbətinə bənzətmişdir.

Xaqaninin əsərlərində hörmətlə adı çəkilən qadınlardan biri də IX əsrdə yaşamış, təmizlik, paklıq, xeyirxahlıq rəmzi kimi şöhrət tapmış ərəb sufi şairəsi Rabiə əl-Ədəviyyədir (100–180/717–796). Şair anasını ikinci Rabiə kimi qələmə vermişdir. Bu, bəlkə də hər iki qadının köləlik həyatı yaşaması ilə bağlı olmuşdur.

Deməli, Xaqaninin bir şəxsiyyət kimi formalaşmasına təsir göstərən ilk amil onun ailəsi olmuşdur. Müdrik anasından mənəvi keyfiyyətlər əxz edən şair, ziyalı əmisi, əmisi oğlu sayəsində elmə, təhsilə vaqif olmuşdur.

Xaqaninin əsərlərinin mövzusu, eləcə də nüfuz dairəsi yalnız doğma yurdu Azərbaycanla məhdudlaşmır. Burada Yaxın və Orta Şərq mədəniyyətinə məxsus cəhətlər də geniş şəkildə öz əksini tapmışdır. Buna görə də, şairin şəxsiyyəti və irsi Qafqaz, eləcə də Yaxın və Orta Şərq mühiti çərçivəsində araşdırılmalıdır. Bu gün Azərbaycanda multikulturalizmin, tolerantlığın kökünün Xaqani, Nizami və digər klassiklərimizin əsərlərində axtarılması təsadüfi deyil.

Multikulturalizm sözünün hərfi tərcüməsi "çoxlu mədəniyyət" deməkdir və müxtəlif mədəniyyətlərə xas cəhətləri özündə əks etdirən bu terminə verilən izahlardan biri ədəbi əlaqələrlə

bağlıdır: *"Multikulturalizm – müxtəlif mədəniyyətlərin qarşılıqlı etimada əsaslanan dialoqudur"*.[1]

Multikulturalizmin yaranmasına təsir edən əsas amilin mədəniyyətlər arası əlaqə olduğunu nəzərə alsaq, Xaqaninin yaradıcılığı millətlər arası ədəbi əlaqələrin inkişafına öz təsirini göstərmişdir. *"Dahi sənətkarın yüksək poeziya dili ilə tərənnüm etdiyi azadlıq arzuları, insan ləyaqəti, mənalı ömür və başqa humanist düşüncələr Xaqanidən sonra davam və inkişaf etdirilərək, poetik ənənəyə çevrilmiş, Xosrov Dəhləvi, Cami, Nəvai, Füzuli və başqa qüdrətli söz ustaları ona nəzirə, cavab yazmaqla ehtiram və məhəbbətlərini bildirmişdir"*.[2]

Məsələn, şairin "Şiniyyə" qəsidəsinə nəzər salaq. Qəsidəni yüksək qiymətləndirən Y. E. Bertels onun Yaxın Şərq ədəbiyyatına göstərdiyi böyük təsiri xüsusi vurğulamışdır: "*Qəsidənin bəhrini və qafiyəsini saxlamaqla ən görkəmli şairlərin ona nəzirə yazmaq cəhdlərini qeyd etsək, bu qəsidənin Yaxın Şərq ədəbiyyatı üçün necə böyük əhəmiyyət daşıdığı anlaşılar"*.[3] Alim belə qənaətə gəlmişdir ki, Əmir Xosrov şairin hind-fars poeziyası, Nəvai və Cami Teymurilər dövrü ilə əlaqəsini, Nəsimi və Füzuli isə Azərbaycan ədəbiyyatının İraq qoluna təsirini göstərir. Deməli, Xaqani yaradıcılığının geniş və hərtərəfli tədqiqi sayəsində monqollardan sonrakı dövrdə ən böyük ədəbi mərkəzlərin inkişaf istiqamətini müəyyənləşdirmək mümkündür.[4]

Xaqani yaradıcılığı ilə Şərq ədəbi mühiti arasındakı əlaqədən danışarkən şairin məşhur "Mədain xərabələri" qəsidəsini xatırlamamaq mümkün deyil. İkinci Məkkə səfərinin məhsulu

---

[1] *Həbibbəyli, İ. Ə.* Azərbaycan multikulturalizm yollarında // İdentiklik, multikulturalizm, dialoq fəlsəfəsi. Elmi məqalələr toplusu, I kitab. Bakı: Elm və təhsil, 2018, s. 6

[2] *Araslı, H.* Böyük Azərbaycan şairi Füzuli. Bakı: Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1958, s. 28

[3] *Бертельс, Е. Э.* Низами и Фузули. Москва, 1962, с. 63

[4] *Бертельс, Е. Э.* Низами и Фузули. Москва, 1962, с. 63

olan və *"çökən insanlıq kültürü ilə yıxılan mədəniyyət abidələrinə ağlayan, qüvvətcə, dünya ədəbiyyatında bərabəri olmayan bir şah əsər"*[1] kimi qiymətləndirilən "Mədain xərabələri" qəsidəsi şairin qəmgin notlara kökləndiyi düşündürücü əsərləri sırasına daxildir.

O. L. Vilçevski Xaqaninin əsərlərinin İranda mütəmadi nəşrini, İran ədəbiyyatşünas alimlərinin bu sahədə apardıqları irimiqyaslı işləri alqışlasa da, həmin nəşrlərdəki əsərlərin mətninin etibarlılığını şübhə altına almış, şairin fikirlərini təhrif etmək üçün orada məqsədli şəkildə səhvlərə yol verildiyi iddiası ilə çıxış etmişdir.[2] Alimə görə, Xaqaninin İsa peyğəmbərin (s.) adının Muhəmməd peyğəmbərin ﷺ adından daha çox çəkildiyi, türk epos qəhrəmanlarının və sərkərdələrinin adına İran epik qəhrəmanlarının adından daha çox rast gəlindiyi əsərlərində bəzi sözlərin mənası qəsdən dəyişdirilmişdir. Onun fikrincə, bunun nəticəsində şairin "Mədain xərabələri" qəsidəsi bu gün İran adət-ənənələrinə yas tutan vətənpərvərlik ruhunda yazılmış əsər kimi təqdim olunur.

O. L. Vilçevskinin öz iddiasında nə qədər haqlı və ya haqsız olduğunu deyə bilmək çətin olsa da, məsələ ilə bağlı Xaqani, Nizami, Qətran və digər şairləri İran ədəbiyyatının Azərbaycan məktəbinin nümayəndələri kimi təqdim edən, onların həyat və yaradıcılığı ilə bağlı qiymətli fikirlər söyləyən Jan Rypkanın mövqeyini bildirmək yerinə düşər; çex alimi O. L.Vilçevskinin bu sözlərinə haqq qazandırmamış və "Mədain xərabələri"nin farsların vətənpərvərlik ruhunu əks etdirməsi fikrini dəstəkləməmişdir: *"Xaqaninin qəsidəsinin hər hansı vətənpərvərlik hisslərinin, eləcə də qədim İran ideallarının əksi olması barədə*

[1] *Resulzadə, M. E*. Şirvanlı Hakani // Ankara: Azerbaycan Yurt Bilgisi dergisi, 1954, şubat. C. 4, sayı 37, s. 19

[2] *Вильчевский, О. Л*. Иранские публикации произведений Хагани (поэт XII в.) // Народы Азии и Африки, 1964. №3, с. 163

söz belə gedə bilməz, bu, fələyin amansızlığından, dönüklüyündən bəhs edən adi şikayətdir".[1]

Xaqaninin bu əsəri yazarkən, ənənələrə qayıdış dövrü ədəbiyyatının görkəmli nümayəndəsi olan Əbu Ubadə əl-Valid ibn Yəhya əl-Buhturinin (204–280/821–897) eyni mövzuda olan "Siniyyə" (şeirin qafiyəsini təşkil edən sözlərin son hərfi *sin* olduğuna görə belə adlanır) qəsidəsindən bəhrələndiyi istisna edilmir.[2]

Abbasi xəlifəsi əl-Mutəvakkilin yaxın saray şairi olan və yaradıcılığında poetik ənənələrə, klassik üsluba önəm verən əl-Buhturi xəlifə əl-Mutəvakkil və vəziri əl-Fəth bin Xaqanın qətlindən çox təsirlənir. Kədər, qüssə dolu ürəyini boşaltmaq üçün saraydan çıxır. Bağdad ətrafında gəzişərkən Mədain şəhərinin xarabalıqlarına rast gəlir.

Xaqani də vətəni Şirvanda baş verən ədalətsizliklərə dözməyib, Şamaxını birdəfəlik tərk etmək qərarı ilə səfərə çıxır. Səfər əsnasında Bağdadın 35 km-də, Dəclə çayı yaxınlığındakı Mədain, yaxud Salman-Pak deyilən yerdə Sasanilərin məşhur Taqi-Kisra sarayının qalıqlarını görür və bir zamanlar öz ehtişamı, əzəməti ilə məşhur olan, bu gün isə xarabalıqdan ibarət saraya yas tutur.

Aralarında bir neçə yüzillik məsafəyə baxmayaraq, hər iki şairin müraciət etdiyi mövzunun mənbəyi eynidir: keçmişdə bütün dünyaya meydan oxuyan Sasanilərin əzəmətindən qalan xarabalıqlar və zəmanənin insanda yaratdığı daxili sarsıntı.

---

[1] *Рипка, Ян.* История персидской и таджикской литературы. Москва, 1970, с. 204; The Cambridge History of Iran. The Saljuq and Mongol Periods / ed. by J. A. Boyle. Cambridge: at the University Press, vol. 5. 1968, p. 573

[2] *Рипка, Ян.* История персидской и таджикской литературы. Москва, 1970, с. 204; Persian Literature / an introduction by Reuben Levy M. A. London: Oxford University Press, 1945, p. 573

Hər iki əsər ədəbiyyatçılar tərəfindən yüksək qiymətləndirilsə də, Xaqaninin əsəri daha nüfuzedici, daha ibrətamiz təsir bağışlayır. Bəlkə də bu, əl-Buhturinin bir şair kimi tanındıqdan sonra yazdığı mədhiyyələr hesabına topladığı sərvətdən, saraylarda dəbdəbəli həyat sürməsindən, Xaqaninin isə saraylara qarşı barışmaz mövqe tutmasından, üsyankar təbiətindən, zəmanə əhlindən yanıqlı olmasından qaynaqlanır. Amma məqsəd eynidir: gözlərini hakimiyyət, var-dövlət tutmuş hökmdarlara, əyanlara hər şey kimi hakimiyyətin də keçici olduğunu göstərmək və bu keçici an üçün bir-birləri ilə mübarizə aparmağın mənasız, yanlış olduğu fikrini aşılamaq, bəşər övladını Mədainin qalıqlarından ibrət almağa çağırmaq:

İbrətlə bax, ey könlüm, bu aləmə, gəl bir an,
Eyvani-Mədaini ayineyi-ibrət san.[1]

Əl-Buhturinin və Xaqaninin eyni mövzuda yazılan qəsidələri ərəb tədqiqatçılarının da diqqətini cəlb etmişdir. Xaqani yaradıcılığını ərəb ədəbiyyatşünaslığında araşdıran Akif Əliyev, İmamverdi Həmidov kimi alimlər Muhammməd Ğuneymi Hilal, Huseyn Mucib əl-Mısri, Abdus-Sələm Abdul-Aziz Fəhmi kimi ərəb tədqiqatçılarının Xaqani yaradıcılığı ilə bağlı fikirlərini, eləcə də əl-Buhturi və Xaqani arasında aparılan müqayisələri öz tədqiqatlarında əhatəli şəkildə əks etdirmişlər.

Bu mövzuya ilk müraciət edən A. Əliyev Xaqaninin ərəb ədəbiyyatı ilə yaxından tanış olduğunu, əl-Mutənəbbi, əl-Buhturi, İbn əl-Mu'təzz, Əbu Nuvas və s. kimi şairlərin yaradıcılığına bələd olduğunu və öz əsərlərində onlara toxunduğunu qeyd etsə də, "Mədain xərabələri"nin əl-Buhturinin təsiri altında yazıldığı fikrini qəbul etməmiş, bu qəsidələri oxşar mövzuda ya-

[1] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1987, s. 361

zılmış fərqli qəsidələr kimi təqdim etmişdir.[1] Tədqiqatçı XIII əsr ərəb təzkirəçisi Yaqut əl-Həməvinin "Muʿcəmul-buldən" əsərində Kisra ilə bağlı verdiyi məlumata əsaslanmış və Xaqaninin əl-Buhturidən yox, məhz aşağıda göstərilən iki beytlik şeirdən təsirləndiyini iddia etmişdir:

واجتاز الملك العزيز جلال الدولة البويهي على إيوان كسرى فكتب عليه بخطه من شعره:

يا أيّها المغرور بالدنيا اعتبر
بديار كسرى، فهي معتبر الوَرَى
غَنِيَتْ زمانا بالملوك وأصْبَحَتْ
من بعد حادثة الزمان كما تَرَى[2].

"Buveyhilərin şahlarından Cəlalüddövlə əl-Buveyhi Mədaindən keçərkən gələcək nəslə ibrət dərsi olsun deyə xarabalığın divarına öz xətti ilə bu beytləri yazmışdır:

Ey dünyanın məğrur insanı!
Keçmişin ibrət (dərsi) olan Kəsra diyarından ibrət al,
Bir zamanlar şahlarla zəngin idi,
Zaman keçdi, gördüyün vəziyyətə düşdü".[3]

A. Əliyevin verdiyi əhəmiyyətli məlumatdan biri də, Xaqaniyədək Azərbaycan ədəbiyyatında həmin mövzuda XI əsr şairi Məsud bin Namdarın yazması ilə bağlıdır.[4]

Şərq ədəbiyyatında isə İvani-Kisra mövzusunun tarixi daha qədimdir və ona ilk dəfə hicrətin ikinci əsrində yaşamış Adəm bin Abdul-Aziz adlı ərəb şairi müraciət etmişdir.

---

[1] *Əliyev, A*. Ərəb ədəbiyyatşünaslığı və Xaqani yaradıcılığının bəzi məsələləri // Bakı: Azərb. SSR EA-nın Xəbərləri. Ədəbiyyat, dil və incəsənət seriyası, 1983. №3, s. 50

[2] الحموی، یاقوت. معجم البلدان. في خمسة مجلدات. المجلد الاول. بیروت: دار الصادر، ١٩٧٧، ص. ٢٩٧

[3] *Əliyev, A*. Xəbərlər, 1983. № 3, s. 48-49

[4] *Əliyev, A*. Xəbərlər, 1983. № 3, s. 48

Tədqiqatçı Mustafa əş-Şək‘a bunu poeziyada yenilik adlandırmışdır: *“Ondan əvvəlki və sonrakı bəzi şairlər kimi obanın qalıqları, izləri qarşısında deyil, silinməkdə olan abidələrin qarşısında dayanmaq – bu, ondan əvvəl heç kimin toxunmadığı poeziya mövzusudur”*.[1] Şair beş beytdən ibarət şeirində əldə şərab qədəhi keçmiş əzəmətə belə yas tutmuşdur:

شربت على تذّكر عيْش كسرى شرابا لونه كالزعفران
ورحتُ كأنني كسرى إذا ما علاه التاج يوم المهرجان[2].

Kisra ilə bağlı xatirələrə içirəm, elə bir şərab ki, rəngi zəfəran kimidir,

Getdim, sanki mən də Mihracən günündə başında tac olan Kisrayam.

Mustafa Şək‘a daha dəqiq nəticə əldə etmək üçün bu mövzuda, yəni dövlətlərə yas tutub ağlamaq mövzusunda yazmış daha iki şairdən – Əbul-Abbas əl-Əmadan və Əbu Adiyy əl-Abliyyudan bəhs etmiş və göstərmişdir ki, əl-Abliyyu bu mövzuda iki qəsidə – *siniyyə* və *həmziyyə* yazmışdır. O, həmin qəsidələri ərəb poeziyasında dövlətlərə yazılan ilk mərsiyələr kimi qiymətləndirmiş və əl-Buhturinin əl-Əmadan təsirləndiyini göstərmişdir.[3]

Əbul-Abbas əl-Əma əslən Azərbaycandan olan məvali şairdir. Həyatı haqqında məlumat çox azdır. İbn Quteybə, əl-İsfəhani bu şair haqqında bəzi məlumat təqdim etmişlər. O, Əməvi şairi olmuş və ömrünün sonuna kimi də onlara sadiq qalmışdır. Əbul-Abbas əl-Əmanın həyat və yaradıcılığını araşdıran M. Mahmudov şairlə Əməvilər arasındakı münasibəti belə izah etmişdir: “*Əbul-Abbas əl-Əmanın Əməvilərlə yaxınlığını şairin*

[1] الشكعة، مصطفى. ألشعر و الشعراء في العصر العبّاسي. بيروت: دار العلم للملايين، ١٩٨٩، ص. ٥٤
[2] الشكعة، مصطفى. ألشعر و الشعراء في العصر العبّاسي. بيروت، ١٩٨٩، ص. ٥٧
[3] الشكعة، مصطفى. ألشعر و الشعراء في العصر العبّاسي. بيروت، ١٩٨٩، ص. ٥٦

yalnız maddi marağı ilə izah edənlər müəyyən mənada yanılırlar. Əbul-Abbas Bəni Umeyyənin sadiq tərəfdarı olmuş, hətta onlar hakimiyyətdən devrildikdən sonra da Əməvi xəlifələrini tərifləməkdən çəkinməmişdir. Şair Abbasi xəlifəsi əl-Mənsurun yanında belə öz himayəçilərinə göz yaşı axıtmaqla xəlifənin qəzəbinə düçar olmuş, səhraya qaçıb gizlənməklə ölümdən xilas ola bilmişdir".[1]

Şairin Əməvilərin süqutuna yazdığı "Siniyyə" mərsiyəsi dövlətlərə yas tutulan qəsidə janrına bir nümunədir:

ليت شعري أفاح رائحة المسك وما إن اخال بالخيف إنسي
حين غابت بنو أميّةَ عنه والبهاليل من بنى عبدِ شمس

Kaş biləydim ki, Bənu Umeyyə və Bəni Abd Şəmsdən olan qəhrəmanlar yox olandan sonra Xeyfdə insan nəfəsi duyularsa orada yenə müşk ətri yayılarmı?

Xeyf Mədinənin 129 km.də yerləşən bir ərazidir. Şair keçmişdə orada yaşayan böyük nəsillərin yoxluğuna yanır və Qureyş tayfasının qolları olan Umeyyə və Abd Şəms kimi nəsillərin yox olması ilə oranın əvvəlki gücünün, ehtişamının da itdiyini göstərir.

Əl-Buhturinin "Siniyyə"sinin bu qəsidə ilə eyni ruhda, eyni vəzn və qafiyədə yazıldığını göstərən Mustafa Şək'a əl-Buhturinin bilavasitə Əbul-Abbas əl-Əmadan təsirləndiyini qəti şəkildə bildirmişdir.[2]

Zənnimcə, qəsidələrin ravi hərfinin *sin* (س) olması təsadüfi deyil. Onların dövlətlərə risə olduğunu nəzərə alaraq, belə ehtimal etmək olar ki, bu hərflə *Yəsin* surəsinə işarə edilmişdir. قلب القرآن *Quranın qəlbi* hesab edilən, xüsusi mənəvi gücə və təsirə malik bu surə ilə bağlı belə bir hədis var: إقرؤوا على موتاكم يس *Ölülərinizə Yəsin oxuyun*.

[1] *Mahmudov, M*. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər. B., s. 69
[2] الشكعة، مصطفى. ألشعر و الشعراء في العصر العبّاسي. بيروت، ١٩٨٩، ص. ٥٦

Bu hədisə Əbu Davud, İbn Macə, Əhməd ibn Hanbəl tərəfindən toplanan hədis toplularında rast gəlinsə də, səhihlik dərəcəsinə görə bəzi ilahiyyat alimləri onu zəif hesab etmişlər, amma surənin məzmunu axirətlə bağlı olduğundan yas mərasimlərində onun oxunması *mustəhəb əməl* kimi dini ənənəyə çevrilmişdir.[1]

Xaqaninin "Mədain xərabələri"ni də öz məzmununa görə qədim dövlətlərə yazılan mərsiyə kimi qəbul etmək olar. Bu mövzu atlala – keçmiş obanın qalıqları qarşısında söylənilən nitqə bənzəsə də, onu dövlətlərə yazılan mərsiyə kimi təqdim etmək daha məntiqlidir. Əgər atlalda daha çox nostalji hisslər üstünlük təşkil edirsə, bu qəsidənin mövzusu daha nəsihətamiz və fəlsəfi məna ehtiva edir. Hökmdarları keçmişdən ibrət dərsi almağa çağırmaq hər iki qəsidədə əsas məqsəd kimi ön plana çəkilir.

Müxtəlif xalqlara mənsub şairlərin eyni mövzuya müraciət etməsi göstərir ki, şairlər arasında əsrlər boyu davam edən mövzu mübadiləsi fərqli mədəniyyətlərin bir-birinə qarşılıqlı təsirinə səbəb olmuşdur.

Multikulturalizm, digər tərəfdən, *"dinlərarası münasibətlərdə tolerantlıq nümunəsi göstərmək deməkdir"*.[2] Xaqani öz əsərlərində digər xalqlara məxsus ədəbi ənənələrdən, mövzulardan bəhrələndiyi kimi, müxtəlif peyğəmbərlərdən, fərqli dini ayinlərdən, dini rəvayətlərdən, adət-ənənələrdən söz açmış, müsəlman olduğunu qürur hissi ilə vurğulasa da, digər dinlərə də böyük hörmətlə yanaşmış və onlar haqqında geniş məlumata malik olmuşdur. Məhz bu cəhətinə görə, şairin yaradıcılığı Şərq alimləri ilə yanaşı, Qərb alimlərinin də diqqət mərkəzində olmuşdur. Bəs görəsən, XII əsr şairi müasir dövrümüzdə belə müxtəlif dinlərin, müxtəlif irqlərin, müxtəlif xalqların nüma-

[1] https://risaleizah.com/3-olulerinize-yasin-suresini-okuyun-hadisi.html
[2] *Həbibbəyli, İ. Ə.* Azərbaycan multikulturalizm yollarında. Bakı, 2018, s. 6

yəndələri arasında təbliğatına böyük ehtiyac duyulan bu tolerantlığı haradan əxz etmişdir?

O. L. Vilçevski Xaqaninin divanında xristian obraz və simvollarının İslam obraz və simvolları ilə həmahənglik təşkil etdiyini Xaqaninin yaşadığı coğrafi ərazi ilə əlaqələndirmişdir: "*Xaqaninin divanı ancaq mədəniyyətində Şərq və Qərb elementlərinin özünəməxsus şəkildə uyğunluq yaratdığı və sülh şəraitində islamla xristianlığın yanaşı yayıldığı Zaqafqaziyada meydana çıxa bilərdi*".[1]

Eyni fikrə Jan Rypkanın tədqiqatında da rast gəlinir: *"Belə bir divan ancaq bu iki dinin birgə intişar tapdığı Zaqafqaziyada yarana bilərdi"*.[2]

Xaqaninin İslam və xristian obraz və simvolikasından eyni dərəcədə bəhrələnməsi, hər iki dinə hörmətlə yanaşması, onlar haqqında geniş məlumata malik olması anasının sonralar İslamı qəbul etmiş nəsturi təriqətli xristian qızı olması ilə də əlaqələndirilmişdir.

Maraqlıdır ki, şair xristian dini ilə bağlı mətləblərə formal olaraq müraciət etməmişdir. Xristianlıqla bağlı olan beytlərdən belə məlum olur ki, Xaqani bu dinin əsaslarına dərindən bələd olmuşdur. Arəş Mətləbi bu cəhəti belə izah edir: *"... digər şairlərin əsərlərində xristianlığa dair məlumatlar müsəlman mənbələrinə əsaslanır. Xaqaninin xristian maarifi barədəki məlumatları isə Quranda və islam rəvayətlərində bu barədə verilən xəbərlərdən əlavə xristian mənbələrindən də sərçeşmə götürür"*.[3] Buna görə də, orta əsr Şərq poeziyasında dinlərarası simvolikanın ən parlaq nümunələri ilə bağlı məhz Xaqani yaradıcılığına müraciət edilmişdir. Bu əsərlərdə *Məsih* obrazını yalnız dini fiqur kimi deyil, həm də ruhani paklıq, ilahi hikmət rəmzi kimi təqdim edən şair xristian teologiyasına və Suryani mədəniyyətinə bələd olduğunu nümayiş etdirmişdir.

---

[1] *Вильчевский, О. Л.* Хакани. Советское Востоковедение, 1957. № 4, с. 66

[2] *Рипка, Ян.* История персидской и таджикской литературы. 1970, с. 200

[3] *Mətləbi, A*. Farsdilli poeziyada Azərbaycan üslubu. Tehran, 2013, s. 98

Bütün dinlər haqqında geniş məlumat sahibi olan şairin əsərlərində müxtəlif dini ənənələrə aid ortaq müqəddəs fiqurların adına tez-tez rast gəlinir. Belə beytləri anlayıb şərh etmək üçün fərqli dini mənbələrə müraciət edilməlidir. Məsələn, fiqh alimi Muhammməd Yəhyanın qətli ilə bağlı yazılan mərsiyədən götürülmüş beytə nəzər salaq:

يحيى اسمه فصار عيسى ميت الحسنات منه يحيى[1]

Adı Yəhya idi, özü İsa oldu, məhv olmuş yaxşı əməllər onunla yenidən həyat tapacaq.

Beyti açıqlamaq üçün qədim yəhudi, xristian və İslam mənbələrində Yəhya–İsa ilə bağlı cəhətlərə eyni dərəcədə diqqət edilməlidir.

Xaqani yaradıcılığının kiçik bir hissəsini təşkil edən ərəbdilli əsərlərində də eyni mövqedən çıxış etmişdir. Məsələn, aşağıdakı beytlərdə şair səhərin açılmasını təsvir edərkən xristian simvollarına müraciət etmiş və ulduzlu gecə səmasını Məsih süfrəsinə, səhərin gəlişi ilə ulduzların azalmasını süfrədən qalan qırıntılara, açılan səhəri isə rahibə bənzətmişdir:

كان الوثير على السماء منثّرا فأكنّ في كمّ الصباح المسفر
كحشاش مائدة المسيح نجومها وبدا الصباح كراهب متسجّر[2]

Sanki səmaya yumşaq bir örtük sərilmişdi; açılan səhər o örtüyü qoltuğuna yığdı.

Ulduzlar Məsih süfrəsindən qalan qırıntılar kimi (yığışdırıldı) və sübh ocaq tüstülədən bir rahib kimi göründü.

Ərəbcə yazdığı əsərlərdə Davud (s.), Hanzala bin Safvan (s.), Xıdr (s.), Nuh (s.), Suleyman (s.), İsa (s.), İdris (s.), Yusuf (s.), Musa (s.), Yuşa (s.), Adəm (s.), Harun (s.) kimi peyğəmbərlərin adlarına rast gəlinir. Şair Muhammməd ﷺ peyğəmbərin

[1] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران: نشر مرکز، ۱۳۷۵، ص. ۱۳۴۸

[2] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران ، ۱۳۷۵، ص. ۱۳۵۸

adını bir dəfə حبيب الله (Habibullah), iki dəfə isə النبيّ (ən-nəbiyyu) kimi xatırlamışdır. Şairin ərəbdilli mənzum irsində ən çox Xıdr (s.) və İsa (s.) peyğəmbərlərin adı çəkilib. Belə ki, bu peyğəmbərlərdən İsa (s.) peyğəmbərin adına 8 dəfə – 3 dəfə عيسى (İsa), 4 dəfə مسيح (Məsih), bir dəfə isə إبن مريم (Məryəmin oğlu) şəklində rast gəlinir. Xıdr (s.) peyğəmbər isə 7 dəfə xatırlanıb. Xaqani bu peyğəmbərlərin adlarını çəkməklə, oxucuya çatdırmaq istədiyi fikrə həm məzmunca, həm də formaca əlavə bir rəng qatmışdır.

Bəzən şairin əsərlərində İsa peyğəmbərin (s.) adının Muhammməd peyğəmbərin ﷺ adından daha çox çəkildiyi əsas tutularaq, şairin xristianlığa daha çox meyil göstərdiyi iddia olunur. Lakin bu iddialar əsassızdır. Çünki Xaqani müsəlman olduğunu və nə olursa-olsun öz dinindən dönməyəcəyini əsərlərində dəfələrlə qeyd etmişdir. Onun digər peyğəmbərlərin adlarını daha çox çəkməsi məsələsinə gəldikdə isə "əl-Qur'ənul-Kərim"də adı çəkilmiş 25 peyğəmbərdən Muhammməd peyğəmbərin ﷺ 4, İsa peyğəmbərin (s.) 25, İbrahim peyğəmbərin (s.) 69, Musa peyğəmbərin (s.) 136 dəfə zikr olunduğunu nəzərə alaraq deyə bilərik ki, ad çəkmə statistikasına görə fikir yürütmək düzgün deyil.

XAQANİ İRSİNİN TƏDQİQ VƏ NƏŞR TARİXİ. XAQANİ İLƏ BAĞLI MÜBAHİSƏLİ MƏSƏLƏLƏR

Xaqani Şirvaninin irsi uzun illərdir ki, həm Şərq, həm də Qərb tədqiqatçıları tərəfindən öyrənilməkdə davam edir. Şairin həyat və yaradıcılığı haqqında məlumata müxtəlif dillərdə rast gəlmək olar. Belə məlumatlar bəzən bir mənbədən digərinə ötürülərək, ümumi xarakter daşısa da, Xaqani yaradıcılığını müxtəlif aspektlərdən işıqlandıran fundamental tədqiqatların da sayı az deyil.

Nəzərə alaq ki, illər uzunu sovet rejiminin hökm sürdüyü, ateizmin təbliğ olunduğu Azərbaycanda klassik şairlərimizin əsərlərinə böyük ehtiyatla yanaşılmışdır. Həmin dövrdə milli dəyərlərdən, İslam dinindən, Qur'andan, hədislərdən, bu gün olduğu kimi, açıq-aydın danışmaq yasaq idi. Bu da klassik dövrü araşdıran alimlərə, tərcüməçilərə böyük çətinliklər yaratmışdır. Amma buna baxmayaraq, həmin dövrün ədəbiyyatşünasları klassiklərimizin əsərlərini böyük maraqla araşdırmış, əsərlərini dilimizə tərcümə etmişlər. Klassik ədəbiyyatımızın mürəkkəb şairi kimi xarakterizə olunan Xaqaninin də həyat və yaradıcılığı, əsərlərinin tərcüməsi Azərbaycan alimlərinin həmişə diqqət mərkəzində olmuşdur. Qeyd edək ki, Xaqani haqqında məlumata ancaq ədəbi tədqiqatlarda rast gəlinmir. Tarixi, fəlsəfi məsələlərə həsr olunmuş araşdırmalarda da Xaqaninin əsərlərinə müraciət olunmuşdur. Amma sırf Xaqanidən bəhs edən tədqiqatların sayı çox deyil.

Bu fəsildə Azərbaycan xaqanişünaslığının bu günkü vəziyyətinə iki istiqamətdə münasibət bildirilmişdir:

1) şairin həyat və yaradıcılığı ilə bağlı yazılan tədqiqat işlərinə görə;

2) şairin əsərlərinin tərcüməsinə və nəşrinə görə.

Hər iki istiqamət üzrə, əvvəlcə, şairin farsca yazdığı, daha sonra ərəbcə yazdığı əsərlərlə bağlı məlumat verilib.

Xaqani irsinin tədqiq tarixi

Fars dilində olan əsərlərin tədqiqi. Azərbaycan ədəbiyyatşünaslıq elmində şairin həyat və yaradıcılığı bir neçə namizədlik və 1 doktorluq dissertasiyasının mövzusu olmuş və onların nəticələri monoqrafiyalar şəklində çap olunmuşdur. Belə işlərdən biri xaqanişünaslıqda ilkin araşdırmalara, gözəl tərcümələrə imza atmış Məmmədağa Sultanovun adı ilə bağlıdır. Onun şairin 1937-ci ildə İran alimi Əli Abdur-Rasuli tərəfindən tərtib olunmuş divanı və müxtəlif əlyazmaları əsasında yazdığı namizədlik dissertasiyası 1947-ci ildə uğurla müdafiə edilmiş, 1954-cü ildə isə monoqrafiya şəklində nəşr olunmuşdur.[1] Bu tədqiqat şairin həyat və yaradıcılığı, sarayla əlaqəsi, dinə münasibəti, sənətkarlıq xüsusiyyətləri, nəsri, "Tuhfətul-İraqeyn" əsəri haqqında maraqlı məlumat, tarixi faktlar ehtiva edir. Monoqrafiyanın elmi dəyərini artıran cəhətlərdən biri də burada "Tuhfətul-İraqeyn"ə nəsrlə yazılmış müqəddimənin, ilk dəfə olaraq, ixtisarla tərcüməsinin yer almasıdır.

Tədqiqatda şairin ərəbcə yazdığı qəsidədən bir beyt (qəsidə 1, 67-ci beyt), Bağdada həsr olunmuş qitənin poetik tərcüməsi və Məlikul-Əʿzam Alə əd-Dinin mədh olunduğu qəsidənin müqəddiməsindən kiçik bir hissə[2] də öz əksini tapmışdır.

Xaqanişünaslıq üçün böyük əhəmiyyət daşıyan bu əsər keçən əsrin ortalarında yazılmasına baxmayaraq, hələ də öz aktuallığını qoruyub saxlayır. M. Sultanov sonralar da *"...olduqca mürəkkəb yaradıcılığa və özünəməxsus bədii ifadə tərzlərinə malik bir sənətkar"*[3] kimi xarakterizə etdiyi Xaqani yaradıcılığı ilə əlaqəsini kəsməmiş, şairin əsərlərinin dilimizə tərcümə olun-

[1] *Sultanov, M. S.* Xaqani Şirvani (həyatı və yaradıcılığı haqqında). Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1954, 115 s.
[2] *Sultanov, M. S.* Xaqani Şirvani. Bakı, 1954, s.57; 84-85; 87-88
[3] *Sultanov, M. S.* Xaqani Şirvani. Bakı, 1954, s.113

masında, “Seçilmiş əsərləri”nin tərtib olunmasında yaxından iştirak etmişdir.

Mürəkkəb və intellektual fikirlərinə görə filosof-şair kimi xarakterizə olunmuş Xaqaninin yaradıcılığını öyrənən tədqiqatçılar, yeri gəldikcə, onun əsərlərindəki fəlsəfi fikirlərə toxunmuşlar. Amma onun ictimai-siyasi fikirlərini və fəlsəfi dünyagörüşünü ilk dəfə Solmaz Rzaquluzadə geniş tədqiqata cəlb etmiş və apardığı araşdırmanın nəticəsi kimi 1962-ci ildə “Xaqani Şirvaninin ictimai-siyasi və fəlsəfi görüşləri”[1] adlı monoqrafiya çap etdirmişdir. S. Rzaquluzadə əvvəlcə şairin yaşadığı sosial-iqtisadi şəraiti və onun baxışlarının formalaşmasına təsir göstərən amilləri üzə çıxartmağa, daha sonra şairin yaradıcılığı əsasında onun ictimai-siyasi və fəlsəfi görüşlərinə aydınlıq gətirməyə çalışmışdır.

S. Rzaquluzadə öz monoqrafiyasında Xaqani Şirvaninin həyat və yaradıcılığının tədqiqi tarixinə də toxunmuş, bu məsələnin təzkirələrdə, eləcə də Azərbaycan, Rusiya və Avropa alimlərinin tədqiqatlarında necə əks olunduğundan müxtəsər şəkildə bəhs etmişdir. Tədqiqatçı şairin həyat və yaradıcılığının tədqiq tarixi, eləcə də yaşadığı dövrlə bağlı toxunduğu mənbələr, yürütdüyü maraqlı mülahizələrlə yadda qalsa da, qarşıya qoyulan əsas məqsəd arxa planda qalmışdır, yəni şairin ictimai-siyasi və fəlsəfi görüşləri, xüsusən də dinə münasibəti ümumi şəkildə izah edilmiş, didaktik məsələlərə daha çox yer verilmişdir. Tədqiqat işinin sovet rejimi dövründə – XX əsrin 60-cı illərində yazılması və mövzunun tam əhatə olunmaması şairin fəlsəfi dünyagörüşünün yenidən öyrənilməsini zəruri edir.

Hər iki monoqrafiyada sovet dövrünün ruhu özünü göstərir. Belə ki, tədqiqatçılar şairin saraydan uzaqlaşmağa can atma-

[1] *Рзакулизаде, С. Д.* Общественно-политические и философские взгляды Хагани Ширвани. Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1962, 113 с.

sını, hökmdarlara bel bağlamamasını, xalqın içində sadə həyat tərzinə üstünlük verdiyini qeyd edib, cəsarətlə dövrünün nöqsanlarını tənqid etməsindən bəhs etsələr də, əsərlərində hökmdarlara verdiyi nəsihətləri şairin dünyagörüşünün məhdudluğu ilə izah etmişlər. M. Sultanova görə, *"... hökmdarlara müraciətlə, moizə və nəsihət ruhunda yazılmış bu kimi şeirlər Xaqani dünyagörüşünün tarixən şərtlənən məhdudluqlarından biridir. Şair öz dövrünün oğlu olaraq, nəsihət yolu ilə zalım hökmdarları islah etməyin mümkün olduğunu qeyd edirdi".*[1]

S. Rzaquluzadə məsələyə daha dərindən yanaşmış və Xaqaninin "ədalətli hökmdar xəyalı"nın real olmadığını dərk etdikdə, xalqa zülm edənlərin əvvəl-axır öz cəzalarını çəkəcəyinə inandığını göstərmişdir.[2]

Adı çəkilən tədqiqatda şairin ərəbdilli irsindən iki beytə (qəsidə 1, 55 və 60-cı beytlər) və Məlikul-Əʿzam Alə əd-Dinin mədh olunduğu qəsidənin müqəddiməsindən M. Sultanovun da toxunduğu eyni cümləyə rast gəlinir.[3]

1978-ci ildə nəşr olunmuş Rasimə Məlikovanın "XIX əsr rus şərqşünaslığı və Xaqani Şirvani" adlı tədqiqatında[4] şairin həyat və yaradıcılığından ilk bəhs edən xarici mənbələr işıqlandırılmışdır.

R. Məlikova əvvəlcə XIX əsr rus şərqşünaslığında Şərq mənbələrinə olan xüsusi maraqdan bəhs etmiş, bu marağın səbəblərini açıqlamış, rus tarixşünaslığının və şərqşünaslığının böyük diqqət yetirdiyi tədqiqat obyektlərindən birinin XII əsr Azərbaycan ədəbiyyatı olduğunu göstərmiş, Xaqani ilə bağlı deyilən ilkin fikirləri qeyd etmişdir.

---

[1] *Sultanov, M. S.* Xaqani Şirvani. Bakı, 1954, s.38

[2] *Рзакулизаде, С. Д.* Общественно-политические и философские взгляды Хагани Ширвани. Баку, 1962, с. 55

[3] *Рзакулизаде, С. Д.* Общественно-политические и философские взгляды Хагани Ширвани. Баку, 1962, с. 59; 80; 87

[4] *Məlikova, R.* XIX əsr rus şərqşünaslığı və Xaqani Şirvani. Bakı: Elm, 1978, 79 s.

Bu tədqiqat sayəsində artıq unudulmaqda olan köhnə mənbələrdə Şərqə aid qiymətli faktlar ön plana çəkilmiş, Rusiyada şərqşünaslığın inkişafında, eləcə də şərqşünas alimlərin yetişdirilməsində Mirzə Cəfər Topçubaşov (1790–1869), Mirzə Kazım bəy (1802–1870), Mirzə Məhəmməd Şəfi, Əbdül Səttar Kazım bəy (Mirzə Kazım bəyin qardaşı) kimi azərbaycanlı alimlərin böyük rolundan bəhs edilmiş, onlar haqqında məlumat verilmişdir.

Xaqaninin həyat və yaradıcılığını ilk dəfə ciddi tədqiqata cəlb edənin rus coğrafiyaçısı və etnoqrafı Nikolay Vladimiroviç Xanıkov (1819–1878) olduğu[1] nəzərə alınaraq, tədqiqatda Xanıkovun Xaqani ilə bağlı fikirlərinə geniş yer verilmişdir. Xanıkova qədərki tədqiqatçıların Xaqaninin həyatından danışarkən ancaq Şərq mənbələrinə əsaslandıqlarını, Xanıkovun isə şairin öz əsərlərinə istinad edərək Xaqaninin elmi tərcümeyi-halını yazmaq yolunda ilk addımı atdığını qeyd edən müəllif həmin tərcümeyi-haldakı nöqsanlardan da ətraflı şəkildə bəhs etmişdir.

R. Məlikova, Xanıkovla yanaşı, Karl Zaleman, Boris Andreyeviç Dorn (1805–1881) kimi alimlərin də Xaqani haqqında yazdıqları əsərlərə toxunmuş və rus alimlərinin bu qəbil tədqiqatları sayəsində Xaqani irsinin rus elminə həm də tarixi mənbə kimi təqdim edildiyi nəticəsinə gəlmişdir.

Tədqiqatın digər üstün cəhəti burada Xaqani yaradıcılığından edilən ilk tərcümələrin də işıqlandırılmasıdır.

Xaqaninin həyat və yaradıcılığından bəhs edən tədqiqatlardan biri də Həmid Araslının "Xaqani Şirvani" adlı əsəridir.[2] H. Araslı şairin həyatından, şəxsiyyətindən, zəngin bədii irsindən bəhs etmiş, ədəbiyyata gətirdiyi yenilikləri xüsusi olaraq vurğulamış və yenilikçi olduğu məsələləri belə göstərmişdir:

---

[1] *Məlikova, R.* XIX əsr rus şərqşünaslığı və Xaqani Şirvani. Bakı, 1978, s. 10; Рзакулизаде, С. Д. Общественно-политические и философские взгляды Хагани Ширвани. Баку, 1962, с. 11

[2] *Araslı, H*. Xaqani Şirvani. Bakı: Yazıçı, 1982, 62 s.

–"Nizami poemalarında daha yüksək səviyyəyə qaldırılan gənclik problemi ədəbiyyatımıza ilk dəfə Xaqani tərəfindən gətirilmişdir";[1]

–"Xaqani elmi istilahlardan – nücum, tarix, fiqh, fəlsəfə, tibb, musiqi, rəssamlıq və memarlığa aid ifadələrdən tez-tez istifadə edirdi. Onu da qeyd edək ki, şairin işlətdiyi istilahların hamısı ərəb dilində idi. Bu xüsusiyyət Xaqanini farsdilli şairlərdən fərqləndirməklə bərabər, həm də Yaxın Şərq ədəbiyyatında bir yenilik idi"; [2]

–"Xaqani həm də Məlikşah, Sultan Səncər, Qədirxan və başqa qüdrətli türk hökmdarlarının adını Ənuşirəvan, Dara, Cəmşid, Keyqubad kimi hökmdarların adları ilə birlikdə ədalətli şah simvolu kimi ilk dəfə olaraq ədəbiyyata gətirmişdir".[3]

Alim, haqlı olaraq, nəinki şairin yaradıcılığını, eyni zamanda təlatümlü həyatını da ondan sonra gələn şairlər üçün əzm, dəyanət dərsi öyrədən ibrət məktəbi hesab etmişdir.

Xaqaninin həyatı, dövrü və mühiti ilə bağlı ən geniş araşdırma, əvvəldə də qeyd olunduğu kimi, Qafar Kəndli-Herisçiyə məxsusdur. O, 1972-ci ildə yazdığı "Xaqani Şirvani (həyatı, dövrü və mühiti)" dissertasiyasında mövzunu böyük dəqiqliklə tədqiq etmiş və alimin gərgin əməyi sayəsində Xaqaninin həyatı ilə bağlı qaranlıq qalan bir sıra məsələlər aydınlığa qovuşmuşdur. Təbii ki, bunun üçün həm Xaqaninin yaradıcılığına, həm də şair haqqında məlumat verən mənbələrə dərindən bələd olmaq lazım idi.

1988-ci ildə həmin dissertasiya əsasında nəşr olunan eyni adlı monoqrafiya[4] bu gün də xaqanişünaslıqda ən geniş və ən qiymətli əsər hesab olunur. Nəinki Azərbaycanda, ölkəmizdən kənarda da populyarlıq qazanmış altı fəsildən ibarət kitabın ilk fəsli şairin adı,

---

[1] *Araslı, H*. Azərbaycan ədəbiyyatı: Tarixi və problemləri (Seçilmiş əsərləri). Bakı: Gənclik, 1998, s. 104

[2] *Araslı, H*. Azərbaycan ədəbiyyatı: Tarixi və problemləri. Bakı, 1998, s. 111

[3] *Araslı, H*. Azərbaycan ədəbiyyatı: Tarixi və problemləri. Bakı, 1998, s. 112

[4] *Kəndli-Herisçi, Q*. Xaqani Şirvani (həyatı, dövrü, mühiti). Bakı: Elm, 1988, 592s.

təxəllüsü, ləqəb və künyəsi, qövmi mənsubiyyəti və nəsli, doğulduğu yer, məzarı, doğum və ölüm tarixinə həsr olunub. Adı çəkilən məsələlərlə bağlı ən xırda detalı belə dərindən incələyən alim şairin həyatının sonrakı mərhələlərinə də eyni dəqiqliklə yanaşmışdır. "*...quru hökmlər, irəlicədən düzəldilmiş mülahizələr əsasında"*[1] əsər yazmaq istəməyən tədqiqatçı öz monoqrafiyasında, çox doğru olaraq, Xaqanini ilkin mənbə kimi öz əsərlərində arayıb-axtarmış, sonra şair haqqında yazılan mənbələrə müraciət etmişdir.

M. Sultanov, S. Rzaquluzadə kimi Q. Kəndli-Herisçi də öz tədqiqatında Xaqaninin fars dilində olan əsərləri ilə yanaşı, ərəb dilində yazdığı əsərlərə istinad etmişdir. Əvvəlki iki tədqiqatdan fərqli olaraq, burada ərəbcə əsərlərə istinad çoxdur; hətta onlardan bəzilərinin tərcüməsi də verilib. Lakin İ. Həmidov həmin sitatları tam etibarlı hesab etməmişdir: *"Xaqaninin elmi tərcümeyi-halını öyrənmiş Azərbaycan alimi prof. Q. Kəndli-Herisçi şairin Bağdad haqqında qəsidəsinə, Dərbənd hakimi Seyfəddin Arslan Müzəffərə, Yəhya ibn Məhəmmədə və Cəlaləddin Xariyə həsr etdiyi şeirlərə toxunsa da, eyni mövzuda fars dilində şairin yazdığı şeirlərə əsaslanmış, ərəbcə qəsidələrin məzmununu açmağa və sənətkarlıq baxımından onların qiymətləndirilməsinə girişməmişdir"*.[2]

Həqiqətən də, Q. Kəndli-Herisçi Xaqaninin ərəbdilli şeirləri haqqında fikir söyləyərkən, bəzən orada olmayan beytlərlə bağlı mülahizələr yürütmüşdür. Məsələn, alim yazır*:* "*Ərəbcə yazdığı şe'rlərindən birində Reydə ikən xəstələndiyindən, həkimin müalicəsindən danışarkən Məkkədə onu yaxşı müalicə etməmiş həkimi yada salır"*.[3] Burada, böyük ehtimalla, Xaqaninin *Xəstələndim Reydə mən* sözləri ilə başlayan qitəsi nəzərdə tutu-

[1] *Kəndli-Herisçi, Q*. Xaqani Şirvani. Bakı, 1988, s. 6

[2] *Xaqani Şirvani.* Ərəbcə şeirləri (filoloji tərcümə). Tərcümə, "Ön söz" və izahların müəllifi: İ. Həmidov. Bakı: Parlaq İmzalar, 2017, s. 6

[3] *Kəndli-Herisçi*, *Q*. Xaqani Şirvani. Bakı, 1988, s.471

lur. Qitənin orijinalında Məkkə ilə bağlı deyilən fikri təsdiqləyən beytə rast gəlinmir. Çox güman ki, o, İ. Həmidovun da qeyd etdiyi kimi, Xaqaninin eyni mövzuda farsca yazdığı əsərlərdən çıxış etmişdir ki, monoqrafiyanın müvafiq fəsillərində bu məsələyə konkret nümunələr əsasında münasibət bildirilmişdir.

Son dövrlərdə Xaqani irsinə müraciət edənlər arasında mərhum tədqiqatçımız Lalə Əlizadənin (1958–2019) adını xüsusi qeyd etmək lazımdır. Xaqani yaradıcılığı ilə bağlı silsilə məqalələr yazan L. Əlizadənin fəaliyyəti, təəssüflər olsun ki, vaxtsız vəfatına görə yarımçıq qaldı. Alimin ölümündən sonra işıq üzü görən monoqrafiyasında Xaqani ilə bağlı 6 maraqlı məqalə yer alıb.[1]

Klassiklərimizin irsi ilə bağlı görülən işlər arasında AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Yazıçıların həyatı və yaradıcılığının tədqiqinə yenidən qayıdış" ("Sənətkarın elmi pasportu") layihəsinin xüsusi yeri vardır. Geniş auditoriyaya ünvanlanmış bu layihə əsasında bir çox sənətkarlarımızın həyat və yaradıcılığına yeni baxış sərgilənərək geniş təhlilə cəlb edilmişdir. Həmin seriyada 9-cu olan "Xaqani Şirvani. Həyatı və yaradıcılığı" monoqrafiyasında[2] İ. Həbibbəyli, N. Araslı, İ. Həmidov, M. Qəmbərli, B. Şəfizadə, L. Əliyeva, K. Hacıyeva, N. Tağıyeva, E. Zeynalova kimi tədqiqatçılar tərəfindən Xaqaninin həyatı, yaradıcılığı, sənətkarlığı ilə bağlı aparılmış yeni araşdırmalar öz əksini tapmışdır. Hazırda K. Hacıyeva Xaqaninin farsca yazdığı əsərlərin filoloji tərcüməsi və tədqiqatı ilə bağlı fəaliyyətini davam etdirir.

Xaqanin həyat və yaradıcılığı xarici tədqiqatçılar tərəfindən də araşdırılmışdır. İran, Türkiyə, Rusiya, Özbəkistan, Taci-

[1] *Əlizadə, L*. Klassik Azərbaycan və Şərq ədəbiyyatına dair araşdırmalar. Bak: Elm və təhsil, 2021, s. 257-323

[2] *Xaqani Şirvani*. Həyatı və yaradıcılığı. "Sənətkarın elmi pasportu" seriyası-9. Bakı: Elm və təhsil, 2020, 396 s.

kistan və s. kimi ölkələrlə yanaşı, Avropada da onun əsərləri müxtəlif tədqiqatlara cəlb olunmuşdur.

Qərb şərqşünaslığında Xaqaninin adı ilk dəfə 1697-ci ildə Avropada klassik Şərq şairləri haqqında ilkin məlumat verən fransız tədqiqatçısı *Barthélemy d'Herbelot* (1625–1695) tərəfindən çəkilib.[1] Sonralar Xaqaninin həyat və yaradıcılığı digər Avropa təqdiqatçılarının da diqqətini cəlb etmiş və klassik farsdilli poeziyanın simvolik şairlərindən biri kimi, farsdilli klassik ədəbiyyatdan bəhs olunan əksər mənbələrdə onun yaradıcılığına müraciət edilmişdir. Əsərlərində xristian simvolikasının geniş inikası isə bu sahəyə marağı daha da artırmışdır.

Xaqaninin ümumi yaradıcılığı üçün xarakterik olan cəhətlərdən biri ərəb mühitinə, ərəb-islam mədəniyyətinə aid xüsusiyyətlərdir. Bu da ərəb ədəbiyyatşünaslarının diqqətini cəlb etmişdir. Ərəb tədqiqatçıları, İ. Həmidovun da qeyd etdiyi kimi, *"... o dövrdə Yaxın və Orta Şərqin mədəniyyət və elm mərkəzlərinə səfərlər etmiş, Məkkə ziyarətində olmuş, bir sıra hakimlərə, İraqa, Mədainə, Bağdada şerlər qoşmuş, ərəbcə bir çox qəsidə və qitələr yazmış Xaqaninin irsinə laqeyd qala bilməzdilər*".[2] Ğuneymi Hilal və Huseyn Mucib əl-Mısri kimi Misir alimləri bu sahədə daha geniş araşdırma aparmışlar. Onların fəaliyyəti İ. Həmidovun tədqiqatında işıqlandırılmışdır.[3]

Yeri gəlmişkən, qeyd edim ki, ərəb-islam mədəniyyətinə aid cəhətlərdən monoqrafiyanın müvafiq bölməsində bəhs

---

[1] *D'Herbelot, B*. Bibliotheque Orientale ou Dictionnaire Universel. Contenant Generalement. Tout ce qui fait connoître les peuples de l'Orient. Paris, Compagnie des libraires, 1697. Tome second, F – M. Pp. 415-416

[2] *Həmidov, İ.* Xaqani Şirvani ərəb ədəbiyyatşünaslarının tədqiqatında // Azərbaycan ədəbiyyatı klassikləri ərəb ədəbiyyatşünaslığında. Bakı: Elm, 2007, s. 7

[3] *Həmidov, İ.* Xaqani Şirvani ərəb ədəbiyyatşünaslarının tədqiqatında. Bakı, 2007, s. 7-85

edilsə də, mövzu çox genişdir və onun xüsusi bir tədqiqat işində araşdırılması daha məqsədəuyğun olardı.

Ərəb dilində olan əsərlərin tədqiqi. Qeyd olunduğu kimi, şairin fars dilində olan yaradıcılığı ilə müqayisədə onun ərəb dilində olan irsindən əlimizdə olan nümunələr çox azdır. Azərbaycanda son dövrlərə qədər, Xaqaninin ərəbcə yazdığı əsərlərlə bağlı tədqiqat işləri yox dərəcəsində olub. Nəinki Azərbaycanda, o cümlədən Türkiyədə, Rusiyada, Avropada şairin yaradıcılığının bu qoluna diqqət ayrılmayıb. Ancaq İranda bu sahə daha yaxşı inkişaf edib; Şiraz Universitetinin tədqiqatçısı Seyyid Fəzlullah Mirqadirinin h/ş 1386-cı ildə (2008) yazdığı "Ərəb şeirində Xaqani sənətkarlığı" [1] adlı məqaləsində Xaqaninin ərəbcə şeirlərinin mövzusu, keyfiyyəti ilə bağlı fikirlər söylənmişdir.

Ardınca h/ş 1389-cu (2011) ildə Urmiyada Əlirza Rzayi Həmzə Kindi və Vahid Rzayi Həmzə Kindi tərəfindən "Xaqaninin gizli günəşi"[2] adı altında çap edilmiş kitabda şairin ərəbcə şeirləri fars dilinə tərcümə edilərək şərh edilmişdir. Əsərin məhz Urmiyada – Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən birində işıq üzü görməsi, kitabın birinci fəslinin üç paraqrafının Azərbaycana həsr olunması ("Azərbaycanın tarixi", "İslamaqədər Azərbaycan", "Azərbaycan və İslam dini") onun üstün cəhətlərindəndir. Bir müqəddimə, üç fəsil, ədəbiyyat siyahısı və ad göstəricilərindən ibarət olan tədqiqatda şairin nəsri istisna olmaqla, mənzum əsərləri əhatə olunmuşdur. Şeirlər kitabda qəsidə və qitə şəklində deyil, aid olduğu mövzuya uyğun olaraq, yəni *Bağdadın mədhi, İraqın mədhi, Rey şəhərinin vəsfi* və s. kimi göstərilmiş, ayrı-ayrı kiçik şeir parçaları isə "Qısa şeirlər

[1] میرقادری، سید فضل الله. طبع آزمایی خاقانی در شعرعربی. مجموعه مقالات بر گزیده همایش خاقانی شناسی. جلد اول. دانشگاه اورمیه، خرداد ۱۳۸۴. ص. ۵۴۰ –۵۵۷

[2] علیرضا رضایی حمزه کندی؛ وحید رضایی حمزه کندی. آفتاب نهان خاقانی (شرح وترجمه اشعار عربی خاقانی). اورمیه: بوت نشر، ۱۳۸۹، ۲۰۴ ص.

və dubeytlər" şəklində təqdim olunmuşdur. Müraciət olunan əsər əvvəlcə orijinalda bütöv şəkildə yazılmış, daha sonra beyt-beyt tərcümə edilmiş və izahlar verilmişdir. Bu da tədqiqatın üstün cəhətlərindən olub, oxucuya tərcümə ilə orijinal arasında müqayisə aparmaq imkanı qazandırır. Amma müəlliflər Mir Cəlal əd-Din Kəzzazinin hazırladığı divanı əsas götürdüklərinə görə tərcümələrdə təhriflər müşahidə olunur. İran alimlərindən doktor Yusuf Asğari Bayqut və Mehdi Dehrami "Xaqaninin gizli günəşi" kitabının tənqidi"[1] adlı məqalədə bu tədqiqatla bağlı öz fikirlərini bildirmiş və çox doğru olaraq, həmin tərcümələri, beytlərə yazılan şərhləri zəif hesab etmişlər.

Məlum olduğu kimi, şairin hər iki dildə olan əsərlərində Bağdadla bağlı düşüncələri çoxdur. Şairin ərəbdilli yaradıcılığından Bağdad şəhərinə həsr olunmuş qəsidə h/ş 1393-cü (2015) ildə Hadi Dərzi Ramәndi və Nasir Çak Nejadyan tərəfindən tədqiqat işinə cəlb edilmiş və qəsidə 18 səhifəlik məqalədə[2] şərh edilmişdir.

Sadiqi Nəjad Ramin adlı tədqiqatçı isə şairin divanında məhz Bağdad şəhərinin necə əks olunmasından bəhs etmişdir.[3]

Xaqaninin ərəbcə əsərləri ilə bağlı ən dəyərli işlərdən biri İran tədqiqatçısı Yusuf Asğari Bayqutun adı ilə bağlıdır. Alim dörd əlyazma nüsxəsi və Əli Abdur-Rasuli və Ziya əd-Din Səccadi tərəfindən hazırlanan divanlar əsasında şairin ərəbdilli yaradıcılığının elmi-tənqidi mətnini hazırlamış və bu kitabı "Şeirlərin özəllikləri" (Xaqaninin ərəbcə şeirlərinin şərh və tərcümə-

---

[1] بایقوت، یوسف اصغری؛ دهرامی، مهدی. نقد کتاب "آفتاب نهان خاقانی" // نشریهٔ کتاب ماه ادبیات، ۱۳۹۰، شمارهٔ ۵۲، ص. ۵۹ – ۶۴

[2] رامندی، هادی درزی؛ نژادیان، ناصر چک. باز خوانی وتصحیح ابیاتی از قصیدهٔ بغدادیه خاقانی (بر مدار نسخ چاپی) // فصلنامه تخصصی سبک شناسی نظم و نثر ارسی (بهار ادب). سال هفتم - شماره دوم – تابستان ۱ ۳۹۳- شماره پیاپی ۲۴. ص. ۳۰۵ – ۳۲۲

[3] صادقی، نژاد رامین. بغداد در دیوان خاقانی شروانی // همایش پژوهش های زبان و ادبیات فارسی سال:۱۳۹۲. ص. ۱۱۴۸– ۱۱۵۸

lərin əlavəsi ilə tənqidi redaktəsi)" adı altında h/ş 1395-ci (2017) ildə çap etdirmişdir. İranın Kirman vilayətindən olan alim "*Xaqani VI əsr Azərbaycanın və Qafqazın ən böyük farsdilli şairidir*"[1] deyərək, şairin yaradıcılığı ilə bağlı maraqlı fikirlər söyləmişdir. Yusuf Asğari istifadə etdiyi əlyazma nüsxələri və divanlar haqqında kitabın müqəddiməsində məlumat vermişdir. Həmin məlumatdan belə aydın olur ki, tədqiqatçı London əlyazma nüsxəsini əsas götürən Səccadinin hazırladığı divanı daha etibarlı hesab etmiş, ərəbdilli əsərlərin hərəkələnməsinə və daha aydın tərtib olunmasına baxmayaraq, Kəzzazi tərəfindən hazırlanan divanda təhrif və səhvlərin çoxluğunu qeyd etmişdir.[2]

Zənnimcə, ərəbcə olan əsərlər, hər iki divanda təhrif və səhvlərdən xali deyil, Səccadi nəşrinin üstün cəhəti isə səhifələrin sonunda digər nüsxələrdəki fərqli yazılış variantlarının göstərilməsidir.

İranda Xaqani yaradıcılığı ilə bağlı son illərdə aparılan maraqlı araşdırmalardan biri də şairin ərəbcə nəsri – məktubları ilə bağlıdır. İran ədəbiyyatşünas alimi Muhammməd Rza Turki Dublindəki (İrlandiya) *Chester Beatty* kitabxanası və *Süleymaniye* (Türkiyə) kitabxanasına aid əlyazma nüsxələrində aşkar etdiyi ərəbcə yazılmış iki məktub barədə h/ş 1397-ci (2018) ildə yazdığı məqalədə[3] ümumi məlumat vermiş, h/ş 1398-ci (2019) ildə isə məktubların elmi-tənqidi mətni, tərcüməsi və təhlilindən

---

[1] بایقوت، یوسف اصغری. غرائب الاشعار (تصحیح انتقادی اشعار عربی خاقانی به انضمام شرح وترجمه). انتشارات دانشگاه جیرفت، ۱۳۹۵، ص. ۳

[2] بایقوت، یوسف اصغری. غرائب الاشعار. انتشارات دانشگاه جیرفت، ۱۳۹۵، ص. ۱۳–۱۴

[3] ترکی، محمد رضا. منشآت عربي خاقاني. ادب فارسي، سال، ۸ شماره ،۲ پاییز و زمستان ،۱۳۹۷، ص. ۱۹– ۳۸

ibarət kitab[1] nəşr etdirmişdir ki, bu məsələ şairin nəsrindən bəhs olunarkən ətraflı şəkildə işıqlandırılmışdır.

Şairin ərəbcə yazdığı əsərlər Düşənbədə (Tacikistan) "Ərəb ədəbiyyatının Xaqani Şirvaninin yaradıcılığına təsiri" adlı namizədlik dissertasiyasında təhlilə cəlb olunmuşdur. 2018-ci ildə müdafiə olunan bu tədqiqatda, mövzuya uyğun olaraq, ərəb dili və ədəbiyyatının şairin yaradıcılığına təsirindən geniş şəkildə bəhs olunmuş, ərəbcə olan əsərlərə üçüncü fəsildə toxunulmuş, onların tematik xüsusiyyətləri şairin farsdilli şeirləri ilə müqayisəli şəkildə öyrənilmişdir. Tədqiqatda Xaqani tacik şairi kimi qələmə verilsə də, şairin dövrü, müasirləri, eləcə də digər Azərbaycan şairləri – Fələki Şirvaninin, Mücirəddin Beyləqaninin (hər iki şairin yaradıcılığını Azərbaycanda Lalə Əlizadə tədqiq etmişdir) ərəbcə əsərləri haqqında maraqlı məlumat təqdim olunmuşdur.[2]

[1] ترکی، محمد رضا. غایت ابداع. منشآت عربي افضل الدین بدیل بن علی خاقاني شروانی. (مقدمه، تصحیح وتعلیقات). تهران، ۱۳۹۸

[2] *Шарифова, М*. Влияние арабской литературы на творчество Хакани Ширвани. Диссертация на соискание ученой степени кандидата филологических наук. Таджикский Националный Университет Кафедра арабской филологии. Душанбе, 2018, с. 32

Xaqaninin əsərlərinin Azərbaycanda tərcüməsi və nəşri

Fars dilində olan əsərlərin tərcüməsi və nəşri. Xaqani yaradıcılığı ilə bağlı aparılan işlərin ikinci tərəfi şairin əsərlərinin dilimizə tərcüməsi və nəşri ilə bağlıdır. Mənbələrə görə, klassik Şərq və klassik Azərbaycan şairlərinin irsinə münasibət XX əsrin 30-cu illərindən etibarən dəyişmiş və onların əsərləri tərcümə edilməyə başlamışdır.[1] Həmin dövrdə digər klassik şairlərimizlə yanaşı, Xaqaninin də əsərlərinin tərcüməsinə başlanmışdır. Bu iş dövlət tərəfindən şair, tərcüməçi İbrahim Tahir Musayev Qarabağiyə (1869–1943) tapşırılmışdır. Xaqaninin əsərlərinin bir hissəsi onun tərəfindən tərcümə edilsə də, nəşr olunmamışdır. Repressiya dövründə oğlunun güllələnməsindən sonra əsərlərinin bir hissəsini yandırsa da, arxivinin qalan hissəsi digər oğlu tərəfindən Respublika Əlyazmalar Fonduna (indiki AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu) təhvil verilmişdir. Bir müddət sonra əlyazmalarının əksər hissəsi Respublika Dövlət Ədəbiyyat və İncəsənət arxivinə verilmiş, bir qismi isə Əlyazmalar İnstitutunun arxivində saxlanmışdır.[2] Hər iki arxivdə onun Ömər Xəyyam, Xaqani Şirvani, Nizami Gəncəvi, Hafiz Şirazi, Əlişir Nəvai və s. klassiklərdən etdiyi tərcümələr saxlanılır.

Xaqanidən etdiyi tərcümələrin bir hissəsi "*Əlyazmalar İnstitutunda B-5158 şifrəsi altında mühafizə olunmaqdadır. Əlyazma mətni İbrahim Tahirin özü tərəfindən tünd-bənövşəyi mürəkkəblə nəstəliq xətti ilə 18 vərəqli enlicız məktəbli dəftərinə yazılmışdır. Əlyazma müasir üsulla səhifələnmişdir. Əlyazmanın əvvəlində "Xaqaninin farsi qəzəllərindən türkcəyə tərcüməsi.*

[1] *Kərimov, R.* İbrahim Tahir Qarabağı (Musayev). Əsərləri. Bakı: Elm və təhsil, 2012, s.7

[2] İbrahim Tahir. Əsərləri (mətni transfonoliterasiya edib, nəşrə hazırlayan və ön sözün müəllifləri: R. Kərimov, Ə. Məmmədbağıroğlu). Bakı: Elm və təhsil, 2012, s. 16

Mütərcimi Qarabağlı İbrahim Tahir Musayev" qeydi verilmişdir. Əlyazmada ümumilikdə 33 şeir yer almışdır".[1]

Mütərcimin Xaqanidən etdiyi tərcümələrin əsas hissəsi Respublika Dövlət Ədəbiyyat və İncəsənət arxivində (Fond 456, siyahı 1, saxlama vahidi № 27) saxlanılır. Tərcümələr əski əlifbada yazılmış 10 məktəbli dəftərindən ibarətdir. Avtoqraf şəklindədir. 165 vərəqdən ibarətdir. Dəftərlər nömrələnmişdir. İlkin baxış burada "Tuhfətul-İraqeyn" əsərindən müəyyən hissələrin, qəsidə, qəzəl və rübailərin tərcüməsinin olduğunu göstərdi. Amma təbii ki, geniş və dəqiq məlumat üçün həmin dəftərlər ətraflı şəkildə öyrənilməli, tərcümələr latın qrafikasına transfonoliterasiya edilməlidir. Çünki mütərcimin tərcümələri arxiv çərçivəsindən kənara çıxmamış və Xaqaninin əsərlərinin nəşri zamanı onlara müraciət olunmamışdır. Bu da, böyük ehtimalla, siyasi səbəblərlə bağlı olub.

Xaqaninin əsərlərinin nəşrinə gəlincə, onlar "Seçilmiş əsərləri" adı altında ölkəmizdə bir neçə dəfə çap olunub. İlk dəfə 1956-cı ildə Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı tərəfindən nəşr olunmuş kitabın tərtibçisi M. Sultanov, "Xaqani və yaradıcılığı" adlı ön sözün müəllifi H. Araslı, şərh və lüğət hissəsini hazırlayan Əkrəm Cəfər (1905–1991) olmuşdur. Bura "Tuhfətul-İraqeyn" poemasından parçalar, müxtəlif məzmunlu qəsidələr, qəzəllər, qitələr, rübailər daxildir. M. Sultanovun verdiyi məlumata görə, bu kitab Xaqani yaradıcılığından 4500 beyt ehtiva edir.[2]

İkinci nəşr "Azərnəşr" tərəfindən 1978-ci ildə *Azəroğlunun* redaktorluğu altında baş tutmuşdur. Tərtibçi adı göstərilməyib; ön söz yazılmayıb. İki kitabın nəşri arasında olan 22 il ərzində ölkəmizdə Xaqani yaradıcılığı ilə bağlı müəyyən işlər görülsə də, nəşrlər

---

[1] *Seyfullayeva,* T. Xaqani Şirvani şeirləri İbrahim Tahir Musayevin tərcümələrində // Seyid Əzim Şirvani-190. "Aləmdə səsim var mənim" mövzusunda Respublika elmi konfransının materialları. Şamaxı, 23 may 2025, s. 55

[2] *Xaqani Şirvani.* Seçilmiş əsərləri (tərtib edən: M. Sultanov). Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1956, s. 13

arasındakı fərq ancaq kitabın strukturu (əvvəlki kitab "Tuhfətul-İraqeyn" poeması ilə, yeni isə fəxriyyə və mədhiyyələrlə başlayır) və kiril əlifbasına edilən dəyişikliklərlə bağlıdır. Burada *ў, э, я* və s. kimi hərflər nəzərdə tutulur ki, 1955-58-ci illərdə aparılan uzun mübahisələr nəticəsində *я, ю, е (j+э)* hərflərinin Azərbaycan dilinə mənsub fonemlər olmadığı və Azərbaycan dilində yaratdığı çətinliklər nəzərə alınaraq əlifbadan çıxarılmış, müvafiq hərflərlə əvəz olunmuşdur.[1]

Üçüncü kitab "Yazıçı" nəşriyyatı tərəfindən 1987-ci ildə çapdan çıxıb. Tərtib edəni M. Sultanov, "Xaqaninin həyatı və estetik idealı" adlı geniş ön sözün müəllifi M. İbrahimov, şərhlər və lüğət hissəsini hazırlayan isə Ə. Cəfər və M. Sultanov olmuşdur. Tərtibçinin veridyi məlumata görə, əvvəlki nəşrlərdə olmayan bəzi əsərlərin tərcümələri bura daxil edilmişdir.[2] Kitaba edilən yeniliklər bununla bitmir; Xaqaninin nəsrindən – "Tuhfətul-İraqeyn" poemasına yazılmış dibaçənin ixtisarla tərcüməsi[3] və ərəbcə əsərləri ilə də bu kitabda tanış olmaq olar.

Şairin əvvəlki nəşrlərdə öz əksini tapmayan fasrdilli əsərlərinin, eləcə də filoloji tərcüməsi Zərdüşt Əlizadəyə, poetik tərcüməsi isə Məmməd Mübariz Əlizadəyə (1911–1994) məxsus ərəbdilli əsərlərinin tərcüməsinin kitabda geniş yer alması həmin dövrdə Xaqani yaradıcılığı ilə bağlı araşdırmaların aparılmasından xəbər verir. 647 səhifədən ibarət bu kitabda həm şairin əsərlərinin poetik tərcüməsində, həm çətin anlaşılan beytlərə yazılan şərhlərdə müəyyən nöqsanlara rast gəlinsə də, kitab öz əhəmiyyətini bu günə qədər qoruyub saxlamaqdadır.

Nəhayət, 17 ildən sonra, yəni 2004-cü ildə çap olunmuş "Seçilmiş əsərləri". Bu kitab heç bir dəyişiklik olmadan 1987-ci il nəş-

---

[1] Müasir Azərbaycan dili. 3 cilddə: I c. Bakı: Elm, 1978, s. 62

[2] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1987, s. 23

[3] Tərcümə ilk dəfə M. Sultanovun "Xaqani Şirvani (həyatı və yaradıcılığı haqqında)" monoqrafiyasında (s. 60-62) çap olunub.

rinin latın qrafikası ilə təkrar çapıdır. Xəlil Yusifli tərəfindən yazılan "Xaqani Şirvani və ədəbi irsi" adlı *Ön söz* də bunu təsdiq edir: "*Oxucular*a *təqdim olunan və qüdrətli şairin ölməz irsinin böyük bir hissəsini əhatə edən bu kitab Məmmədağa Sultanov tərəfindən tərtib edilən və 1985-ci ildə* (1987-ci il olmalıdır – E. Z.) *"Yazıçı" nəşriyyatında işıq üzü görən nəşri əsasında hazırlanmış, kitabda Əkrəm Cəfər və Məmmədağa Sultanovun yazdığı şərhlər də eynilə saxlanmışdır*".[1] Əslində isə kitabın müstəqillik dövründə yazıldığı nəzərə alınmalı, tərcümələrə diqqət edilməli, çətin anlaşılan beytlər yenidən şərh olunmalı idi. Amma, təəssüf ki, forma dəyişmiş, məzmun olduğu kimi qalmışdır.

Haqqında danışdığımız kitablar Xaqaninin əsərlərinin ən geniş yayılmış nəşrləridir. Şairin əsərləri Azərbaycan və rus dillərində müxtəlif illərdə "Ürək döyüntüləri", "Töhfətül-İraqeyn", «Лирика» və s. adlar altında da çap olunub. 20 cilddən ibarət "Azərbaycan klassik ədəbiyyatı kitabxanası"nın "VII–XII əsrlər Azərbaycan şe'ri" adlı II cildinə[2] digər klassik şairlərlə yanaşı, Xaqaninin də əsərləri daxil edilib və s. Amma əsərlərin tərcüməsi və beytlərin şərhi arasında ciddi fərq hiss olunmur.

Ərəb dilində olan əsərlərin tərcüməsi və nəşri. Xaqaninin ərəbcə yazdığı əsərlərdən bəziləri müxtəlif illərdə tərcümə edilərək, şairin Azərbaycan dilində nəşr olunmuş "Seçilmiş əsərləri"nə daxil edilsə də, tərcümənin hansı dildən edildiyi qeyd edilmədiyinə görə onları fars dilində yazılmış şeirlərdən ayırmaq çətindir. Bu da şairin ərəbcə olan yaradıcılığına ilk dəfə kimin müraciət etməsi haqqında fikir söyləməkdə çətinlik yaradır.

Xaqaninin divanını hazırlayan İran alimləri fars və ərəbcə olan əsərləri ayırıb xüsusi başlıqlar altında təqdim etmişlər. Zənnimcə,

---

[1] *Xaqani Şirvani.* Seçilmiş əsərləri (tərtib edən: M. Sultanov). Bakı: Lider, 2004, s. 20

[2] VII–XII əsrlər Azərbaycan şe'ri. Xaqani Şirvani // Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə, II c. Bakı: Elm, s. 118-312

şairin Azərbaycan dilində tərtib olunan "Seçilmiş əsərləri"ndə də ya bu prinsipə əməl olunmalı, yaxud əsərlərin hansı dildən tərcümə edildiyi göstərilməli idi.

1956-cı ildə çap olunan kitabda şairin ərəbcə əsərlərinin adı çəkilməsə də, araşdırma göstərdi ki, kitabın "Zəmanədən və zəmanə əhlindən şikayət" bölməsində poetik tərcüməsi İsmayıl Soltana aid *Ürək dərdinin izharı*[1] adı altında təqdim olunan qəsidənin və poetik tərcüməsi M. Soltana aid *Şirvanın tərifi*[2] adlı qitənin orijinalı ərəb dilindədir. Kitabda həmin əsərləri filoloji tərcümə edənin kimliyi göstərilməyib. Ümumi şəkildə qeyd olunub ki, sətri tərcümədə *Rəhim Sultanov, Pənahi Abbas Makulu və Darabadi Qulam yoldaşlar iştirak etmişlər*.[3] Bu məlumata əsaslanaraq, ərəbcə əsərləri dilimizə filoloji tərcümə edənin bu 3 şəxsdən biri olduğunu ehtimal edirdim. Monoqrafiyanın ilk nəşrindən bir il sonra, yəni 2025-ci ildə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun arxivində Xaqani əsərlərinin sətri tərcüməsindən ibarət bir qovluğa (inv. № 634) rast gəldim. Həmin qovluq sayəsində şairin ərəbcə əsərlərini ilk dəfə dilimizə sətri tərcümə edənin kimliyini dəqiq müəyyənləşdirmək mümkün oldu.

1957-ci ildə, yəni "Seçilmiş əsərləri"n nəşrindən bir il sonra arxivə təqdim olunmuş bu qovluqda Qulam Azəri oğlu Darabadinin (1900-?) Xaqaninin fars dilində yazdığı əsərlərdən və Muxtar Əfəndi kimi tanınan şərqşünas Muxtar Əfəndiyevin (1880–1975) ərəbcə yazdığı əsərlərdən etdikləri filoloji tərcümələr öz əksini tapıb.

Ərəbcədən edilən tərcümələr makinada çap olunmuş haldadır və həcmi çox deyil:

---

[1] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1956, s. 143-148

[2] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1956, s. 242

[3] *Sultanov, M.* Kitabın tərtibi haqqında bəzi qeydlər // Xaqani Şirvani. Seçilmiş əsərləri. Bakı, 1956, s. 14

– *Şirvanın tərifi* adı altında təqdim olunan qitə (kitabda da eyni ad altında verilib) – orijinalda əksər mənbələrdə 8 beytdən ibarətdir, burada 12 misranın (6 beytin) tərcüməsi var, son iki beyt tərcümə olunmayıb. Amma kitabda M. Soltan tərəfindən edilən poetik tərcümədə qitə tam şəkildədir.

– *Ürəkdə olan dərdi sual və cavab tə'riqi ilə izhar* kimi təqdim olunan əsərin yer aldığı vərəqin kənarında ərəb əlifbası ilə *İsmayıl Soltan* adı qeyd olunub. Kitabda da bu əsərin poetik tərcüməçisi İsmayıl Soltandır. Amma qəsidənin adı *Ürək dərdinin izharı* kimi qısaldılıb. Xaqaninin ən maraqlı əsərlərindən hesab olunan bu qəsidəyə əslində əksər mənbələrdə müxtəlif adlar altında rast gəlmək olar. Tərcüməçinin istifadə etdiyi Əli Abdur-Rasuli divanında (ilk beytin tərcüməsinə əsasən tərcüməçinin bu mənbədən istifadə etdiyini müəyyənləşdirmək çətin deyil) qəsidə adsız verilib. Onun tərcüməçi və tərtibçi tərəfindən müxtəlif şəkillərdə təqdimatı qəsidənin məzmunundan qaynaqlanır. (Xaqaninin ən maraqlı əsərlərindən biri hesab olunan bu qəsidə haqqında ətraflı məlumatla monoqrafiyanın müvafiq fəslində tanış olmaq olar.) 171 beytdən ibarət olan qəsidənin Əli Abdur-Rasuli divanında 168 beyti öz əksini tapıb, həm qovluqda, həm də kitabda isə 100 beytin (200 misranın) tərcüməsi verilib.

Ərəb dilindən tərcümə edilən toplam beyt sayı 106, yəni 212 misradır. Bu rəqəm qovluğun üzərində 220, içəridə isə 224 kimi göstərilib. Daha sonra qara karandaşla heç bir izah olmadan 212 rəqəmi də yazılıb. Misralar ümumi şəkildə nömrələnib. Qitə 12-ci misrada bitir, 13-cü misradan qəsidə başlayır, 212-də bitir. Deməli, toplam 212 misra, yəni 106 beyt tərcümə olunub (200 misra qəsidədən+12 misra qitədən=212 misra).

Fars dilindən edilən tərcümələr əllə yazılıb, hər vərəqin kənarına gah kiril, gah da ərəb əlifbası ilə *Darabadi* imzası qoyulub, əsərlərin hansı mənbədən tərcümə edildiyi göstərilməyib, ancaq 2 əsərin qarşısına *Bombey çapı* yazılıb, digər əsərlərin

orijinalının ilk beyti yazılıb. Həmin beytlərə əsasən, tərcümələrin Əli Abdur-Rasulinin tərtib etdiyi divandan edildiyi məlum olur.

Kitabın özündə də tərcümələrin hansı mənbədən edildiyi göstərilmədiyinə görə, bu qovluq sayəsində məlum oldu ki:

– Xaqani əsərlərinin ilk tərcüməçiləri iki mənbəyə – Bombey çapına və Tehranda nəşr olunmuş Əli Abdur-Rasulinin tərtib etdiyi divana əsaslanmışlar. M. Sultanov məhz bu divanı, bəzi nöqsanlarına baxmayaraq, həmin dövrdə mövcud Xaqani divanlarının ən mükəmməli hesab etmişdir.[1]

– Xaqaninin ərəbcə yazdığı əsərlərdən ilk nümunələr fars dilində olan əsərlərlə eyni vaxtda nəşr olunub. Onların ilk filoloji tərcüməçisi **Muxtar Əfəndi** olmuşdur.

Xaqani əsərlərinin 1978-ci il nəşrində hər iki əsər eyni adla saxlansa da,[2] 1987-ci nəşrində qitə olduğu kimi qalmış,[3] qəsidə isə "İmam Cəlaləddin əl-Xəvariyə"[4] adı altında yeni tərcümə (filoloji tərcümə: Zərdüşt Əlizadə, poetik tərcümə: Məmməd Mübariz Əlizadə) ilə əvəz olunmuşdur. Qəsidənin fərqli adla təqdim olunması tərcüməçilərin h/ş 1338 (1959/1960)-ci ildə Tehranda nəşr olunmuş Ziyaəddin Səccadinin tərtib etidiyi divandan istifadə etmələri ilə bağlıdır. Həmin divanda qəsidə tam şəkildə, yəni 171 beytdən ibarətdir və onlardan 153 beyt tərcümə edilərək kitaba daxil edilmişdir. 1987-ci il nəşrində, ilk dəfə olaraq, Z. Əlizadə və M. M. Əlizadə tərəfindən edilən daha 3 qəsidənin – "*Bağdadın tərifi*", "*Ey açılan sübh kimi...*", "*Budur, bir fars hicazlıyla yola çıxdı qol-qola*",[5] eləcə də bir çox qitənin tərcüməsi[6] öz əksini tapmışdır.

---

[1] *Sultanov, M. S*. Xaqani Şirvani. Bakı, 1954, s.13

[2] *Xaqani Şirvani.* Seçilmiş əsərləri (şərhlər: Ə. Cəfər). Bakı: Azərnəşr, 1978, s.115-121; s. 172

[3] *Xaqani Şirvani.* Seçilmiş əsərləri. Bakı, 1987, s. 364

[4] *Xaqani Şirvani.* Seçilmiş əsərləri. Bakı, 1987, s. 221-232

[5] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1987, s. 212-221

[6] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1987, s. 497-504

Xaqaninin ərəbcə əsərlərinin tərcüməsi sonralar İ. Həmidov tərəfindən davam etdirildi. Alimin etdiyi filoloji tərcümələrin bir hissəsi ilk dəfə 2004-cü ildə "Şərq" tərcümə toplusunda,[1] tam şəkildə isə "Xaqani Şirvani. Ərəbcə şeirləri. Filoloji tərcümə"[2] adı altında 2017-ci ildə çap edildi. İ. Həmidov kitaba yazdığı ön sözdə Xaqaninin ərəb dilində olan əsərlərinin Azərbaycan dilinə tərcüməsi ilə bağlı 1987 və 2004-cü il nəşrlərini nəzərdə tutaraq belə məlumat vermişdir: "*Bu nəşrlərdə tərcümə edilmiş ərəbcə şeirlər nisbətən çoxdur. Tərcümə klassik şeirin bilicisi şair təbiətli Məmməd Mübariz Əlizadəyə aiddir. Azərbaycan dilində oxuculara təqdim edilmiş ərəbcə şeirlər bunlardır: "İmam Cəlaləddin əl-Xəvariyə", "Bağdadın tərifi", "Xəstələndim Reydə mən...*".[3] Amma qeyd olunduğu kimi, həmin nəşrdə dörd qəsidənin və bir çox qitənin poetik tərcüməsi də yer alıb.

Yuxarıda haqqında bəhs olunan qəsidə, İ. Həmidov tərəfindən istifadə olunan Səccadi divanına uyğun olaraq, *Xacə İmam Cəlaləddin əl-Xarinin mədhinə yazılmış qəsidə*[4] kimi təqdim olunmuşdur. İran alimləri mətlələrlə yazılmış qəsidəni *birinci mətlə, ikinci mətlə* şəklində təqdim etsələr də, İ. Həmidov beytləri ümumi şəkildə nömrələməklə kifayətlənmişdir. Qəsidənin birinci mətləsinin 39-cu beytindən başlayaraq sıralanma düzgün getmədiyinə görə orijinalla tərcümə arasında uyğunsuzluq yaranmışdır. İkinci mətlədən isə bir beyt buraxıldığına görə, 171 beytlik qəsidə 170 beyt şəklində[5] göstərilmişdir. Kitabda, ilk dəfə, Xaqaninin ərəbcə irsinin (məktubları istisna) tərcüməsi tam şəkildə yer alsa da, tərcümə və şərhlərdə nöqsanlara, təhriflərə yol verilmişdir.

---

[1] *Həmidov, İ. Y*. Xaqani Şirvaninin ərəbcə şeirlərindən nümunələr // Bakı: Şərq. Tərcümə toplusu, 2004. №1, s. 70-84

[2] *Xaqani Şirvani.* Ərəbcə şeirləri. Bakı, 2017, 160 s.

[3] *Xaqani Şirvani*. Ərəbcə şeirləri. Bakı, 2017, s. 27

[4] *Xaqani Şirvani*. Ərəbcə şeirləri. Bakı, 2017, s. 29

[5] *Xaqani Şirvani*. Ərəbcə şeirləri. Bakı, 2017, s.11

Belə nöqsan və təhriflər Xaqaninin "Seçilmiş əsərləri"ndə də müşahidə olunur ki, monoqrafiyada onlara da toxunmağı vacib hesab edirəm.

Xaqani əsərlərinin tərcümə və şərh problemi

Şairin əsərlərinin rus dilində nəşrinə ön söz yazan Mixail Zand (1927–2018) üzünü oxuculara tutaraq demişdir: "*Xaqani çətin şairdir, sətirlərə göz gəzdirib ancaq üzdə olan mənanın aydınlığına və asan başa düşülməsinə sevinərək oxumağı sevən kəsin bu kitabı vərəqləməməsi daha məsləhətlidir*".[1]

Amma məsələ düşüncəli və diqqətli oxucu tələbi ilə bitmir. Xaqaninin əsərlərinin düzgün qavranılması üçün onlar, ilk növbədə, düzgün tərcümə edilməlidir. Düzgün tərcümənin yolu isə çox çətindir. Klassik əsərlərin poetik tərcüməsi, əsasən, iki mərhələdən keçir; əvvəlcə onlar əsərin yazıldığı dili bilən mütəxəssislər tərəfindən filoloji şəkildə tərcümə edilir, daha sonra isə poetik tərcümə üçün şairlərə verilir. Əgər filoloji tərcümə zəifdirsə, mənalar təhrif olunubsa, çətin beytlər ixtisar edilibsə, həmin əsəri heç bir güclü şair xilas edə bilməz. Burada M. Sultanovun sözləri ilə desək, "*Sətri tərcümə və ya ikinci dildə mövcud olan məna təhrifləri bədii tərcüməyə keçən zaman bu tərcüməni orijinalla müqayisə edib, mütərcimi tənqid etməyə heç kimin haqqı yoxdur*".[2]

Buna görə də, klassik ədəbiyyatda birbaşa fars dilindən edilən bədii tərcümələrə üstünlük verilir. Amma belə tərcümələr zamanı da həm forma, həm də məzmunu qoruyub saxlamaq çə-

---

[1] *Занд, М.* Вступительная статья: Хакани // Хакани. Лирика (перевод с фарси В. Державина). Москва: Художественная литература, 1967, с. 6

[2] *Sultanov, M.* Nəyi və necə tərcümə etmək lazımdır // Yazılı abidələrin tədqiqi. Bakı: Nurlan, 2010, s. 138 (Məqalə ilk dədə "Ədəbiyyat və incəsənət" qəzetinin 1 mart 1975-ci il tarixli nömrəsində dərc olunmuşdur.)

tin olduğundan tərcüməçi-şairlər bəzən mətnə daha yaradıcı yanaşır, müəyyən ixtisarlara və improvizələrə yol verirlər. Maraqlıdır ki, poetik tərcümənin əsərin tam mənasını verə bilməməsi, orijinaldan kənara çıxmalar, məna təhrifləri halları təbii qarşılanır. Amma bir cəhəti nəzərə almaq lazımdır ki, poetik tərcümələr geniş oxucu kütləsi üçün nəzərdə tutulur. Belə tərcümələrdə klassik şairlərimizin dedikləri fikir təhrif olunursa, təbliğ etdikləri ideya oxucuya düzgün çatdırılmırsa, oxucu həmin klassik şairə nə dərəcədə bələd olur?! Axı klassik şairlərimiz vəzn, qafiyə, forma gözəlliyindən daha çox məzmun gözəlliyinə, fikir dərinliyinə üstünlük vermişlər. Füzulişünas alim Sabir Əliyevin sözləri ilə desək, "*Şairin xatirəsinə ən böyük hörmət onun fikir və ideyalarını, mətləb və işarələrini, ümumən mövqe və əhatəsini oxucuya düzgün çatdırmaqdan başlayır"*.[1]

Bəs çətin şair kimi xarakterizə olunan Xaqaninin fikir və ideyaları oxuculara nə qədər düzgün çatdırılıb? Bu suala cavab verməzdən əvvəl Xaqaninin hər iki dildə yazdığı əsərlərin tərcümə olunmasında böyük xidmətləri olan M. M. Əlizadənin 1992-ci ildə Nizami Gəncəvi ilə bağlı dediklərinə diqqət edək: *"Biz böyük sənətkarın hər bir əsərinin giriş hissəsini təşkil edən tövhid, minacat, nət və meracnamələri şərh etməkdən də qorxurduq. Çünki bu kimi şərhlər, partiyanın elan etdiyi "vicdan azadlığı" prinsipinə uyğun gəlməzdi. Hazırda müvəqqətimi, daimimi, elə imkan yaranmışdır ki, Nizamini xalqa bizim istədiyimiz kimi deyil, onu olduğu kimi tanıtdıraq"*.[2]

Şübhəsiz ki, bu səmimi sözlər Nizami ilə yanaşı digər klassik şairlərimizin, eləcə də yaradıcılığının öyrənilməsi, əsərlərinin

---

[1] *Əliyev, S*. Bircə sözün xatası, yaxud Füzulinin dedikləri və ... demədikləri // Azərbaycan Füzulişünaslığının qaynaqları. 3 cilddə, III c. Bakı, 2011, s. 221-255

[2] *Əlizadə, M. M*. Nizami insanın mənəvi məziyyətləri haqqında // Bakı: Nizami Gəncəvi–850. Elmi məqalələr toplusu, 1992, s.78

tərcümə və şərhi, əsasən, sovet dönəminə təsadüf edən Xaqaninin əsərlərinə aiddir. Bunu nəzərə alaraq, şairin müstəqillikdən sonra çap olunmuş "Seçilmiş əsərləri"ndə təkmilləşmə işləri aparılmalı idi. Amma müstəqillik dövründə tərtib olunmuş kitablar əvvəlki nəşrləri, demək olar ki, olduğu kimi təkrarladığından M. M. Əlizadənin sözləri, təəssüf ki, hələ də öz aktuallığını saxlamaqdadır.

Fikrimizi misallarla əsaslandıraq. Xaqani "Tuhfətul-İraqeyn"nin əmisi Kafiyəddinə həsr olunmuş hissəsində əmisinin onun həyatındakı rolundan, verdiyi təhsildən danışır və sona doğru deyir:

برلوح سپید من سیه فام ن والقلمی نوشت ایام
ن والقلمی چو بنگریدی یس خواند ی برو دمیدی[1]

Ağ lövhə üzərində qaraya çalanla əyyam "Nun val-qaləm" yazdı.

"Nun val-qaləm"ə baxdıqda "Yəsin" oxudu və dirçəldi.

(Fars dilindən filoloji tərcümə: Lalə Əlizadə)

Beytlərin ilkin tərcümə variantı belədir:

Zəmanə bəxtimə yazırkən rəqəm,
Ağ lövhədə yazdı: "Nun vəlqələm".
Baxdıqda bu "nun"a, bu "vəl-qələm"ə
Bir "Yasin" pilərdim dərdə, ələmə.[2]

1956-cı il nəşrində müxtəlif hissələrdən ibarət olan əsərin tərcüməçiləri ayrı-ayrılıqda deyil, ümumi şəkildə qeyd olunmuşdur: *O. Sarıvəlli, M. Soltan*.[3] Yəni kimin hansı hissəni tərcümə etdiyi göstərilməyib. 1978-ci il nəşrində həm beytlər, həm beytlərə yazılmış şərhlər, həm də tərcüməçilər ilkin variantda olduğu kimi saxlanmışdır.[4]

---

[1] خاقاني شرواني. تحفة العراقين. كتابخانه مجلس شوراى اسلامى. ص. ٢٢١

[2] *Xaqani Şirvani.* Seçilmiş əsərləri. Bakı, 1956, s. 37

[3] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1956, s. 473

[4] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1978, s. 68; 304; 317

1987-ci il nəşrində birinci beytin tərcüməsi fərqlidir:

Ağ lövhdə bəxtimi qara yazdılar,
Etdi "nun vəl-qələm" taleyimi zar.[1]

Tərcüməçilər eynidir, amma bu nəşrdə artıq hər hissənin qarşısında poetik tərcüməçinin adı göstərilib. Gətirdiymiz nümunə M. Soltana aiddir. Onun fars dilinə, fars ədəbiyyatına, Xaqani yaradıcılığına yaxşı bələd olduğunu nəzərə alaraq, beytlərin birbaşa mətndən tərcümə edildiyini düşünürük.

Bu iki poetik tərcümə arasında müqayisə aparsaq, zənnimcə, birinci tərcümə orijinala daha yaxındır. İkinci tərcümədə birinci beytin mənası təhrif olunmuşdur.

Klassik əsərlərə müraciət tərcümə ilə bitmir. Burada şairin batini fikirləri də şərh edilməlidir. Yuxarıdakı beytlər də batini məna daşıdığından şərh olunmuşdur. Şərhlər hər iki kitabda fərqlidir. 1956-cı ilin şərhi:

I beyt – "*Nunvəl-qələm" Quranda kasıblığa dair yazılmış bir surədir. Xaqani demək istəyir ki, mənim bəxtimə ağ lövhədə qara xətlə kasıblıq yazılmışdır"*;[2]

Qeyd edək ki, "Nun val-qələm" dedikdə Qur'anın 68-ci surəsi olan "Qələm" surəsi nəzərdə tutulur. 52 ayədən ibarət Məkkədə nazil olan bu surənin ilk sözü *nun* olduğuna görə surə bu adla da tanınır. Amma surə, şərhdə deyildiyi kimi, kasıblığa dair yazılmayıb. Burada kasıblıqla əlaqə 17-33-cü ayələri əhatə edən "Bağ sahibləri" hekayəsindədir ki, bu hissə də kasıblıqla yox, kasıbın haqqını yeyənlərin acı aqibəti ilə bağlıdır. Şairin guya bəxtinə kasıblıq yazıldığı deməsi də məntiqli görünmür. Çünki şair hələ gənc yaşlarında saraya dəvət almış və sarayın iç üçünü gördükdən sonra oradan yaxa qurtarmağa çalışmışdır. Əgər istəsəydi, digər saray şairləri kimi, ənənəvi mədhiyyələr yaz-

[1] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1987, s. 88
[2] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1956, s. 433

maqla yoxsulluqdan canını qurtara bilərdi, yəni yoxsulluq (əgər belə demək mümkünsə) onun alın yazısı deyil, seçimi olub.

II beyt – "*Quran surələrindən biri olan "Yasin" əsas mündəricəsilə ölüm haqqında yazılmışdır. Xaqani bu beytdə yoxsulluğu və fəqirliyi unudub mübarizəyə girişməyi lazım bilir*". [1]

Bu şərhlə beytin məzmunu arasında əlaqə yoxdur.

1987-ci il nəşrində ancaq *Etdi "nun vəl-qələm" taleyimi zar* misrası şərh olunub: *"Ərəb əlifbasında "nun" (ن) beli bükülmüş hərf olduğu üçün, Xaqani öz əyilmiş qəddini bu hərfə oxşatmışdır. "Nuni vəl-qələm", "Yasin" – "Quran" surələrinin adlarıdır"*.[2]

Şairin əyilmiş qəddini *nun* hərfinə bənzətməsi düzgün deyil. Düzdür, ərəb qrafikasında ن *nun* hərfinin yazılış forması klassik ədəbiyyatda çox vaxt əyri qamət, bükülmüş bel ilə assosiasiya edilmişdir. Amma bu hərf üzərindən qurulmuş belə assosiativ poetika bura uyğun deyil. Beytdə *nun* hərfi *qələm* sözü ilə yanaşı yazılmışdır. Deməli, beytlərin mənasını açıqlamaq üçün "nun valqələm"in, Ağ lövhənin rəmzi mənaları araşdırılmalıdır.

Abdur-Rahmən ibn Nasir əs-Səədi (1889–1957) "Qələm" surəsinin ilk ayəsini şərh edərkən qələm sözünü belə açıqlamışdır: "*Yazı qamışı dedikdə, insanların elmin bütün sahələrində əldə etdikləri nailiyyətləri, o cümlədən əsər və şeirlərini qələmə almaq üçün istifadə etdikləri vasitələr nəzərdə tutulur*".[3]

İbn Kəsir "Qələm" surəsini müxtəlif hədislərə istinadən şərh etmişdir. Məzmunca eyni olan bu hədislər bir-birindən ancaq tabiinlər sırasına görə fərqlənir. Onlardan biri ilə – Əbu Hureyrədən nəql edilən hədislə tanış olaq: *"İbn Asəkir, Əbu Abdullah Maulə Bəni Umeyyədən, o, Əbu Salihdən, o da Əbu Hureyrədən nəql edir:*

---

[1] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1956, s. 433

[2] *Xaqani Şirvani.* Seçilmiş əsərləri. Bakı, 1987, s. 561

[3] *Ас-Саади, Абд ар-Рахман.* Толкование Священного Корана (в 3 томах). Пер. с араб. Э. Кулиев. Т. 3. Москва, 2012, с. 847

"Allahın Rəsulunun ﷺ belə dediyini eşitdim: "Allahın ilk yaratdığı şey qələmdir, sonra isə "nun"u yaradıb ki, o da mürəkkəbdir".

Klassik poeziyada qələmin zahiri və ictimai təsviri, dini, fəlsəfi mənaları ilə bağlı müxtəlif bənzətmələr öz əksini tapmışdır. Quranda, təfsir ədəbiyyatında və Azərbaycan-türk şeirində qələm arxetipini dərindən araşdıran Aida Qasımovanın qələm haqqında verdiyi məlumat maraqlıdır: *"Qələmin məqamı o qədər əziz tutulardı ki, katiblər yazmağa ara verdikdə, qələmi yerə qoymaz, onu qulaqlarının ardına taxardılar. Peyğəmbərin hədisində bu barədə deyilir ki, Rəsulullah, katibinin yazmağı dayandırarkən qələmini yerə qoyduğunu gördükdə, ona qələmi yerə qoymamağı, qulağının ardına taxmağı tapşırmışdır"*.[1]

Deməli, bu gün bizim üçün adi bir dəftərxana ləvazimatı olan qələm bəşər sivilizasiyası tarixində əhəmiyyətli yer tutmuş, özündə dərin dini, mifoloji, fəlsəfi mənaları birləşdirmiş və Qur'an ayəsindən də göründüyü kimi, İslam aləmində and içiləcək qədər müqəddəs hesab olunmuşdur.

Nun hərfi ərəb əlifbasının 25-ci hərfidir. Şərhdə göstərildiyi kimi, bu hərf klassik ədəbiyyatda gah əyri qamətin, gah gözəlin qaşının göstəricisi olmuşdur. Klassik lüğətlərdə *nun* hərfinin *qılıncın kəsən tərəfi* (şəfratus-seyf), *balıq* (əl-ḥu:t), *mürəkkəb* (əd-də-va:t)[2] kimi mənaları göstərilmişdir. *"Əl-Əzhəri demişdir: "Nun və qələmdə başqa məna yoxdur. Görmürsənmi ki, Müqəddəs kitabı yazanlar onu nun şəklində yazıblar? Mürəkkəb və ya balıq nəzərdə tutularkən, nun yazılardı"*.[3]

Burada *balıq* (əl-ḥu:t) deyilərkən kainata işarə edilir. Nunun yerin yeddinci qatında olan böyük balığı bildirməsi ilə bağlı hədislər mövcuddur. *Muqatta'a hərf* (الحرف المقطّع) kimi *nun* həm Qur'an-

---

[1] *Qasımova, A. Ş.* Qələm arxetipi Quranda, təfsir ədəbiyyatında və Azəri-türk şerində // Bakı: Hikmət. Elmi-araşdırmalar toplusu, 2011. №18, s. 91

[2] المنجد في اللغة والاعلام. بيروت: دار المشرق، ٢٠٠٨، ص. ٨٤٩

[3] ابن منظور. لسان العرب. دار الصادر بيروت. المجلد الرابع عشر، ص. ٣٩٢

da, həm dini-fəlsəfi cərəyanlarda özünəməxsus rol oynayıb, yəni o, bir sıra mistik mənaları ehtiva edir. Həmin mənalar hərfin işlədilmə şəraitinə uyğun olaraq açıqlanmalıdır. Bizim nümunədən çıxış etsək, əksər müfəssirlərin gəldiyi fikrə görə, *nun* "qaləm" sözü ilə yanaşı işlədildikdə əd-dəvat – *mürəkkəb* mənasını verir.

Beytdəki Ağ lövhə: "əl-Qur'ənul-Kərim"də, hədislərdə *Lauhun Məhfuzun* (qorunan lövhə), *Ummul-kitəb* (Ana kitab, Əsas kitab), *Lauhun Məknunun* (gizli saxlanılan Kitab), *İməmun Mubinun* (açıq-aydın Kitab) kimi xatırlanan bu lövhə dini təsəvvürlərə görə, sudan, ərşdən, Uca Qələmdən sonra yaradılmışların dördüncüsüdür. Nəhəng ölçüyə malik bu lövhə nur şəklindədir və Qiyamət gününə qədər bu dünyada baş verəcək bütün hadisələr, olacaqlar, insanların taleyi orada yazılmışdır. Qur'anın bir çox surələrində onun adı çəkilir. Məsələn, "Yəsin" surəsinin 12-ci ayəsində deyilir: *"Həqiqətən, ölüləri dirildən, onların (dünyada) nə etmiş olduqlarını və qoyub getdiklərini yazan Bizik. Biz hər şeyi hesaba alıb açıq-aydın Kitabda (lövhi-məhfuzda) təsbit etmişik"*. (Tərcümə: Z. Bünyadov, V. Məmmədəliyev)

Bu izahatlardan sonra yenidən Xaqaninin beytinə nəzər salaq: şair demək istəyir ki, zəmanə bəxtimə yazı yazarkən ağ lövhədə (lövhi məhfuzda) "nun val-qaləm" (mürəkkəb və qələm) yazdı, yəni şairlik, gözəl söz demək bacarığı onda ilahi bir istedaddır, alın yazısıdır.

Bu beytdən sonra gələn beytin mənası da aydınlaşır. Xaqaniyə tərbiyə verən, təhsilinə, elminə xüsusi diqqət yetirən əmisi Kafiyəddin Ömər çəkdiyi zəhmətin hədər getmədiyini görür, yəni şairin istedadının, elminin, savadının, biliyinin şərti simvolu olan "nun val-qaləm"ə baxıb fərəhlənir və dərdə, qəmə "Yəsin" oxuyur.

Nəzərə almaq lazımdır ki, belə simvolik mənaları olan hərflər kontekstə uyğun olaraq izah olunmalıdır. Əgər yuxarıdakı beytdə *nun* hərfi qələmlə yanaşı işlədilərək *mürəkkəb* mənasında elmi simvolizə edibsə, başqa bir beytdə *kəf* hərfi ilə yanaşı işlədilmişdir:

مرادِ کاف و نون، طاها و یاسین، که عین رحمت است، از فضلِ ذو الْمَن[1]

Balaş Azəroğlu tərəfindən edilən poetik tərcümədə məna təhrifi ilə yanaşı *Taha* sözü düşüb:

"Kaf" ilə "nun", "yasin" murad və rəhmət,
Onun kərəminə bağlıdır fəqət.[2]

Fars dilində olmasına baxmayaraq, mənaca ərəbə daha yaxın olan beyt belə şərh olunub: *"Kaf" – "Quran"ın "Kəf ha ya eyn sad" adlı surəsi. Nun – "Nuni-vəlqələm" surəsi. "Yasin" – çox oxunan "Yasin" surəsidir. Xaqani deyir: bu surələrin oxunuşundan məqsəd allahdan kömək ummaqdır"*.[3]

Qur'anda "Kaf" adlı surə yoxdur. "Kəf ha ya eyn sad" isə 19-cu surə – "Məryəm" surəsinin ikinci adıdır. كهيعص (kə:f, hə:, yə:, 'ayn, ṣa:d) muqatta hərf birləşməsi həmin surənin birinci ayəsidir. Amma, surənin beytə aiddiyyatı yoxdur. Çünki beytdəki *nun* hərfi "Nun val-qaləm" surəsinə yox, məhz yaranışa işarə olan *kəf və nuna* işarədir. "*Nun hərfi yaradılış ilə başqa bir tərəfdən də mənalandırılır. Nun huruf-i təkvin olaraq adlandırılan Qur'andakı kun fə yəkun hərflərinə daxildir. Allahın buyruğunun kəf ilə nun hərflərinin arasında olduğu qəbul edilir. Beləliklə, nun, kəf ilə bərabər yaradılışın özünü təşkil edir"*.[4]

Quranın bir sıra ayələrində (2:117, 3:47, 3:59, 6:73, 16:40, 19:35, 36:82, 40:68) كُنْ فَيَكُونُ ("Ol!"- deyər, o da dərhal olar) ifadəsindən istifadə olunub. Məhz bu ayələrdəki كن – *kəf* və *nun* yaradılışı bildirir.

---

[1] خاقانی شروانی. دیوان، جلد اول. ویراستهٔ دکتر میر جلال الدین کزازي تهران، نشر مرکز، ۱۳۷۵، ص. ۴۹۷

[2] *Xaqani Şirvani.* Seçilmiş əsərləri. Bakı, 1987, s. 320

[3] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1987, s. 616

[4] *Gündüzoz, S*. Geleneksel Harf Sembolizminin Bir Yorumu Olarak Nun Harfi // Samsun: Ondokuz Mayıs Üniversitesi İlahiyat Fakültesi Dergisi, 2011. Sayı: 30, s. 52

Bu iki hərfdə gizlənən sirlərdən biri də belə izah olunur: ərəb əlifbasında *kəf* və *nun* arasında iki hərf – *ləm* və *mim* hərfləri var, Allahın (a.c.) adlarından biri *ləm* hərfi ilə (اللطيف), 26-sı *mim* hərfi ilə (... المؤمن، الماجد ،الملك) başlayır, yəni Allahın (a.c.) 99 gözəl adından (أسماء الله الحسنى) 27-si bu iki hərfin arasında hifz olunur. Bu iki hərf həm Yaradana, həm də Onun hökmü ilə yaranışa işarədir.

Beytdə iki surənin adı çəkilib: "Taha" və "Yəsin". Bəzi mənbələrə görə, bu iki surədəki muqatta hərflər Peyğəmbərin ﷺ adını bildirir. Düzdür, əksər dini mənbələr bu fikri qəbul etmir, amma klassik ədəbiyyatda şairlər arasında bu iki surənin adını çəkməklə Peyğəmbərə ﷺ işarə etmə ənənəsi mövcud olub. Sonralar *Yasin, Taha* kimi kişi adlarının müsəlmanlar arasında yayılması da buradan qaynaqlanır. Beytdəki طاها yazılışı bu fikri təsdiqləyir. Çünki surənin adı Quranda طه kimi qeyd olunub. Şair beytdə Peyğəmbəri ﷺ mədh etmiş və onun Yaradanın fəziləti sayəsində rəhmət mənbəyi olduğunu göstərmişdir.

Klassik ədəbiyyatda hərflərlə yanaşı, rəqəmlər də müəyyən rəmzi mənalar daşımışdır. Rəqəmlərin sirri qədimdən insanları düşündürmüş və onlara qeyri-adi anlamlar verilmişdir. Hələ eradan əvvəl dünyanın rəqəmlərin əsasında yarandığını iddia edən rəqəmlər doktrinası mövcud olmuşdur. Həmin doktrinanın qədim yunan filosofu Pifaqor və onun banisi olduğu pifaqorçular məktəbi tərəfindən yaradıldığı iddia edilsə də, bu fikri təkzib edən mənbələr də var.[1] Bu və ya digər halda, rəqəmlər kainatın əsasında duran dörd ünsür – *su, hava, od, torpaq* kimi qədim filosofların diqqət mərkəzində olmuş və onlar rəqəmlərlə təbiət, kainat arasındakı əlaqəni öyrənməyə çalışmışlar. Deməli, rəqəmlər öz riyazi funksiyaları ilə yanaşı, fəlsəfi əhəmiyyət də kəsb etmişdir. Uğurlu və ya nəhs rəqəmlərə inamın

[1] *Жмудь, Л. Я.* Наука, философия и религия в раннем пифагореизме. Санкт-Петербург: Алетейя, 1994, с. 313

hələ də öz aktuallığını itirməməsi qədimdə onlarla bağlı təsəvvürlərin çox güclü olmasının göstəricisidir.

Xaqani də əsərlərində rəqəmlərin müxtəlif rəmzi-mistik mənalarından ustalıqla bəhrələnmişdir. Klassik şairlərimiz arasında rəqəmlərə ən çox müraciət edən şair Xaqani olmaqla yanaşı, rəqəmlərin müxtəlif məna çalarlarına da məhz Xaqani yaradıcılığında rast gəlinir. M. Sultanov yazır: "*Xaqani yaradıcılığında rəqəmlər də bədii təsvir vasitələri arasına daxil edilmişdir. Bu rəqəmlərin bir hissəsi "Əbcəd" hesabına, bir hissəsi isə 1 ilə 9 arasında müxtəlif rəmz və əlamətlərə əsaslanır*".[1]

Mərhum alimin fikrinə onu əlavə edək ki, Xaqani yaradıcılığında rəqəmlərin bir hissəsi əbcəd hesabına, bir hissəsi 1–9 arasındakı rəmzi mənalara əsaslanırsa, bir hissəsi də sakral mahiyyətə, elmi məlumata söykənir və rəqəmlərdən istifadə olunan beytlərdə onların təyinatı düzgün müəyyənləşdirilmədikdə şairin çatdırmaq istədiyi fikir ya anlaşılmır, ya da təhrif olunur. Xaqaninin aşağıdakı beytində olduğu kimi...

Şair "Tuhfətul-İraqeyn"də əmisini mədh edərkən demişdir:

حل کرده مرا بنیم برهان آن چارده حرف سر قرآن
کز بهرچه این حروف مدرک پنج است وچهار وسه ودو یک[2]

Mənə Qur'anla bağlı o 14 hərfi sübutla belə həll etdi,
Nəyə görə bu müdrik hərflər beşdir, dörddür, üçdür,
ikidir, birdir?

(Fars dilindən filoloji tərcümə: Lalə Əlizadə)

Beytlər əvvəlki tədqiqatçılar tərəfindən tərcümə və şərh olunarkən 14, 5, 4, 3, 2 və 1 kimi rəqəmlərin ifadə etdiyi mənalar düzgün göstərilməyib. Əvvəlcə birinci beytin tərcümə və şərhinə nəzər salaq:

---

[1] *Sultanov, M. S.* Xaqani Şirvani. Bakı, 1954, s. 80

[2] خاقاني شرواني. تحفة العراقين. کتابخانه مجلس شورای اسلامی. ص. ۲۲۰

"Dəlillə, sübutla eylədi bir-bir,
"Quran"nın yüz on dörd sirrini təbir.

Xaqani "Quran"ın 114 surədən ibarət olduğuna və onların sirrini öyrəndiyinə işarə edir".[1]

Gördüyümüz kimi, birinci beytdəki 14 rəqəmi 114 rəqəmi ilə əvəz olunub. Poetik tərcümədən adekvatlıq, dəqiqlik gözləmək fikrindən uzaq olsam da, beyti şərh etmək naminə 14-ü 114-lə əvəz etməyi elmi cəhətdən düzgün hesab etmirəm.

Növbəti beytin tərcüməsi orijinala daha yaxın olsa da, şərhi beytdə ifadə olunan mənadan çox uzaqdır:

"Çox asan yol ilə o mahir insan,
Etdi "bir", "iki", "üç", "dörd", "beş"i bəyan.

Klassik Şərq ədəbiyyatında 1-9 rəqəmlərinin müəyyənləşmiş mənaları vardır: Bir – Allah, iki – iki dünya, üç – nəbatat, cəmadat, heyvanat, dörd – dörd ünsür: su, od, torpaq, hava, beş – hiss: dad bilmək, görmək, eşitmək, ləms, və iyi bilmək (bəzən beş rəqəmi – Məhəmməd Peyğəmbərin əbası altında gizlənənlərə də aid edilir ki, bunlara "Pənctəni-ali-əba"deyilir.) altı – cəhətlər: ön, arxa, sağ, sol, yuxarı və aşağı, yeddi – yerin yeddi təbəqəsi, səkkiz – behiştin səkkiz qapısı (göyün təbəqələri), doqquz – doqquz fələk (doqquzuncu fələk guya Allahın qərar tutduğu yerdir.) Xaqani yuxarıdakı beytdə əmisinin rəqəmlərin bu sirrini ona öyrətdiyini xəbər verir".[2]

Klassik Şərq ədəbiyyatında birdən ona qədər rəqəmlərin müxtəlif rəmz və əlamətlərə əsaslanması əksər şairlərin yaradıcılığı üçün xarakterikdir. Məsələn, Nizami Gəncəvi "Leyli və Məcnun" poemasında kainatı belə təsvir edib:

[1] *Xaqani Şirvani.* Seçilmiş əsərləri. Bakı, 2004, s. 583
[2] *Xaqani Şirvani.* Seçilmiş əsərləri. Bakı, 2004, s. 583

این هفت قواره شش انگشت یک دیده چهار دست و نه پشت[1]

Bu yeddi örtüklünün (göyün yeddi qatı), *altı barmağı* (tərəflər – ön, arxa, sağ, sol, yuxarı və aşağı), *bir gözü* (günəş), *dörd əli* (dörd cəhət – şimal, cənub, şərq, qərb) və *doqquz ayağı* (doqquz fələk) var.

Yaxud Məhəmməd Füzuli yaradıcılığına baxaq. Şairin qəsidələrinin sənətkarlıq xüsusiyyətlərindən bəhs edərkən Vəcihə Feyzullayeva aşağıdakı beytdə şairin mədh etdiyi şəxsin yüksək məqamını mübaliğəli şəkildə göstərmək üçün rəqəmlərin sabitləşmiş mənalarından istifadə etdiyini göstərmişdir:

سه مواليد و دو كون هشت خلد و ده عقول
چار طبع و شش جهت هفت اختر و نه آسمان

"... birinci misrada 3 məvalid – nəbatat, cəmadat, heyvanat; iki kövn – dünya və axirət; həşt xuld – səkkiz behişt, 10 – əqlin mərtəbələri, ikinci misrada dörd ünsür – su, torpaq, od, hava, altı cəhət – qabaq, dal, sağ, sol, yuxarı, aşağı; 7 ulduz – ay, utarit, zöhrə, gün, mərrix, müştəri, zühəl; 9 asiman – əflak mənasını ifadə edir".[2]

Amma hərflər kimi, rəqəmlər də həmişə eyni mənaları ifadə etməmişdir. Xaqaninin yuxarıda göstərdiyimiz beytlərində olduğu kimi. Beytlərin şərhi üçün elementar dini biliklər tələb olunur: buradakı 6 rəqəm ərəb əlifbası və "əl-Qur'ənul-Kərim"lə bağlıdır. Belə ki, ərəb əlifbasındakı 28 hərfdən 14-ü *muqatta'* və ya *əl-fəvatih* (açanlar) kimi tanınır. Çünki "əl-Qur'ənul-Kərim"in 114 surəsindən 29-u bu hərflərlə başlayır. Belə hərflərə ya tək halda (ق، ن، ص), ya da 2 (طه، طسّ، يسّ، حمّ), 3 (الٓمٓ، الٓر، طسٓمٓ), 4 (الٓمٓصٓ، الٓمٓر) 5 , (كٓهيعٓصٓ، حمٓ عٓسٓقٓ) hərfdən ibarət birləşmələr şəklində rast gəlinir. Dini mənbələrdə, təfsirlərdə belə hərf və hərf kombinasiyaları ilə bağlı müxtəlif fikir-

[1] https://ganjoor.net/nezami/5ganj/leyli-majnoon/sh5
بخش ۵ – در مدح شروانشاه اخستان بن منوچهر

[2] *Feyzullayeva, V.* Füzulinin qəsidələri. Bakı: Elm, 1985, s. 156

lər, izahlar olsa da, onlar "əl-Qur'ənul-Kərim"in sirlərindən olaraq qalmaqdadır. Xaqani beytdə məhz bu cəhəti əsas tutmuş və əmisinin ona ilahiyyat elminin bütün dərinliklərini, hətta belə qaranlıq məsələləri belə öyrətdiyini göstərmişdir.

Beytlərin yanlış şərhindən 2020-ci ildə çapdan çıxmış Xaqaninin həyatından bəhs edən "Sözün xaqanı" romanında istifadə olunmuş və şairin əmisi Kafiyəddin Ömərin Xaqaniyə verdiyi dini, fəlsəfi təhsil bu fikir sayəsində çox primitiv bir şəkildə oxucuya çatdırılmışdır.[1] Onu da qeyd edim ki, adı çəkilən romanda həm tarixi faktlar təhrif olunmuş, həm də digər xətalara yol verilmişdir. Bu xətalarla yanaşı, mətbuatda onun *Xaqani haqqında yazılan ilk roman* kimi qələmə verilməsi Xaqani yaradıcılığına müraciət edənlərin belə bu sahəyə az bələd olduqlarını göstərir. Əgər belə olmasaydı, Mahmud İsmayılovun 1983-cü ildə nəşr olunan "Xaqani", Abdul Hüseynovun 1995-ci ildə Moskvada nəşr olunan «Пилигрим из Ширвана» ("Şirvanlı zəvvar") tarixi romanları haqqında məlumatları olardı.

Bu deyilənlərdən belə nəticə əldə etmək olar ki, klassiklərin əsərlərinin tərcüməsi və şərhi müasir şərtlər daxilində yeni baxış tələb edir. Bu, mərhum alimlərimizin yazdıqlarını "yoxlamaq", onlara "səhv tutmaq" kimi yox, onların başladıqları çətin, məsuliyyətli bir işi davam etdirməyə göstərilən cəhd kimi qiymətləndirilməlidir. Belə işlər, mətnlərin dəqiqləşdirilməsini, tərcümə və şərhlərin təkmilləşməsini nəzərdə tutmalıdır. Məhz belə yanaşma xalqımızın mədəni irsinin layiqincə öyrənilməsinə öz töhfəsini verə bilər.

M. Sultanov bədii tərcümənin nəzəri, elmi, praktiki problemlərindən ətraflı bəhs etmiş və problemi həll etməyin yolu kimi poeziya nümunələrinin çapdan əvvəl mütəxəssislər arasında, mətbuat səhifələrində müzakirəsinin təşkil edilməsinin

[1] *İsmayılova, S.* Sözün xaqanı. Bakı: Elm və təhsil, 2020, s. 40

vacibliyini göstərmişdir.[1] Çünki klassik şairlərimizi tərcümə və şərh etmək bir nəfərin işi deyil, belə işlər kollektiv şəkildə həyata keçirilməlidir. Eləcə də, Xaqani tədqiqatçıları poetik tərcümələrə, özlərindən əvvəl yazılmış şərhlərə deyil, əsərin orijinal mətninə əsaslanmalıdırlar.

Nəzərə alaq ki, bu gün texnologiyanın sürətli inkişafı sayəsində klassiklərin əsərlərini daha yaxşı araşdırmaq mümkündür. Əlyazma fondlarının, klassik əsərlərin, lüğətlərin, Qur'anla bağlı mənbələrin və s. elektronlaşması, əlçatan olması tədqiqatçılara geniş imkanlar yaradır.

Xaqani ilə bağlı mübahisəli məsələlər

Xaqani Şirvaninin həyat və yaradıcılığı bir çox yerli və xarici araşdırmaların tədqiqat obyekti olsa da, bu sahədə mübahisəli məsələlər hələ də qalmaqdadır. Onlardan bəzilərinə toxunaq:

1) Şairin həyatı ilə bağlı ziddiyyətli fikirlərdən biri onun Əbul-Əla Gəncəvinin kürəkəni olub-olmaması ilə bağlıdır. Təəssüflər olsun ki, həm Əbul-Əla Gəncəvi, həm Xaqani, həm də Fələki kimi şəxsiyyətlərdən söz düşərkən, ən geniş yayılmış fikir belə idi ki, Əbul-Əla Gəncəvi Xaqani ilə Fələkinin ustadı olmuş, hər ikisi Əbul-Əlanın qızını istəmiş, amma ustad öz qızını Xaqaniyə vermiş, sonradan bir tərəfdən kürəkənlə qayınata, digər tərəfdən Fələki ilə Xaqani arasında narazılıqlar baş qaldırmışdır... Hər üç şəxsiyyətin həyatını "bəzəyən" belə fikirlər indi də təkrarlanmaqdadır.

[1] Nəyi və necə tərcümə etmək lazımdır // Yazılı abidələrin tədqiqi. Bakı: Nurlan, 2010, s. 140 (Məqalə ilk dədə "Ədəbiyyat və incəsənət" qəzetinin 1 mart 1975-ci il tarixli nömrəsində dərc olunmuşdur.)

Xaqaninin həyatının öz əsərləri əsasında araşdırıldığı məlumdur. Yuxarıdakı fikir də həm Əbul-Əla Gəncəvinin, həm də Xaqaninin əsərlərindən götürülmüş beytlər əsasında formalaşmışdır. Amma burada əsas məsələ həmin beytlərin mətninin etibarlılıq məsələsidir.

Türkiyəli alim Ahmed Ateşin (1913–1966) Lala İsmail Efendi Kitabxanasında XIV əsrə aid əlyazma nüsxəsində aşkar etdiyi 27 məktubdan XIII olan və əlyazmanın 26 b-29 a vərəqlərini əhatə edən Şihab əd-Dinə yazılan məktubda Xaqaninin birinci arvadı sadə kəndli qızı kimi göstərilib. Məktubun Ahmed Ateş tərəfindən verilən qısa məzmunundan belə məlum olur ki, Xaqani 25 il kəndli bir qadın olan zövcəsini qorumaq üçün əlindən gələni etmiş, sonralar qadın xəstələndiyində onun qulluğunda durmuşdur.[1]

Sonralar Xaqaninin əsas tədqiqatçılarından olan Q. Kəndli-Herisçi Xaqani–Əbul-Əla arasındakı qohumluq münasibətlərini geniş şəkildə işıqlandırmış və divandan alınan nəticələrin həmin məktubdakı yazılarla səsləşdiyini qeyd etmişdir.[2]

H. Araslı da bu məsələyə toxunmuş və belə qənaətə gəlmişdir: "*...məktublar əsasında müəyyənləşdirmək olur ki, şairin birinci arvadı təzkirələrin yazdığı kimi Əbül-Ülanın qızı deyil, bəlkə də kəndli qızı olmuşdur*".[3]

Amma buna baxmayaraq, bəzi mənbələrdə köhnə məlumatlar təkrarlanmaqdadır.

2) Xaqani yaradıcılığında mübahisə doğuran məsələlərdən biri də şairin "Şiniyyə" (qəsidənin qafiyəsini təşkil edən sözlərin son hərfi *şin* olduğuna görə belə adlanır) qəsidəsi ilə bağlıdır.

---

[1] *Ateş, A*. Hakaninin mektubları dergisi // Ankara: Türk Tarih Kurumu. Belleten, 1961. XXV cilt, sayı 98, s. 244

[2] *Kəndli-Herisçi, Q*. Xaqani Şirvani. Bakı, 1988, s. 154-161

[3] *Araslı, H*. Azərbaycan ədəbiyyatı: Tarixi və problemləri. Bakı, 1998, s. 99

Şərqdə çox məşhur olmuş bu qəsidəyə görkəmli söz ustadları da daxil olmaqla, çoxlu nəzirələr yazılmışdır. Amma qəsidəyə mənbələrdə fərqli adlar altında, məsələn, M. Sultanov, Q. Kəndli-Herisçi, İ. Həmidov və s. tərəfindən yazılan əsərlərdə, Xaqaninin Bakıda nəşr olunmuş 3 "Seçilmiş əsərləri"ndə "Mir'ətus-safə" ("Saflıq güzgüsü") adı altında rast gəlinir; 2004-cü ildəki nəşrdə isə ilk beyt, yəni *"Mənim könlüm müəllimdir, dizim üstü dəbistanı"* başlığı altında verilib.

Qəsidə "Bəhrul-əbrar" kimi də adlandırılıb. Məsələn, İslam Ensiklopediyasının "Xaqani" maddəsini hazırlayan türkiyəli alim Tahsin Yazıcıya (1922–2002) görə, "*Nitekim Mevlana Celaleddin-i Rumi'nin birçok gazelinde onun etkisi görüldüğü gibi "Bahrü'l-ebrar" adlı kasidesine Hint, İran ve Türk şairleri tarafından nazireler yazılmıştır. Fuzuli'nin Enisü'l-kalb adlı mesnevisi de "Bahrü'l-ebrar"a yazılmış bir naziredir".*[1]

Bu fikir türkiyəli alimlərin hazırladığı Füzuli divanları haqqında məlumat verən V. Feyzullayevanın araşdırmasında da öz əksini tapıb: "*Qəsidələr bölməsi şairin "Ənisül-qəlb" əsəri ilə başlayır. Ənisül-qəlb"in ilk səhifəsinin sonunda müəllifin bu qəsidə haqqında maraqlı bir qeydi vardır: "Şair bu qəsidəsini Xaqaninin "Bəhrül-əbrar" adlı qəsidəsinə nəzirə yazmışdır. Xaqaninin bu qəsidəsinə Füzulidən əvvəl Əmir Xosrov "Miratüs-səfa", Cami "Cəlair-ruh" adlı nəzirələr yazmışlar".*[2]

H. Araslının "*Bəziləri yanlış olaraq bu əsərin "Mir'atus-səfa" ("Saflığı göstərən güzgü") adlandırıldığını qeyd edirlər. Halbuki "Mir'atus-səfa" görkəmli hind şairi Xosrov Dəhləvinin bu qəsidəyə yazdığı cavabdır"*[3] fikri də qəsidənin adında dolaşıqlıq olduğunu təsdiqləyir.

---

[1] *Yazıcı, T.* Hâkânî-i Şirvânî. TDV İslâm Ansiklopedisi, 15 c. 1997, s. 168-169
[2] *Feyzullayeva, V*. Füzulinin qəsidələri. Bakı, 1985, s. 28
[3] *Araslı, H*. Azərbaycan ədəbiyyatı: Tarixi və problemləri. Bakı, 1998, s. 99

M. Sultanovun *"Xaqani bütün şeirlərini sərlövhəsiz yazmışdır. Lakin şairin "Divan"ının üzünü köçürən katiblər və ya onun əsərlərini çap edən naşirlər bəzi şeirlərə (xüsusilə böyük həcmli qəsidələrə) məzmununa görə müxtəlif adlar vermişlər*"[1] kimi qeydi, zənnimcə, *Şiniyyə–Mir'ətus-səfa–Bəhrul-əbrar* arasındakı əlaqənin araşdırılmasını zəruri edir.

Mövzu ilə bağlı müraciət olunan mənbələr arasında ən maraqlısı 1947-ci ildə M. Sultanov tərəfindən yazılmış "Xaqani Şirvani və Yaxın Şərq ədəbiyyatı"[2] məqaləsidir. Burada şairin Yaxın Şərq ədəbiyyatına göstərdiyi təsirdən ətraflı şəkildə bəhs edilmiş və onun müxtəlif əsərlərinə yazılan nəzirələr haqqında geniş məlumat verilmişdir.

Xaqaninin bu qəsidəsinə müxtəlif dövrlərdə 38-ə qədər nəzirə yazıldığını qeyd edən[3] M. Sultanov həmin nəzirələrin həm vəzn, həm qafiyə etibarilə eyni tərzdə olduğunu göstərmək üçün onların ilk beytlərinin həm orijinalını, həm də tərcüməsini vermişdir. Burada biz ancaq M. Sultanovun tədqiqata cəlb etdiyi şiniyyələrin müəlliflərini və qəsidələrin həcmini göstərməklə kifayətlənirik:

Xaqani – 220 misra; Xosrov Dəhləvi – 352 misra; Əbdürrrəhman Cami – 260 misra; Movlana Nizam – 248 misra; Movlana Misal İbrahim – 184 misra; Movlana Dehxarqani – 188 misra; Urfi Şirazi – 182 misra; Movlana Əbülqasim Şirazi Əmiri – 348 misra.

---

[1] *Sultanov, M*. Kitabın tərtibi haqqında bəzi qeydlər // *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1956, s.14

[2] *Sultanov, M. S.* Xaqani Şirvani və Yaxın Şərq ədəbiyyatı // Yazılı abidələrin tədqiqi. Bakı: Nurlan, 2010, s. 28 (məqalə ilk dəfə "Nizami" məqalələr toplusunun dördüncü kitabında (Bakı: Azərnəşr, 1947, s. 174-192) nəşr olunmuşdur)

[3] *Sultanov, M. S.* Xaqani Şirvani və Yaxın Şərq ədəbiyyatı // Yazılı abidələrin tədqiqi. Bakı: Nurlan, 2010, s. 28

Bundan başqa, o, şiniyyə müəlliflərindən Nafi, Süheyli, Nami, Xacuyi Kirmani, Nizami Gəncəvi, Movlana Məcd, Vaiz Xalxali, Movlana Aşiqi, Əmiri Haşimi, Pərzadə Kazımi, Zərkeş İsfahani, Hacı Mirzə İbrahim Bidilin adlarını çəkmişdir.

Şiniyyə ilə yanaşı onun digər əsərlərinə yazılmış nəzirələri də ətraflı şəkildə işıqlandıran M. Sultanovun bu məqaləsi Xaqaninin Şərq ədəbiyyatına göstərdiyi təsiri çox gözəl əks etdirmişdir.

Xaqaninin "Şiniyyə"sinin adına gəldikdə isə müəllifin araşdırmasında hər iki fikrə rast gəlinir; o, əvvəlcə "*Xaqaninin ən çox şöhrət tapan, özündən sonra gələn yazıçılar tərəfindən tənzir edilən əsərlərindən birisi onun "Miratüs-səfa" (qəlbin ayinəsi) adlanan "qəsideyi-şiniyəsidir*"[1] deyir;

Dəhləvidən danışarkən, "*Mən o ustadın bu sözlərlə başlayan əsərinə elə bir cavab düzəltdim ki, coşub-daşan bir sel kimi onun dərin dəryasına tökülmək üçün ona tərəf axdım... Buna görə mən də qəsidəmin adını "Miratüs-səfa" qoydum ki, onu Xorasan şirindillilərinə dil öyrətmək üçün göndərdim"*[2].

Caminin nəzirəsindən yazarkən, onun qəsidədə dediyi "*əgər Xosrov üzündə səfa günəşi parladığı üçün öz şeirini "Miratüs-səfa" adlandırmışsa, mən də qəsidəmin adını "Cilayir-ruh" qoydum*"[3] sözlərini qeyd edir.

Müəllif hər iki əsərlə bağlı eyni adı işlətsə də, buna münasibət bildirməyib.

"Azərbaycan ədəbiyyatı tarixi"nin 1960-cı il nəşrində qəsidə "Şiniyyə" adı ilə təqdim olunmuş və ona yazılan nəzirələr barəsində belə məlumat verilmişdir: "*Bu qəsidənin dərin məzmunundan ilk dəfə XIII əsrdə böyük hind şairi Əmir Xosrov Dəhləvi təsirlənmişdir. O, Xaqaniyə nəzirə olaraq yazdığı*

[1] *Sultanov, M. S.* Xaqani Şirvani və Yaxın Şərq ədəbiyyatı. Bakı, 2010, s. 22
[2] *Sultanov, M. S.* Xaqani Şirvani və Yaxın Şərq ədəbiyyatı. Bakı, 2010, s. 24
[3] *Sultanov, M. S.* Xaqani Şirvani və Yaxın Şərq ədəbiyyatı. Bakı, 2010, s. 28

"Mer'atüs-səfa" (saf güzgü) adlanan 174 beytlik qəsidəsini eynən Xaqani kimi başlamışdır".[1]

Dəhləvidən sonra böyük fars-tacik şairi Abdur-Rahmən Cami bu mövzuya müraciət etmiş və "Mir'ətus-safə" adının, həqiqətən, Dəhləvinin qəsidəsinə aidliyini belə vurğulamışdır: *"Əgər Xosrov üzündə səfa aynası parladığı üçün öz şe'rini "Meratüs-səfa" adlandırmışsa, mən də qəsidəmin adını "Cilair-ruh" qoydum".*[2]

Qəsidə ilə bağlı maraqlı araşdırmalardan biri də Y. E. Bertelsə aiddir. Alim şiniyyəyə 16-dan artıq cavab yazıldığını, lakin onlardan yalnız beşini tapdığını qeyd etmişdir: "*Mənə bu müəlliflərin nəzirələri məlumdur: Əmir Xosrov Dəhləvi (onun nəzirəsi "Mir'ətus-Safə" adlanır), Abdurrahmən Cami, Mir Əlişir Nəvai, İmadəddin Nəsimi, Füzuli".*[3]

Bertels sonrakı araşdırmalarında da bu mövzuya toxunmuş və Xaqaninin "Şiniyyə"ni Osman Muxtari adlı Qəznəvi şairinin qəsidəsinə cavab olaraq yazdığını qeyd etmiş, Muxtarinin qəsidəsinin adi saray mədhiyyəsi çərçivəsindən kənara çıxmadığı halda, Xaqaninin sufizmi təbliğ edən qəsidəsinin dərin fəlsəfi məna daşıdığını göstərmiş və on bir nəzirə müəllifinin adını çəkmişdir: *Əmir Xosrov, Seyfəddin İsfaranaki, Urfi Şirazi, Zaman-i Şirazi, Nizam Mu'ammayi Mazandarani, Sidqi Buxari, Əmir Muizzi, Seyyid Hasən Qəznəvi, Cami, Nəvai və nəhayət Füzuli.*[4]

Ədəbiyyatşünas alim Məhəmmədəli Tərbiyət (1877-1940) "Danişməndani-Azərbaycan" əsərində yazır: *"Bəzi məşhur söz ustaları onun şiniyyə qəsidəsinə nəzirə yazmışlar. O cümlədən:*

---

[1] Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, I c. Bakı: AzSSR EA Nəşriyyatı, 1960, s. 102

[2] Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, I c. Bakı, 1960, s. 103

[3] *Бертельс, Е. Э.* Низами и Фузули. Москва, 1962, с. 63

[4] *Бертельс, Е. Э.* Избранные труды. Навои и Джами. Москва: Наука, 1965, с. 38

Əmir Xosrovun "Miratüs-səfa" ("Saflıq güzgüsü"), Ürfinin "Ümmanul-cəvahir" ("İnci ümmanı") və Zəmirinin "Firdövsürriza" ("Razılıq cənnəti") əsərləri..."[1]

Ərəb, fars və türk ədəbiyyatlarının ortaq ənənəsi olan nəzirə ənənəsindən söz açan Mehmet Kalpaklı Füzulinin "Ənisul-qalb" mənzuməsindən bəhs edərkən *şiniyyə* yazma ənənəsinə toxunmuşdur: "*Hâkânî'nin (ölm. 595-1199) "şin" kafiyesiyle yazdığı na't kasidesi, Fuzûlî'den önce Husrev-i Dehlevî (ölm. 898-1492) ve Ali Şîr Nevâî (ölm. 1501) tarafından tanzîr edilmiştir. Fuzûlî'den sonra Urfî-i Şîrâzî (ölm. 999-1591), Nef'î (ölm. 1044-1635) ve Yenişehirli Avnî'nin (ölm. 1301-1884) de nazîreleri vardır*".[2]

Əsərə yazılan nəzirələrin sayı çox olsa da, Yaxın Şərq ədəbiyyatında onlardan bəziləri xüsusi olaraq vurğulanmışdır. Məsələn, yeddi böyük sənətkarın ruhun və həyatın dərin məsələlərini ələ alan yeddi böyük qəsidə yazdığını deyən Ali Nihad Tarlan (1898– 1978) həmin əsərləri Şərqin ruhunu əks etdirən yeddi halqalı nəzirə zənciri kimi təqdim etmiş və bu müəllifləri belə sıralamışdır: *Xaqani, Əmir Xosrov Dəhləvi ("Miratüs-Səfa"), Əbdürrəhman Cami ("Cilaur-Ruh"), Əlişir Nəvai (Nəsimul-Huld), Örfi Şirazi ("Ummanul-Cəvahir"), Füzuli ("Ənisul-Qalb"), Nefi ("Tuhfətul-Uşşaq")*.[3]

Şairin burada 7 qəsidəni fərqləndirməsini qədim ərəb ədəbiyyatına xas ənənə ilə izah etmək olar. Belə ki, orta əsr filoloqları çoxsaylı qədim əsərlərdən 7 qəsidəni xüsusi fərqləndirmiş və həmin qəsidələr Cahiliyyə poeziyasının şah əsərləri kimi 7 müəlləqə adı altında qədim məbədin divarından asıl-

[1] *Tərbiyət, M*. Danişməndani-Azərbaycan. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1987, s. 359

[2] *Kalpaklı, M*. Nazire geleneği çerçevesinde Fuzuli'nin "Enisü'l-kalb' "i. 1995, s. 227

[3] *Tarlan, Ali Nihad.* Şarkın ruhu. İstanbul: Ketebe, 2023, s. 81-82

mışdır. Ali Nihad Tarlan da çoxsaylı şiniyyələrdən ancaq 7-ni xüsusi olaraq qeyd etmiş və onları öz kitabına daxil etmişdir.

Şiniyyələrdən 4-ü – Xaqani, Dəhləvi, Cami və Füzulinin yazdığı dörd qəsidə Füzulinin aşağıdakı beytlərinə görə "dörd ərkan" kimi də tanınmışdır:[1]

نه من تنها شدم بانی این خانه کز اول بود
اساس از کاملان هند و شروان و خراسانش
سه رکن از خانه بود از خسرو و خاقانی و جامی
من از بغداد کردم سعی در تکمیل ارکانش[2]

Bu evi tək mən tikmədim, əvvəldən onun əsası Hindistandan, Şirvandan və Xorasandan olan kamillər tərəfindən (qoyulmuşdu).

Bu evin üç rüknü Xosrov, Xaqani və Cami tərəfindən (qoyulmuşdu), mən də (bu evin) rüknlərini tamamlamağa Bağdaddan səy etdim.

(Fars dilindən filoloji tərcümə: Məhəmməd Nuri)

Füzuli əsərin yazılma tarixini belə işıqlandırmışdır:

زکان طبع پولادی برون آورد خاقانی
سوی دریای هند ارسال کرد از سوی شروانش
به استادی از آن پولاد، خسرو ساخت مرآتی
روان سوی خراسان کرد از دهلی و ملتانش
جلایی داد آن را جامی أنگه جانب بغداد
فرستاد از برای خادمان شاه مردانش[3]

Xaqani təb mədənindən bir polad çıxartdı və onu Şirvan tərəfdən Hind dəryasına tərəf göndərdi.

---

[1] Kəndli-Herisçi, Q. Xaqani Şirvani // Azərbaycan ədəbiyyatı tarixi (red. hey. sədri: M. Kərimov). 6 cilddə: II c. Bakı: Elm, 2007, s. 453

[2] بیاتلی، محمد فضولی. دیوان اشعار فارسی. مقدمه و هواشی: دکتر حسین حمدزاده صدیق. تبریز: انتشارات یاران، ۱۳۸۶، ص. ۱۴۴

[3] بیاتلی، محمد فضولی. دیوان اشعار فارسی. تبریز، ۱۳۸۶، ص. ۱۴۴

Xosrov ustalıqla o poladdan bir güzgü düzəltdi, onu (güzgünü) Dehli və Multandan Xorasana tərəf göndərdi.

Cami ona bir cila verdi, sonra onu Şahi-Mərdanın xadimləri üçün Bağdad tərəfə göndərdi.

(Fars dilindən filoloji tərcümə: Məhəmməd Nuri)

Birinci beytin orijinalında "*səfa ayinəsi*" adı çəkilməsə də, poladdan ayinə (مرآتی) hazırlandığı fikri Xosrov Dəhləviyə aid edilsə də, M. M. Əlizadə tərəfindən edilmiş poetik tərcümədə şairin fikri bir qədər təhrif olunmuşdur:

Çıxardı təbʿi kanindən polad bir nəzm Xaqani,
Səfa ayinəsində aləmə göstərdi Şirvani.

Ona Xosrov ziya verdi, Xorasanə rəvan etdi,
Gəzib əldən-ələ xeyli zaman Dehliylə Məltani.

Cila verdi ona Cami, alıb göndərdi Bağdadə,
Bu töhfə şad qıldı xadimani-şahi-Mərdani.[1]

Mövzu ilə bağlı müraciət olunan mənbələr arasında Xaqaninin əsərlərinin əlyazma nüsxələrinə də toxunmaq olar. Məsələn, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutuna aid **M-192 şifrəli Cüng əlyazması**. Əlyazma Xaqaniyə aid kataloqda yer alsa da, əslində müxtəlif şairlərə aid şeir toplusudur. Xaqaninin "Şiniyyə"si ilə başlayan və ona yazılan nəzirələrlə davam edən əlyazmada müxtəlif şairlərin əsərləri təqdim olunmuşdur. Bəzi adlarda hərflərin pozulduğunu nəzərə almasaq, oxunaqlıq vəziyyəti qənaətbəxşdir. 14 "Şiniyyə"nin ardıcıl şəkildə verildiyi əlyazma nəzirə ənənəsini araşdıranlar üçün qiymətli mənbədir.

Əlyazmaya daxil olan "Şiniyyə"lərlə aşağıdakı cədvəldə tanış olmaq olar:

[1] *Məhəmməd Füzuli.* Əsərləri. 6 cilddə, IV c. (tərtib edən: H. Araslı). Bakı: Şərq-Qərb, 2005, s. 272

Tərcümə	Əlyazma variantı
Hakim Xaqani	حكيم خاقانى عليه الرحمة
Xosrov Dəhləvi. "Mir'ətus-safə'" ("Saflığın güzgüsü")	مرأت الصفاء خسرو دهلوى
Xaqaniyə və Xosrova Mövlana Caminin "Cələ'ur-ruh" cavabı	جوابت اين جلاء الروح خاقانى وخسرورا لمولانا جامى عليه الرحمه
Movlana Nizam Astrabadi. "Minhəcul-hudə" ("Doğru yol")	منهاج الهدى مولانا نظام استرابادى
Movlana Misali "Ayineyi-Gitinoma" ("Dünyanı göstərən güzgü")	آينه گيتى نما مولانا مثالى عليه الرحمة
Xacə Abdullah Ənsari	خواجه عبد الله انصارى
Movlana Nurullah Dəhxaraqani	مولانا نور الله دهخوارقانى
Movlana Muhamməd. "Tuhfətul-əhbab" ("Dostların töhfəsi")	تحفة الاحباب مولانا محمد
Molla Urfi Şirazi. "'Ummənul-cəvahir" ("Cəvahirat dəryası")	عمان الجواهر ملا عرفى شيرازى
Zərkeş Səfahani	زركش صفاهانى
Əmri təxəllüslü Movlana Əbulqasim Şirazi "'Ənvarul-'uyun" ("Gözlərin işığı")	أنوار العيون مولانا أبو القاسم شرازى امرى تخلص
Pərzade Kazımi	پرزاده كاظمى
Vaiz Xalxali	واعظ خلخالي
Movlana Aşiqi "Mazharuz-zət" ("Şəxsiyyətin təzahürü")	مظهر الذات مولانا عاشقي

Aşağıdakı mənbələrdə qəsidə başlıqsız təqdim olunub:

1) Milli Kitabxana, Külliyyat, B–516 kodu altında saxlanılan qədim Laknau nəşri – s. 2;[1]

[1] Xaqani Şirvani. Külliyyat. Hcakani Hcsirvani. I cild. Laknau: 1908

2) Milli Kitabxana, Divan, B–1 kodu altında saxlanılan nüsxə – vərəq 2 a;

3) Süleymaniye Kütüphanesi, Fatih Koleksiyonu, əlyazma nr. 242153, Divan, istinsah tarihi: hicrî 0702, vərəq – 2 a;

4) Süleymaniye Kütüphanesi, əlyazma nr. 656893, Divan, istinsah tarihi: hicrî 702, – vərəq 2 a;

5) Süleymaniye Kütüphanesi, Lala İsmail koleksiyonu, əlyazma nr. 296269, Divan – vərəq 1a

6) Süleymaniye Kütüphanesi, Lala İsmail koleksiyonu, nr. 296268, Divan – vərəq 2 a;

7) Millet Kütüphanesi, Ali Emiri Koleksiyonu, əlyazma nr. 157064, Divan – vərəq 1a.

Nuruosmaniye Kütüphanesi 181075 nömrəli əlyazmada isə qəsidə *Hikmetü'l-beyân* adı ilə yazılmışdır. Burada daha dörd şairin yazdığı *Şiniyyə* yer alıb:

قصيدة حكمة البيان أستاد خاقانى؛ قصيدة مرآة الصفاء خسرو دهلوى؛
قصيدة جلاء الروح لمولانا عبد الرحمن جامى؛ عمّان الجواهر عرفى شيرازى.

Ustad Xaqani. "Hikmətul-bəyan" qəsidəsi – vərəq 322a–323b; *Xosrov Dəhləvi. "Mir'ətus-safə" qəsidəsi* – vərəq 323b–325b; *Abdur-Rahmən Cami*. *"Cəlaur-ruh" qəsidəsi* – vərəq 325b–327b; *Urfi Şirazi. "Ummənul-cəvahir"* – 327b–329a.

Müraciət olunan mənbələrdə "Mir'ətus-safə"nin Xaqaninin deyil, məhz Dəhləvinin "Şiniyyə"sinin adı olduğu fikri öz təsdiqini tapsa da, Əli Abdur-Rasuli, Səccadi, Foruzənfər, Kəzzazi kimi İran alimləri tərəfindən hazırlanan divanlarda Xaqaninin şiniyyəsi *"Mir'ətus-safə"* kimi təqdim olunmuşdur,[1]

[1] خاقاني شروانى. ديوان. بتصحيح عليّ عبد الرسولى. تهران، ١٣١٦، ص. ٢١٤؛ خاقانى شروانى. ديوان. تصحيح ضياء الدين سجادى. تهران، ١٣٣٨، ص. ٢٠٩؛ خاقانى شروانى. ديوان. با مقدمه بديع الزمان فروزانفر. تهران، ١٣٨٩، ص. ١٤٣؛ خاقانى شروانى. ديوان، جلد اول. ويراستهٔ مير جلال الدين كزازى. تهران، ١٣٧٥، ص. ٣١٣

bu da onların istifadə etdikləri əlyazma nüsxələrindən qaynaqlana bilər.

"Bəhrul-əbrar" qəsidəsi isə Əmir Xosrov Dəhləvinin "Dəryayi-Əbrar" adıyla tanınan qəsidəsinin adı ola bilər.[1]

3) Sovetlər dönəmində klassiklərimizin əsərlərinə bəslənilən münasibətin birmənalı olmadığı məlumdur. Şahbaz Şamıoğluya görə, "*Nizami və Xaqani, Nəsimi və Füzulidən tutmuş iyirminci yüzillikdə yaşayıb-yaratmış görkəmli söz ustalarının yaradıcılığında az qala kommunizm təmayüllərinin axtarılması və əksər hallarda "tapılması" tendensiyası mövcud olmuşdur və bununla da həm klassik, həm də çağdaş yazıçıların dünyagörüşü barədə məqsədli şəkildə qeyri-adi fikir formalaşdırılmış, cəmiyyətə, elmi ictimaiyyətə qəbul etdirilmişdir*".[2]

Klassiklərimiz, əsasən, kasıb təbəqənin nümayəndəsi kimi qələmə verilir, əsərlərində zəhmətkeş xalqı təmsil edən, dinə zidd olan fikirləri ön plana çıxarmağa çalışırdılar. Məhəmməd Əmin Rəsulzadə (1918–1955) məhz Xaqaninin və Nizaminin əsərlərini tərcümə edənlərin orijinal mətnə sadiq qalmamalarını, xüsusən də Xaqaninin əsərlərinin günlük siyasət oyunları faidəsinə təhrif edildiyini qeyd etmişdir.[3]

Klassik şairlərimizin irsini yaşatmaq naminə edilən belə təhriflərin doğru, yaxud yanlış olduğunu söyləmək çox çətindir, amma həmin təhriflər sayəsində şairlərin həyat və yaradıcılığı ilə bağlı bəzi məsələlərin qaranlıq qaldığı məlumdur. Məsələn, Xaqani yaradıcılığı ilə bağlı son vaxtlar müzakirələrə səbəb olan məsələlərdən biri şairin "Seçilmiş əsərləri"nə daxil olan *İraqa,*

---

[1] *Kartal, A*. Baykara Meclisi'nden Yansımalar– Edebî Meclisler, Vâsıfî Etrafında Gelişen Olaylar 7-*. Divan Edebiyatı Araştırmaları Dergisi, 27. 2021, s. 424. https://dergipark.org.tr/tr/download/article-file/3169932

[2] *Şamıoğlu (Musayev), Ş.* Azərbaycan mühacirət irsi: nəsr və ədəbiyyatşünaslıq. Bakı: Elm və təhsil, 2023, s. 158-159

[3] *Rəsulzadə, M. Ə.* Şirvanlı Xaqani // Mühacirət dövrü ədəbi-elmi irsindən seçmələr, I c. Bakı: Elm, 2016, s. 215

İrana eyləsəm səfər misrası ilə başlayan şeirlə bağlıdır. Bu şeir haqqında ilk dəfə M. M. Əlizadənin qızı mərhum tədqiqatçımız L. Əlizadədən eşitmişdim. O, böyük bacısı şərqşünas Nüşabə Əlizadənin bu barədə konfransda çıxış etdiyini bildirmişdi. N. Əlizadənin məlumatına görə, *"Xaqani Şirvaninin yubileyini keçirmək istəmirlərmiş, onda atam belə bir təəssübkeşlik edib və bu qitəni yazıb. Bu qitə çap olunandan sonra yubileyə icazə verilir. Amma qitə çap olunanda səhvən onun tərcüməçisi kimi Məmmədağa Sultanovun adı gedir. Onda atam Məmmədağa müəllimə zəng edib dedi ki, bu səhvən sizin adınızdan gedib. O qitənin orijinalı yoxdur, onu mən bu səbəbdən yazmışam".*

Adı çəkilən qitəyə şairin əsərlərinin ölkəmizdə ilk nəşrindən etibarən rast gəlinir: 1956-cı il nəşrində *tərcümə: Ə. Mübariz,*[1] 1978-ci il nəşrində *tərcümə: M. Soltan,*[2] 1987-ci il nəşrində *tərcümə: M. Mübariz*[3] kimi təqdim olunub, yəni həqiqətən də əsər 1978-ci il nəşrində səhvən M. Sultanovun adı ilə getmiş, 1987-ci il nəşrində isə xəta aradan qaldırılmışdır.

Bir müddət elmi gündəmdə olan bu məsələyə İ. Həmidov belə münasibət bildirmişdir: *"... o qitənin tam şəkildə orijinalını göstərə bilmərəm. Amma orijinalda oxşar şeirlər, oxşar deyimlər var. Mübariz Əlizadə yəqin ki, onlardan birini götürüb müdaxilələr edib, onu Şirvana, Şamaxıya bağlayıb, vətənpərvərliyə aid hissələr əlavə edib".*[4]

Qitənin orijinalının olmaması fikrinə gəlincə isə bu fikir qismən doğrudur, yəni İ. Həmidovun da qeyd etdiyi kimi, Xaqaninin sətirbəsətir həmin əsərlə üst-üstə düşən əsəri olmasa da, buradakı məzmun şairin ərəb dilində yazdığı əsərlərin (xü-

[1] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1956, s. 474
[2] *Xaqani Şirvani.* Seçilmiş əsərləri. Bakı, 1978, s. 319
[3] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1987, s. 643
[4]https://pia.az/xaqaninin-o-meshur-seirini-araz-elizadenin-atasi-yazib–2181 24-xeber.html

susən, Cəlal əd-Dinə həsr olunan qəsidənin, Şirvanla bağlı beytlərin) məzmununa uyğun gəlir.

Xaqaninin ərəb dilində yazdığı əsərlərə müraciət edənlər arasında Zərdüşt Əlizadənin olduğu barədə artıq məlumat verilib. O, 1969-cu ildə ADU (indiki BDU) şərqşünaslıq fakültəsinin ərəb şöbəsini bitirərkən "Əfzələddin Xaqaninin qəsidə və qitələrinin sətri tərcüməsi" mövzusunda diplom işi müdafiə etmişdir. Şairin 1987-ci ildə nəşr olunan "Seçilmiş əsərləri"ndə ərəbcə əsərlərin filoloji tərcüməsi Z. Əlizadəyə, poetik tərcüməsi, Şirvana həsr olunan qitə istisna olmaqla, M. M. Əlizadəyə məxsusdur.[1] Şairin yaradıcılığına, eləcə də ərəbcə yazdığı əsərlərin məzmununa yaxşı bələd olan M. M. Əlizadə, böyük ehtimalla, sözügedən qitəni həmin əsərlərin təsiri altında yazmışdır.

Məsələn, qəsidədən bir beytə baxaq:

غصّ البلاد بوفقتي فأسقيتُها بِمدامع شرقت بها وجناء[2]

Ölkə mənim dayanacağımla doldu, mən onları yanaqlarımda parlayan göz yaşlarıyla suladım.

M. M. Əlizadənin poetik tərcüməsi:

"Vətən! Vətən" deyərək ağladım, canım yandı,
Sümüklərim gözümün yaşı ilə odlandı.[3]

M. M. Əlizadəyə aid olduğu iddia edilən əsər:

Vətən həsrətilə töküb göz yaşı,
"Ah, vətən" deyərəm mən hər söz başı.[4]

Növbəti beyt:

---

[1] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1987, s. 23

[2] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ میر جلال الدین کزازی. تهران ، ۱۳۷۵، ص. ۱۳۴۲

[3] *Xaqani Şirvani.* Seçilmiş əsərləri. Bakı, 1987, s. 224

[4] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1987, s. 366

فارقت شروان اضطرارا فاشتهت نفسي بتبريز اختيار ثواء[1]

Şərvandan məcburən ayrıldım, qəlbim yaşamaq üçün Təbrizi seçmək istədi.

M. M. Əlizadənin poetik tərcüməsi:

Əlac qalmadı, Şərvanı bir də tərk etdim,
Könül, sorağına düşmüşdü, Təbrizə getdim.[2]

M. M. Əlizadəyə aid olduğu iddia edilən əsər:

İndisə acığın tutmuşdur mana,
Sənin qucağından ayrılsam, ana,
Ümidim, pənahım Təbrizdir, Təbriz,
O şəhər də mənə doğmadır, əziz.[3]

Eyni vəziyyət şairin *İstəmirəm adımı çağıralar Xaqani, mən yoxsullar şairi Xəlqaniyəm, Xəlqani* beyti ilə də bağlıdır. Beytin M. M. Əlizadə tərəfindən sərbəst şəkildə tərcümə edildiyi bildirilir: "*Fəhlə-kəndli dövlətində saray şairləri hörmətdə deyildilər. Elə bu vaxt şərqşünas alim, şair Mirzə Mübariz Əlizadənin* (Məmməd Mübariz Əlizadə – E. Z.) *Xaqaninin bir beytini çox sərbəst şəkildə tərcümə edib, mənasını xeyli dəyişdiyi "İstəmirəm adımı çağıralar Xaqani, mən yoxsullar şairi Xəlqaniyəm, Xəlqani" beyti meydana gəldi və dillər əzbəri oldu. Beyt yerinə düşdü, Xaqanini saray şairindən "yoxsullar şairi"nə, proletar şairinə çevirərək, dövrün gözündə "reabilitasiya" etdi".*[4]

Beyt *Paxılları məzəmmət* adlı 53 beytlik şikayətnamənin 52-ci beytidir. Beytin orijinalı belədir:

---

[1] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران ، ۱۳۷۵، ص. ۱۳۴۲

[2] *Xaqani Şirvani.* Seçilmiş əsərləri. Bakı, 1987, s. 225

[3] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1987, s. 366

[4] *Hacıyeva, A*. Elmə və alim adına sədaqət nümunəsi. 525-ci qəzet https://science.gov.az/az/news/open/14337, 25.09.2020

نیستم خاقانی؛ آن خُلْقانیَم کآن مرد گفت؛
و اینچنین بِهْ؛ چون به جمع ژنده پوشان اندرم.[1]

Xaqani deyiləm, xolqaniyəm, necə ki, o kişi dedi;
Bu, belə yaxşıdır, cır-cındır geyinənlərin arasındayam.

(Fars dilindən filoloji tərcümə: Gülnar Əqiq)

(خُلْقاني – *xulqani/xolqani* ərəb mənşəli söz olub, *köhnə yığan, köhnə satan* kimi tərcümə olunur.)

1956 və 1978-ci il nəşrlərində beytin ilk tərcümə variantı İ. Soltana aiddir:

Xaqani yox, o kişi demişkən, xəlqaniyəm,
Xoşdur ki, yoxsullarla olmuşam sirdaş, məhrəm.[2]

1987-ci il və 2004-cü il nəşrlərində isə həmin əsərin tərcüməçisi kimi M. M. Əlizadə qeyd olunmuşdur. Beytin tərcüməsi də fərqlidir:

Mən adımla heç zaman fəxr etmədim; Xaqaniyəm,
Ac və çılpaq səfində var yerim, xəlqaniyəm![3]

İ. Soltan və M. M. Əlizadənin tərcümələrini müqayisə edərək, birincinin məna baxımından orijinala daha uyğun gəldiyini, eləcə də M. M. Əlizadənin kitabda təqdim etdiyi tərcümənin *İstəmirəm adımı çağıralar Xaqani, mən yoxsullar şairi Xəlqaniyəm, Xəlqani* variantından fərqləndiyini görürük. (?) Bu variantın necə, hansı şərtlər daxilində yaranması bizə qaranlıq qalsa da, məqalə müəllifinin dediyi "*çox sərbəst şəkildə tərcümə edib, mənasını xeyli dəyişdiyi"* fikri doğru deyil. Beytin həm filoloji, həm İ. Soltana aid poetik tərcüməsindən də göründüyü kimi, şairin demək istədiyi fikir *İstəmirəm adımı çağıralar Xaqani, mən*

[1] خاقانی شروانی. دیوان، جلد اول. ویراستهٔ میر جلال الدین کزازی. تهران ، ۱۳۷۵، ص. ۳۹۱

[2] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1956, s. 152; *Xaqani Şirvani.* Seçilmiş əsərləri. Bakı, 1978, s. 125

[3] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1987, s. 263; Xaqani Şirvani. Seçilmiş əsərləri. Bakı, 2004, s. 277

yoxsullar şairi Xəlqaniyəm, Xəlqani variantı ilə üst-üstə düşür və beyt poetik cəhətdən çox gözəl tərcümə olunduğundan dillər əzbəri olmuşdur.

4) Xaqani ilə bağlı mübahisəli məsələlərdən biri də ölüm tarixidir. Q. Kəndli-Herisçi şairin həyatını 3 mərhələyə ayırmışdır:

1)520–543 (1126–1148/49)-cü illər;

2)543–571(1148/49–1175/76)-ci illər;

3)571–595 (1175/76–1198/99)-ci illər.[1]

Birinci mərhələ şairin doğulduğu ildən başlayaraq həyatının ilk 23 ilini, yəni uşaqlıq və gənclik illərini əhatə edir; Şirvanşahların sarayına dəvət alan gənc şair saraya uyğun ənənəvi mədhiyyələr yazır, müxtəlif elmlərə meyl edir.

28 ili əhatə edən ikinci mərhələdə Xaqani saraydan uzaqlaşmağa çalışır, fəlsəfi baxışlara maraq göstərir, səyahətlərə can atır. Zəmanənin əyriliklərini, mənfiliklərini görür, həbsxana həyatı ilə tanış olur və s. Onun dünyaca məşhur əsərləri də, təbii ki, bu mərhələyə təsadüf edir.

Şairin həyatının son 24 ilini əhatə edən üçüncü mərhələ Q. Kəndli-Herisçi tərəfindən ümumi şəkildə xarakterizə edilmişdir: *"Xaqani həyatının 580–595 (1185–1199)-ci illərini Təbrizdə alimlik, müəllimlik və oxuyub-yazmaqla keçirmişdir. 586 (1190)-cı ildə Qızıl Arslana yazdığı cavab məktubu, Cəlaləddinə yazdığı "Əlfiyyə"si və Qızıl Arslana göndərdiyi "Görərəm" rədifli şeir həyatının bu illərdə necə keçdiyini göstərir",*[2] yaxud *"571-595 (1175/76–1198/99)-ci illər Xaqani yaradıcılıq*

[1] *Kəndli-Herisçi, Q.* Xaqani Şirvani // Azərbaycan ədəbiyyatı tarixi, II c. Bakı: Elm, 2007, s. 443-444

[2] *Kəndli-Herisçi, Q.* Xaqani Şirvani // Azərbaycan ədəbiyyatı tarixi, II c. Bakı, 2007, s. 442

həyatının üçüncü mərhələsidir. Bu illərdə o, yenə də qabaqkı düşüncələri üzərində dönmədən və sarsılmadan dayanır".[1]

Tədqiqatçının adını çəkdiyi *Qızıl Arslana ünvanlanmış məktub* farsca yazılıb, ətraflı şəkildə tədqiq olunmadığından bu barədə nəsə demək çətindir. Amma *Cəlaləddinə yazdığı "Əlfiyyə"* deyərkən ərəbcə yazılmış qəsidəni nəzərdə tutmuşdur ki, monoqrafiyanın müvafiq fəslində həmin əsərlə bağlı geniş məlumat verilmişdir. Burada, qısa şəkildə onu demək olar ki, qəsidədə Xaqani həyatının Şirvanda keçirdiyi dövrünü xatırlamış, dostlarından, zəmanədən şikayətlərini dilə gətirmişdir. Yazılma tarixi haqqında məlumat yoxdur.

Deməli, şairin həyatının son 10 ili qaranlıqdır. Bu da bu gün şairin doğum və vəfat tarixi kimi rəsmi olaraq qəbul edilən 1126–1199 tarixini sual altına alır. Mənbələrdə klassiklərin doğum tarixlərindən çox, vəfat tarixlərinə önəm verildiyindən biz də Xaqaninin ölüm tarixini dəqiqləşdirməyə çalışdıq.

Xaqaninin vəfat tarixinə mənbələrdə hicri 582–595-ci illər arasında müxtəlif şəkillərdə rast gəlinir. Onlardan ən mühümü 1931-ci ildə Novruz Ağayev tərəfindən Təbrizdə Sürxab məhəlləsində yerləşən "Maqbəratuş-şuəra" qəbristanında Xaqani qəbrinin kitabəsindən çıxarılmış estampajdır. M. Sultanov yazır: "*Kitabə XII əsrdə işlənən ərəb əlifbası ilə (kufi xətti ilə) yazıldığından indi onu oxumaq o qədər də asan deyil. Epiqrafiya mütəxəssisi, tarix elmləri namizədi Əjdər Ələskərzadə tərəfindən düzgün oxunmuş həmin kitabə sübut edir ki, həqiqətən bu qəbr Xaqaninindir*".[2]

Məhz həmin estampaj əsasında şairin hicri 595-ci (1198/1199) ildə vəfat etdiyini Q. Kəndli-Herisçi də qəbul

[1] *Kəndli-Herisçi, Q*. Xaqani Şirvani // Azərbaycan ədəbiyyatı tarixi, II c. Bakı, 2007, s. 445

[2] *Sultanov, M. S*. Xaqani Şirvani. Bakı, 1954, s.21

etmişdir: "*Xaqani məzarının baş daşında və bir sıra qaynaqlarda şairin 595 (1198/99)-ci ildə öldüyü göstərilmişdir*".[1]

Hər iki tədqiqatçının əsas götürdüyü qəbrin estampajının Ə. Ələskərzadə tərəfindən hazırlanmış daha aydın variantını olduğu kimi burada təqdim edirəm:

هذا القبر المر
حوم المغفور
اكابر الحكما
والشعرا حكيم
افضل الدين ابرا
هم خاقانى بن على شر
شروانى بتاريخ شوال
سنة خمس و **تسعين**
و خمس مائة هـ.[2]

Bu, hicri 595-ci ilin şavval ayı tarixində rəhmətə getmiş böyük hükəma və şair hakim Əfzəl əd-Din İbrahim Xaqani bin Əli Şirvaninin qəbridir.

Burada əsas məsələ rəqəmlərdir. Həmin rəqəm – خمس وتسعين و خمس مائة – 595 kimi oxunub. Estampajın yazıldığı kufi xəttinin qaydasına görə hərflərin üzərində nöqtə qoyulmur. Buna görə də, ona nöqtəsiz baxsaq, yəni تسعين (90) üzərindəki nöqtələri götürsək, həmin rəqəmi سبعين (70) kimi də oxumaq mümkündür. Bu halda Xaqaninin ölüm tarixi 575-ci il kimi götürülə bilər, yəni həmin estampajın üzərindəki yazıların nə dərəcədə etibarlı olduğu məlum deyil.

Klassik ədəbiyyatda maddeyi-tarix adlı sənət forması olmuşdur ki, alimlər, şairlər, ədiblər bilavasitə şahidi olduqları hadisələrin tarixini müxtəlif yollarla qeyd etmişlər. Həmin tarixlər dəqiqlik baxımından etibarlı hesab olunduğundan

[1] *Kəndli-Herisçi, Q.* Xaqani Şirvani. Bakı, 1988, s. 88

[2] *Sultanov, M. S.* Xaqani Şirvani. Bakı, 1954, s.23; *Kəndli-Herisçi, Q.* Xaqani Şirvani. Bakı, 1988, s. 13

təzkirələrdə, tarixi mənbələrdə onlara üstünlük verilmişdir. Amma "*... bu maddeyi-tarixlərin əksəriyyəti klassik Şərq poetikasının mürəkkəb və dolaşıq ibarə və tərkibləri əsasında tərtib edildiyi üçün bəzən onları tapmaq və müəyyyənləşdirmək çətin olur*".[1]

Onların müxtəlif tərtib qaydaları vardır ki, onlardan biri də hərflərlə, yəni əbcəd hesabı ilə göstərilən maddeyi-tarixlərdir. Orta əsr şair və ədiblərinin demək olar ki, hamısının əsərlərində əbcəd hesabı ilə tarix bildirmə hallarına rast gəlinir. Xaqaninin də yaratdığı maddeyi-tarixlər vardır ki, O. L. Vilçevski onlardan xüsusi olaraq bəhs etmişdir.[2] Amma M. Sultanov Vilçevskinin əldə etdiyi nəticələri etibarlı hesab etməmişdir.[3]

Xaqaninin vəfat tarixi də bu metodla müəyyənləşdirilmişdir. M. Sultanov maddeyi-tarixlərin növündən danışarkən, *ayrıca cümlə və ya misra şəklində ifadə edilən* maddeyi-tarixə misal kimi, Xaqaninin vəfat tarixini göstərmişdir: "*Xaqani Şirvaninin vəfat tarixi "Tutiyi-cənnəti-həqq" tərkibi ilə ifadə edilmişdir ki, bu sözləri rəqəmə çevirdikdə hicri 595 (miladi 1199)-cu ilə bərabər olur*".[4]

Q. Kəndli-Herisçi də eyni maddeyi-tarixə əsaslanmışdır: "*Bu maddeyi-tarixdə şairin vəfat tarixi 595-ci ilə düşür:*

سال تاریخ نقل او رضوان کفت طوطی جنت حق خوان

طوطی جنت حق" 595 (1198/99)-ci il deməkdir".[5]

---

[1] *Sultanov, M*. Maddeyi-tarix və onun tərtibi haqqında // Yazılı abidələrin tədqiqi. Bakı: Nurlan, 2010, s. 106

[2] *Вильчевский, О. Л*. Хронограммы ираноязычного поэта XII в. Хакани. «Эпиграфика Востока», 13, 1960, с. 59-68

[3] *Sultanov, M*. Maddeyi-tarix və onun tərtibi haqqında. Bakı, 2010, s. 123-125

[4] *Sultanov, M*. Maddeyi-tarix və onun tərtibi haqqında. Bakı, 2010, s. 118

[5] *Kəndli-Herisçi, Q*. Xaqani Şirvani. Bakı, 1988, s. 89

Tədqiqatçının əsaslandığı mənbə Tomas Vilyam Bil tərəfindən hazırlanmış "مفتاح التواريخ" əsəridir. Təzkirə xarakterli mənbədə Şərqin tanınmış şəxsiyyətləri haqqında biblioqrafik məlumat öz əksini tapıb. Müəllif "şairlərin sultanı" kimi təqdim etdiyi Xaqanidən danışarkən, "Həft iqlim"ə görə, şairin 582-ci ildə Təbrizdə vəfat etdiyini göstərmiş, amma daha sonra şairin ölüm tarixini 595-ci il kimi qeyd etmişdir.[1]

İngilis şərqşünası Edvard Braun (1862–1926) tərəfindən hazırlanan "A Literary History of Persia" ("İran ədəbiyyatı tarixi") əsərində deyilir ki, Aufinin "Lubabul-Əlbab", Qəzvininin "Tarix-e qozide", eləcə də Dövlət şah Səmərqəndinin təzkirələrinə görə, Xaqani hicri 582/1185-ci ildə Təbrizdə vəfat edib, amma sonralar N. V. Xanıkov şairin I Axsitanın ölümünə mərsiyə yazdığını nəzərə alaraq, onun ölüm tarixini 595/1198–99-cu il kimi göstərmişdir.[2]

Fələki Şirvani (1108–1146) təqdiqatçısı Hadi Həsən (1894–1963) həmin mərsiyənin Xanıkov tərəfindən səhvən Axsitana aid edildiyini və *Rieu, Braun, Paxomov* kimi tədqiqatçıların Xaqaninin Axsitandan sonra vəfat etdiyi fikri ilə razılaşdıqlarını düzgün hesab etməmiş, şairin divanında Axsitanın ölümü ilə bağlı heç bir qeydin olmadığını göstərmişdir.[3]

S. Aşurbəyli isə Hadi Həsənin fikrini qəbul etməmiş, şairin Axsitana mərsiyə yazmadığını ehtimallarla belə əsaslandırmışdır: "*Hadi Həsənin Xaqani yaradıcılığı ilə bağlı araşdırmaları göstərdi ki, şair Axsitanın ölümünə mərsiyə yazmayıb. Bu, sanki Axsitanın Xaqanidən çox yaşadığını göstərir. Xaqaninin ömrünün son illərini Təbrizdə tənha halda yaşayaraq, hicri 595-ci*

[1] *Beale, Thomas William*. Miftāḥ al-tavārīkh. 1867, s. 49-50

[2] A Literary History of Persia. Volume 2, From Firdawsi to Sa'di. By Edward Browne. Cambridge: At the University Press, 1964, p. 398

[3] *Hasan, Hadi*. Falaki Shirwani: His Times, Life, and Works. London: The Royal Asiatic Sosiety, 1929, p.28

ilin şavval / 1199-cu ilin iyul ayında vəfat etdiyi məlumdur. Saray həyatına nifrət edən şair dəfələrlə Axsitanın saraya dəvətini rədd etmişdir. Ola bilsin ki, Xaqani, münasibətləri o qədər də yaxşı olmayan Axsitana ya sonralar mübtəla olduğu xəstəliyinə görə mərsiyə yazmayıb, yaxud yazmaq istəməyib, ya da belə bir əsər var, amma hələ üzə çıxarılmayıb".[1]

Amma nəzərə alaq ki, Təbrizdə yaşadığı illərdə belə Xaqani Şirvanla əlaqəsini kəsməmiş və orada baş verən hadisələrə biganə qalmamışdır. Eləcə də, onunla Axsitan arasında əvvəllər soyuq münasibətlər olsa da, sonralar bu soyuqluq aradan qalxmış, onlar arasında məktublaşmalar olmuş və S. Aşurbəylinin də qeyd etdiyi kimi, Şirvan hökmdarı onu dəfələrlə saraya dəvət etmişdir.

M. Ə. Rəsulzadə də öz tədqiqatında Xaqani–Axsitan münasibətinə toxunmuşdur. O, Axsitanın rus istilaçılarını ağır məğlubiyyətə uğratdığına işarə edərək, Sovetlər Birliyindəki millətlərin "ağabəyisi" ruslar üçün böyük Şamil kimi Axsitanın da mənfi bir tip ola bildiyini və Xaqani–Mənuçehr və Xaqani–Axsitan münasibətlərinin Sovetin mənafeyinə uyğun şəkildə qiymətləndirildiyi nəticəsinə gəlmişdir, yəni Xaqani qətiyyən *Mənuçehrin məddahı*, *Axsitanın isə qəddahı* olmamış, hər iki hökmdara da mədhiyyələr həsr etmişdir. Tədqiqatçı öz fikrini Axsitana yazılan qəsidələrdən gətirdiyi nümunələrlə əsaslandırmışdır: *"Babasının ruhu, bu oğuldan fazlasıyla şaddır. Kaş ki, o, yəni babası ağır uykusundan bir uyansaydı. Əbədi uykusundan uyansaydı, ayıq dövlətin əbədiliyini görürdü. Onun ruhu şaddır, çünki fərzəndinin şəxsində məmləkətdə ədalət və asayiş ruhu təcəssüm etmişdir*".[2]

---

[1] *Ашурбейли, С.* Государство Ширваншахов (VI–XVI вв.). Баку: Элм, 1983, с. 137

[2] *Rəsulzadə, M. Ə.* Şirvanlı Xaqani // Mühacirət dövrü ədəbi-elmi irsindən seçmələr, I c. Bakı: Elm, 2016, s. 218-224

Şairin əsərlərində Axsitanın ölümü ilə bağlı heç bir məlumatın olmaması, Hadi Həsənin qeyd etdiyi kimi, onun həmin vaxt həyatda olmaması ilə izah oluna bilər. Hadi Həsən şairin Külliyyatında 581–587-ci illərdə hakimiyyətdə olmuş Qızıl Arslan b. Eldəgizə həsr olunan 4 mədhiyyəyə əsasən Xaqaninin 592-ci ildə artıq həyatda olmadığını, Axsitanın isə 593–600 illər arasında vəfat etdiyi qənaətinə gəlmişdir.[1]

Məhəmmədəli Tərbiyət "Danişməndani-Azərbaycan" əsərində Xaqaninin ölüm tarixinin mənbələrdə fərqli olduğunu belə göstərmişdir: "Rövzətul-əlbab" müəllifinin yazdığına görə Xaqani xəlifə əl-Müstəzi binurillah zamanında hicri qəməri 582 (1186)-ci ildə, Qüdrətulla Kupaməvinin "Nətayicul-əfkar" əsərində qeyd etdiyinə görə hicri qəməri 595 (1198)-ci ildə, Əbdürrəşid Bakuvinin "Təlxisül-asar" əsərinə görə hicri-qəməri 581 (1185)-ci ildə vəfat etmişdir.[2]

Xaqaninin rəsmi olaraq qəbul edilən vəfat tarixini, yəni 1199-cu il tarixini sual altına alan digər məqamlara baxaq:

a) Xaqaninin həm öz həyatı, həm də dövrü ilə bağlı bəzi məsələlərin onun əsərləri əsasında dəqiqləşdirildiyi məlumdur. Çünki şair əsərlərində yaşadığı dövrdə baş verən hadisələrə münasibət bildirmişdir. Belə hadisələrdən biri astrologiya ilə bağlı idi.

Belə ki, orta əsr mənbələrinə görə, münəccimlər hicri təqvimi ilə 482-ci ildə 100 il sonra, yəni 582-ci ildə Əkizlər, Tərəzi və Dolça kimi hava bürclərinin Tərəzi bürcündə birləşməsi nəticəsində Nuh peyğəmbərin (s.) dövründə ulduzların su bürcü olan Hut (balıq) bürcünə toplaşması nəticəsində yaranan selə bənzər fəlakətin olacağını söyləyir və yaranan tufandan bəşəriyyətin məhv olacağı proqnozunu verirdilər.[3]

---

[1] *Hasan, Hadi.* Falaki Shirwani. London, 1929, pp. 32-33

[2] *Tərbiyət, M*. Danişməndani-Azərbaycan. Bakı, 1987, s. 358

[3] الدلجي، الامام أحمد بن علي. الفلاكة والمفلوكون. بيروت: دار الكتب العلميّة، ١٣٢٢، ص. ٣٠

Azərbaycan alimlərinin əsərlərində də bu barədə məlumat var: "*XII əsrin ikinci yarısından başlayaraq 21 qəranda ulduzların birləşməsi nəticəsində "ayəti-xəsfin" əmələ gələcəyi haqqında alimlər arasında mübahisə və çəkişmə var idi. 581/582-ci ildə olacaq bu hadisə nəticəsində yel və su tufanlarının baş verəcəyi haqqında çox danışılırdı*".[1]

İbn əl-Əsir, Həmdullah Qəzvini kimi tarixçilərin əsərlərində də öz əksini tapan bu proqnoz ədəbiyyatdan da yan keçməmişdir. Digər şairlər kimi, Xaqani də hər iki dildə yazdığı əsərlərində bir neçə dəfə bu hadisəyə toxunmuş və münəccimlərin dediyinə inanmadığını deyərək, nəinki həmin proqnozu, ümumiyyətlə, nücum elmini ciddiyə almadığını göstərmişdir:

ثمّ اصف افكاري احكام النجوم وهي علم التخمين وزخارف قول المنجّمين المترجمين في احوال سنة القِرَانِ واجتماعِ الشهب السبعة في برجِ الميزان.

Sonra ulduzların ehkamına öz fikirlərimi bildirirəm, belə ki, o, münəccimlərin qıran ilinin vəziyyətinə və Tərəzi bürcündə yeddi ulduzun toplaşmasına əsasən yaratdıqları təsəvvürlər və bəzəkli sözlərdən ibarət təxmin etmə elmidir.

Şair "Tuhfətul-İraqeyn" əsərinin "Otuz il sonra fırtına olacağını söyləyən qrupu tənə" hissəsində bu hadisə ilə bağlı yazırdı:

در گوش مقلّدان اقوال دادند خبر که بعد سی سال
سرّ یست بسیر اختران در خسفی است ببیست ویک قران در[2]

Müqəllidlərin qulağına çatıb ki, xəbər verildiyinə görə otuz il sonra
Ulduzların düzülüşündə bir sirr gizlənmişdir: 21 qıranda tutulma olacaq.

(Fars dilindən filoloji tərcümə: Lalə Əlizadə)

[1] *Kəndli-Herisçi, Q*. Xaqani Şirvani. Bakı, 1988, s.147
[2] خاقاني شرواني. تحفة العراقين. كتابخانه مجلس شورای اسلامی. ص. ۱۴۰

Rusiyalı alim Konstantin İvanoviç Çaykin (1889–1938) Xaqaninin bioqrafiyası ilə bağlı bəzi tarixlərə məhz şairin bu hadisəyə müraciəti əsasında aydınlıq gətirmişdir. Tədqiqatçı həmin beytləri nəzərə alaraq, İbn əl-Əsirə istinadən "Tuhfətul-İraqeyn"in yazılma tarixini belə hesablayıb: 582–30=552-ci il.[1]

Mənbələrə görə, deyilən tarixdə çox aydın bir hava olur, yarpaq belə tərpənmir, yəni tufan ehtimalı özünü doğrultmur. Amma Xaqaninin əsərlərində bununla bağlı heç bir fikrə rast gəlinmir. Əsərlərində verilən proqnoza münasibət bildirən, onu deyənlərə də, inananlara da tənə edən şairin tufan ehtimalı özünü doğrultmadıqda münasibətsiz qalması şairin həmin vaxt həyatda olmaması ilə izah oluna bilər.

b) Maraq doğuran faktlardan biri də Nizami Gəncəvi ilə bağlıdır. Tədqiqatlartda Xaqani–Nizami münasibətləri ilə bağlı müxtəlif fikirlərə rast gəlinir. Məsələn, "*Hayattan usanmış bir durumda Gence'ye gitti ve orada Nizami Gencevi ile tanıştı".*[2]

Əliəjdər Səidzadə Xaqani ilə Nizami arasında gərgin münasibətlərin olduğunu iddia etmiş və bunun səbəbinin fəlsəfi məsələlər ola bilmə ehtimalını irəli sürmüşdür. Xaqaninin hind, Nizaminin isə yunan fəlsəfəsinin tərəfdarı olduğunu göstərən tədqiqatçı hətta Xaqaninin şeirlərində Nizami ilə bağlı inciklik ifadə edən ibarələr də tapmağa müvəffəq olmuşdur.[3] (?)

Nizaminin guya Xaqaninin ölümünə mərsiyə yazması fikri və mərsiyədə Xaqaninin ona mərsiyə yazmasını arzuladığı şeir parçası isə demək olar ki, bütün tədqiqatlarda mənbə gös-

---

[1] *Чайкин, К. И.* К установлению некоторых дат биографии Хакани // Хакани. Незами. Руставели. Академия Наук ССР Научно-исследовательский институт кавказведения имени акад. Н. Я. Марра. Москва-Ленинград: Издательство Академии Наук СССР, 1935, с. 29

[2] *Yazıcı, T.* Hâkânî-i Şirvânî. TDV İslâm Ansiklopedisi, 1997, 15. c., s. 169

[3] *Səidzadə, Ə.* Xaqani Şirvani // Orta əsrlərdə Azərbaycanın Hindistanla mədəni əlaqələri tarixindən. Bakı, 1958, s. 23

tərilmədən təkrarlanan, nəsillərdən-nəsillərə ötürülən bir "ənənə" halını almışdır.

Y. E. Bertelsə görə, bu fikrə ilk dəfə Səid Nəfisinin Nizamidən bəhs olunan əsərində, heç bir qaynaq göstərilmədən, rast gəlinir.[1] Daha sonra Əli Abdur-Rasuli bu fikri dilə gətirmişdir.[2]

M. Sultanov isə şairin nəsr əsərlərindən bəhs edərkən *dostu Nizamiyə yazdığı bir məktub*[3] demişdir. Böyük ehtimalla, o, Vahid Destgirdinin *Armağan* dərgisində yayımladığı "Xaqaninin Nizamiyə məktubu, ya da Şirvan–Gəncə" başlıqlı məqaləsinə istinad edərək bu fikri dilə gətirmişdir. Y. E. Bertelsə görə, Destgirdi Xaqani–Nizami dostluğunu əsas götürərək, Gəncəyə göndərilən məktubun Nizamiyə yazıldığını düşünmüşdür.[4] Ancaq bu fikirlər əsassız olub bir ehtimal xarakteri daşıyır. Xaqani Gəncəyə səfər etsə də, şairin orada Nizami ilə tanış olması tam olaraq bilinmir və Xaqaninin 62 məktubunun (60-ı farsca, 2-i ərəbcə) ünvanlandığı şəxslər arasında Nizaminin adına rast gəlinmir.

Şairin "Seçilmiş əsərləri"ndən bir qitəyə diqqət edək:

Sən qiymətli gövhər ikən, qəvvas kimi baş vurub
Tapdın təbin dəryasından daha qiymətli gövhər.

Xaqaninin başı bağlı qoyduğu xəzinənin
Tilsimini açmaq bircə sənə oldu müyəssər.

Heyrətdəyəm ki, ilhamın zərlərini atarkən,
Necə oldu öz beşinlə beş atdın, ey füsunkar?![5]

Qitənin I və III beytləri belə şərh edilmişdir:

---

[1] *Бертельс, Е. Э.* Низами и Фузули. Москва, 1962, с. 139

[2] خاقاني شروانى. ديوان. بتصحيح عليّ عبد الرسولى. تهران، ١٣١٦، ص. ٩

[3] *Sultanov, M. S.* Xaqani Şirvani. Bakı, 1954, s. 60

[4] *Бертельс, Е. Э.* Низами и Фузули. Москва, 1962, с. 82

[5] *Xaqani Şirvani.* Seçilmiş əsərləri. Bakı, 2004, s. 500

I – "*Bu şeiri Xaqani Nizamiyə müraciətlə yazmışdır. Qiymətli gövhər Nizami, onun böyük şairliyi; qəvvas – dalğıc, burada ilham dənizinə dalıb üzən Nizami nəzərdə tutulur. Daha qiymətli gövhər Nizaminin əsərlərinə işarədir*".

III – "*Yəni beş barmağın üzərində tutduğun bu beş poemanı ("Xəmsə"ni) necə ustalıqla yazmış olduğuna heyran qalmışam*".[1]

X. Yusifli Nizaminin sələflərindən biri kimi Xaqanidən geniş şəkildə bəhs etmiş, hər iki şairin əsərlərindəki oxşar cəhətləri nümunələrlə izah etmiş və məhz bu qitəni Xaqani yaradıcılığında Nizami irsinə verilən yüksək qiymət kimi qəbul etmişdir. Qitə onun tərəfindən filoloji şəkildə belə tərcümə edilmişdir: "*Ey seçkin dürr, sən fikir dənizində dürdanə ölçən xatirini üzgüçü etmisən. O xəzinə ki, Xaqani onu başı möhürlü qoydu, zehnin xəzinənin tilsimlərini açdı. Heyrət edirəm ki, necə ola bilər ki, hər iki tərəfdən beşi götürüb beş naxış vurasan*". Tədqiqatçı Əkrəm Cəfər tərəfindən yazılmış şərhə, yəni qitədə Nizaminin "Xəmsə"sinə işarə edildiyi fikrinə belə münasibət bildirmişdir: "*Əgər beləndirsə, həm də bu mümkündür, lakin aksiom deyildir, onda Xaqani şeirin onunla qurtarması fikrini geri götürür, nə qədər acı olsa da, etiraf etməli olur ki, şeir onunla deyil, Nizami ilə qurtarmışdır*".[2]

Xaqaninin vəfat tarixini 1199-cu il kimi qəbul etsək, həmin vaxt Nizami Gəncəvi artıq dörd poemasını tamamlamış və poeziya aləmində kifayət qədər məşhurlaşmışdı. Şərqin əksər şair, alim, ədibləri haqqında bu və ya digər dərəcədə fikir söyləyən Xaqaninin öz əsərlərində Nizamiyə, onun yaradıcılığına münasibətsiz qalması mümkün deyildi. Bu cəhətdən yanaşsaq, beytlərin Nizamiyə yazıldığını ehtimal etmək olar. Amma,

[1] *Xaqani Şirvani.* Seçilmiş əsərləri. Bakı, 2004, s. 635

[2] *Yusifli, X.* Nizami Gəncəvi: Sələflər və xələflər. Bakı: Adiloğlu, 2011, s. 296-297

xəmsə məsələsi vəziyyəti dəyişir. Çünki Nizaminin növbəti illərdə beşinci poemanı yazacağı və həmin beş poemanın tarixdə "Xəmsə" adı ilə məşhurlaşacağı Xaqaniyə məlum ola bilməzdi. Bu da beytlərin düzgün şərh olunmadığını göstərir. Qeyd edək ki, 3-cü beyt Kəzzazinin tərtib etdiyi divanda şərhə ehtiyacı olan beytlər sırasına daxil edilmiş[1] və Kəzzazi Xaqaninin əsərlərinə yazdığı şərhlərdə həmin beytin mənasının ona qaranlıq qaldığını göstərmişdir.[2]

Xaqaninin əsərlərində Nizamini pisləmək, ona söz atmaq meyillərinin olduğunu qeyd edən X. Yusifli Xaqaninin bir əsərində Nizaminin əsərinin adını çəkmədən, poemadakı bir epizoda – Fərhadın sevdiyi Şirinin surətini daşda yonmasına tənqidi yanaşaraq, bunu Fərhadın qeyrətsizliyi kimi qiymətləndirməsini Nizamiyə atılan atmaca kimi qəbul etmişdir: "*Fərhadı bu şəkildə tənqid Nizaminin özünü tənqid kimi də, dahi şairin poeması münasibətilə onu təbrik kimi də qiymətləndirilə bilər. Bu qulpqoyma, görünür ki, təbrikdən daha çox tənqiddir, həsədin ifadəsidir*".[3]

Tədqiqatçının işarə etdiyi qitə belədir:

کو هکن در عشق شیرین غیرتی گر داشتی
نقش شیرین را بچشم دیگران نگذاشتی
بود بیغیرت که ننقش یاررا برسنک کند
و ر بلوح سینه کندی صورتی میداشتی[4]

M. Sultanov tərəfindən edilən poetik tərcümə:

Olsaydı Fərhadın qeyrəti əgər,
Qoymazdı Şirinə baxsın hər ötən.

---

[1] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران ، ۱۳۷۵، ص. ۱۰۸۴

[2] کزازی، میر جلال الدین. گزارش دشواریهای دیوان خاقانی. چاپ دوم. تهران: نشر مرکز، ۱۳۸۰، ص. ۸۵۸

[3] *Yusifli, X.* Nizami Gəncəvi: Sələflər və xələflər. Bakı, 2011, s. 302

[4] خاقاني شروانی. دیوان. بتصحیح علیّ عبد الرسولی. تهران، ۱۳۱٦، ص. ٦۹۱

Namussuz yarını nəqş etdi daşa
Qəlbinin lövhünə nəqş etməliykən.[1]

Xaqaninin qitədə Nizaminin əsərindəki motivə işarə etməsini qəbul etmək olar. Çünki Fərhadın Şirinin surətini daşa həkk etməsi Nizaminin təxəyyülünün məhsulu ola bilər. Amma bunu Xaqaninin özündən gənc şairə həsəd aparması, ona sataşması kimi qəbul etmək, zənnimcə, düzgün deyil. Buna bir neçə səbəb göstərmək olar:

1) Xaqani burada Nizaminin əsərinin qəhrəmanına söz atır, özünə yox;

2) Xaqani öz əsərlərində bir çox tanınmış şairə açıq-aydın meydan oxuyub, əgər gənc Nizamiyə söz atmaq istəsəydi, bunu dolayı yolla etməzdi;

3) Fərhadla bağlı fikrə digər şairlərin yaradıcılığında da rast gəlinir. Məsələn, Füzulinin qəzəllərində bu motivlə bağlı bir neçə nümunə var. Onlardan biri məhz həmin Xaqaninin beytıəri ilə üst-üstə düşür:

Daşə şəkmiş xəlq üçün Fərhad Şirin surətin,
Ərz qılmış xəlqə məhbubin,əcəb biar imiş.[2]

Xaqani ilə Nizami arasında şəxsi münasibətlərin olmasını təsdiqləyən etibarlı mənbə hələ ki, elmə məlum deyil. Eyni dövrün iki dahi şairi arasında ədəbi əlaqə ilə bağlı onu demək olar ki, Xaqani Nizaminin sələfi kimi onun yaradıcılığına öz təsirini göstərmişdir. Amma fəlsəfi qəsidələr ustadı Xaqani ilə süjetli məsnəviləri ilə məşhur olan Nizami farsdilli ədəbiyyatda iki fərqli istiqaməti inkişaf etdirmişlər. Klassik ədəbiyyatımızın ən yüksək zirvəsini fəth etmiş bu iki dahinin sənətkarlığını isbat

[1] *Xaqani Şirvani.* Seçilmiş əsərləri. Bakı, 2004, s. 512

[2] *Məhəmməd Füzuli*. Əsərləri. 6 cilddə, I c. (tərtib edən: H. Araslı). Bakı: Şərq-Qərb, 2005, s. 162

etmək üçün, məşhurluğunu göstərmək üçün onların bir-birinə ehtiyacı yoxdur.

c) Şairin vəfat tarixinə aydınlıq gətirə biləcək mənbə kimi son illərdə üzə çıxarılan ərəbcə yazılmış məktubların əlyazmasını göstərmək olar. Həmin əlyazma haqqında monoqrafiyanın müvafiq hissələrində ətraflı məlumat verilmişdir. Burada ancaq Dublindəki (İrlandiya) *Chester Beatty* kitabxanasında saxlanılan əlyazmanın hazırlanma tarixinə diqqət çəkmək istərdim. Xəttat əlyazmanın son vərəqində yazır: "*Bunu Abdul-Vahhab bin Əbi əl-Fadl ət-Təbrizi Allah-Taalaya verdiyi nemətə görə şükür edərək və onun elçisi Muhammədə salam və salavat göndərərək yazıb. Mübarək Ramazan ayının 1-i 581-ci il*".[1]

1 ramazan 581 – 26 noyabr 1185-cı il qeydi şairin ölüm tarixinə yenidən nəzər salmaq üçün ciddi bir dəlildir. Çünki əlyazmanın əvvəlində xəttat şairin ruhuna dualar oxuyur və onun qəbrinin nurla dolmasını diləyir, yəni əlyazma hazırlanarkən Xaqani həyatda olmayıb. Məktubları ilk dəfə aşkar edən İran alimi Muhammməd Rza Turki onlarla bağlı h/ş 1398 (2019-2020)-ci ildə Tehranda kitab çap etdirmiş və kitabın titul səhifəsində *Chester Beatty* nüsxəsinə əsaslanaraq, Xaqaninin ölüm tarixini 581-ci il kimi göstərmişdir.[2] Lakin bir faktı unutmaq olmaz ki, əlyazmada göstərilən tarix şairin ölüm tarixi yox, əlyazmanın hazırlanma tarixidir və onun şairin ölümündən neçə il sonra yazıldığı məlum deyil. Buna görə də, bu məsələdə daha dəqiq nəticə əldə etmək üçün şairin vəfat tarixinin göstərildiyi bütün mənbələr təkrar nəzərdən keçirilməlidir.

5) Xaqaninin bəzən mənbələrdə *məlikuş-şuəra* kimi təqdim olunması halları ilə də qarşılaşırıq. Məsələn, "*Bu arada Şirvanşahlar'dan Ebü'l-Muzaffer Hakan-ı Ekber, Hâkânî'ye*

[1] The Chester Beatty Library, MS 3798 şifrəli əlyazma

[2] ترکی، محمد رضا. غایت ابداع: منشآت عربي افضل الدین بدیل بن علی خاقاني شروانی. تهران: خاموش، ۱۳۹۸، ص. ۳

"melikü'ş-şuara" ve "nedimü'ş-şuara" unvanlarını tevcih ettiği gibi Hâkânî mahlasını kullanmasına da izin verdi".[1]

Əvvəlcə qeyd edək ki, Əbul-Muzəffər şirvanşah Axsitana işarədir. Xaqani təxəllüsünü isə şairə şirvanşah Mənuçehr verib. Şairin *məlikuş-şuəra* olması isə qaranlıq məsələdir. *Məlikuş-şuara* hökümdarlar, əyanlar tərəfindən öz saray şairlərinə verilən rəsmi tituldur. Xaqani saray şairi olub zamanının ən məşhur hökümdarlarına mədhiyyələr yazmasına rəğmən, nə mənbələrdə, nə də öz əsərlərində onun məlikuş-şuəra olduğuna dair məlumata rast gəlinmir. "*Fars Edebiyatında Melikü'ş-Şuarâ Unvanını Alan Fars Şairleri*" adlı araşdırmasında Çetin Kaska Fars ədəbiyyatında tarix boyunca 41 şairə *məlikuş-şuəra* adının verildiyini bildirmişdir. Çetin Kaska Unsurini, Əbul-Əla Gəncəvini, Rəşidəddin Vatvatı, Bədr Şirvanini və s. bu adı almış 41 şairin sırasına daxil etsə də,[2] haqlı olaraq, Xaqaninin adını çəkməmişdir. Ancaq sonda, Tahsin Yazıcının yuxarıdakı məlumatına əsasən, şairin bu adı aldığını dəqiq məlum olmayan fikir kimi göstərmişdir.[3]

Beləliklə, monoqrafiyanın Xaqani yaradıcılığının tədqiq və nəşr tarixindən, tərcümə və şərhlərdəki nöqsanlardan, xaqanişünaslıqda qaranlıq qalan məsələlərdən bəhs olunduğu fəslindən əldə edilən nəticələri belə ümumiləşdirmək olar:

–şairin yaradıcılığı Azərbaycan və İran tədqiqatçıları tərəfindən daha çox araşdırılıb. Ərəbcə əsərlərinin öyrənilməsi sahəsində İran tədqiqatçıları daha çox işlərə imza atsalar da, İranda həmin əsərlərə müraciətin tarixi XXI əsrin əvvəllərinə aiddir.

---

[1] *Yazıcı, T*. Hâkânî-i Şirvânî. TDV İslâm Ansiklopedisi, 1997. 15. c., s. 168

[2] *Kaska, Ç.* Fars Edebiyatinda Melikü'ş-Şuarâ Unvanini Alan Fars Şairleri. Erzincan Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 2019. 12 (2), s. 429-430. https://dergipark.org.tr/en/download/article-file/913549

[3] *Kaska, Ç.* Fars Edebiyatinda Melikü'ş-Şuarâ Unvanini Alan Fars Şairleri. Erzincan Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 2019. 12 (2), s. 435

Azərbaycanda isə bu əsərlər geniş tədqiqata cəlb olunmasa da, onların ilk tərcüməsi XX əsrin 50-ci illərinə təsadüf edir.

–Xaqaninin ərəbcə yazdığı əsərlərə ilk müraciət edən şəxs Muxtar Əfəndi olmuşdur. Onun tərəfindən dilimizə 106 beyt (212 misra) filoloji şəkildə tərcümə olunmuşdur.

–Şairin yaradıcılığının əsas öyrənilmə tarixi sovet dönəminə təsadüf etdiyindən, şairin dinlə əlaqəsi olan əksər beytləri çox səthi tərcümə və şərh edilmişdir. Şairin əsərlərinin yeni nəşri zamanı bu cəhət diqqətə alınmalı və əvvəlki tərcümə və şərhlər kor-koranə təkrarlanmamalıdır.

–Xaqaninin "Şiniyyə" qəsidəsi əksər mənbələrdə "Mir'ətus-safə" adı altında təqdim olunsa da, "Mir'ətus-safə" Əmir Xosrov Dəhləvinin öz "Şiniyyə"sinə verdiyi ad kimi daha məşhurdur.

–Şairin həyatı ilə bağlı bəzi məsələlər, xüsusən də vəfat tarixi kimi qəbul edilən 595/1199-cu il tarixi yenidən araşdırılmalıdır.

–Xaqani dövrünün ən qüdrətli şairlərindən olub, *şairlərin sultanı, şairlərin əmiri* kimi təqdim olunsa da, rəsmi olaraq *məlikuş-şuəra* adını daşımamışdır.

XAQANİNİN ƏRƏBCƏ YAZDIĞI ƏSƏRLƏR ƏLYAZMALARDA

Əvvəlki fəsildə klassiklərin əsərlərinin tərcümə və şərhindəki nöqsanlardan, qeyri-dəqiqlikdən bəhs etmişdik ki, bunun da səbəblərindən biri xəttat səhvləridir. Orta əsrlərdə xüsusi qabarıq olan belə xətalar bəzən bir şeirin müxtəlif variantlarının yaranması ilə nəticələnmişdir ki, bu da müasir dövrdə klassik şairlərin, o cümlədən Xaqaninin yaradıcılığının öyrənilməsini xeyli mürəkkəbləşdirir. M. Sultanova görə, *"Xaqaninin şeirləri savadsız katiblər və bacarıqsız naşirlər tərəfindən kobud surətdə təhrif edilmiş və dolaşıq salınmışdır. Bu hal gurultulu ibarələr, dərin və mürəkkəb müəmmalarla dolu Xaqani şeirlərini bir az da çətinləşdirmişdir"*.[1] Bu fikri Xaqani əsərlərinin İran nəşrləri ilə bağlı araşdırmanın müəllifi O. L. Vilçevski də təsdiqləmişdir.[2]

Buna görə də, klassik şairlərimizin yaradıcılığından danışarkən, onların irsini araşdırarkən əsərin yazıldığı dilin leksik, qrammatik normaları və yazarın öz fərdi üslubu, dili ilə yanaşı aşağıdakı cəhətlər də nəzərə alınmalıdır:

1) yaşadıqları mühit, yəni zaman məsələsi – orta əsrlərdə Şərq şairi, Şərq ədibi, Şərq ziyalısı müsəlman dünyasının hansı bölgəsində yaşamasından asılı olmayaraq, ümummüsəlman mədəniyyətinin təsir dairəsindən çıxa bilmirdi. İslama qədər Şərqdə mövcud mədəniyyətlərin əsasında formalaşan ümummüsəlman mədəniyyəti özündə İslamı qəbul edən xalqların müştərək fəaliyyətini əks etdirirdi və həmin dövrün ziyalıları da bu mədəniyyəti bir küll halında mənimsəməyə çalışırdılar. Buna görə də onların əsərləri həmin dövrün tələbləri çərçivəsində araşdı-

[1] *Sultanov, M. S.* Xaqani Şirvani. Bakı, 1954, s.12

[2] *Вильчевский, О. Л.* Хакани. Советское Востоковедение, 1957. № 4, с. 64

rılmalıdır. Məsələn, Xaqaninin "Tuhfətul-İraqeyn" poemasından götürülmüş bir beytin orijinal mətnini və tərcümə variantını qarşılaşdıraq. Poemada şair əmisini tərif edərkən deyir:

من شاهد خاص اودر آن جدّ او ابن دُرید و من مبرّد[1]

Mən şahidi-xassam, o isə baba, o, İbn Dureyddir, mənsə Mubərrad.

Beytdə Xaqani Şirvan şairi kimi yox, Şərq şairi kimi çıxış etmiş və fars dilində yazdığı əsərində İbn Dureyd və əl-Mubərrad kimi ərəb alimlərinin adlarını çəkmişdir. Amma, böyük ehtimalla, beyti tərcümə və şərh edənlərə *İbn Dureyd* adı tanış olmadığından Xaqaninin ölkəmizdə nəşr olunan bütün "Seçilmiş əsərləri"ndə o, *İbn Vərid* kimi təhrif olunmuşdur:

O, İbn-Vəriddi, mənsə Mübərrid.[2]

Qismən yeni nəşrlərdə beytə şərh verilməsə də, köhnə nəşrlərdəki şərhlərdə eyni nöqsan müşahidə olunur: "*İbn Vərid və Mübərrid hicri tarixin III əsrində yaşamış alimlərdəndir. Burada Xaqani özünü Mübərridlə müqayisə edir. Mübərrid ərəb dili və ədəbiyyatı haqqında bir neçə əsərin müəllifi, məşhur bir alim olmuşdur*".[3]

Burada tərcüməçinin, tədqiqatçının üzləşdiyi problem ərəb əlifbasında *vav* (و) və *dəl* (د) hərflərinin yazılışının bir-birinə bənzəməsidir. Orta əsrlərin tanınmış alimlərindən olan Əbu Reyhan əl-Biruninin (362–440/973–1048) ərəb əlifbası ilə bağlı dediyi bir fikri qeyd etmək yerinə düşər: *"Ərəb yazısında bir nöqsan var. O, oxşar formalı hərflər ehtiva edir. Həmin hərfləri səhv salmaq çox asan olduğundan onları bir-birindən fərqlən-*

[1] خاقاني شرواني. تحفة العراقين. كتابخانه مجلس شورای اسلامی. ص. ٢١٩–٢٢٠

[2] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1956, s.36; Bakı, 1978, s. 67; Bakı, 1987, s. 87; Bakı, 2004, s. 89

[3] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1956, s. 432; Bakı, 1978, s. 303

dirən diakritik işarələrə ehtiyac yaranır. Belə işarələrin olmadığı təqdirdə məna qaranlıq qalır".[1]

Əlyazmalarda katiblər əksər hallarda belə oxşar hərfləri (ərəb əlifbasında onların sayı çoxdur) demək olar ki, eyni qaydada yazırdılar. Bu isə eyni sözün müxtəlif şəkillərdə oxunması, nəticədə, müəllifin fikirlərinin təhrifi ilə nəticələnirdi. Deməli, klassik şairləri tərcümə etmək üçün əsərin yazıldığı dillə yanaşı, həmin dövrün mədəniyyətinə də bələd olmaq vacibdir.

2) Katib xətaları – orta əsrlərdə əsərlər əlyazmalar vasitəsilə çoxaldılırdı. Bu əlyazmalar ya müəllifin özü, ya da katiblər tərəfindən hazırlanırdı. Müəllifə məxsus əlyazmalar daha etibarlı hesab olunsa da, onlara çox az rast gəlinir, yəni bizə gəlib çatan orta əsrlərə aid əsərlər, əsasən, katiblər, xəttatlar tərəfindən üzü çoxaldılan nüsxələrdir.

Katiblərdən, xəttatlardan dərin savad yox, gözəl əl qabiliyyəti, yazı məharəti tələb olunduğundan, eləcə də onlar arasında yazdığını yoxlamaq, səhvləri düzəltmək adəti olmadığından tez-tez xətalara, səhvlərə yol verilirdi. Rüstəm Əliyev (1929–1994) əlyazmalardakı xətalarla bağlı yazırdı: "*İlkin mətnin təhrif olunmasına çox vaxt tələb olunmurdu. O, hələ müəllifin sağlığında, əlyazmanın üzünün köçürülməsi ilə başlayırdı. Bunu Şərqin şair və ədiblərinin özləri də yaxşı bilirdilər. Orta əsr yazıçılarından biri, farsca olan mətnin üzü üçüncü dəfə köçürüldükdən sonra ərəb mətninə çevrildiyini deyərkən, mübaliğə yaratmağa çalışmamışdı*".[2]

Katib xətaları o qədər geniş vüsət almışdı ki, müəlliflər bunu təbii hal kimi qarşılayır və bunu yumor obyektinə

---

[1] *Роузентал, Ф.* Функциональное значение арабской графики. Пер. с англ. Н.Ю.Чалисовой. АСКЛ, 1978, с. 158

[2] *Алиев, Р. М.* Воля исследователя и проблема метода составления критического текста // Письменные памятники Востока (историко-филологические исследования). Ежегодник 1968. Москва: Наука, 1970, с. 7

çevirirdilər. Məsələn, deyilənə görə, bir gün Əlişir Nəvai məşhur Herat xəttatı Abdus-Saməd Məşhədiyə Abdur-Rəhman Caminin divanının üzünü köçürməyi tapşırır. Xəttat işini bitirdikdə Nəvai nüsxəni yoxlamaq üçün müəllifə verir. Bir neçə gündən sonra Cami Nəvaiyə deyir ki, katib elə yazıb ki, sanki xətasız bir sətir belə yazmamağı əhd edibmiş.[1]

Belə rəvayətlərlə yanaşı, ədəbiyyatda əsərlərin mətnini təhrif edənlərə qarşı yönəlmiş əsərlərə də rast gəlinir. Bu da əlyazmalardakı xətaların müəlliflərin ciddi narahatlığına səbəb olduğunu və onlara qarşı xüsusi bir janrın yarandığını göstərir.

Məsələn, Məhəmməd Füzuli öz divanlarında savadsız katiblərin, şairlərin yazılarını təhrif edən xəttatların buraxdıqları səhvlərlə sözlərin mənasının necə dəyişdiyini belə göstərmişdir:

Qələm olsun əli ol katibi-bədtəhririn
*Ki, fəsadi-rəqəmi **suzu**muzu **şur** eylər,*
*Gah bir hərf süqutilə qılır **nadir**i **nar**,*
*Gah bir nüqtə qüsurilə **gözü** **kur** eylər.*[2]

Təəssüf ki, belə səhvlər ancaq əlyazmalara aid deyil. Müasir dövrdə də kitablarda, xüsusən də kiril-latın keçidi zamanı müəllifin iştirakı olmadan hazırlanan təkrar nəşrlərdə naşir xətalarına tez-tez rast gəlinir. Texniki qüsur kimi üstündən keçdiyimiz belə səhvlər bəzən elmi problemə çevrilir. Məsələn, Nəbi Xəzrinin (1924–2007) yaradıcılığından "Dəniz, göy, məhəbbət" şeirinə baxaq. Kiril-latın çevrilməsi zamanı əsərin adı mündəricatda *Dəniz, göy, məhəbbətim* kimi, şeirdəki *Sevmirəm* ifadəsi isə *sevirəm*[3] kimi yazılmışdır.

---

[1] *Акимушкин, О. Ф.* Заметки о персидской рукописной книге и ее создателях // Очерки истории культуры средневекового Ирана. Москва: Главная редакция восточной литературы, 1984, с. 42

[2] *Məhəmməd Füzuli*. Əsərləri. 6 cilddə, I c. Bakı, 2005, s. 32

[3] *Nəbi Xəzri*. Seçilmiş Əsərləri. 2 cilddə, I cild. Bakı: Lider, 2004, s. 51

İstəsən yuxuna gələrəm sənin,
gələrəm dəniz kimi.
Üzünə incilər çilərəm sənin,
çilərəm dəniz kimi.
Yoluna şəfəqlər səpərəm hərdən
səpərəm dəniz kimi.
İstəsən üzündən öpərəm hərdən,
öpərəm dəniz kimi.
Adını qəlbinin sahillərinə
yazaram dəniz kimi,
"Sevmirəm" söyləsən bir axşam mənə,
Susaram dəniz kimi,
Susaram dəniz kimi.[1]

Əsərin adındakı səhvi texniki qüsur kimi qiymətləndirib üstündən keçmək mümkündürsə, ikinci səhv birbaşa şeirin poetikasına təsir etdiyinə görə, ciddi nöqsan kimi qəbul edilməlidir. Birinci variantda inkar var, sevgilisindən mənfi cavab almış gənc daxili iztirab içərisində dəniz kimi susmağa üstünlük verir; ikinci variantda sevgi etitafı, sevinc hissi var, aşiq burada müsbət emosiyalarını ətrafa hiss etdirməkdənsə, dəniz kimi susub daxildə yaşayır. Beləliklə, bir hərf səhvi şairin yaratdığı obraz sistemini dağıtmış, psixoloji dramaturgiyanı pozmuşdur, axı sevgilisindən müsbət cavab almış aşiq

Onunçun verdinmi mənə göyləri
Məndən göylər qədər uzaq olasan?!

- deyə şikayət etməz.

Əlyazmalarda buraxılan səhvlərin fəsadları isə daha çoxdur. Məsələn, Sultan Mahmud Qəznəvinin saray şairi Əbul-Qasim Həsən Unsuriyə (980–1039) həsr olunmuş qəsidədə Xaqani öz zəmanəsinin zəngin adamlarından hesab olunan Unsu-

[1] *Nəbi Xəzri*. Seçilmiş Əsərləri. 2 cilddə, I cild. Bakı: Gənclik, 1973, s. 146

rinin məddahlığını, çörək üçün hökmdarların qarşısında əyildiyini tənqid etmiş və beytlərin birində Unsuridə bəlağətli söz demək bacarığının, ədiblərə, müfəssirlərə məxsus keyfiyyətlərin olmadığını göstərmişdir. Həmin beyt Əli Abdur-Rasuli, Səccadi, Foruzənfər və Kəzzazi nəşrlərində belə yazılıb:

اديب ودبير ومفسر بنبود نه سحبان يعرب زبان عنصرى[1]

Əli Abdur-Rasuli tərtib etdiyi divanda səhifənin sonunda bu ad altında Ya‘rub bin Qahtanın nəzərdə tutulduğunu göstərmişdir.[2] Əsərin filoloji tərcüməçiləri həmin divandan istifadə etdiklərinə görə, tərcüməni də, şərhi də həmin izaha uyğunlaşdırmışlar:

Nə alim, nə şarehdi, nə bir ədib,
Nə Söhban, nə Yö rabbəyan, Ünsüri.[3]

“Söhban – VIII əsrdə yaşamış məşhur ərəb ədib və natiqlərindəndir; Yörəb – ərəb leksikologiyasının banisi, böyük bir alim olmuşdur”.[4]

2004-cü il nəşri tərcümə ilə şərh arasındakı uyğunsuzluqla fərqlənir: *yarəb bəyan – Yörəbbəyan.*[5]

Adı çəkilən Suhban Vail əl-Bəhili (54/674-cü ildə vəfat edib) VIII yox, VII əsrdə yaşamış, öz fəsahəti və bəlağəti ilə şöhrət tapmış məşhur ərəb natiqi və ədibidir ki, onun haqqında tədqiqat işinin üçüncü fəslində məlumat verilib. Ya‘rub bin

---

[1] خاقاني شروانى. ديوان. بتصحيح عليّ عبد الرسولى. تهران، ١٣١٦، ص. ٦٨١؛ خاقانى شروانى. ديوان. تصحيح ضياء الدين سجادى. تهران، ١٣٣٨، ص. ٩۴٧؛ خاقانى شروانى. ديوان. با مقدمهٔ بديع الزمان فروزانفر. تهران، ١٣٨٩، ص. ٧٠٧؛ خاقانى شروانى. ديوان، جلد دوم. ويراستهٔ جلال الدين كزازى. تهران ، ١٣٧٥، ص. ١٢۴٩

[2] خاقاني شروانى. ديوان. بتصحيح عليّ عبد الرسولى. تهران، ١٣١٦، ص. ٦٨١

[3] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1987, s. 109

[4] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1987, s. 570

[5] *Xaqani Şirvani.* Seçilmiş əsərləri. Bakı, 2004, s. 112 və 591

Qahtan (şərhdə *Yörəb*) isə qədim ərəblərin ulu babası hesab olunur. O, ərəb dilində ilk danışan adam kimi tanınır. Məsələn, ərəb şairi əl-Buhturi deyir:

نحن أبناء يعرب أعرب الناس لسانا وانضر الناس عودا[1]

Biz, insanların ən təmiz dillisi, ən ağıllısı olan Ya'rubun övladlarıyıq.

Ya'rub adı beytin mənasına uyğun gəlir. Amma beytin digər yazılış variantlarına baxdıqda bu fikir dəyişir. Şeir Unsuri yaradıcılığını tədqiq edən Y. E. Bertelsin əsərində öz əksini tapmış və o, Xaqaninin Unsuriyə əsər həsr etməsini ikincinin məşhurluğu ilə izah etmişdir. Özbəkistan EA Şərqşünaslıq İnstitutunun fondunda saxlanılan əlyazmaya və Xaqaninin Əli Abdur-Rasuli tərəfindən hazırlanmış divanına əsaslanan alim həmin əsərin həm orijinalını, həm də tərcüməsini tam şəkildə öz araşdırmasına daxil etmişdir. Araşdırmada sözügedən beyt və onun tərcüməsi aşağıdakı şəkildə təqdim edilib:

ادیب ودبیر ومفسر بنبود نه سحبان یعرف زبان عنصری

Не был он адибом, дабиром и толкователем,
Не был Сахбаном по красноречию 'Унсури. [2]

O, ədib, dəbir, müfəssir olmayıb,
Unsuri bəlağətdə Sahban olmayıb.

(Beyt Fransa Milli Kitabxanasına aid əlyazma nüsxəsində də belə yazılıb.[3])

Divana yox, əlyazmaya əsaslanan Y. E. Bertels həmin sözü يعرف kimi qəbul etmiş və *bilmək, öyrənmək* mənasını verən عرف sözünü *bəlağət* kimi tərcümə etmişdir. Məzmuna daha

[1] البحتري. ديوان. المحقق: حسن كامل الصيرفي. مصر: دار المعارف، ١٩٦٢. ص. ٦١١

[2] *Бертельс, Е. Э.* Избранные труды. История персидско-таджикской литературы. Москва: Наука, 1960, с. 504

[3] Fransa Milli Kitabxanasının əlyazması, Persan 1816, vərəq 185 a

yaxın olan bu tərcümə zamanı beytin poetikasına xələl gəlməsə də, dəqiqlik pozulmuşdur.

Müraciət etdiyimiz əlyazmalar arasında M–34 şifrəli Bakı nüsxəsində və *Süleymaniye Kütüphanesi Damad İbrahim Paşa* kolleksiyasına aid əlyazmada mübahisə doğuran sözün beytin mənasına uyğun fərqli yazılışına rast gəldik:

M–34:

ادیب ودبیر ومفسر بنبود نه سحبان بعربی زبان عنصری

Süleymaniye nr. 233028 (vərəq 123 a):

ادیب ودبیر ومفسر بنبود نه سحبان بعرب زبان عنصری

Nüsxələr arasındakı fərq mənaya təsir etməyən عربي – عرب sözünün yazılışındadır. Suhban Vailin ərəb aləmində öz bəlağətli nitqi, ərəb dilini gözəl bilməsi ilə məşhur olduğunu nəzərə alaraq, son iki variant düzgün hesab olunmalıdır. Mətnə uyğun tərcümə də bunu təsdiqləyir:

Nə ədib, nə dəbir, nə müfəssirdir, nə də Unsurinin ərəbcədəki dili Suhbandır.

Xaqaninin (eləcə də, digər klassiklərin) bütün əsərlərinin tədqiqi zamanı belə problemlərlə üzləşirik. Məsələn, yaradıcılığında ən əhəmiyyətli əsərlərdən hesab olunan "Tuhfətul-İraqeyn"in düzgün mətninin hazırlanması xaqanişünaslıqda ən aktual problemlərdən biri kimi hələ də qalmaqdadır. Nəinki əsərə daxil olan beytlərdə, hansı hissənin hansı məqaləyə aid olmasında, hətta məqalələrin sayında belə ziddiyyətlər mövcuddur.[1]

Əgər şairin daha çox tədqiq olunan farsca yazılmış əsərləri ilə bağlı mətn problemləri müşahidə olunursa, deməli, onun illər uzunu tədqiqatdan kənarda qalan ərəbcə yazdığı əsərlərdə

[1] Bu barədə M. Sultanovun və Q.Kəndli-Herisçinin tədqiqatlarında ətraflı məlumat vardır.

məsələ daha ciddidir. Çünki bu əsərlərə müraciət edən tərcüməçilər, tədqiqatçılar İran alimlərinin tərtib etdikləri divanların sonunda *ərəbcə əsərlər* adı altında verilən varianta əsaslanmışlar. Həmin əsərlər elmi-tənqidi mətn olmadığından etibarlılıq dərəcəsi şübhə doğurur. Tədqiqat zamanı istifadə olunan dörd divanda (Əli Abdur-Rasuli, Səccadi, Kəzzazi, Foruzənfər) ərəbdilli əsərlərin müqayisəsi də bu fikri təsdiqləyir. Divanların müxtəlif əlyazma nüsxələri əsasında hazırlandığını nəzərə alsaq, belə fərqlərin olması təbiidir. Amma onlar tərcümə və tədqiqat prosesini həm çətinləşdirir, həm də təhriflərə səbəb olur. Təhriflərin qarşısını almaq üçün əsərlərin, ilk növbədə, elmi-tənqidi mətni hazırlanmalı, elmi-tənqidi mətnin hazırlanması üçün isə savadlı katiblər tərəfindən hazırlanmış əlyazma nüsxələri əldə olunmalıdır.

Xaqaninin ərəbcə yazdığı mənzum əsərlərin elmi-tənqidi mətni ilk dəfə Yusuf Asğari Bayqut tərəfindən hazırlanmış və 2017-ci ildə İranda çap olunmuşdur. Təəssüf ki, tədqiqat zamanı həmin mətni əldə edə etmək mümkün olmadı. İnternet mənbələrindən kitabdan kiçik bir hissə ilə tanışlıq göstərdi ki, tədqiqatçı dörd əlyazma nüsxəsi və Əli Abdur-Rasuli və Ziya əd-Din Səccadi tərəfindən hazırlanmış divanlardan istifadə etmişdir.

Xaqaninin ərəbcə əsərlərinin Azərbaycanda geniş yayılmadığını və istifadəsi mümkün divanlardakı mətn problemini nəzərə alaraq, ərəbcə əsərlərin təhlilinə keçməzdən əvvəl onların əks olunduğu əlyazma nüsxələrini araşdıraq.

Xaqani Şirvaninin orijinal əlyazmaları elmə məlum deyil. Amma onun müxtəlif katiblər, xəttatlar tərəfindən üzü köçürülmüş əsərlərinin əlyazmaları dünyanın bir çox ölkələrində qiymətli mənbə kimi qorunub saxlanılır. İran, Rusiya, Türkiyə, İrlandiya, Hindistan, Özbəkistan, Tacikistan, Misir, Fransa və başqa ölkələrin əlyazma mərkəzlərinin, əlyazma institutlarının fondunda şairin müxtəlif əsərlərinə rast gəlmək olar: *"Hələ tam*

olmayan məlumata görə, dünya kitab xəzinələrində ədibin 52 nüsxə külliyyatı, 188 nüsxə divanı, 171 nüsxə "Töhfətül-İraqeyn" əsəri qeydə alınmışdır".[1]

Ölkəmizdə 1997-ci ildə Xaqaninin anadan olmasının 870 illiyi,[2] 2006-cı ildə isə 880 illiyi[3] münasibəti ilə təşkil edilən konfrans materialları arasında şairin əlyazmalarından bəhs olunan məruzələrə rast gəlinir. Amma məruzələrdə verilən məlumat daha çox əlyazmaların paleoqrafik xüsusiyyətləri ilə bağlıdır, yəni istifadə olunan kağızın, mürəkkəbin, xəttin növü aydınlaşdırılmış, qrafik təsvirlərdən bəhs edilmiş, əlyazmaların məzmununa çox az yer verilmişdir. Müəllifin həyat və yaradıcılığı ilə bağlı yeni məlumatların üzə çıxarılması üçün isə əlyazma tekstoloji cəhətdən öyrənilməlidir.

Həmin materiallar arasında A. Əliyevanın "Xaqani Şirvani əsərlərinin Bakı nüsxələri" adlı məqaləsi, zənnimcə, daha aktualdır. Məqalədə Xaqani əlyazmalarının Bakı nüsxələrinin strukturu, tərtib qaydaları – paleoqrafik xüsusiyyətləri ilə yanaşı, onların məzmununa, az da olsa, yer ayrılıb. Müəllif şairin əsərlərinin Əlyazmalar İnstitutundakı ən qədim nüsxəsindən – XVI əsrə aid M–204 şifrəli əlyazmadan danışarkən bura Xaqa-

---

[1] Xaqani Şirvani. Biblioqrafiya. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Anadan olmasının 880 illiyi münasibətilə. Tərtib edən: A. Xəlilov. Bakı: Nurlan, 2006, s. 5-6

[2] Xaqani Şirvani. Anadan olmasının 870 illiyinə həsr edilmiş Respublika konfransının tezisləri. Bakı, Xəzər Universiteti nəşri, 1997: *Nağıyeva, C*. Xaqani Şirvani əsərlərinin ən çox yayılmış əlyazmaları haqqında, s. 19-21; *Nurəliyeva, T*. Xaqani Şirvaninin "Külliyyatı"nın nəfis bir əlyazması haqqında, s. 21-24; *Cabbarlı, S*. Xaqani Şirvani əsərləri bəyazlarda, s. 31-33

[3] Xaqani Şirvaninin 880 illiyinə həsr edilmiş "Orta əsr əlyazmaları Azərbaycan mədəniyyəti tarixi problemləri" mövzusunda X Respublika elmi-nəzəri konfransının materialları. Bakı, 2006: *Əliyeva, A*. Xaqani Şirvani əsərlərinin Bakı nüsxələri, s. 32-42; *Nurəliyeva,T*. Vəqf olunmuş əlyazmalarda Xaqani Şirvaninin əsərləri, s. 42 və s.

ninin ərəbcə yazdığı bir qəsidəsinin daxil olduğunu qeyd etmişdir. Adı çəkilən qəsidə Dərbənd hakiminə həsr olunan mədhiyyədir. Amma qeyd edək ki, həm M–204, həm də müəllifin tədqiqata cəlb etdiyi M–242, M–413 və s. kimi əlyazmalarda da Xaqaninin ərəbcə əsərləri yer alıb.

Tədqiqat zamanı Azərbaycan (Bakı) və Rusiya (Sankt-Peterburq) kitabxanalarının əlyazma fondlarını ənənəvi (kitabxana), Türkiyə, İrlandiya (*Chester-Beatty*), Fransa kitabxanalarının əlyazma fondlarını isə rəqəmsal (online) şəkildə araşdırmaqla bu sahədə müəyyən məlumat əldə etdik.

Ərəbcə əsərlərin əlyazmalarda necə əks olunduğuna keçməzdən əvvəl bir neçə qeydi diqqətə çatdıraq:

1) Rusiya Elmlər Akademiyası Şərq Əlyazmaları İnstitutunun fars və tacik əlyazmalarını tədqiq edən Hamid Niyazoviç Niyazov Xaqaninin ərəb dilinə tam bələd olduğunu nəzərə alaraq, onun hər iki dildə yazdığı əsərlərdən ibarət xüsusi əlyazmaların ola bilmə ehtimalını irəli sürmüşdür.[1]

Amma hələ ki, bu ehtimal özünü doğrultmayıb, yəni ancaq ərəbcə əsərlərdən ibarət əlyazma elmə məlum deyil.

2) Şairin əsərlərinin Əlyazmalar İnstitutu tərəfindən hazırlanmış biblioqrafiyasında Bakı nüsxələri arasında BƏİ–B-2479/I və BƏİ–S–63 şifrli əlyazmaların ərəb dilində olduğu göstərilib.[2] Lakin adı çəkilən əlyazmalar fars dilindədir və burada şairin ərəbdilli yaradıcılığından nümunələr öz əksini tapmayıb.

3) *Türkiye Yazma Eserler Kurumu Başkanlığı.*na daxil olan *Diyarbakır İl Halk Kütüphanesi.*ndə (Koleksiyon no. 1250. Bib-

[1] *Ниязов, Х. Н*. Описание персидских и таджикских рукописей Института востоковедения. Москва, 1979, с. 5

[2] *Xaqani Şirvani*. Biblioqrafiya. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Anadan olmasının 880 illiyi münasibətilə. Tərtib edən: A. Xəlilov. Bakı: Nurlan, 2006, s. 42-43

liyografik kayıt no. 420683) saxlanılan əlyazma da *ərəbcə divan* kimi təqdim olunmuşdu. Amma əlyazmaya baxış zamanı məlum oldu ki, buradakı əsərlərin əsas hissəsi fars dilindədir. Ərəbcə əsərlərdən ancaq çox az bir nümunə – vərəq 55 a-da imam Muhammməd Yəhyaya həsr olunan qəsidə (16 beyt), vərəq 66 b-67a-da 2 ikibeytlik şeir verilib. Qəsidə digər şeirlər kimi أيضا *həmçinin*, kiçik şeirlər isə أيضا في العربية *həmçinin ərəbcədə* adı altında təqdim olunub.

Aşkar olunan xəta barədə *Türkiye Yazma Eserler Kurumu Kataloglama ve Tasnif Birimi.*nə məlumat verdik. 24.01.2024 tarixində əlyazmanın dilinin farscaya dəyişdirilməsi ilə bağlı bildiriş aldıq.[1]

Deməli, divan və külliyyatlarda hər iki dildə olan əsərlər qarışıq şəkildə yer alıb. Ərəbcə əsərləri üzə çıxartmaq üçün bütün nüsxə diqqətlə araşdırılmalıdır. Tədqiqat zamanı müraciət olunan nüsxələr və həmin nüsxələrdə aşkar edilən ərəbcə beytləri aşağıdakı şəkildə qruplaşdırmaq olar:

Bakı nüsxələri. Azərbaycanda Xaqaninin əlyazmaları ilə bağlı AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu və Azərbaycan Milli Kitabxanasının fondunda araşdırma apardıq. Əlyazmalar İnstitunun fondu daha zəngin olduğuna görə, əvvəlcə orada saxlanılan əlyazmalara toxunaq.

Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Xaqaninin külliyyatının, divanının, müxtəlif əsərlərinin, əsərlərinə yazılan şərhlərin qədim əlyazmaları arasında ən qiymətlisi **M** şifri altında qorunan nüsxələrdir. Ərəbcə olan əsərlərdən nümunələr müxtəlif nüsxələrdə bu və ya digər dərəcədə yer alıb. Həmin nüsxələri incələdikdən sonra əldə etdiyimiz nəticə aşağıdakı kimidir:

[1] https://portal.yek.gov.tr/works/detail/274294

1) B–1978 şifrəli Cüng əlyazması. Bura Xaqaninin ərəbdilli yaradıcılığından yalnız bir əsər – Məlikul-Əʿzam Alə əd-Dinə həsr olunan qəsidə daxildir. 45 beytlik qəsidənin 44 beyti əlyazmada öz əksini tapmışdır. Qırmızı haşiyədə qırmızı mürəkkəblə ايضا في مدحه (*həmçinin onun mədhi haqqında*) başlığı ilə təqdim olunan qəsidənin oxunaqlıq dərəcəsi normaldır.

2) B–7763 şifrəli *Divan* nüsxəsi. Təxminən XVII əsrə aid edilən əlyazmada şairin ərəbdilli yaradıcılığından xeyli nümunəyə – Bağdada və Dərbənd hakimi Seyf əd-Din Əbul-Muzəffər bin Muhammədə həsr olunan qəsidələrə, 3 ikibeytlik, 2 üçbeytlik, 1 altıbeytlik şeirə rast gəlindi. در ستایش بغداد کوید (*Bağdadın tərifində deyir*) adı altında təqdim olunmuş Bağdad qəsidəsindən 67 beyt (əslində 69 beytdən ibarətdir), Dərbənd hakiminə həsr olunmuş 48 beytlik qəsidədən 37 beyt verilib, yəni əlyazmada şairin ərəbdilli irsindən **122** beyt öz əksini tapıb. Qara və qırmızı mürəkkəbdən istifadə olunan əlyazmanın vəziyyəti qənaətbəxşdir, oxunaqlıq dərəcəsi yaxşıdır. Lakin xəttat işi yüksək səviyyədə deyil, demək olar ki, hər beytdə katib xətaları ilə rastlaşırıq.

3) M–204 şifrəli XVI əsrə aid *Divan* nüsxəsi. Burada ərəbcə yazılan əsərlərdən Dərbənd hakiminə həsr olunan qəsidə və Yəmənin vəsf olunduğu qitə (6 beyt) öz əksini tapıb. ايضا له *həmçinin onundur* başlıqlı ərəbcə qəsidədən 13 beyt təqdim olunub. Ümumilikdə, əlyazmaya ərəbcə **19** beyt daxildir.

4) M–242 şifrəli *Divan* nüsxəsi. Əlyazma ərəbdilli əsərlərin öyrənilməsi üçün ən qiymətli mənbələrdəndir. Vərəqlər müxtəlif rəngli haşiyəyə alınmış, beytlər qızılı rəngli haşiyədə qara və qırmızı mürəkkəblə yazılmışdır. Əlyazma yaxşı vəziyyətdədir, bəzi beytlərdə müəyyən problemlər müşahidə olunsa da, oxunaqlıq dərəcəsi normaldır. XVII əsrin birinci yarısına aid edilən, 478 vərəqdən ibarət əlyazmanın 287-ci vərəqindən ərəbcə əsərlər başlamış və 297-ci vərəqə kimi davam etmişdir. Daha dəqiq desək, ərəbcə əsərlər في مدح شيروان بالعربية (*Şirvanın*

ərəbcə mədhi) başlığı ilə verilən Şirvanla Bağdadın müqayisəsindən ibarət olan qitə ilə başlamış və 297 b vərəqində iki beytlik şeir ilə tamamlanmışdır. Burada Bağdada, İmam Muhammməd Yəhyaya (qəsidənin özü və müqəddiməsi), Məlikul-Əʿzam Alə əd-Dinə (qəsidənin özü və müqəddiməsi), Dərbənd əmiri Seyf əd-Din bin Muhammədə, Muhammməd Səm‘aniyə həsr olunan mədhiyyələr, bir çox qitələr, ayı-ayrı beytlər öz əksini tapıb. Şairin yaradıcılığında əsas yer tutan 171 beytlik mədhiyyə قصيدة (*qəsidə*) adı altında təqdim olunmuş və əsərdən cəmi 4 beyt verilmişdir. Bu hal yalnız Bakı nüsxələri üçün deyil, əksər əlyazmalar üçün xarakterikdir. Səccadi də bu cəhətə toxunmuş və istifadə etdiyi İran nüsxələrinin çoxunda sözü gedən qəsidədən 4 beytin verildiyini göstərmişdir.[1]

Əlyazmada İran alimləri tərəfindən hazırlanan divanlardan yalnız Səccadi nəşrinə daxil edilən, Muhammməd Yəhyaya həsr olunan mərsiyənin sonunda verilən beytə *mufrad* (bir beytlik şeir) şəklində rast gəlindi:

هذا درب العلم الساطر اجود ما حادثه خاطري

Bu, elmin göstərdiyi yoldur, onunla biliyimi (savadımı) daha da artırıram.

Eyni vəziyyətin bir neçə əlyazmada təkrarlandığı və beytin qəsidənin məzmununa və qafiyəsinə uyğun gəlmədiyi nəzərə alınaraq, monoqrafiyada o, əlyazmalarda olduğu kimi, bir beytlik şeir kimi təqdim olunub.

Ümumilikdə, əlyazmada ərəbcə yazılmış **321 beyt və iki dibaçə** aşkar edildi.

[1] خاقانی شروانی. دیوان. تصحیح ضیاء الدین سجادی. تهران، ۱۳۳۸، ص. ۹۳۹

5) M–413 şifrəli *"Paleoqrafik xüsusiyyətlərinə görə, XVIII əsrə aid edilən"* [1] əlyazma fərqli qaydada tərtib olunub. Burada səhifələrin kənarları boş yerlər saxlanılmadan nizamsız şəkildə beytlərlə doldurulduğuna görə o, xəttatlıq nümunəsindən çox şairin cızma-qara etdiyi dəftəri xatırladır. Belə bir struktur əlyazmanın oxunma prosesini bir qədər çətinləşdirir. Burada da şairin ərəbdilli əsərləri Şirvana həsr etdiyi qitə (8 beyt) ilə başlamışdır. Əlyazmaya Dərbənd əmirinə həsr olunan qəsidə (46 beyt), Bağdada həsr olunmuş qəsidə (65 beyt), İmam Muhammməd Yəhyanın ölümünə yazılan mərsiyə (14 beyt) və müqəddimə, Muhəmməd Səm'aniyə həsr olunan qəsidə (13 beyt), Cəlal əd-Dinə həsr olunan mədhiyyə (4 beyt), Rey səfərinə həsr olunan qitə (17 beyt), qocalıq haqqında qitə (11 beyt), İraqa həsr olunan qitə (10 beyt), 9 beytlik qitə, İzz əd-Dinə həsr olunan qitə (3 beyt), 4 dördbeytlik şeir (16 beyt), 3 üçbeytlik şeir (9 beyt), 11 ikibeytlik (22 beyt) şeir parçası daxildir. Ümumilikdə, əlyazmada ərəbcə yazılmış **247 beyt və bir dibaçə** aşkar etmək mümkün oldu.

6) M–247 şifrəli *Külliyyat* (كلّيات خاقانى) nüsxəsi. 470 vərəqdən ibarət əlyazma ərəb dili baxımından xüsusi əhəmiyyət kəsb edir. Əgər yuxarıda adı çəkilən əlyazmalarda şairin ərəbdilli əsərləri arasında əsas yeri tutan 171 beytlik qəsidəsindən cəmi 4 beyt verilibsə, bu əlyazma məhz həmin qəsidə ilə başlamış və qəsidənin 166 beyti burada öz əksini tapmışdır. Bağdadın mədh olunduğu qəsidə (68 beyt), Dərbənd hakiminə həsr olunan qəsidə (46 beyt), Məlikul-Əʿzam Alə əd-Dinə həsr olunan qəsidə (44 beyt), Muhammməd Yəhyaya həsr olunan qəsidə (17 beyt), Yəmənə həsr olunan qitə (6 beyt), 1 altıbeytlik, 3 dördbeytlik, 3 ikibeytlik və 1 üçbeytlik qitəni də nəzərə alsaq,

[1] *Kərimov, P.* Xaqani əsərlərinin AMEA Əlyazmalar İnstitutunda saxlanan əlyazmaları // Bakı: Ədəbiyyat məcmuəsi, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Əsərləri, 2017. XXX c., s. 83

əlyazmada ərəbcə yazılmış **330 beyt** üzə çıxarıldı. Titul səhifəsi xəttat Qulam Darabadi tərəfindən bərpa edilən əlyazmaya "Tuhfətul-İraqeyn" əsəri də daxildir.

Əlyazmada "قَوْلُ القاضِى التَّنُوخى" (*Qazi ət-Tənuxinin deyimi*) (Qazi Əbu Ali əl-Muhsin bin Ali ət-Tənuxi hicri IV əsrdə yaşamış ərəb alimi, şairi və tarixçisi olub) başlığı altında təqdim olunmuş ərəbcə bir beytə rast gəlindi:

لقد احسن الله فيما مضى كذلك يحسن فما بقي

Araşdırma zamanı beytə İmam Əli ibn Əbi Talibin divanında rast gəlindi:

رَضِيتُ بِما قَسَمَ الله لِي و فَوَّضْتُ أَمْرِي إِلَى خالِقِي
كَما أَحْسَنَ الله فِيما مضَى كَذَلِكَ يُحْسِنُ فِيما بَقِي[1]

Allahın mənə verdiyi qismətlə razılaşdım (qane oldum) və işimi yaradanıma (xaliqimə) həvalə etdim.

Allah əvvəllər hər şeyi yaxşı etdiyi kimi, bundan sonra da yaxşı edəcək.

Beyt digər əlyazmalardan *Lala İsmail* kolleksiyasına aid nüsxədə (vərəq 246) عنى به قول القاضي التنوخي *bununla qazi ət-Tənuxinin sözü nəzərdə tutulub* adı ilə təqdim olunub.

Fransa Milli Kitabxanasına aid nüsxəyə isə hər iki beyt daxil edilmiş və Xaqaniyə aid əsər kimi göstərilmişdir (Persan 1816, vərəq 189 b).

7) M–34 şifrəli əlyazma şairin *Külliyyat* nüsxəsidir. Qızılı haşiyədə qara və qırmızı mürəkkəblə yazılmış əlyazmada ərəbcə əsərlərdən Yəmənə həsr olunmuş qitə – 6 beyt, 2 ikibeytlik və 1 üçbeytlik şeir, yəni **13 beyt** yer alıb.

[1] أمير المؤمنين الامام عليُّ ابْنُ أَبِي طالِب. ديوان. جماع وترتيب عبد العزيز الكرم. ١٤٠٩ هـ - ١٩٨٨ م، ص. ٧١؛ السبكى، تاج الدين أبو نصر عبد الوهاب بن على بن عبد الكافي. طبقات الشافعية الكبرى. الجزء الخامس، ص. ١٨٠

Azərbaycan Milli Kitabxanasının fondu əlyazma cəhətdən zəngin deyil. Burada Xaqani Şirvaninin yaradıcılığı ilə bağlı bir neçə əlyazmaya təsadüf edildi. Həmin əlyazmalardan biri əsli Avstriya Milli Kitabxanasında saxlanılan "Tuhfətul-İraqeyn" poeması, Xaqani də daxil olmaqla Şərq şairlərinin qəzəllər toplusundan ibarət Cüng əlyazması, digəri isə Xaqaninin əsərlərinə yazılan şərhdir. Tədqiqatın mövzusuna uyğun olaraq, ancaq şairin ərəbcə yazdığı əsərlərin əks olunduğu əlyazmaları qeyd edək:

1) **B–516** şifrəli كلّيّات خاقانى (*Xaqaninin Külliyyatı*). Əslində bu, əlyazma yox, Xaqaninin əsərlərinin qədim Laknau çapıdır. Hazırlanma tarixi 1908-ci ilə aid edilən nəşrin son vərəqində latın qrfikası ilə şairin adı *Hcakanı Hcsırvanı* kimi, tərtibçinin adı isə qədim kiril əlifbası ilə *Мирза-Джафарь С.Мамедовь* kimi qeyd olunub. 954 vərəqdən ibarətdir. Cildin üzərində جلد اول *birinci cild* sözləri də öz əksini tapıb. Nəşrin kənarlarında fars dilində nəsrlə yazılar var. "Şiniyyə" ilə başlayır. Şirvanşah Mənuçehrə, Axsitana, Qızıl Arslana, Seyf əd-Dinə və s. farsca yazılan müxtəlif mədhiyyələr, mərsiyələr, qitələr, tərkibbəndlər, rubailər, mufradlar və s. burada öz əksini tapıb. Nəşrin həcmi böyük olsa da, ərəbcə şeirlərın sayı çox azdır. Ola bilsin ki, onların çoxu ikinci cildə salınıb ki, o da əlimizdə yoxdur. Bu cildin maraqlı cəhəti budur ki, şairin ərəbcə yazdığı iki beytlik şeirlər digər əlyazmalardan və nəşrlərdən fərqli olaraq burada *rubai* adı altında təqdim olunub.

2) **B–1** şifrəli "ديوان خاقانى" (*Xaqaninin Divanı*). Əlyazma 267 vərəqdən ibarətdir və səliqəli tərtib olunmayıb. İlk səhifədə fransız şərqşünası *Barthélemy d'Herbelot de Molainvillenin* əllə yazdığı ön söz var. Avropada Şərq şairləri haqqında ilkin məlumat verən d'Herbelotun Xaqani barədə fikirlərini əks etdirən bu sözlər daha geniş şəkildə alimin tərtib etdiyi kitabda öz əksini

tapıb.[1] Həmin məlumatın fransız dilindən tərcüməsi ilə Nailə Tağıyevanın məqaləsində tanış olmaq olar.[2]

Xəttat işinin səviyyəsi, istifadə olunan mürəkkəbin, kağızın keyfiyyəti yüksək deyil. Əksər səhifələrdə yazıların pozulması, mürəkkəb ləkələri onun oxunmasını daha da çətinləşdirir. Bu əlyazma da "Şiniyyə" ilə başlayır. Burada, çətinliklə də olsa, ərəbcə bir neçə qəsidə aşkar etmək mümkün oldu: Bağdad qəsidəsi (vərəq 85), Dərbənd hakiminə həsr olunan qəsidə (vərəq 93), Alə əd-Dinə yazılmış qəsidə (vərəq 96) və s.

Sankt-Peterburq nüsxələri. REA Şərq Əlyazmaları İnstitutunun fondunda klassik şairlərimizin qiymətli əlyazmaları saxlanılır. İnstitutun fars və tacik əlyazmalarını tədqiq edən H. N. Niyazovun məlumatına görə, Xaqani Şirvaninin ("Tuhfətul-İraqeyn") və Nizami Gəncəvinin ("Xəmsə", "Xosrov və Şirin") əsərləri Asiya muzeyi (indiki Şərq Əlyazmaları İnstitutu) yarandığı tarixdən (1818-ci il) etibarən onun bədii ədəbiyyat fondunda olub.[3] Xaqaninin əlyazmaları haqqında müxtəlif alimlər tərəfindən məlumat verilsə də, onlar geniş şəkildə araşdırılmamışdır. Oleq Fyedoroviç Akimuşkinin (1929–2020) "Rusiya Elmlər Akademiyasının Şərq Əlyazmaları İnstitutunun kolleksiyasında farsca əlyazmalar toplusu" adlı məqaləsindən belə məlum olur ki, REA-nın Şərq əlyazmaları fondunda C 1424 şifri altında saxlanılan Divan nüsxəsi Xaqaninin fonddakı ən

[1] *M. D'herbelot*. Bibliotheque Orientale ou Dictionnaire Universel Contenant. Tout ce qui fait connoître les Peuples de l'Orient. Paris, Compagnie des libraires, 1697. Tome second, F – M. Pp. 415-416

[2] *Тагиева, Н*. Хагани Ширвани во франкоязычных исследованиях // Bakı: Müqayisəli ədəbiyyatşünaslıq, 2023, № 2, s. 101-103

[3] *Ниязов, Х. Н*. Описание персидских и таджикских рукописей Института востоковедения. Выпуск 8: Персоязычная художественная литература (XI-начало XIII в.). Москва: Наука, 1979, с.3

qədim əlyazmasıdır. Riq´i xətlə yazılmış əlyazmanın XIV əsrin əvvəllərində Xarəzmdə hazırlandığı ehtimal edilir.[1]

Şairin əsərlərinin 15 əlyazma nüsxəsinin paleoqrafik və tekstoloji xüsusiyyətləri haqqında maraqlı faktlar təqdim edən H. N. Niyazov həmin nüsxələrdəki ərəbcə əsərlərə də toxunmuş və C 61 (181a) və B 136 (181c) şifrəli əlyazmalarda qəsidə, qəzəl və qitələrdən ibarət 40-a yaxın ərəbcə əsərin olduğunu göstərmişdir.[2] Tədqiqatçının "*Xaqani poeziyasının yeni bir xüsusiyyətini – ikidilliliyini üzə çıxartmaq məhz şairin əlyazmalarının tekstoloji cəhətdən öyrənilməsi sayəsində mümkün oldu. Onun divan nəşrlərində rast gəldiyimiz ayrı-ayrı ərəb şeirləri əvvəlcə yad dildə qələmini sınamaq kimi qəbul edilirdi. Amma C 61 və B 136 şifri altında qeydə aldığımız əlyazmalarda şairin ərəbcə yazdığı onlarla əsər bizə göstərdi ki, ərəb dili Xaqani üçün fars dili kimi özünü ifadə vasitəsi olub. O, hər iki dili mükəmməl bilib*"[3] kimi məlumatına istinad etsək, həmin əsərlər tekstoloji cəhətdən öyrənilmişdir, lakin rusiyalı alimlərin Xaqaninin ərəbcə əsərləri barədə geniş məlumatına heç yerdə rast gəlinmir. Bəlkə də Niyazov şairin ərəbcə yazdığı əsərlərin həcminə əsasən bu qənaətə gəlmişdir. Əks təqdirdə, o, şairin ərəbcə əsərlərindən danışarkən C 61 və B 136 şifrəli əlyazmalarla yanaşı, O. F. Akimuşkinin ən qədim əlyazma kimi xarakterizə etdiyi C 1424 şifrəli əlyazmanı da qeyd edərdi.

REA Şərq Əlyazmaları İnstitutunda apardığımız araşdırmanın nəticəsi olaraq, şairin ərəbcə əsərlərinin əks olunduğu əlyazmaları belə göstərmək olar:

---

[1] *Акимушкин, О. Ф.* Коллекция персидских рукописей в собрании Института восточных рукописей РАН // Санкт-Петербург: Письменные памятники Востока, 2 (11). 2009, с. 166

[2] *Ниязов, Х. Н.* Описание персидских и таджикских рукописей Института востоковедения. Москва, 1979, с. 60-61

[3] *Ниязов, Х. Н.* Описание персидских и таджикских рукописей Института востоковедения. Москва, 1979, с.5

1) C 61 şifrəli خاقانى ديوان (*Xaqaninin Divanı*). Təxminən XVI əsrə aid bu əlyazma şairin ərəbcə şeirlərini araşdırmaq baxımından qiymətlidir. Əlyazma savadlı və peşəkar xəttat tərəfindən nəstə'liq xətti ilə yazılıb. Amma təbii olaraq, bəzi nöqsanlardan da xali deyil. Əlyazmada ərəbcə şeirlər Bağdada həsr olunan qəsidə ilə başlayır və 173 a–181 a vərəqləri əhatə edir. Şairin ərəbcə yazdığı bizə məlum 6 qəsidədən dördü burada öz əksini tapıb. Onlardan üçü ardıcıl şəkildə düzülüb və nömrələnib:

قصيدة الثالث والماية كتاب العربية في مدح شهر بغداد بصنعت ذى المطالع

Bağdad şəhərinin mədhinə ərəbcə mətlə sənəti ilə yazılmış 103-cü qəsidə – 173 a-174 b;

قصيدة الرابع والماية في مدح سيف الدين أبو المظفر ابن محمد

Seyf əd-Din Əbul-Muzaffar ibn Muhammədin mədh olunduğu 104-cü qəsidə – 174 b-176 a;

قصيدة الخامس والماية في مدح جلال الدين منوچهر مشتمل در شكايت اوطان واخوان بصنعت ذى المطالع

Vətəndən və qardaşlıqdan şikayəti əhatə edən, Cəlal əd-Din Mənuçehrin mədhi haqqında mətlə sənəti ilə yazılmış yüz beşinci qəsidə – 176 a-179 a.

Ərəbcə digər şeirlər vərəq 179 a-dan başlayaraq في الغزليات العربية *ərəbcə qəzəllərində* adı altında verilib və bir-birindən ايضا *həmçinin* sözü ilə ayrılıb. Vərəq 180 a-da son qısa şeir bitir və növbəti qəsidə başlayır:

قصيدة الخامس والماية في مدح نظام الملك علاء الدين خراساني

Nizam əl-Mulk 'Alə əd-Din Xorasaninin mədh olunduğu yüz beşinci qəsidə – 180 a-181 a.

Əslində, Cəlal əd-Dinə həsr olunan qəsidənin nömrəsinə baxsaq, sonuncu 106-cı qəsidə olmalı idi. H. N. Niyazov da bu

faktı qeyd etmişdir: "... *axırdan əvvəlki qəsidənin nömrəsi səhvən iki dəfə təkrarlanıb*".[1]

Şairin əlyazmaları arasında bu nüsxənin bir neçə cəhətdən üstünlüyü var:

a) Katib işi yaxşıdır;

b) Bağdada həsr olunan iki mətlədən ibarət qəsidə ancaq bu əlyazmada 69 beytdən ibarətdir. Birinci mətlənin 25-ci beyti digər mənbələrdə öz əksini tapmayıb.

فامسك بغداد ويومها رغبا ينسيك مصر نداء بغداد

Bağdada tutun, onu istədiyin gün Bağdadın çağırışı sənə Misri unutduracaq.

Bu beyt əsasında şairin Bağdada həsr etdiyi qəsidəni 69 beytlik əsər kimi təqdim edirik.

c) Şairin mənbələrdə fərqli adlar altında təqdim olunan ərəbcə yazdığı ən böyük şeirinin – 171 beytlik qəsidəsinin kimə həsr olunduğu aydınlaşır. Bu barədə qəsidədən danışılarkən ətraflı məlumat verilmişdir.

Niyazov əlyazmanın tekstoloji xüsusiyyətlərindən bəhs edərkən, onu "Piruz" nəşri ilə müqayisə etmiş və qəsidələrdəki beytlərin sayı ilə bağlı düzgün nəticə əldə etməmişdir. Divanlar arasında, həcm baxımından, ən etibarlısının Səccadi nəşri olduğunu nəzərə alaraq, həmin divanla müqayisədə əlyazmada Cəlal əd-Dinə həsr olunan 171 beytlik qəsidə 127 beytdən, Seyf əd-Dinə həsr olunan qəsidə 47 beytdən, Alə əd-Din Xorasaniyə həsr olunan mədhiyyə 44 beytdən ibarətdir. Ümumilikdə ərəbcə **330 beytin** yer aldığı əlyazmanın son vərəqləri nəzərə alınmazsa, oxunaqlıq dərəcəsi qənaətbəxşdir.

2) B 136 şifrəli ديوان خاقانى (*Xaqaninin Divanı*). Əlyazma təxminən XVI əsrin sonlarına aiddir. Burada ərəbcə **322 beyt**

[1] *Ниязов, Х. Н.* Описание персидских и таджикских рукописей Института востоковедения. Москва, 1979, с.61

və **iki dibaçə** aşkar edildi. 418 vərəqdən ibarət əlyazmada ərəbcə şeirlər 328-ci vərəqdən başlayır. Bütün şeirlər adsız təqdim olunub. Katib işi yüksək səviyyədə deyil.

3) C 1424 şifrəli دیوان خاقانی (*Xaqaninin Divanı*). XIV əsrə aid edilən əlyazmada Cəlal əd-Dinə həsr olunan qəsidə geniş şəkildə verilsə də, qəsidənin əvvəli yoxdur. Vərəq 102 b-də fars dilində olan qəsidənin sonu və vərəq 103 a-da Cəlal əd-Dinə həsr olunan qəsidənin əvvəli olmadığına görə, belə nəticəyə gəlirik ki, aradakı vərəq itib-batmışdır. Əlyazma aydın tərtib olunmayıb. Burada ərəbcə **325 beyt** aşkar edildi.

Türkiyə nüsxələri. Online şəkildə araşdırma apardığımız əlyazma fondlarından biri **Türkiye Yazma Eserler Kurumu Başkanlığının** əlyazma fondudur. Qurumun kataloqunda şairin adı *Hâkânî-i Şirvânî, Efdalüddin İbrâhim (Bedîl) b. Ali el-Gencevî eş-Şirvânî* kimi qeyd olunmuşdu. Bu barədə *Türkiye Yazma Eserler Kurumu Kataloglama ve Tasnif Birimi.*nə məlumat verildi. 03.07.2024 tarixində şairin adından *Gəncə* nisbəsinin götürülməsi haqqında bildiriş aldıq.

Qurumun online kataloqunda Xaqaninin divanı, külliyyatı, münşəatının Türkiyənin müxtəlif (*Nuruosmaniye, Süleymaniye, Diyarbakır, Topkapı Sarayı və s.*) kitabxanalarında saxlanılan əlyazmaları ilə tanış olmaq və rahat şəkildə onlardan istifadə etmək mümkündür. Fondda şairin təxminən 41 əlyazması saxlanılır. Həmin əlyazmalardan ərəbcə irsin öyrənilməsi sahəsində etibarlı hesab etdiklərimiz aşağıdakılardır:

1) *Süleymaniye Kütüphanesi 03810 nömrəli Fatih* kolleksiyasından hicri 702-ci il tarixli *Divan* nüsxəsi – **242153 nömrəli əlyazma.** 275 vərəqdən ibarət əyazma çox səliqəli tərtib olunub. Başlıqlar qırmızı mürəkkəblə, mətn qara mürəkkəblə qırmızı haşiyədə verilib. Eləcə də, mətnlərdə katibin sözlərini müəllifin sözlərindən ayırmaq üçün qırmızı mürəkkəbdən istifadə olunub. Əlyazmada ərəbcə əsərlərə geniş yer verilib; vərəq 184 b-də 3 beytlik və 6 beytlik ərəbcə şeirə rast gəlindi. Vərəq 202 a-dan

208 a-ya qədər isə و له العربيات *və onun ərəbcələri* adı altında ardıcıl şəkildə düzülüb: Dərbənd hakimi Seyf əd-Dinə həsr olunan qəsidə (47 beyt), Alə əd-Dinə həsr olunan qəsidənin müqəddiməsi və qəsidə (44 beyt), Muhammət Yəhyaya həsr olunan müqəddimə və qəsidə (15 beyt), Səccadi nəşrində həmin mərsiyənin sonuna əlavə edilən beyt M–242 şifrəli Bakı nüsxəsində olduğu kimi, mufrad şəklində, Cəlal əd-Dinə həsr olunan qəsidədən 4 beyt, Bağdada həsr olunan əsərdən 4 beyt, ayrı-ayrı kiçik həcmli əsərlər (31 beyt), ağ saçlar haqqında olan qitə (11 beyt), hikmətlə bağlı qitə (9 beyt), Muhammət Səm'aniyə həsr olunan qəsidə (14+6=20 beyt), 6 beytlik şeir, Rey haqqında olan qitə (17 beyt), İraq torpağına aid qitə (10 beyt), Şirvanla Bağdadın qarşılaşdırıldığı qitə (8 beyt). Ümumilikdə, əlyazmada **ərəbcə 231 beyt və iki müqəddimə** aşkar edildi.

Əlyazmada şairin ərəbcə əsərlərindən elmə məlum olmayan yeni beytə də rast gəlindi. Dərbənd hakimi Seyf əd-Dinə həsr olunan qəsidə əlyazmada 47 beytdən ibarətdir, bizə məlum bir beyt burada öz əksini tapmayıb, əvəzində isə yeni beyt var. Həmin beyt belədir:

جرّت السماء إلى خيامك فأنتحت تحت الطناب كعاجز متستّر

Səma sənin çadırına doğru sürükləndi və (onun) kəndirləri altında gizlənmiş aciz biri kimi öz istiqamətini dəyişdi.

Əgər qəsidə bu günə kimi 47 beyt şəklində təqdim olunurdusa, bu beyt sayəsində 48 beyt şəklində göstərilməlidir.

2) *Süleymaniye Kütüphanesi Lala İsmail* kolleksiyasındakı **296268 nömrəli** əlyazma. Çox səliqəli tərtib olunub. Başlıqlar qırmızı mürəkkəblə, mətn özü isə tünd qara rəngli mürəkkəblə yazılıb.

363 vərəqdən ibarət əlyazmada ərəbcə əsərlərə geniş yer verilməyib, eləcə də ərəbcə olan beytlər ardıcıl şəkildə deyil,

dağınıq haldadır: vərəq 136 b-137 b-də Dərbənd hakimi Seyf əd-Dinə həsr olunan qəsidə 47 beyt şəklində, vərəq 172 a-da Muhammməd Yəhyaya həsr olunan müqəddimənin kiçik bir hissəsi qırmızı mürəkkəblə verilib, ardınca isə mərsiyə tam şəkildə (17+1) qara mürəkkəblə yazılıb, vərəq 223 a-da 2 beyt, 223 b-də 2 beyt, vərəq 229 b-də 3 beytlik şeir, vərəq 245 a-da 4 beytlik şeir, vərəq 247 b-də 2 beyt, vərəq 251a-da 4 beyt, vərəq 259 a-da 3 ikibeytlik şeir, vərəq 289 a-da 6 beyt, vərəq 325 b-də 6 beyt.

Burada ümumilikdə, **100 beyt** aşkar etmək mümkün oldu.

3) *Süleymaniye Kütüphanesi Damad İbrahim Paşa* kolleksiyasından 233028 nömrəli əlyazma isə Xaqaninin bütün irsinin öyrənilməsi üçün çox qiymətli bir mənbədir. İstinsah tarixi qeyd olunmayan bu əlyazma şairin *Külliyyat* nüsxəsi olub 214 vərəqdən ibarətdir. Burada başlıqlar qırmızı mürəkkəblə, beytlər qara mürəkkəblə olmaqla 4 sütunda yazılıb. Əlyazma çox səliqəli tərtib olunub. Ərəbcə mətnlərdə hərəkələr qoyulub. Burada da onlar dağınıq haldadır. Ərəbcə şeirlərə vərəq 78 b-dən başlayaraq rast gəlindi. ايضا له بمدح الملك صاحب الدربند (Dərbəndin sahibi olan hökmdarın mədhi) adı altında Dərbənd hakiminə həsr olunan qəsidə (vərəq 78 b–79 a), Alə əd-Dinə həsr olunan qəsidə (79 a–79 b), Bağdada həsr olunan qəsidə (92 b–93 a), kiçik həcmli şeirlər) (121 b, 122 a), Yəmənin vəsfi (vərəq 155 b) və s. kimi şeirlərlə 177 a vərəqinə qədər davam edir. Vərəq 177 a–177 b-də "Tuhfətul-İraqeyn" əsərinin dibaçəsi, 178 b–206 b-də poemanın özü, 207 a-b fars dilində nəsrlə yazı, vərəq 208 a–211 a Qutb əd-Din əl-Əbhəriyə, 211 b–213 a-da isə Əvhəd əd-Din əl-Ğəznəviyə ərəbcə yazılmış məktublar yer alıb. Təxminən ərəbcə **191 beyt və iki məktub** aşkar edildi.

Şairin əlyazmaları arasında bu nüsxənin də əhəmiyyətini xüsusi vurğulamaq lazımdır:

a) Mətn savadlı katib tərəfindən tərtib olunub. Şairin ərəbcə əsərlərinin monoqrafiyanın sonunda təqdim olunan elmi-tənqidi mətninin hazırlanmasında ondan çox istifadə olunub.

b) Əlyazmada Xaqaninin ərəbcə yazdığı 2 məktub yer alıb. Azərbaycan alimi Qutb əd-Din əl-Əbhəriyə və Əvhəd əd-Din əl-Ğəznəviyə ünvanlanmış məktublarla bağlı daha geniş məlumatla monoqrafiyanın müvafiq paraqrafında, məktubların mətni ilə isə kitabın sonunda tanış olmaq olar. Burada hər iki məktubun əlyazmada necə əks olunduğuna toxunmaq istərdik; vərəqlərin kənarlarında bəzi qeydlər var. Onların çoxu qırmızı mürəkkəblə yazılıb və mətndə çətin hesab olunan sözlərin izahından ibarətdir. Qara mürəkkəblə yazılan qeydlər də var ki, onlar sayca azdır və əlyazmanın özü haqqında izah verir. Məsələn, belə qeydlərdən biri vərəq 1 b-nin ən aşağı sol küncündə yer alıb: *məktubun əvvəlindən bura kimi Qubbay(n)i əd-Durriyyi ləqəbli fağır bəndə İsmayılın xətti ilə yazılıb*. Bu da növbəti vərəqlərin başqa xəttat tərəfindən yazıldığını göstərir. Həqiqətən, əlyazmanın həmin vərəqi, növbəti vərəqlərlə müqayisədə, daha aydın yazılıb və nisbətən hərəkələr qoyulub.

208 a–213 a vərəqləri əhatə edən məktublar belə bir başlıq altında təqdim edilmişdir:

هَذِهِ رَسَائِلُ أَنْشَأَهَا الصَّدْرُ الْكَبِيرُ الْعَالِمُ الْعَادِلُ الْمُفْضِلُ أَفْضَلُ الدُّنْيَا وَالدِّينِ، عَلَاءُ الْإِسْلَامِ وَالْمُسْلِمِينَ، مَلِكُ الْفُضَلَاءِ فِي الْعَالَمِينِ، آيَةُ الْحَقِّ حُجَّةُ اللهِ عَلَى الْخَلْقِ حَسَّانُ الْعَجَمِ الْخَاقَانِي قَدَّسَ اللهُ رُوحَهُ وَ نَوَّرَ ضَرِيحَهُ.
وَالرِّسَالَةُ الْأُولَى مُنْفَذَةٌ مَبْعُوثَةٌ إِلَى الشَّيْخِ الإِمَامِ قُطْبِ الدِّينِ حُجَّةِ الْإِسْلَامِ وَالْمُسْلِمِينَ صَدْرِ الْعُلَمَاءِ فِي الْعَالَمِينَ الْأَبْهَرِيِّ حَرَّسَ اللهُ أَيَّامَهُ[1].

Bu məktubları əs-sadr əl-kəbir, fəzilətli və ədalətli alim, Afdalud-Dunyə vad-Din, İslamda və müsəlmanlar arasında yüksək mövqe sahibi, aləmlərdə əməlisalehlərin şahı, ayət əl-haqq,

[1] Süleymaniye kütüphanesi Damad İbrahim Paşa Koleksiyonu, nr. 233028, vərəq 208 a

Allahın yaradılanlar üzərində hökmü, Hassənul-Acəm əl-Xaqani yazmışdır. Allah onun ruhunu şad eləsin, qəbri nurla dolsun.

Birinci məktub İslamın və müsəlmanların huccəti, aləmlərdə alimlərin başçısı Şeyx, İmam Qutb əd-Din əl-Əbhəriyə göndərilib. Allah onu qorusun.

Bu sözlər məktubların həqiqətən Xaqani Şirvaniyə aid olduğunu təsdiqləyir. Qutb əd-Din əl-Əbhəriyə yazılan məktub öz həcminə görə digərindən daha böyükdür.

Əlyazmanın 211b vərəqindən başlayan Əvhəd əd-Din əl-Gəznəviyə ünvanlanmış ikinci məktub aşağıdakı başlıq altında təqdim olunub:

هذه الرسالة له كتبها إلى ملك العلماء أوحد الدين الغزنوي

Bu, onun məlikul-ʻuləmə Əvhəd əd-Din əl-Ğəznəviyə yazdığı məktubdur.

Ərəbcə olan məktubların mətninə rast gəlinən mənbələrdən ikincisi İrlandiyanın *Chester Beatty* kitabxanasında saxlanılan əlyazmadır. Həmin əlyazmada Qutb əd-Dinə ünvanlanmış məktubun müəyyən hissəsi çatışmır. Bu da onu göstərir ki, məktubun tam mətni üçün hazırda əldə olan yeganə mənbə Süleymaniyə nüsxəsidir.

Chester Beatty nüsxəsi. Dublindəki *Chester Beatty* kitabxanasına aiddir. Kitabxananın fondunda bəzi əlyazmaların online şəkildə istifadəsi mümkün olsa da, Xaqaninin əsərləri bu siyahıya daxil deyil. Ancaq müraciət əsasında bu əlyazmanın fotosurətini əldə etmək mümkün oldu. Buna görə də, məlumat yalnız bu əlyazmanı əhatə edir.

Chester Beatty nüsxəsi 21x17 həcmli vərəqdə aydın nəsx xətti ilə ʻAbd əl-Vahhab bin Əbi əl-Fadl ət-Təbrizi tərəfindən hicri 581-ci ilin ramazan ayının 1-də yazılıb. Bu vaxta qədər şairin əlyazmaları arasında ən qədimi hicri tarixi ilə 664-cü ildə (1266-cı il) üzü köçürülmüş Xocand əlyazması hesab olunurdu.

Londonda Or. 7942 şifri ilə saxlanılan həmin əlyazmanın şairin sağlığında hazırlanan əlyazmanın surəti olduğu ehtimal edilir.[1] Hazırlanma ilini nəzərə alsaq, artıq şairin ən qədim əlyazması *Chester Beatty* nüsxəsi hesab olunmalıdır.

79 vərəqdən ibarət əlyazmanın oxunaqlıq vəziyyəti çox yaxşıdır. Hər vərəq iki səhifədən, hər səhifədə verilən mətn, əsasən, 11 sətirdən ibarətdir. İri hərflərlə aydın şəkildə yazılan əlyazmanın 9 sətri eyni ölçüdə, I və XI sətirlər, yəni səhifədəki ilk və son sətirlər isə daha iri hərflərlə yazılıb. Bu da onu Süleymaniyə nüsxəsindən fərqləndirən xüsusiyyətlərdən biridir. Məlumdur ki, ərəb mətnləri, bəzi mənbələr istisna olmaqla, əksər hallarda hərəkəsiz verilir. Süleymaniyə nüsxəsində ancaq ilk və son vərəqdə hərəkələr qoyulubsa, bu əlyazmada ilk vərəqdən sona qədər bütün mətn tam və qüsursuz şəkildə hərəkələnib. Bu da təbii ki, mətnin daha dəqiq tərcüməsi üçün vacib olan şərtlərdəndir. Süleymaniyə nüsxəsində olduğu kimi, burada da vərəqlərin kənarlarında bəzi qeydlər var; onlar mətndə çətin hesab olunan sözlərin izahından ibarətdir. Qeydlərdən bəziləri mətnlə eyni istiqamətdə yazılıb, bəziləri isə mətnə əks istiqamətdədir və onları oxumaq üçün vərəqi tərsinə tutmaq lazımdır. Yuxarıda qeyd etdiyimiz kimi, birinci məktubda naqislik var, yəni məktubun müəyyən hissəsi əlyazmada öz əksini tapmayıb. Bu, ya bir neçə vərəqin itib-batması, ya da xəttat diqqətsizliyi ilə bağlı ola bilər. Qutb əd-Din əl-Əbhəriyə yazılan məktub əlyazmanın 2 a–18 b vərəqlərində yer alıb və o, eyni ilə Süleymaniyə nüsxəsi kimi başlayır. 18 b vərəqinin sonundan ikinci məktub başlayır:

رسالة أُخْرَى إِلَى الشَّيْخِ الْفاضِلِ أَوْحَدِ الدِينِ الْغَزْنَوِي

[1] Persian Literature – A Bio-Bibliographical Survey: Poetry of the Pre-Mongol Period / ed. by François de Blois. New York: Royal Asiatik Sosiety Books, vol. 5. 2004, p. 325

Fəzilətli Şeyx Əvhəd əd-Din əl-Gəznəviyə yazılmış digər məktub.

Əvhəd əd-Din əl-Ğəznəviyə ünvanlanan məktub 32 a vərəqinə kimi davam edir, 32 b vərəqində əl-Baxərzinin "Dumyətul-qasr va 'usratu 'əhlil-'asr" əsərinin xütbəsi, daha sonra digər əsərlər verilib.

Hazırda hər iki əlyazma əsasında məktubların elmi-tənqidi mətni hazırlanıb və həmin mətnlə kitabın sonunda tanış olmaq olar. Növbəti illərdə onların mətni, tərcüməsi və geniş təhlili ilə bağlı araşdırmanın elmi ictimaiyyətə təqdim olunması nəzərdə tutulur.

Fransa Milli Kitabxanasına (BnF) aid Persan 1816 şifrəli əlyazma. Fransa Milli Kitabxanasının da əlyazma fondunda Xaqaninin əsərlərinin bir neçə nüsxəsi saxlanılır. Onlardan ancaq birinə, bəlkə də ən vacibinə – fars kolleksiyasından 1816 şifrəsi altında saxlanılan istinsah tarixi təxminən 1380-ci ilə aid edilən *Külliyyat* nüsxəsinə baxış keçirmək mümkün oldu. Əlyazmanın geniş tədqiqata cəlb olunması Xaqaninin ümumi yaradıcılığının öyrənilməsi sahəsinə öz töhfəsini verə bilər. Çünki:

a) Əlyazma "Tuhfətul-İraqeyn" əsərinin müqəddiməsi ilə başlayır və əsərin özü ilə davam edir. Yəhya Qərib tərəfindən hazırlanmış elmi-tənqidi mətndə əsər 7 məqalədən ibarət olduğu halda, əlyazmada 6 məqalə şəklində göstərilib. Əlyazma savadlı katib tərəfindən tərtib olunduğuna görə, əsərin mətnində qaranlıq qalan məqamların aydınlaşdırılmasında ondan istifadə etmək olar.

b) Ahmed Ateş Xaqaninin məktublarından bəhs edərkən *Paris, Bibliotheque Nationale'de bulunan bir Kulliyat-i Hâkânî nüshasında görülen 7 mektup*[1] dan bəhs etmiş, amma tədqiqatın

[1] *Ateş, A*. Hakaninin mektubları dergisi. Belleten, 1961, XXV cilt, s. 239

gedişatında ancaq 4 məktuba toxunmuş və digər 3 məktub haqqında məlumatı olmadığını göstərmişdir. Bu da həmin əlyazma nüsxəsinin tədqiqatçının əlində olmaması, özünün də qeyd etdiyi kimi, məktublardan bəhs edərkən əlyazmaya deyil, əlyazma kataloqunun xarakteristikasını hazırlamış Edgard Blochetin (1870–1937) məlumatına əsaslanmasından irəli gəlir.[1]

Bu gün həmin əlyazmadan istifadə etməklə, həm adı çəkilmiş 4 məktubun mətni ilə tanış olmaq, həm naməlum 3 məktub haqqında mənbədən məlumat əldə etmək mümkündür.

c) Ərəbcə əsərlərin öyrənilməsi baxımından da əlyazma əhəmiyyətlidir. Əvvəldə də qeyd etdiyim kimi, şairin 171 beytlik qəsidəsi çox az əlyazmada əks olunub. Bu əlyazmada da qəsidəyə rast gəlindi. Onun əvvəlki nüsxələrdən fərqi qəsidənin 3 mətlə şəklində verilməsidir.

Əlyazmada ərəbcə beytlərin sayı kifayət qədərdir və onlar xüsusi başlıq altında deyil, وأيضا له يمحده *həmçinin mədh edir* adı altında təqdim olunub. Vərəq 103 a-104 b-də Cəlal əd-Dinə həsr olunan qəsidə (166 beyt–birinci mətlə 29 beyt, ikinci mətlə 80 beyt, üçüncü mətlə 57 beyt), vərəq 104 b-105 a-da Dərbənd əmiri Seyf əd-Dinə həsr olunmuş qəsidə (47 beyt), 134 a-da Alə əd-Din Atsıza həsr olunmuş qəsidə (45 beyt), 134 b-136 a Bağdada həsr olunmuş qəsidə (68 beyt–birinci mətlə 31 beyt, ikinci mətlə 37 beyt), 177 a-177 b-də 4 beyt (2+2), 190 a-190 b-də kiçik həcmli şeirlər (2+2+3+6+3), 200 a-da Yəmənə həsr olunmuş qitə (6 beyt) yer alıb.

Ümumilikdə, ərəbcə **352 beytin** əks olunduğu əlyazmanın oxunaqlıq dərəcəsi, bəzi beytlərin səhifələrin kənarlarında qarışıq şəkildə yer almasını nəzərə almasaq, qənaətbəxşdir.

[1] *Ateş, A*. Hakaninin mektubları dergisi. Belleten, 1961, XXV cilt, s. 241

Xaqani irsinin öyrənilməsində əlyazmaların rolu

Xaqaninin ərəbcə yazdığı əsərlərin rast gəlindiyi əlyazmalar haqqında verilən məlumatdan sonra klassik irsin öyrənilməsinə əlyazmaların cəlb edilməsinin daha effektiv nəticə verdiyini konkret misallar əsasında göstərmək maraqlı olardı. Bunun üçün şairin ərəbcə yazdığı şeirlər arasında həm həcminə, həm də məzmununa görə xüsusi əhəmiyyəti olan qəsidədən – Cəlal əd-Dinə həsr olunan mədhiyyədən bir beytə nəzər salaq. Səccadi nəşrində beyt belə yazılıb:

زوجت مهجة اصفهان بمدحتی اضعاف ما قد هدنی بهجاء[1]

Beytin Səccadi variantına əsaslanan İ. Həmidov tərəfindən edilən filoloji tərcüməsi belədir:

İsfahanın qəlbini mədhiyyəmlə evləndirdim.
İsfahan isə dəfələrlə mənim qəlbimi sındırdı.[2]

Əli Abdur-Rasuli və Foruzənfərin hazırladığı "Divan"da beyt belə verilib:

روحت مهجة اصفهان بمدحتی اضعاف ما قد لی بهجاء[3]

Bu variant M–247 şifrəli Bakı nüsxəsi ilə ust-üstə düşür. Bir beyt daxlində iki sözdə fərq var: زوجت – روحت، لي – هدنی. Variantlar arasında *evləndirmək – rahatlatmaq* (زوّجت – روّحت) sözlərindəki *ra* və *zeyn* hərflərinin nöqtəsi məna fərqi yaratmışdır. Düzgün variantı müəyyənləşdirmək üçün şairin İsfahana etdiyi səfəri araşdırdıq. Məlumata görə, başqa şəhərə səfər əsna-

[1] خاقانی شروانی. دیوان. تصحیح ضیاء الدین سجادی. تهران، ۱۳۳۸، ص. ۹۴۷؛ خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳۴۶

[2] Xaqani Şirvani. Ərəbcə şeirləri. Bakı, 2017, s. 60

[3] خاقاني شروانی. دیوان. بتصحیح علیّ عبد الرسولی. . تهران، ۱۳۱٦، ص. ۹۳۶؛ خاقانی شروانی. دیوان. با مقدمه بدیع الزمان فروزانفر. تهران، ۱۳۸۹، ص. ۷۲۶

sında şair yolüstü İsfahan şəhərini də ziyarət etmiş, amma isfahanlılarda özünə qarşı soyuqluq hiss etmişdir. Məlum olur ki, Xaqaninin tələbəsi kimi tanınan Mücirəddin Beyləqani ondan əvvəl İsfahanda olmuş və isfahanlıları həcv etmişdir. İsfahanlıların Xaqaniyə soyuq münasibət bəsləmələrinin səbəbi bu həcv olmuşdur. Vəziyyəti yüngülləşdirmək məqsədilə şair "Mücirəddinin həcvi və İsfahanın mədhi" adlı bir mədhiyyə yazır və isfahanlıların incik qəlbini rahatladır.[1]

Böyük ehtimalla, şair yuxarıdakı beytdə *İsfahanın qəlbini öz mədhiyyəmlə sakitləşdirdim* deməklə, məhz bu hadisəyə işarə etmişdir. Bu məlumatı və beytin müxtəlif yazılış variantlarını nəzərə alaraq onu belə yazmaq olar:

روحت مهجة اصفهان بمدحتى اضعاف ما قد هدّني بهجاء

İsfahanın qəlbini mədhiyyəmlə rahatlatdım, bu, həcvin mənə etdiyinin yumşalmasıdır (zəifləməsidir).

Yaxud şairin Məlikul-Əʿzam Alə əd-Dinə həsr etdiyi qəsidəyə baxaq. Qeyd etdiyimiz kimi, qəsidənin dilimizə ilk filoloji tərcüməsi Z. Əlizadə, poetik tərcüməsi isə M. M. Əlizadə tərəfindən edilmiş və Xaqaninin 1987-ci ildə nəşr olunmuş "Seçilmiş əsərləri"nə daxil edilmişdir. Qəsidə ikinci dəfə filoloji şəkildə İ. Həmidov tərəfindən tərcümə edilmişdir. Səccadinin hazırladığı divandan istifadə edilmiş hər iki variantda tərcümə problemləri var. Məsələn, qəsidənin 19-cu beytinə baxaq:

O, tanıyır, öz quşunu bilir necə səsləsin,
Ana bilər körpəsini südlə necə bəsləsin.[2]

---

[1] *Рипка, Ян.* История персидской и таджикской литературы. М., 1970, с. 202; *Ворожейкина, З. Н*. Исфаханская школа поэтов и литературная жизнь Ирана в предмонгольское время (XI – начало XIII в.). Москва: Наука, 1984, с. 45

[2] *Xaqani Şirvani.* Seçilmiş əsərləri. Bakı, 1987, s. 219

Körpənin böyüməsinin xeyrini quşlar da bilir. O, ana döşündən mehribanlıqla ayrılır, sonra da onu əmir.[1]

Tərcümələrin qəribə səslənməsi birbaşa mətnlə bağlıdır. M–242 şifrəli Bakı (vərəq 292 a), C 61 şifrəli Sankt-Peterburq (vərəq 180 b), 1816 şifrəli Paris (vərəq 134 a) nüsxələri əsasında beytin düzgün variantını belə müəyyənləşdirdik:

مصالح نشء الطفل تعرف ظئره لتفطمه رفقا به ثمّ ترضع

Körpəni düzgün böyütməyi onun dayəsi bilər, əvvəlcə onu şəfqətlə (ana) südündən ayırar, sonra özü ona süd verər.

Divanlardaطير *quş*[2] kimi verilən söz əslində ظئر *dayə* sözü imiş, beləliklə, sözün yazılışındakı bir nöqtə xətası bütün beytin mənasına təsir etmişdir.

Yaxud:

اقاف به العنقا ام ارض رحمة لماء حيوة الاريحيات منبع
اجودي جود منتهى سفن النهى لها الطور طل بل لها النيل مصنع[3]

Beytin ilkin poetik tərcümə variantı belədir:

Onun rəhmət torpağıdır Simurğ üçün Qaf dağı,
Bu əcəbdir, nurlu yerdən axır həyat bulağı.
O səxavət Ağrısıdır, Nuh gəmisi dayanar,
Tur dağıdır, çiskinindən Nil dəryası yaranar.[4]

İ. Həmidovun da filoloji tərcüməsi demək olar ki, eyni mənanı ifadə edir:

---

[1] *Xaqani Şirvani*. Ərəbcə şeirləri. Bakı, 2017, s. 101

[2] خاقانی شروانی. دیوان. تصحیح ضیاء الدین سجادی. تهران، ۱۳۳۸، ص. ۹۵۷؛ خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳۶۲

[3] خاقانی شروانی. دیوان. تصحیح ضیاء الدین سجادی. تهران، ۱۳۳۸، ص. ۹۵٦

[4] *Xaqani Şirvani.* Seçilmiş əsərləri. Bakı, 1987, s. 218

Nuhun gəmisinin son məkanı olan Cudi dağının səxavətidir.

Ondan ötrü Tur dağına şeh düşür, bəlkə, onun üçün Nil çayı yaradılıb.[1]

Hər iki variantda النهی sözü Nuh kimi tərcümə olunmuşdur. Halbuki ərəbcə Nuh peyğəmbərin (s.) adının yazılışı fərqlidir: نوح. Eləcə də, سفن (sufun – gəmilər) ərəb dilində سفينة (gəmi) sözünün cəmidir. Nuh peyğəmbərin (s.) bir gəmisi olduğuna görə, deməli, bu başqa sözdür.

Xaqaninin ərəbdilli yaradıcılığını tədqiq edən fars mütəxəssisləri isə beytlərin mənasını belə açıqlamışlar:

آیا پرنده ی عنقا در کوه قاف است یا در سرزمین رحمت؟ بخاطر آبی که تمام زندگی و بزرگواری در آن جمع شده است ومنبع زندگی به شمار می رود آیا کوه جودی، نهایت بخشش وسخاوت کشتی های عقل وخرد است؟ که برای آن، کوهی از باران نم نم وجود دارد و هم چنین برایش رودی مثل نیل ساخته شده است[2].

Simurğ quşu Qaf dağındadırmı, yoxsa rəhmət torpağında? Həyat mənbəyi sayılan və yalnız bütün həyatın və əzəmətinin o suda əks olunmasına görədir?

Cudi dağı ağıl gəmilərinin (yan aldığı) səxavət və bəxşişin sonudur? Ondan ötrü ki, bir dağ (olaraq) yağışdan damla-damla Nil çayı yaranmışdır.

Bu tərcümə də beytin mənasını açmır. Deməli, beytin orijinalında problem var. Kəzzazinin tərtib etdiyi divanda da beytlər demək olar ki, eyni şəkildə təqdim olunub. Buna görə də əlyazmaya müraciət edirik. Qəsidənin əks olunduğu M–242

[1] *Xaqani Şirvani*. Ərəbcə şeirləri. Bakı, 2017, s.98

[2] علیرضا رضایی حمزه کندی. وحید رضایی حمزه کندی. آفتاب نهان خاقانی. اورمیة، ۱۳۸۹، ص. ۱۳۷

şifrəli Bakı nüsxəsində sözlərin yazılışı, beytlərin düzülüşü fərqlidir, yəni birinci və ikinci beytlərin ikinci misralarının yeri dəyişikdir:

اقاف به العنقاء ام ارض رحمة لها طور ظل بل النيل مصنع
اجودى جود منتهى شفق الهوى لماء حياة الالحيات منبع.

O, Ənqa quşu olan Qaf dağıdır, yoxsa Turun kölgə saldığı, Nilin yarandığı mərhəmət yurdudur?

Ya alovlu eşqin son işıltısı olan, canlıların həyat suyunun qaynağı olan Cudidirmi?

C 61 şifrəli Sankt-Peterburq nüsxəsinə nəzər salaq:

أ قاف به العنقاء أم أرض رحمة لماء حياة الارْيَحيّات منبع
أجوديّ وجود منتهى سفن النهي لها الطور ظلّ بل لها النيل مصنع

O, Ənqa quşu olan Qaf dağıdır, ya səxavətli həyat suyunun mənbəyi olan mərhəmət yurdu?

Sağ qalıb mənzil başına çatan gəmilər üçün Cudi dağıdırmı ki, Tur ora kölgə salır, Nil çayı da onun üçün yaradılıb.

"Əl-Qur'ənul-Kərim"in "İbrahim" surəsini nəzərə alaraq, bu variantı daha düzgün hesab etmək olar.

Qəsidənin digər beytlərində də eyni vəziyyət müşahidə olunur. Təmtəraqlı mədhiyyədən çox hökmdar-şair arasındakı real münasibətləri əks etdirən 45 beytdən ibarət qəsidəyə şair özünəməxsus şəkildə giriş vermiş və üstüörtülü şəkildə Alə əd-Dindən narazılığını bildirmişdir. Qəsidənin sonuna yaxın isə sanki bu şikayəti üçün üzrxahlıq etmişdir. Həmin beyt divanlarda belə yazılıb:

بدأت بفرض المدح ثم شفعته بسنة شكري ثم ها اتطوع[1]

[1] خاقانی شروانی. دیوان. تصحیح ضیاء الدین سجادی. تهران، ۱۳۳۸، ص. ۹۵۷؛ خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران ، ۱۳۷۵، ص. ۱۳۶۲

Əvvəlcə mədh etməyə başladım, sonra təşəkkür etməyə keçdim, sonra da budur, könüllü şəkildə arzularımı bildirirəm.

Qeyd etdyimiz kimi, şair qəsidəyə mədhlə başlamamışdır. M–242 şifrəli əlyazma da bu fikri təsdiqləyir:

بدأت بعرض المراء ثم شفعته

Əlyazmada olan variantın ikinci misrasında naqislik müşahidə olunur. Həm əlyazmadan, həm də divanlardan istifadə etməklə beyti belə yazmağı daha doğru hesab edirəm:

بدأت بعرض المراء ثم شفعته بسنة شكري ثم ها اتطوع.

Əvvəlcə şübhə nümayiş etdirməyə başladım, sonra adətə uyğun olaraq ona təşəkkürümü bildirdim, sonra isə budur, könüllü şəkildə ürəyimdən keçənləri ərz edirəm.

Məhz bu variant qəsidənin məzmununa uyğun gəlir. Çünki şair əvvəlcə hökmdarın ona qarşı laqeydliyindən şikayətlənmiş, sonra "hər şeyin çoxu ziyandır" fikrini əsas tutaraq, hökmdarın ona bəslədiyi laqeyd münasibətinə haqq qazandırmış, ona təşəkkürünü bildirmiş, daha sonra ürəyindən keçənləri səmimi bir şəkildə dilə gətirmişdir.

Şairin İraqı vəsf etdiyi şeirində də anlaşılmazlıq müşahidə olunur. 4 beytdən ibarət bu şeir M–242 şifrəli əlyazmada tam şəkildə, M–413 şifrəli əlyazmada isə 3 beyt şəklində təqdim olunmuşdur. Əlyazmadakı mətnlər bir-birinə uyğun gəlsə də, divanlardan fərqlənir. Məsələn, birinci beytin ikinci misrasında عنه (*onun haqqında*) bəzi əlyazmalarda عند kimi verilib ki, bu da məzmunu daha aydın tamamlayır. هي سحر بابل عند كل عراق – *o,* (yəni şairin İraq sultanına təqdim etdiyi mədhiyyə) *hamı üçün Babil sehridir*. Burada عنه yazılarsa, qrammatik baxımdan tərcümə naqis alınır.

Qitənin üçüncü beytinin birinci misrasını isə xüsusi olaraq vurğulamaq istərdik. Belə ki, divanlarda verilən, yəni:

ايقال شيطان لمن هو في التقى – *Dindar olan birinə şeytan deyilərmi?* – misrası şübhə doğurur. Əgər söhbət hökmdardan gedirsə, deməli, burada şeytan sözü yersizdir. Əlyazmada bu beyt aşağıdakı şəkildə yazılıb:

القال سلطان لمن هو في التقى ملك العراق وآدم الاعراق

Mömin olan birinə sultan deyilər, o, İraq hökmdarıdır, nəsillərin Adəmidir.

Böyük ehtimalla, şair bu beytdə qitənin əvvəlində İraq hökmdarını sultan kimi təqdim etdiyini əsaslandırır. Belə ki, *məlik, sultan* kimi sözlər yaxın mənalı olsalar da, aralarında incə fərq var. XIV əsr fəqihi, tarixçisi Təc əd-Din əs-Subki bu iki termin arasındakı fərqi belə izah edir: "*İki vilayətə (əyalətə) sahib olan kəs sultandır. Yalnız bir əyalətə sahib olan məlik adlanır. Bir şəhərə sahib olan nə məlik, nə də sultan deyil, diyarın əmiri və sahibi adlanır. Zəmanəmizin katiblərinin səhv etdikləri məlumdur. Belə ki, onlar Həmanın sahibini sultan adlandırıblar. O, nə sultan, nə də məlik adlandırılmalıdır. Çünki onun hökmü (hakimiyyəti) o yerdən (Həmadan) kənara çıxmır. Sanki onlar məlum istilahdan kənara çıxıblar. Sultan olmağın şərti budur ki, onun əlinin üzərində əl (hökmünün üstündə hökm) olmamalıdır. Eləcə də, məlik bir qəsəbənin sahibi kimi deyil. Sultan onun (qəsəbənin sahibinin) üzərində hökmranlıq edir (o sultanın hakimiyyətinə tabedir). Sultanın hökmünün (hakimiyyətinin) məlik üzərində olub olmamasına gəlincə, bu, güc və zəiflik baxımından fərqlənir*".[1]

Sultanın dini cəhətdən də hakimiyyəti güclü olur, yəni İraqın hökmdarı əslində məlikdir, çünki bir vilayəti idarə edir, am-

[1] السبكي، تاج الدين أبو نصر عبد الوهاب بن على بن عبد الكافي. طبقات الشافعية الكبرى. الجزء الخامس، ص. ٣١٥

ma şair ona “sultan” deyə müraciət etməklə hörmət və ehtiramını bildirir, növbəti beytlərdə isə bu müraciətini əsaslandırır.

Deməli, klassiklərimizin əsərlərinin adekvat tərcüməsi mükəmməl mətn tələb edir. Mükəmməl mətnin hazırlanması isə məhdud çərçivədə yanaşsaq, bir, yaxud bir neçə tədqiqatçının yox, böyük bir kollektivin işidir. Klassiklərimizin əlyazmalarının dünya kitabxanalarına səpələndiyini və onların yaradıcılığının yerli mütəxəssislərlə yanaşı, xarici tədqiqatçılar tərəfindən də öyrənildiyini nəzərə alsaq, klassik şairlərin əsərlərinin vahid mətninin hazırlanması beynəlxalq müstəvidə həyata keçirilməsi vacib olan bir məsələdir.

XAQANİNİN ƏRƏBCƏ ƏSƏRLƏRİ

Əvvəlcə qeyd edim ki, Xaqaninin ərəbcə əsərləri deyərkən, ancaq sırf ərəb dilində olan yaradıcılığını nəzərdə tuturuq. Onun ərəb dilində olan yaradıcılığı həm mənzum, həm də mənsur əsərlərdən ibarətdir. Mənzum əsərlərin sayı daha çoxdur. Buna görə də, tədqiqat işində əvvəlcə mənzum əsərlərdən, daha sonra mənsur əsərlərdən bəhs edilmişdir.

Eləcə də, mənzum əsərlər deyərkən, bura məktublarda rast gəldiyimiz poetik nümunələr, müləmmələr, fars dilində yazılan şeirlərin daxilində olan ərəbcə beytlər nəzərə alınmamış, ancaq ərəb dilində nəzmlə yazılmış müstəqil əsərlərdən bəhs edilmişdir. Zənnimcə, fars dilində yazdığı əsərlərində, məktublarda, eləcə də müləmmələrdəki ərəbcə beytlər aid olduğu əsəri məzmun baxımından tamamladığından, həmin əsərlə birlikdə *Xaqaninin ərəbcə yazdığı beytlər* adı altında öyrənilməlidir.

Xaqaninin ərəbcə yaradıcılığının ikinci qolunu onun nəsri təşkil edir. Şairin ərəbcə nəsrindən elmə hələlik iki məktub və iki müqəddimə məlumdur. Müqəddimələr həm əlyazmalarda, həm də divanlarda aid olduqları qəsidələrin əvvəlində verildiyindən və məzmun baxımından qəsidələrlə əlaqəli olduğundan, eləcə də həcmcə kiçik olduğundan monoqrafiyada onlardan nəsr bölməsində deyil, aid olduqları qəsidələrdən əvvəl bəhs etmək, məktublar isə müstəqil əsər olduğundan onlardan xüsusi bölmədə danışmaq məqsədəuyğun hesab edilmişdir.

Beləliklə, Xaqaninin ərəbcə olan irsini əhatə edən bu fəsil mənzum və mənsur əsərlərin həcmi, janrı və məzmunu haqqında məlumatı ehtiva edir.

Xaqaninin ərəbcə mənzum əsərlərinin həcmi və janrı

Həcmi. Xaqaninin ərəbcə mənzum əsərlərindən elmə məlum olan beytlərin sayı ilə bağlı göstərilən rəqəmlər fərqli olduğundan əvvəlcə onların həcminə aydınlıq gətirək.

Tədqiqat işinin əvvəlində qeyd olunduğu kimi, Xaqaninin ərəbcə əsərləri İran alimləri tərəfindən hazırlanan divanların sonunda yer alıb. Biz 4 tərtibçinin hazırladığı divanlara müraciət etdik və məlum oldu ki, Əli Abdur-Rasuli, Bədi əz-Zaman Foruzənfər tərəfindən hazırlanan divanlarda şairin ərəbdilli əsərlərinin müəyyən hissəsi (əsasən qəsidələri), Səccadi və Kəzzazi tərəfindən hazırlanan divanlarda isə hamısı yer alıb. Buna görə də, Xaqaninin ərəbdilli yaradıcılığına müraciət edən tədqiqatçılar son iki nəşrdən istifadə etmişlər.

Eyni mənbəyə əsaslanmalarına baxmayaraq, tədqiqatçılar arasında dövrümüzə qədər gəlib çatan beytlərin sayı ilə bağlı müxtəlif fikirlər var: İran alimi Seyyid Fəzlullah Mirqadiriyə görə, şairin ərəbcə yazdığı 547 beytin 484 beytini sırf ərəbcə olan şeirlər, 63-nü fars dilində yazılan şeirlərin daxilində olan beytlər, 16-nı isə müləmmələrdəki beytlər təşkil edir.[1] İranda şairin ərəbdilli yaradıcılığını öyrənmiş Y. A. Bayquta görə, tədqiqata cəlb etdiyi 542 beytdən 501-i qəsidə və qitələrin, 41-i isə farsdilli əsərlərdə rast gəlinən ərəbcə beytlərin payına düşür.[2]

İ. Həmidov Səccadi nəşrini əsas tutaraq yazır: *"Xaqani ərəbcə 506 beyt irs qoyduğu kimi, fars dilində yaradıcılığında da bir sıra müləmmə (ərəb və fars dillərində qarışıq şeirlər) və çoxlu təlmihlər (ərəb dilində Quran ayələrinə və hədislərə işarələr) yaradıb"*.[3]

---

[1] میرقادری، سید فضل الله. طبع آزمایی خاقانی در شعرعربی // مجموعه مقالات بر گزیده همایش خاقانی شناسی. جلد اول. دانشگاه اورمیه، خرداد ۱۳۸۴. ص. ۵۴۶

[2] بایقوت، یوسف اصغری. غرائب الاشعار. انتشارات دانشگاه جیرفت، ۱۳۹۵، ص. ۱

[3] *Xaqani Şirvani*. Ərəbcə şeirləri. Bakı, 2017, s.6

Tədqiqatçı daha sonra yazır: "*Kəzzazinin tərtib etdiyi divanda Xaqaninin ərəbcə şeirləri 500 beytdən ibarətdir"*.[1]

İ. Həmidovun məlumatındakı divanlar arası 5 beyt fərqi Muhammməd Yəhyaya aid mərsiyənin dibaçəsinin sonundakı 5 beytlik şeir parçası ilə bağlıdır. Səccadi nəşrində müqəddimə aid olduğu qəsidədən əvvəl[2], Kəzzazi nəşrində isə qəsidənin üzərinə ** işarəsi qoyularaq, *footnote* kimi səhifənin sonunda verilmişdir.[3] Həmin 5 beytlik şeir parçasını Səccadinin hazırladığı divanda nəzərə alan İ. Həmidov, Kəzzazinin hazırladığı divanda hesaba almamışdır.

Y. A. Bayqutla İ. Həmidovun məlumatı arasındakı 5 beyt fərqi də buradan qaynaqlanır. İran tədqiqatçısı, haqlı olaraq, həmin şeir parçasını nəzərə almamışdır. Çünki o beytlər dibaçənin sonluğu ilə eynidir. Bu məsələyə dibaçədən bəhs olunarkən ətraflı şəkildə toxunulmuşdur.

Səccadinin hazırladığı divan həm həcm, həm də tekstoloji cəhətdən daha etibarlı hesab olunur. Ərəbcə əsərlər burada قصائد و قطعات عربي *Ərəbcə qəsidələr və qitələr* adı altında təqdim olunmuşdur. Beytlər nömrələnməyib. Bura 502 beyt daxildir.

Kəzzazinin tərtib etdiyi divanda سروده های عربی *ərəbcə şeirlər* başlığı altında təqdim olunub. Burada 500 beyt verilib. Həcmcə böyük əsərlər nömrələnib. İki divan arasında 2 beyt fərqi var ki, bu da imam Muhammməd Yəhyaya həsr olunan mərsiyə ilə bağlıdır. O, Səccadi variantında 18 beyt, Kəzzazi variantında 16 beyt təşkil edir. Səccadi nəşrindəki son beyt nə əsərin məzmununa, nə də qafiyəsinə uyğun gəlmir. Əvvəlki fəsildə də qeyd etdiyimiz kimi, *Lala İsmail* nüsxəsində mərsiyənin ardınca verilən bu beyt əsərin qara mürəkkəblə yazılmış əsas mətnindən

---

[1] *Xaqani Şirvani*. Ərəbcə şeirləri. Bakı, 2017, s.10

[2] خاقانی شروانی. دیوان. تصحیح ضیاء الدین سجادی. تهران، ۱۳۳۸، ص. ۹۴۹

[3] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ میر جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳۴۷ــ ۱۳۴۸

qırmızı mürəkkəblə fərqləndirilib. M–242 şifrəli Bakı və 242153 şifrəli Fatih nüsxələrində isə mufrad şəklində verilib. Bu variantı daha düzgün hesab edərək monoqrafiyada həmin beyt əlyazmaya uyğun olaraq *mufrad* şəklində, Muhamməd Yəhyaya həsr olunan qəsidə isə 17 beytlik mərsiyə kimi göstərilmişdir.

İ. Həmidov şairin ərəbcə əsərlərini tərcümə edərkən onları ayrı-ayrı yox, ümumi şəkildə nömrələmişdir. Şirvanşah Cəlal əd-Dinə həsr olunmuş 171 beytlik qəsidəni 170 beyt şəklində göstərdiyinə görə beytlərin sayı 507 yox, 506 beyt kimi hesablanıb.

Əlyazmalardan bəhs olunan fəsildə yeni aşkar etdiyimiz 2 beyt (C 61 şifrəli Sankt-Peterburq nüsxəsi – 1 beyt; 242153 nömrəli *Süleymaniye Kütüphanesi* Fatih nüsxəsi – 1 beyt) haqqında məlumat verilib. İran alimlərinin hazırladıqları divanlarda öz əksini tapmayan həmin 2 beyti də əlavə etməklə, şairin ərəbdilli nəzmindən (müləmmələri və məktublarda rast gəlinən şeir parçalarını bura aid etmirik) elmə **504 beytin** məlum olduğunu bildiririk. Həmin beytlər monoqrafiyanın "Ərəbcə əsərlərin mətni" adlı *Əlavələr* hissəsinə daxil edilib.

Janrı. İran alimləri ərəbcə beytləri müxtəlif şəkillərdə təqdim etmişlər. Səccadi bölgüsündə Cəlal əd-Dinə və Muhamməd bin Yəhyaya həsr olunan əsərlər *qəsidə*, Bağdada, Alə əd-Dinə, İzz əd-Dinə həsr olunanlar *mədh* adı altında verilmiş, qalan şeirlər ulduzlarla bir-birlərindən fərqləndirilərək adsız təqdim edilmişdir.

Kəzzazi Cəlal əd-Dinə, İmam Muhamməd Yəhyaya, Bağdada, Dərbənd hakimi Seyf əd-Dinə, Məlikul-Əzam Alə əd-Dinə və Muhamməd Səm'aniyə həsr olunmuş əsərləri *qəsidə*, İzz əd-Dinin, İraqın, qocalığın, Yəmənin, Reydə baş verənlərin təsviri ilə bağlı əsərləri *qitə*, qalan beytləri isə "həmçinin demişdir" adı ilə göstərmişdir.

İ. Həmidova görə, "*Xaqaninin ərəbcə şeirləri janr baxımından qəsidə, mədhiyyə və qitələrdən (şeir parçaları) ibarətdir. Qəsidə adlandırılan əsərlər də məzmununa görə mədh xarakteri daşıyır"*.[1] Bu açıqlamadan sonra alim onları Kəzzazi kimi qruplaşdırmışdır.

Əli Rza Həmze Kindi və Vahid Rza Həmze Kindi tərəfindən isə bu beytlər *mədh*, *vəsf*, *kiçik şeirlər* və *dubeytlər* başlığı altında təqdim edilmişdir.

Gördüyümqz kimi, Xaqaninin ərəbdilli əsərləri ümumi şəkildə qruplaşdırılmışdır. Bu da həmin beytlərin tam bir əsər, ya da hər hansı bir əsərdən hissə ola bilməsi ehtimalı ilə bağlıdır. Həmin əsərlərin janrı ilə bağlı qəti hökm vermək çətin olsa da, məsələyə münasibət bildirmək istərdik.

Məlumdur ki, əsrlər boyu Şərq ədəbiyyatı tarixində ən çox müraciət olunan janr **qəsidə** olmuşdur. Xaqani bu janra özünəməxsus ştrixlər vurmuş, ictimai-fəlsəfi mövzulu qəsidələri ilə çox məşhurlaşmışdır: "*Firdovsi və Nizaminin poema janrında, Hafiz və Füzulinin qəzəldə, Ömər Xəyyamın rübaidə göstərdiyi möcüzəni Xaqani qəsidə janrında göstərmişdir. Onun qəsidələri dərin və çoxcəhətli məzmun, yüksək sənətkarlıq baxımından diqqəti cəlb edir"*.[2]

Öz inkişafında müxtəlif mərhələlərdən keçmiş və mürəkkəb kompozisiyaya malik olan bu janrın ilk nümunələri Cahiliyyə dövrünə aiddir. Həmin dövrdə qəsidə lirik girişlə, yəni atlalın (tərk edilmiş obanın qalıqlarının) təsviri ilə başlayırdı. A. Qasımovaya görə: *"Məhz xarabazarlığa çevrilmiş oba qarşısında ərəb şairi qəzavü-qədərin amansızlığını qəlbən duyub hiss edir, varlığın bir parçası olmaqla insanın zaman burulğanında bir saman çöpütək acizliyini duyur. Nəticədə hər şeyin*

[1] *Xaqani Şirvani*. Ərəbcə şeirləri. Bakı, 2017, s.11

[2] *Səfərli, Ə., Yusifov, X*. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı: 1982, s. 67

dövranın axarında hərləndiyi amansız dünyada qəzavü-qədər şəxsləndirilib amansız bir obraza dönür".[1]

Əsrlər boyu qəsidənin lirik girişi kimi öz mövqeyini qoruyub saxlayan atlala müraciət sonralar poeziyada fərqli şəkildə təzahür etmişdir.

İbn Quteybə qəsidənin quruluşunu belə təsvir etmişdir: *"Əbu Muhammməd demişdir: "Bəzi qələm əhlinin belə dediyini eşitdim ki, qəsidə yazan qəsidəni yurd, oba izlərini, qalıqlarını xatırlamaqla başlamalı, ağlamalı və şikayət etməlidir, obanın qalıqlarına müraciət etməli, bir zamanlar burada yaşamış və yağışdan sonra yaranmış su hövzələri, otlaqlar ardınca obanı tərk edən oba əhlini xatırlamağa bir səbəb kimi dostunu ayaq saxlamağa məcbur etməlidir. Sonra nəsibə – qadının vəsfinə keçməlidir. Qəlbləri eşq, ayrılıq, həsrət acısından bəhs etməklə riqqətə gətirməli, diqqəti özünə çəkməlidir, sevgilisinin təsviri ona qulaq asanların diqqətini artıracaq, çünki qadının təsviri qəlblərə daha yaxındır. Belə ki, Allah-Təala da lirik duyğuları, qadına olan eşqi öz qullarının içinə salmışdır. Çox az adam tapılar ki, ondan asılı olmayan səbəbdən bu hissləri duymasın, halal və ya haram eşq yaşamasın. Şair diqqəti cəlb edib dinlənildiyinə əmin olduqdan sonra qaydalara uyğun hərəkət edir, öz şeirində səyahətə yollanır, yorğunluqdan, yuxusuzluqdan, gecə yol getməsindən, gündüzün istisindən, minik dəvəsinin və (yük) dəvəsinin əldən düşməsindən şikayətlənir. Dinləyicidən xahiş haqqını, ümid haqqını qazandığına əmin olduqda qərara gəlir ki, səyahət zamanı üzləşdiyi çətinliklərdən sonra öz məqsədinə çatmalıdır, mədh hissəyə keçir, sonra mükafatlandırmağa səsləyir, (onu) səxavətli olmağa təhrik edir, üstünlüyü ona verir, artıq şeyləri bacardığı qədər azaldır"*.[2]

---

[1] *Qasımova, A. Ş.* Cahiliyyət ərəblərinin əqli-mənəvi durumu. Bakı: 2007, s. 141

[2] إبن قتيبة. الشعر والشعراء. الجزء الاول. القاهرة، دون تاريخ، ص. ٧٥– ٧٦

Deməli, qəsidədə nəsib, vəsf, fəxr, mədh kimi hissələr ardıcıl şəkildə bir-birini tamamlamalı idi. Məhz bu ardıcıllığa əməl olunan qəsidə müəllifi, İbn Quteybənin fikrincə, الشاعر المجيد – *bacarıqlı, həqiqi şair* hesab edilirdi.

Lakin zaman keçdikcə, qəsidə janrı da öz qədim köklərindən uzaqlaşmağa başlayır, mədhiyyə, fəxriyyə, xəmriyyə, həcv, qəzəl, tardiyyə, mərsiyə və s. kimi janrlar qəsidənin tərkibindən çıxıb müstəqil janr kimi inkişaf edir. Xaqaninin yaşadığı dövrdə klassik qəsidəyə qoyulan tələbatı, yəni bir neçə mərhələdən keçməklə məqsədə çatmağı ödəməyən, kiçik girişdən sonra birbaşa mətləbə keçən əsərlər daha çox məzmuna uyğun olaraq, mədhiyyə, fəxriyyə, mərsiyə, qəzəl, xəmriyyə, vəsf və s. kimi adlandırılırdı. Qəsidə ilə mədh arasındakı əlaqəni müəyyənləşdirməyə çalışan rusiyalı alim Aleksandr Boriseviç Kudelin (1944–2003) orta əsr mənbələrində bu məsələyə aid məlumatın olmadığını qeyd etmiş və müasir mənbələrə müraciət etsə də, konkret fikir söyləməmişdir.[1]

Klassik ərəb qəsidələrinin həcmi çox böyük olsa da, sonralar kiçik həcmli qəsidələr də yaranmağa başladı. Deməli, şairin əsərlərini həm formasına, həm də ideya-məzmununa görə dəyərləndirmək lazımdır.

Qeyd olunduğu kimi, şairin yaradıcılığında coğrafi məkanların təsviri ilə bağlı şeirlər az deyil. Ədəbiyyatda coğrafi məkanların, şəhər həyatının, şəhər mədəniyyətinın vəsfi ilə bağlı şeirlərin kökü Cahiliyyə dövrünə gedib çıxır. Qədim ərəb poeziyasının tədqiqatı ilə məşğul olanlar qəsidələrdə vəsfin mühüm rolunu qeyd edərək bunu Cahiliyyə dövrü poeziyasına "nöqsan" kimi qiymətləndirmişlər. Betsi Yakovlevna Şidfar (1928–1993) belə yanaşmanı, haqlı olaraq, düzgün hesab etməmişdir. *"Şair-*

[1] *Куделин, А. Б.* Арабская литература. Поэтика, стилистика, типология, взаимосвязи. Москва: языки славянской культуры, 2003, с. 111-112

lərin qabiliyyətinin məhz vəsflərdə sınaqdan keçirildiyini" yazan B. Şidfara görə, əsl vəsfdə istənilən "aran, səhra" mövzusu gözəl təqdim edilməli, eyni zamanda da patetikaya yol verilməməli idi.[1] Alim qədim ərəb ədəbiyyatında şairlərin yaradıcılıq qabiliyyətini ön plana çəkərək, onların məhz bu qabiliyyət sayəsində makrokosmos – təbiət və mikrokosmos – insan arasında əlaqə yarada bilmələrini yaradıcı təfəkkürlə izah etmişdir.[2]

Cahiliyyə dövrü şairləri öz qəsidələrinin lirik girişlərində səhraları, onun təbiətini, yaşayış məskənlərinin qalıqlarını təsvir edir və konkret yer adlarını göstərməklə, oxucuda həmin şeirə marağı artırmaq məqsədi güdürdülər. B. Y. Şidfara görə "*Bu girişlərdə xüsusi adlar, əsasən də coğrafi adlar xüsusi rol oynayırdı. Ravinin – danışanın dilindən ona doğma yerin adını eşidən dinləyici ona tanış olan vadinin, dağın və ya obanın təsvirini öz xəyalında canlandırır, şairin gözdən qaçırdıqlarını da fikrən bura əlavə edirdi"*.[3]

Ərəb dövlətçiliyinin yaranması, ərəb futuhatları təbii ki, ərəblərin həyat tərzinə öz təsirini göstərdi. Zamanla fərqli təbiətlə, fərqli mədəniyyətlə tanış olan ərəblərin dünyaya baxışı dəyişirdi ki, bu da, təbii olaraq, ədəbiyyatdan yan keçmirdi. Yeniliklərlə yanaşı, şairlər bəzən köhnə üslubda yazıb-yaradır, qədim ənənələri qoruyub saxlamağa çalışırdılar. Səlcuqilər dövrü ədəbiyyatı ilə bağlı ərəb müəllifi yazır: *"Şairlər yaşayış yerlərinin qalıqlarını təsvir edir və onu qədim şairlər kimi tamamilə mədhiyyə qəsidələrinin girişi kimi verirdilər. Məmduhun mədhinə qədər dəvənin, sevgilinin yurdunun, çəkdiyi acıların*

[1] *Шидфар, Б. Я*. Образная система арабской классической литературы (VI-XII вв.). Москва: Наука, 1974, с. 127
[2] *Шидфар, Б. Я*. Москва, 1974, с. 35
[3] *Шидфар, Б. Я*. Москва, 1974, с. 13

təsvirini də bura daxil edirdilər".[1] Xaqani Cəlal əd-Dinə həsr etdiyi qəsidəsində bu ənənəyə əməl etmişdir.

Ədəbiyyata daxil olan yeni meyarların təsiri artdıqca, şairlərin də təsvir obyekti qumlu, isti səhralardan yaşıl düzlərə, çaylara, dənizlərə keçir, tərk edilmiş obaların qalıqlarının (atlalın) təsviri isə gözəl sarayların, imarətlərin, qəsrlərin, şəhərlərin, bəzən də onların xarabalıqlarının təsviri ilə əvəz olunurdu. Artıq təbiətin, sevgilinin, miniyin, yaşayış yerlərinin və s. vəsfi müstəqil janr kimi inkişaf edirdi.

Getdikcə ədəbiyyatda şəhərlərin təsvirinə geniş yer verilməyə başladı. Muhammməd ət-Tunci bunu şairlərin etdiyi səyahətlərlə əlaqələndirmişdir. Alimin fikrincə, şairlər müxtəlif məqsədlərlə – yeni vəzifə, yeni himayədar tapmaq ümidi ilə, ya da səyahətləri çox sevdiklərinə görə səfərlərə çıxır və öz şəxsi təəssüratlarını qələmə alırdılar. Məhz buna görə də bəzən eyni şəhər bir şair tərəfindən mədh, digəri tərəfindən isə həcv olunurdu. Səlcuqilər dövründə Xorasan, Nişapur, Dəməşq, Bağdad, Hələb və digər şəhərlər təsvir obyekti kimi çox məşhur idilər. Xaqaninin həcmcə ikinci böyük qəsidəsi – Bağdada həsr etdiyi qəsidə bu üsluba daha çox uyğun gəlir.

Türk ədəbiyyatında şəhərlərin təsviri ilə bağlı əsərlər şəhər mədhiyyələri, şəhər şeirləri və ya şəhrəngizlərin (şəhraşub) bir növü kimi müxtəlif adlarla adlandırılmışdır.

Bayram Ali Kaya şəhrəngizləri mövzusuna görə belə qruplaşdırıb: *"Mövzusuna və növünə görə şəhrəngizlər üç qrupa bölünür: 1. Tək bir gözələ aid olub həsbihal və ya sərgüzəştnamə tərzində yazılan, bununla yanaşı şəhərin təsvirlərinə də yer verənlər; 2. Bir yerin gözəllərini, bəzi sakinlərini, ya da sənət ərbabı ilə məsləklərini təsvir edənlər; 3. Bir şəhərin sadəcə gəzib*

[1] التونجي، محمد. حول الادب في العصر السلجوقي. منشورات مكتبة قورينا، ١٩٧٤، ص. ١٨٤

görməyə dəyən təbii gözəlliklərindən, tarixi məkanlarından və sosial özəlliklərindən bəhs edənlər;"[1]

Abdülkərim Gülhan şəhrəngizlərlə bağlı deyilənləri qısa şəkildə belə ümumiləşdirmişdir: *"Bu deyilənlərdə, şəhərə həyat verən, şəhəri şəhər edən, gözəlləşdirən, inkişaf etdirən gözəl insanlara duyulan məhəbbət duyğularının səmimi ifadələri görülür. Bu səbəbdən şəhrəngizlər üçün; "Bir şəhərdən və o şəhəri meydana gətirən, inkişaf etdirən, gözəlləşdirən, ayağa qaldıran gözəl insanlardan bəhs edən əsərlərdir" demək daha doğru bir ifadə olardı. Bəzi şəhrəngizlərdə, şəxslərdən bəhs edilməmiş, yalnız şəhərin təbiətinin gözəlliklərindən söz edilmişdir"*.[2]

Yaxın Şərq, eləcə də Azərbaycan ədəbiyyatında şəhraşubların tarixini araşdıran R. Hüseynovun fikrincə, *"farsdilli poeziyada şəhraşubun ilk mükəmməl nümunəsini Məsud Səd Səlman yaratmışdır"*.[3] Eyni fikrə türk tədqiqatçısı Adnan Karaismailoğlunun tədqiqatlarında da rast gəlinir: şəhrəngizlərin İran ədəbiyyatında qarşılığı "şəhr-aşub" olmuş və ilk nümunəsinə XII əsrdə Məsud Sə′d Salmanın divanında rast gəlinmişdir. Türk ədəbiyyatında isə bu janra XVI əsrdən etibarən müraciət edilmişdir.[4]

Əhməd Tamimdari fars ədəbiyyatının inkişaf tarixindən danışarkən, şəhraşubun adını çəkmiş, "şəhəri qarışdıran" kimi

[1] *Bayram Ali Kaya.* Şehrengiz // Türkiye Diyanet Vakfı. İslam ansiklopedisi. [Electronic resource] / 2016-2020 TDV İslâm Araştırmaları Merkezi. URL: https://islamansiklopedisi.org.tr/sehrengiz

[2] *Gülhan, A*. Rıfkî ve İstanbul şehrengizleri // Journal of Turkish Language and Literature, – 2018. Volume:4, Issue:1, s. 92

[3] *Hüseynov, R. B*. Məhsəti – necə varsa. Bakı, 1989, s. 58

[4] *Kaplan, Y*. Seyrî ve Halep Şehrengizi // Divan Edebiyatı Araştırmaları Dergisi, İstanbul: 2015. Sayı:14, s. 68

hərfi tərcümə etmiş, amma janr haqqında məlumat verməmişdir.[1]

Deməli, "Şəhəri qarışdıran" mənasını əsas götürsək, açıqsaçıq qəzəllər, hakimlərə həsr olunmuş həcvlər; bir yerin təbii və sosial gözəlliklərindən bəhs olunan mənada isə şəhərlərin vəsfi şəhraşub kimi dəyərləndirilə bilər.

R. Hüseynov şəhrəngizləri, yaxud şəhraşubları ədəbiyyat tariximizdə az öyrənilmiş janrlardan hesab edir: *"... bu şeir növü adətən şəhər həyatının güclü inkişafa başladığı, sənətkarlığın çiçəkləndiyi sənət və peşə sahibləri arasında daha möhkəm sosial baza tapan müəyyən fəlsəfi-siyasi-dini cərəyanların qüvvətləndiyi zaman kəsiklərində daha fəal tərzdə ədəbiyyat səhnəsində görünməyə başlayır. Ona görə də həmin janrın araşdırılması indi yalnız ədəbi baxımdan deyil, həm də ayrı-ayrı regionlarda renessans meyllərinin inkişafını izləmək üçün də diqqətədəyərdir"*.[2] Alim "Xaqani Şirvaninin şəhraşubları" adlı tezisində çox doğru olaraq, şairin yaradıcılığında şəhrəngizin hər iki mövzu dairəsinə daxil olan əsərlərinin olduğunu göstərmiş və buna misal olaraq, "Tuhfətul-İraqeyn"poemasının xüsusi əhəmiyyətini vurğulamışdır.[3]

Məlum olduğu kimi, poemada şair sənətkar babasından, aşbaz anasından, nəccar atasından, təbib əmisindən sevə-sevə söz açmış, həm onların şəxsi keyfiyyətlərini, həm də məşğul olduqları peşələrin gözəlliyini vəsf etmişdir. Eləcə də, poema boyu Həmədan, Şam, Məkkə, Kufə, Mədinə, Bağdad kimi müxtəlif

[1] *Тамимдари, А*. История персидской литературы. Перевод на русский язык: Дмитрий Алламов. Санкт-Петербург, 2007, с. 146

[2] *Hüseynov, R. B*. Xaqani Şirvani şəhraşubları // Xaqani Şirvani. Anadan olmasının 870 illiyinə həsr edilmiş Respublika konfransı. Bakı, 1997, s. 28

[3] *Hüseynov, R. B*. Xaqani Şirvani şəhraşubları. Bakı, 1997, s.29

şəhərləri vəsf etmişdir. Bu cəhətdən də əsər *şəhrəngiz şeirlər antologiyası*[1] kimi qiymətləndirilmişdir.

Şairin ərəb dilində yazdığı əsərlərdə daha çox şəhərlərin gözəlliyindən bəhs olunur. R. Hüseynovun da qeyd etdiyi kimi, *"Xaqaninin şəhərlər haqqındakı şəhraşublarının üstün cəhətlərindən biri də onun ömrü boyu çoxlu səyahətlərdə olması, bu səyahətlərin verdiyi imkan sayəsində müqayisə etmək imkanının artmasıdır"*.[2]

Şairin Bağdad şəhərinə həsr etdiyi qəsidəni mənası "*Bir yerin təbii və sosial özəlliklərindən bəhs edən bir nəzm növü"*[3] və yaxud *bir şəhərin sadəcə gəzib görməyə dəyən təbii gözəlliklərini, tarixi məkanlarını və sosial özəlliklərini göstərən* kimi açıqlanan şeir növünə, ərəb ədəbiyyatı baxımından yanaşsaq, vəsf şeirinə – şəhərlərin vəsfinə nümunə kimi qəbul etmək olar.

Xaqaninin qəsidələrində həm fars, həm də ərəb ədəbiyyatının əlamətləri özünü büruzə verir. Məsələn, şair ərəbcə yazdığı bir neçə qəsidədə fars və ərəb qəsidələrini fərqləndirən əsas xüsusiyyətlərdən biri olan mətlədən istifadə etmişdir. Mətlə qəsidənin ilk beytidir, bəzən eyni qəsidə daxilində bir sifətdən başqasına keçərkən bir neçə mətlədən istifadə olunduğunu qeyd edən İbn Qeys ər-Raziyə görə, Xaqani məhz bu üsluba meyl göstərmişdir.[4]

---

[1] *Başçı, V; Başçı, N.* (2025). Hâkânî-i Şirvânî'nin Tersâiye Kasidesindeki Mesihî-Süryanî Kavramlar Üzerine Bir İnceleme. Nüsha (Şarkiyat Araştırmaları) Dergisi, 60, s. 136.
https://dergipark.org.tr/tr/download/article-file/4498014

[2] *Hüseynov, R. B*. Xaqani Şirvani şəhraşubları. Bakı, 1997, s.29

[3] *Devellioğlu, F*. Osmanlıca-Türkce ansiklopedik luğat. Ankara: Aydın kitabevi, 2017, s. 1181

[4] *Ибн Кайс ар-Рази*. Свод правил персидской поэзии (ал-му'джам фи ма'айир аш'ар ал-'аджам). Часть II. О науке рифмы и критики поэзии. Перевод с персидского, исследование и комментарий Н. Ю. Чалисовой. Москва: Восточная литература, 1997, с. 293

A. Mətləbinin fikrincə, Xaqani poeziyada mətlə beytlər sahəsində də ciddi yeniliklər etmişdir. Tədqiqatçı şairin qəsidələrindən 16-nın iki mətləli, 16-nın üç mətləli, 5-nin isə dörd mətləli olduğunu qeyd etmişdir.[1] Amma əlyazmalarda farsca 5, hətta 6 mətlə şəklində göstərilmiş qəsidələrə də rast gəlinir (məsələn, Paris Milli Kitabxanasına aid əlyazmada Dərbənd valisinə həsr edilmiş qəsidə 6 mətlə (vərəq 83 a) şəklində göstərilib; Jan Ripka da bu əsəri 6 hissəli göstərib[2]).

Şair hər iki dildə olan qəsidələrində mətlədən istifadə etmişdir. Onun farsca yazdığı əsərlər arasında çoxmətləli qəsidələrə rast gəlinsə də, ərəbcə yazdığı qəsidələrindən ancaq ikisi (şirvanşah Cəlal əd-Dinə həsr olunan qəsidə və Bağdad qəsidəsi) mətlələrdən ibarətdir. Həmin qəsidələr həm divanlarda, həm də əlyazmalarda mətlələrlə yazılıb, hətta C 61 şifrəli Sankt-Peterburq nüsxəsində həmin qəsidələrin *mətlə sənəti* ilə yazıldığı xüsusi olaraq vurğulanıb. Muhammməd Səm‘aniyə həsr olunmuş qəsidə isə tərəfimizdən şərti olaraq 2 mətləli qəsidə kimi təqdim edilmişdir.

İbn Qeys ər-Razi mətləsiz əsərləri həcmindən asılı olmayaraq, qitə kimi təqdim etsə də[3], biz bu fikri şairin ərəbcə yazdığı qəsidələrə aid etmirik. Bunu nəzərə alaraq demək olar ki, Xaqani ərəb dilində 6 qəsidə yazmışdır ki, onlar 370 beytdən ibarət olub şairin ərəbdilli yaradıcılığının əsas hissəsini təşkil edir:

Şirvanşah Cəlal əd-Din I Axsitana həsr olunan qəsidə (mədhiyyə) – 171 beyt;

Bağdada həsr olunmuş qəsidə (vəsf və ya dəriyyat şeiri) – 69 beyt;

Seyfəddin Əbul-Muzəffər bin Muhammədə həsr olunan qəsidə (mədhiyyə) – 48 beyt;

---

[1] *Mətləbi, A*. Farsdilli poeziyada Azərbaycan üslubu. Tehran, 2013, s. 86

[2] *Рипка, Ян.*История персидской и таджикской литературы, 1970, с. 203

[3] *Ибн Кайс ар-Рази*. Свод правил персидской поэзии, II. М., 1997, с. 43

Məlikul-Əʿzam Alə əd-Dinə həsr olunan qəsidə (mədhiyyə) – 45 beyt;

Muhammməd Səm‘aniyə həsr olunmuş qəsidə (mədhiyyə) – 16+4=20 beyt;

İmam Muhammməd Yəhyaya həsr olunmuş qəsidə (mərsiyə) – 17 beyt.

Qəsidələrdə şair həm fars, həm ərəb poetik ənənələrindən eyni dərəcədə bəhrələnmişdir. Qeyd olunduğu kimi, qəsidələrin mətlələrlə yazılması fars ənənələri ilə bağlı idisə, lirik girişlərdə klassik ərəb qaydalarına riayət edilmişdir.

M. Sultanovun fikrincə, şairin əsl yaradıcılıq simasını açıb göstərmək üçün mədhiyyə xarakteri daşıyan, mübaliğəli qəsidələrindən daha çox ictimai məzmunlu qitələrini, rübailərini, qəzəllərini təhlil etmək lazımdır.[1] Bəlkə də bu fikir Xaqaninin farsca əsərlərində özünü doğruldur, amma şairin ərəbcə mədhiyyələrində vəziyyət fərqlidir. Çünki şairin dövrünün hökmdar və əyanları ilə yanaşı, tanınmış ziyalılarına da yazdığı qəsidələr didaktik fikirlərlə çox zəngindir. Məhəmməd Füzulinin qəsidə ilə bağlı dediyi – "*Həqiqətdə, qəsidə mübhəm ifadələr meydanı və mətin mənalar məkanıdır. Onun sətirlərinin səfləri padşahlara xütbə minbəridir*"[2] fikri Xaqaninin hökmdarlara belə məsləhət verməkdən çəkinmədiyi ərəbcə qəsidələrində tam şəkildə öz təsdiqini tapmışdır.

Bu cəhəti H. Araslı da qeyd etmişdir: "*Şair öz mədhlərində məmduhunu mübaliğəli, qeyri-təbii, inandırıcı olmayan təmtəraqlı ibarələrlə şöhrətləndirsə də, elə oradaca öz humanist-əxlaqi fikirlərini təqdim etməyə, həm də yüksək bədii səviyyədə təqdim etməyə macal tapır*".[3]

---

[1] *Sultanov, M. S*. Xaqani Şirvani. Bakı, 1954, s. 9

[2] *Məhəmməd Füzuli*. Əsərləri. 6 cilddə, IV c. Bakı, 2005, s. 6

[3] Araslı, H. Xaqani Şirvani. Bakı, 1982, s. 19

Klassik ədəbiyyatda istifadə olunan janrlardan biri də **qitə**dir. Kiçik şeir formalarından olan qitə ərəb dilində قطعة (qıt‘a) sözündən götürülüb və mənası *hissə, parça* deməkdir. Bu janrdan daha çox hər hansı mövzuda konkret fikir söyləmək üçün istifadə olunurdu. Öz qafiyə quruluşuna görə qəzəl və qəsidəyə oxşasa da, özünəməxsus xüsusiyyəti budur ki, qitənin ilk beytinin misraları qafiyələnmir: AB. Sonrakı beytlərdə isə ikinci misra birinci beytin ikinci misrası ilə həmqafiyə olur: CB, DB və s. Qəsidədən bir hissə, fraqment kimi qiymətləndirilən qitənin həcmi az olur və son beytdə müəllifin adı çəkilmir. Məzmununa görə siyasi, əxlaqi, fəlsəfi qitələrə rast gəlinir.

Xaqaninin ərəbcə yazdığı şeirlərdən 8-i bu tipli şeirlərdir. Onların həcmi müxtəlifdir. Şairin həcmcə ən böyük qitələri bunlardır:

قطعة يصف بها ما حله بالرّي – Reydə baş verənləri təsvir etdiyi qitə (17 beyt);

قطعة قالها في الشيب والهرم – Qocalıq və ağ saçlar haqqında dediyi qitə (11 beyt).

Şairin farsca yazdığı əsərlər arasında rübailərin özünəməxsus yeri olduğu məlumdur. Onun ərəbdilli irsində də iki beytdən, yəni dörd misradan ibarət şeirlərə rast gəlinir. Bəzi mənbələrdə onlar *dubeyt*, bəzilərində *rübai*, əksər mənbələrdə isə adsız təqdim olunub. Xaqaninin ərəbcə yazdığı dördlüklərin rübai, yaxud dubeyt olduğunu müəyyənləşdirmək çətin olduğundan bu şeirləri *iki beytlik şeirlər* adı altında təqdim edərək, onların qafiyələnmə sistemini göstərməklə kifayətlənirik.

Rübai və dubeytlər arasındakı fərqlərdən biri kimi qafiyələnməni göstərən R. Hüseynova görə, rubai AABA və yaxud AAAA şəklində, dubeytlər isə bu iki formadan başqa ABAB,

AABB şəklində də qafiyələnə bilir.[1] Şairin iki beytlik şeirləri daha çox AABA, az bir hissəsi isə ABAB şəklində qafiyələnmişdir.

Xaqaninin ərəbcə yazdığı əsərlər arasında *mufrad* (fərd), yəni bir beytdən ibarət şeir formasına da rast gəlindi. Bu şeir formasının poeziyada az istifadə olunduğunu və onların daha çox didaktik məzmun daşıdığını yazan Ə. Tamimdariyə görə, burada misralar öz aralarında qafiyələnməyə də bilər.[2] Şairin mufrad kimi qəbul etdiyimiz beytində misralar qafiyələnmişdir.

Yuxarıda qeyd olunan janrlardan başqa şairin ərəb dilində olan əsərləri arasında 4, 5 və 6 beytdən ibarət şeir parçaları da vardır ki, tədqiqat işində həmin şeirlərdən "digər şeirlər" adı altında bəhs edilmişdir.

Müqəddimələr/Dibaçələr. Müqəddimələr orta əsrlərdə *dibaçə* də adlanmışdır. Müqəddimələrin məzmunu, əksər hallarda, aid olduğu əsərlə bağlı olur, əsərin yazılma səbəbini izah edir, yaxud mövzuya giriş xarakteri daşıyır. Əsərlərin əvvəlində verilən müqəddimələri, bəzi hallarda, daşıdığı funksiyaya görə müasir dövr kitablarının *ön söz, giriş* hissələri kimi də izah etmək olar.

Həm nəsrlə, həm də nəzmlə yazılan müqəddimələrə rast gəlinir. Şərq ədəbiyyatı tarixində nəsrlə dibaçə yazan müəlliflərin sayı çox olmayıb.

Nəzm kimi nəsrdə də öz qabiliyyətini vurğulayan, tanınmış nasirlərlə özünü müqayisə edən Xaqaninin nəsrlə yazdığı 3 müqəddiməsi elmə məlumdur: fars dilində 1, ərəb dilində 2.

Hər 3 müqəddimə aid olduğu əsəri məzmun baxımından tamamlayır.

Mənbələrə görə, nəsrlə yazılmış müqəddimələr bəzən katiblər tərəfindən qeydə alınmırdı. Buna görə də, Xaqaninin "Tuhfətul-İraqeyn"ə yazdığı müqəddiməyə poemanın olduğu bütün əlyazmalarda rast gəlinmir. Dibaçənin olduğu əlyaz-

[1] *Hüseynov, R. B*. Məhsəti – necə varsa. Bakı, 1989, s.98

[2] *Тамимдари, А*. История персидской литературы. С-П., 2007, с. 203

malara misal olaraq, 233028 nömrəli Türkiyə nüsxəsini (dibaçə – vərəq 177 a-177 b, poema – vərəq 178 b-206 b), 1816 şifrəli Fransa nüsxəsini (dibaçə – vərəq 1b-2a, poema – 2b-34a) göstərmək olar.

Ərəbcə olan müqəddimələrə də bütün əlyazmalarda və divanlarda rast gəlinmir. Müraciət olunan mənbələrdən 242153 nömrəli Türkiyə, B 136 şifrəli Sankt-Peterburq, M–242, M–413 şifrəli Bakı nüsxələrində və iki divanda (Səccadi, Kəzzazi) tam şəkildə əks olunub. Həm əlyazmalarda, həm də divanlarda onların mətnində orfoqrafik səhvlər, nöqtələrin yerində qoyulmaması müşahidə olunur.

Ərəbcə yazılmış müqəddimələrə ilk dəfə M. Sultanov, S. Rzaquluzadə kimi tədqiqatçılar müraciət etmişlər. Onlar müqəddimələrdən birindən – Məlikul-Ə'zam Alə əd-Dinə həsr olunan qəsidəyə yazılmış dibaçədən bir cümlə nümunə gətirməklə kifayətlənmişlər. Sonralar uzun müddət tədqiqatdan kənar qalmış bu əsərlər ilk dəfə İ. Həmidov tərəfindən tam şəkildə tərcümə edilmişdir. Amma mətndəki xətalar Səccadi nəşri əsasında edilən tərcümənin keyfiyyətindən də yan keçməmişdir.

Müqəddimələr Məlikul-Ə'zam Alə əd-Dinə və İmam Muhammməd Yəhyaya ithaf olunan qəsidələrə yazılıb. Əlyazmalardan fərqli olaraq, divanlarda hər iki müqəddimənin əvvəlində fars dilində qeydlər var. Ola bilsin ki, həmin qeydlər divan tərtibçilərinin istifadə etdikləri əlyazmalarda öz əksini tapıb.

Məlikul-Ə'zam Alə əd-Dinə həsr olunan qəsidəyə yazılan müqəddimə həcmcə daha kiçikdir. Müqəddimənin əvvəlindəki fars dilində qeyd belədir:

در عقب آن قصیده که (رخسار صبح پرده به بعمدا برافکند)[1]

"Səhər üzündəki pərdəni qəsdən atır" qəsidəsinin ardınca.

[1] خاقانی شروانی. دیوان. تصحیح ضیاء الدین سجادی. تهران، ۱۳۳۸، ص. ۹۵۶

رخسار صبح پرده به بعمدا برافکند şairin fars dilində Mazandaran padişahı Nusrat əd-Din Əbu əl-Muzaffara həsr etdiyi mədhiyyənin mətlə beytidir.[1]

İmam Yəhya bin Muhammməd bin Yəhyanın xatirəsinə yazılan əsərin dibaçəsindəki qeyd isə belədir:

مقدمه آن قصیده که (رهروم مقصد امکان بخراسان یابم)[2]

"Mən yol gedirəm, məqsədimi Xorasanda tapa bilərəm" qəsidəsinin müqəddiməsi.

Şeir parçası fars dilində olan

ستایش خراسان و تمنّای وصول به آن و مدح امام محمد بن یحیی[3]

Xorasanın tərifi və ona çatmaq arzusu və İmam Yəhya bin Muhammməd bin Yəhyanın mədhi qəsidəsinin mətlə beytindəndir.

Məlikul-Ə'zam Alə əd-Dinə həsr olunan qəsidəyə yazılan müqəddimənin ilk cümləsi belədir:

فها أنا أشفع الفارسية بالعربية ارتجالا – *Budur, mən bədahətən fars dilini ərəb dili ilə əvəz edirəm.*

Eyni fikir Alə əd-Dinə həsr olunan qəsidənin ilk beytində də təkrarlanır:

وها فارسيّا بالحجازيّ اشفع واحضر کسری ثم نعمان اتبع[4]

Budur, mən farsı hicazlı ilə müşayiət edirəm, Kisranı gətirib, sonra Numəni təqib edirəm.

(Bu beytə divanlarda Muhammməd bin Yəhyanın ölümünə yazılan mərsiyəyə aid olan müqəddimənin sonunda verilən beş beytlik şeirdə də rast gəlinir və bu məsələyə həmin müqəddimədən bəhs edilərkən münasibət bildirilmişdir.)

---

[1] خاقانی شروانی. دیوان، جلد أول. ویراستهٔ میر جلال الدین کزازی. تهران ، ۱۳۷۵، ص. ۱۸۹
[2] خاقانی شروانی. دیوان. تصحیح ضیاء الدین سجادی. تهران، ۱۳۳۸، ص. ۹۴۸
[3] خاقانی شروانی. دیوان، جلد أول. ویراستهٔ میر جلال الدین کزازی. تهران ، ۱۳۷۵، ص. ۳۵۱
[4] خاقانی شروانی. دیوان. تصحیح ضیاء الدین سجادی. تهران، ۱۳۳۸، ص. ۹۴۹، ۹۵۰

Deməli, şair çətinlik çəkmədən fars dilindən ərəbə keçə bildiyini, hər iki dilə yaxşı bələd olduğunu özü də vurğulamışdır. Xaqaninin fars və ərəb dillərində yazdıqları əsərlərin müqayisəsi də bu fikri təsdiqləyir.

Tədqiqat işində əldə olan bütün variantlardan istifadə edilməklə, hər iki müqəddimənin elmi-tənqidi mətninin ilkin variantı hazırlanmış və aid olduqları qəsidənin əvvəlində göstərilmişdir.

Xaqaninin ərəbcə qəsidələri

Qeyd etdiyimiz kimi, Xaqaninin ərəb dilində yazdığı 504 beytin əsas hissəsi, yəni 370 beyti qəsidələrin payına düşür. Şairin ərəbcə yazdığı altı qəsidədən dördü öz məzmununa görə mədhiyyə, Bağdad qəsidəsi vəsf, İmam Yəhya bin Muhammməd Yəhyaya həsr olunan qəsidə isə mərsiyə xarakteri daşıyır.

Əvvəlcə qəsidə-mədhiyyələrlə tanış olaq. Onlar arasında həcmcə ən böyüyü 171 beytdən ibarət olan və mənbələrdə fərqli şəkillərdə təqdim olunan qəsidədir.

Qəsidənin təhlilinə keçməzdən əvvəl təbii ki, onun həsr olunduğu tarixi şəxsiyyət araşdırılmalıdır. Qəsidə Əli Abdur-Rasuli və Bədi əz-Zaman Foruzənfər tərəfindən hazırlanan divanlarda, eləcə də M–247 şifrəli Bakı nüsxəsində adsız, Səccadi divanında və Yusuf Asğari Bayqutun hazırladığı kitabda *əl-Xari (yaxud əl-Xavari)* الخوارى,[1] Kəzzazi divanında الخزارى [2] *əl-Xəzəri* kimi qeyd olunub.

Qəsidə şairin 1987-ci ildə nəşr olunan "Seçilmiş əsərləri"ndə Səccadi nəşrinə uyğun olaraq "İmam Cəlaləddin əl-Xəvariyə" adı altında təqdim olunmuş, şərhlər bölməsində isə Cəlal əd-Din barəsində belə açıqlama verilmişdir: *"İraqda din*

[1] خاقانی شروانی. دیوان. تصحیح ضیاء الدین سجادی. تهران، ۱۳۳۸، ص. ۹۳۹؛ بایقوت، یوسف اصغری. غرائب الاشعار. انتشارات دانشگاه جیرفت: ۱۳۹۵، ص. ۲۴

[2] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳۴۰

başçısı imam Cəlaləddin Xavəriyə (İsfəhaniyə) işarədir. O, şairi zamanın xəlifəsi əl-Müqtəfibillahın yanına aparıb, ona təqdim etmişdir".[1]

İ. Həmidovun tərcüməsində "İmam Cəlaləddin əl-Xarini (və ya əl-Xəzarini, yaxud əl-Xəvarini) mədh edən qəsidə"[2] başlığı altında yazılmış, *İzahlar və şərhlər* bölməsində isə "*Xacə İmam Cəlaləddin əl-Xari – Xaqaninin mədh etdiyi şəxsiyyət*"[3] kimi ümumi açıqlama verilmişdir.

Q. Kəndli-Herisçi qəsidəni *Cəlaləddin Xarinin adına yazdığı "Əlfiyyə"*[4] kimi təqdim etmişdir. Əvvəlcə buna münasibət bildirək; böyük ehtimalla, alim "Əlfiyyə" yox, "Əlifiyyə" demək istəyib. Amma qəsidə nə *əlfiyyə*, nə də *əlifiyyədir*. *Əlfiyyə* əsərin həcminə görə verilən addır və ərəb dilindən tərcümədə minlik deməkdir. Xaqaninin qəsidəsi 171 beytdən ibarət olduğuna görə əlfiyyə adlana bilməz.

Klassik əsərlər şeirin bütün beytlərinin bitdiyi hərfə, yəni ravi hərfinə görə həmin hərfin adı ilə adlandırılıb. Buna uyğun olaraq *əlifiyyə* ravi hərfi *əlif* olan əsərlərə deyilməlidir. Amma *əlif* hərfi *zəif hərflər* qrupuna daxil olduğundan, eləcə də haqqında danışdığımız qəsidənin ravi hərfi *əlif* yox, *həmzə* olduğuna görə o, "Əlifiyyə" yox, "Həmziyyə"dir. Çox güman ki, tədqiqatçı Xaqaninin qəsidə daxilində öz əsərini "Əlifiyyə" kimi təqdim etdiyinə görə bu addan istifadə edib. Amma şair qəsidənin növbəti beytlərində bu məsələyə aydınlıq gətirmiş və qəsidəni belə təqdim etmək fikrinin şəxsən ona aid olduğunu göstərmişdir.

Alimə görə, əsərin ünvanlandığı "*Cəlaləddin Xari Sultan Toğrul və sultan Təküşlə çağdaş idi. Xaqani Cəlaləddinlə məktublaşırdı"*.[5] Amma şairin farsca yazdığı məktublar arasında

---

[1] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1987, s. 221; s. 599
[2] *Xaqani Şirvani*. Ərəbcə şeirləri. Bakı, 2017, s. 11
[3] *Xaqani Şirvani*. Ərəbcə şeirləri. Bakı, 2017, s. 141
[4] *Kəndli-Herisçi, Q*. Xaqani Şirvani. Bakı, 1988, s. 442
[5] *Kəndli-Herisçi, Q*. Xaqani Şirvani. Bakı, 1988, s. 468

Cəlaləddin Xari adına rast gəlinmir. Onun məktublarından 8-si *Xaqan Ə'zam Cəlal əd-Dinə* ünvanlanıb.

Başqa mənbələrdə Cəlal əd-Dinlə bağlı hər hansı bir məlumata rast gəlinmədiyinə və bu məlumatın mənbəyi göstərilmədiyinə görə, Cəlal əd-Dinin nisbəsi (الخوارى – əl-Xəvari və ya əl-Xuvari) ilə bağlı müəyyən araşdırmalar aparmağı vacib hesab etdik. Zəkəriyyə əl-Qəzvininin əsərində belə bir məlumata rast gəlindi ki, Xuvar Kuhistanın Reylə Nişapur arasındakı şəhərlərindən biridir. Sultan Toğrul bin Arslan Reyə gələrkən, onun ordusu atlarını əkin sahələrinə buraxır və Sədrəddin əl-Vazzən bununla bağlı Sultanın yanına gedərkən məşhur vaiz, nəzm və nəsr ustası Cəlal əl-Xuvarini də özü ilə götürür. Şairin burada fars dilində bədahətən söylədiyi şeirdən çox xoşlanan Sultan atların əkin sahələrindən çıxarılmasını əmr edir.[1]

Burada adı çəkilən Cəlal əl-Xuvari şairdir və onun haqqında geniş məlumat yoxdur. Lakin Xaqaninin qəsidəsindən belə məlum olur ki, şairin məmduhu xəlifələr qədər nüfuza sahib çox səlahiyyətli bir şəxsdir və o, böyük ehtimalla, əl-Qəzvininin adını çəkdiyi Cəlal əl-Xuvari deyil.

Yaqut əl-Haməviyə görə də, nisbə Rey vilayətinin şəhərlərindən biri, İsfahanın on səkkiz fərsəxliyində yerləşən Xuvar şəhərinin adından götürülmüşdür. Kəzzazinin təqdim etdiyi - الخز اری – əl-Xuzəri isə Məvarənnəhrdəki Xuzər nahiyəsinə görə verilən nisbədir.[2] Q. Kəndli-Herisçi Cəlal əd-Dinin Reyin Xar mahalından olduğunu və onların Xarda görüşdüyünü ehtimal edir.[3] Buradan belə nəticə əldə etmək olar ki, Xar-Xavar-Xuvar eyni coğrafi ərazidir, sadəcə ərəb və fars dillərinin oxunuş qaydalarına görə müxtəlif variantlarda oxuna bilər.

---

[1] القزويني، زكرياء بن محمود. آثار البلاد وأخبار العباد. بيروت، ١٣٨٠ هـ - ١٩٦٠ م. ص. ٣٦٣

[2] الحموي، ياقوت. معجم البلدان، المجلد الثاني. بيروت، ١٩٧٧، ص. ٣٦٤

[3] *Kəndli-Herisçi, Q*. Xaqani Şirvani. Bakı, 1988, s. 474

Maraqlıdır ki, şairin farsca əsərləri arasında فرست (*Göndər*) rədifli qəsidə ilə də bağlı eyni vəziyyət müşahidə olunur. Həmin qəsidə Foruzənfər nəşrində در مدح جلال الدین الخزاری[1] (*Cəlaləddin əl-Xəzərinin mədhində*), M–247 şifrəli Bakı nüsxəsində در مدح امام جلال الدین خواری گفته (*İmam Cəlal əd-Din Xarinin mədhində deyib*) adı altında təqdim olunub. Xaqaninin eyni mövzuya hər iki dildə müraciət etdiyi əsərlər arasında müəyyən yaxınlıqlar özünü büruzə versə də, şairin əksər mənbələrdə eyni ad altında təqdim olunan 171 beytlik ərəbcə və 62 beytlik farsca yazılmış qəsidələri arasında heç bir oxşarlıq yoxdur. Böyük ehtimalla, qəsidələr eyni şəxsə ünvanlanmayıb.

Tədqiqatımızın mövzusuna uyğun olaraq, biz ərəbcə yazılan qəsidə ilə bağlı geniş araşdırma apardıq və ancaq bir mənbədə – REA Şərq Əlyazmaları İnstitutundakı bir əlyazmada bu vaxta qədər qəsidə ilə bağlı yazılanları təkzib edən təqdimata rast gəldik. Belə ki, həmin fondda C 61şifrəli əlyazmada əsər

قصيدة الخامس والماية في مدح جلال الدين منوچهر مشتمل در شكايت اوطان واخوان بصنعت ذى المطالع

Vətəndən və qardaşlıqdan şikayəti əhatə edən, Cəlal əd-Din Mənuçehrin mədhi haqqında mətlə sənəti ilə yazılmış yüz beşinci qəsidə – (vərəq 176 a-179 a)

- adı altında təqdim olunub. Bu ad qəsidənin məzmununa çox uyğun gəlir. Çünki qəsidədə Vətəndən, qardaşlıqdan, dostlardan şikayət xüsusi yer tutur. Amma əlyazmadakı Cəlal əd-Din Mənuçehr adını bir qədər dəqiqləşdirək.

Mənbələrə görə, *Cəlal əd-Din* titulu II Mənuçehrə (530–555/1136–1160) yox, I Axsitana (555–566/1160–1196) aid olub. S. Aşurbəyli II Mənuçehrin tam adının və titullarının Hadi Həsənin Əbul-Əla, Xaqani və Fələkinin əsərləri əsasında müəyyənləşdirdiyini yazır: *"Xaqan-i Bozorg, Kəbir va ya Əkbər həm*

[1] خاقانی شروانی. دیوان. با مقدمه استاد بدیع الزمان فروزانفر. تهران، ۱۳۸۹، ص. ۶۰۸–۶۱۱

Mənuçehrə, həm də oğlu Axsitana aid idisə, Əbu-l-Hayca və Fəxr əd-Din ancaq III Mənuçehrə, Əbu-l-Muzəffər və Cəlal əd-Din isə Axsitana aid olub".[1]

Y. E. Bertels də Nizami Gəncəvinin "Yeddi gözəl" poemasını sifariş edən hökmdarın adını şairin öz əsərinə istinadən belə qeyd etmişdir: *"... sifarişçinin tam adı belədir: böyük xaqan Şirvanşah Cəlal əd-Dövlə va əd-Din Əbul-Muzaffər Axsitan ibn Mənuçehr. Bu ad Axsitanın saray şairləri olan Fələki, Xaqani və digərlərinin qəsidələrində rast gəlinən forma ilə üst-üstə düşür"*.[2]

Doğrudan da, Xaqaninin bütün mənzum əsərlərində II Mənuçehr *Fəxr əd-Din*, I Axsitan isə *Cəlal əd-Din* titulu ilə təqdim olunub. Onun fars dilində yazdığı 60 məktubdan 8-i خاقان اعظم جلال الدين / *Böyük Xaqan Cəlal əd-Dinə* ünvanlanıb. Şairin məktublarının araşdırılmasında böyük rolu olan Ahmed Ateş *Lala İsmail Efendi dergisində* tapılan məktublar arasında VII olan məktubla bağlı yazır: "*Yaprak 11 b-15 a. Hakan-i A'zam Calal al-Din'e – her halde Ahsitan b. Manuçihr olmalıdır – gönderilmiş bir mektup*".[3]

Bu deyilənləri və Xaqani Şirvaninin ərəbcə yazdığı və şikayətin ön planda olduğu əsərlərin ömrünün daha kamil dövrünə təsadüf etdiyini nəzərə alaraq, belə düşünmək olar ki, əlyazmada جلال الدين منوچهر بن adında *oğlu* sözü buraxılmışdır. Bunu nəzərə alaraq, qəsidəni monoqrafiyada *Cəlal əd-Din I Axsitan bin Mənuçehrə* həsr olunmuş əsər kimi təqdim edirik.

Qeyd etdiyimiz kimi, Xaqaninin bu qəsidəsi öz strukturuna görə qədim ərəb qəsidələrinə qoyulan tələbata cavab verir. Buna görə də, İran tədqiqatçısı Yusuf Asğari Bayqut qəsidəni, haqlı

---

[1] *Ашурбейли, С.* Государство Ширваншахов (VI-XVI вв.). Баку, 1983, с. 128-129; *Hasan, Hadi*. Falaki Shirwani. London, 1929, p.10

[2] *Бертельс, Е. Э.* Низами и Фузули. Москва, 1962, с. 142

[3] *Ateş, A*. Hakaninin mektubları dergisi. Belleten, 1961. XXV cilt, s. 242

olaraq, "Xaqaninin müəlləqəsi" adlandırmışdır.[1] (*Müəlləqə* haqqında məlumat əvvəldə təqdim olunub.)

İ. Həmidov əsərlə bağlı yazır: *"Qəsidədə Xaqani ayrılıq duyğularını təsvir edir, çünki ənənəvi ərəb qəsidəsinin quruluşu və məzmunu bunu tələb edir"*.[2] Deməli, əsər klassik ərəb qəsidələrinə qoyulan tələb çərçivəsində qiymətləndirilməlidir.

İbn Quteybənin qəsidənin quruluşu ilə bağlı bölgüsünü nəzərə alaraq, 1-58-ci beytləri qəsidənin nəsib hissəsi kimi göstərmək olar. Ənənəvi ərəb qəsidələri kimi bu lirik giriş şairin qəmqüssəsini özündə əks etdirərək, qəmgin notlar üzərində köklənmişdir:

بكت الرباب فقلت ايّ بكاء أبكاء عهد أم بكاء اخاء
فالعهد فالربع المحور بدمعنا ثمّ الاخاء لزمرة الخلطاء

Rubab (və yaxyd Rabab) ağladı. Sordum: bu nə ağlamaqdır? Dövrana ağlayırsan, yoxsa qardaşlığa?

(Dedi:)Vətəndə göz yaşlarımızla keçən dövrana, sonra da bir qrup dostun qardaşlığına (ağlayıram).

Ərəb mətnlərində hərəkələrin qoyulmaması tərcümə prosesini çətinləşdirən, təhrifə yol açan məqamlardandır. Dini mətnlər yazılarkən təhrifin qarşısını almaq məqsədilə onlar hərəkələnir, qalan hallarda isə mətnlər, əsasən, hərəkəsiz təqdim olunur. Bu da bir sözün müxtəlif tərcüməsi ilə nəticələnir. Beytdəki رباب sözü də hərəkələnmədən asılı olaraq 2 cür oxunub izah edilə bilər:

1) الرُّباب *rubab* kimi – simli musiqi aləti olan rubab Şərqdə geniş yayılmışdı. Bu alət haqqında müxtəlif hekayətlər, rəvayətlər vardır. Ərəb mənbələrinin verdiyi məlumata görə, ona ilk dəfə Bənu Tayy qəbiləsindən olan qadının əlində rast gəlinib.

[1] بایقوت، یوسف اصغری. غرائب الاشعار. انتشارات دانشگاه جیرفت، ۱۳۹۵، ص. ۸
[2] *Xaqani Şirvani*. Ərəbcə şeirləri. Bakı, 2017, s. 15

Cahiliyyə şairləri qəsidələri, xüsusilə də mərsiyələri onunla müşayiət edirdilər. Sonralar bu alət ərəblərlə birgə Əndəlusa – Avropaya keçmişdir.

2) الرَّباب *Rabab* – qadın adı kimi*;* "Lisənul-arab"a görə: *"Əbu Ubeydə demişdir: ər-rababə, (fəthə ilə) bir-birinin üzərinə toplaşan buluddur, onların cəmi ər-rababdır, qadın da bu sözlə ər-Rabab adlandırılıb"*[1]

Ər-Rabab qadın adı kimi qədim ərəb poeziyasında da xatırlanıb. Məşhur ərəb şairi İmrul-Qeys öz müəlləqəsində deyir:

كَدَأْبِكَ مِنْ أُمِّ الحُوَيْرِثِ قَبْلَهَا وَجَارَتِهَا أُمِّ الرَّبَابِ بِمَأْسَلِ[2]

Adətin üzrə bundan əvvəl Umm əl-Huvayrisi və Mə'səldə onun qonşusu Umm ər-Rababla da bəxtin gətirməmişdi.

Hər iki məna qəsidənin kədərli girişinə və poeziyanın tələbinə uyğun gəldiyinə görə bu sözü həm musiqi aləti (rubab), həm də qadın (Rabab) kimi tərcümə etmək olar.

Xaqaninin ərəbdilli əsərlərini tərcümə edənlər onun birinci mənasından çıxış edərək, rubab kimi tərcümə etmişlər.[3]

Amma M–247 şifrəli Bakı nüsxəsində ağlayan rabab yox, دیار (diyə:r) – dir ki, bu da دار (də:r) – sözünün cəm formasıdır və dilimizdə ya *ev, yaşayış məskəni*, yaxud *ölkə* bildirir. Bu variant Abdur-Rasuli tərəfindən hazırlanan divanla üst-üstə düşür.[4]

---

[1] ابن منظور. لسان العرب. دار الصادر بيروت، المجلد السادس، ص. ٧١

[2] امرئ القيس. ديوان. ضبطه و صحّحه الاستاذ مصطفى عبد الثافي. بيروت: دار الكتب العلميّة، ٢٠٠٤ م. ١٤٢٥ هـ. ص. ٩

[3] *Xaqani Şirvani.* Ərəbcə şeirləri. Bakı, 2017, s. 29; *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1987, s. 221;
علیرضا رضایی حمزه کندی. وحید رضایی حمزه کندی. آفتاب نهان خاقانی. اورمیة، ١٣٨٩، ص. ٥٤

[4] خاقاني شروانى. ديوان. بتصحيح علىّ عبد الرسولى. تهران، ١٣١٦، ص. ٩٢٩

Qəsidənin girişi göz yaşları, kədər, qəm-qüssə ilə doludur. Şair öz qəsidəsini göz yaşları ilə başlamaqla, qədim ərəb qəsidəsinin lirik girişinə gözəl bir nümunə yaratmaqla kifayətlənməmiş, ona bir yenilik qatmışdır. Belə ki, ərəb şairlərinin lirik girişi ilə müqayisədə bu qəsidənin girişi daha mənalıdır. Əgər qədim ərəb şairləri

قفا نَبْكِي من ذِكْرَى حَبِيبٍ و مَنْزِلِ بِسَقْطِ اللِّوَى بَينَ الدَّخُولِ فَحَوْمَلِ

Dayanın! Sevgilimizi, obamızı, Dəxul və Hauməl arasındakı buruq-buruq qumları xatırlayıb ağlayaq[1] – deyərək yanındakıları sevgili ilə keçirdiyi günlərə, insan məskənlərinin izlərinə ağlamaq üçün ayaq saxlamağa çağırırdısa, Xaqani öz dostlarını insaf, vəfa, ləyaqət, qəhrəmanlıq kimi insani keyfiyyətlərin qalıqlarına göz yaşı axıtmağa səsləyirdi:

صَحْبِي تعالوا نبك في غصص الشجى جيران انصاف وربع وفاء
فطلول مكرمة ورسم فتوّة وخيام معرفة ونوى صفاء

Dostlar, gəlin bu qayğının ağrıları içində
insafın məskəninə, vəfanın vətəninə ağlayaq.
Ləyaqətin qalıqlarına, qəhrəmanlığın izlərinə,
mərifət xeyməsinə, saflıq toxumuna.

Qəsidədə Xaqaninin dostlarından narazılığı öz əksini tapıb. Buludlar kimi gah gülüb, gah ağlayan şair həm göz yaşlarının, həm gülüşünün səbəbini öz dostlarına belə açıqlamışdır:

قالوا أتبكي قلتُ أبكى ودّكم كنتم أودّائي فصِرْتم داء
قالوا أتضحكُ قُلْتُ أَضحكُ منكم هذا جواب خائف الأعداء

Dedilər: ağlayırsan? Dedim: Sizin sevginizə ağlayıram, mənim dostlarım olduğunuz halda bəlam oldunuz.

[1] *Qasımova, A*. Ərəb ədəbiyyatı. V–XIII əsrlər (ikinci nəşr). Bakı, 2023, s.109 (A.Qasımova. Ərəb ədəbiyyatı.pdf)

Dedilər: gülürsən? Dedim: Sizə gülürəm, bu da düşmənləri qorxudan bir cavabdır.

Növbəti beytlərdə Xaqani müxtəlif maraqlı fikirlərlə çıxış edir, sərgərdan həyatından bəhs edir; şairin tərk edilmiş obası Şirvandır. O, Şirvandan gileylənir, ordan küsərək Təbrizə sığındığını söyləyir. Məlum olur ki, Şirvanda günü xoş keçməyən şair hakim qüvvələr, digər şairlər tərəfindən sıxışdırılmaqla yanaşı, həm də əzizlərini bu torpaqlarda itirmişdir. Vətənini çox sevir, amma bu sevgi ona əzab-əziyyət gətirir, acı çəkdirir. Getdiyi yerlərdə də rahatlıq tapa bilmir. Bir tərəfdən Vətəndə başına gələnləri xatırlayıb kədərlənir, digər tərəfdən isə xiffət, həsrət ona əzab verir.

Şair zəmanədən narazılığını, dövranın amansızlığını, onun məsum insanların cəlladı olduğunu belə dilə gətirmişdir:

قلبي كظيم بعد شوك نعامتي عن بلدتي والدهر ذابح شاء
قضمتني الدنيا بأنياب النوى وتلقّفت بلهاة كلّ بلاء
مضغتني الاوطان ثمّ لفظتني نحو البلاد أهيم في اليهماء
مضغ كما التمر لفظ كالنوى ها تاك شيمة بلدتي الشماء[1]

Doğma yurdumda könlümə tikanlar batandan bəri qəlbim kədərlə doludur, dövran da quzuların (məsumların, fağırların) cəlladıdır.

Dünya qürbətin dişləri ilə məni gəmirdi, bəlaların ağzı ilə məni acgözlüklə uddu.

Doğma yerlər məni çeynədikdən sonra başqa ölkələrə tərəf tüpürdü; hələ də səhralarda dolaşıram.

Xurma kimi çeynədi, çəyirdək kimi tüpürdü; bu da mənim məğrur şəhərimə xas bir xüsusiyyətdir.

Şirvanı *canlıları udub, cansız bədənlərini sahilə atan bir dəniz* kimi görən şair, yaxınlarının bu dənizin dalğalarında qərq

[1] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران ، ۱۳۷۵، ص. ۱۳۴۲

olduğunu xatırlayaraq, öz xilas yolunu oradan – Şirvandan uzaqlaşmaqda görmüşdür:

غرقت بموج البعد فلك أقاربي فلقاربي لا بدّ من إرفاء[1]

Yaxınlarımın (doğmalarımın) gəmisi uzaq dalğalarda qərq oldu, mənim qayığım isə limana yan almalıdır.

Əgər qəsidənin girişində cahiliyyə dövrü şairlərinin təsiri duyulursa, növbəti hissədə İslam ənənələri özünü büruzə verir. Şair özünü əsl müsəlman kimi qələmə verir, ümidini ancaq Allaha bağladığını göstərir. Var-dövlət hərisi olmadığını, dünya malı üçün heç kimin qarşısında əyilmədiyini göstərir. 59-95-ci beytləri əhatə edən bu hissəni fəxriyyə kimi qəbul etmək olar. Şair həyası, elmi, himməti ilə fəxr edir:

شرفي بماء العلم بل غرقي به غرق المحيا لي بماء حياء
قبلت علما أنّ علمي قاتلي والقتل إحياء لدى العلماء
كالشمع ينقص حين زاد لهيبه ما قد نمى علمي ذوي حوباء[2].

Şərəfim elm suyundadır, orada mən, üzüm həya suyunda qərq olduğu kimi, qərq oluram.

Məni öldürdüyünü bilə-bilə elmi qəbul etmişəm, alimlər üçün bu ölüm dirilikdir.

Yandıqca şöləsi artan, özü kiçilən şam kimi, mənim elmimi artıran cismimin əriməyidir.

Daha sonra şair insanlar tərəfindən yanlış anlaşıldığını, qınaq obyektinə çevrildiyini, çıxış yolunu cəmiyyətdən birdəfəlik üz döndərməkdə gördüyünü dilə gətirmişdir:

لازمتُ خُصّي قيل خصّ به الغنى وغضضت طرفي قيل ذو الخيلاء
ما شيمتي الخيلاء لكنّ همّتي ذات الغناء وبفقري استغناء

[1] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران ، ۱۳۷۵، ص. ۱۳۴۲
[2] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران ، ۱۳۷۵، ص. ۱۳۴۳

طلّقت دنياكم ثلاثا بتّة من غير رِجْعتها و لا استثناء
عمر قصير المواعيد خدعة وخديمتي يغترّ بالرياء

Öz komama (üzlətə) çəkildim, dedilər: var-dövlət onu belə edir; baxışlarımı yerə dikdim, dedilər: təkəbbürlüdür.

Halbuki təkəbbür mənə xas deyil, lakin himmətim var-dövlət sahibidir və mənim ehtiyacsızlığım elə kasıblığımdadır.

Mən sizin dünyanızdan ömürlük ayrılmışam (3 talaqla boşanmışam), bunun nə geri dönüşü var, nə istisnası,

Ömür qısadır, vədlər isə aldadıcı, mənim xidmətçim belə riyaya aldanır.

İslama görə, üç talaqla boşanmadan sonra artıq barışıq mümkün deyil, şair də onu anlamayan dünyadan birdəfəlik qopduğunu, ondan qəti şəkildə üz döndərdiyini deyir. Çünki insan övladı vədlərə aldana bilir, onun xidmətçisi, yəni nəfsi də aldana bilər və bunun baş verməməsi üçün bu dünyadan uzaqlaşmaq lazımdır.

Burada Peyğəmbərin ﷺ الفقرفخري وبه أفتخر على سائر الانبياء – *Kasıblıq fəxrimdir və onunla digər peyğəmbərlərdən seçilirəm* hədisinin inikasını da görmək olar.

95-ci beytdə şair özü ilə bağlı düşüncələrini yekunlaşdırmış və özünün أفضل *Əfzəl* (*afdal* – ən yaxşı, ən fəzilətli) təxəllüsünü də qeyd etmişdir:

أنا أفضل الدنيا ما أتى خاطري إلّا بفضل الله ذي الآلاء

Mən bu dünyanın Əfzəliyəm (ən fəzilətlisiyəm), mənim ağlımın məhsulu ancaq Allahın lütfü sayəsindədir.

96-cı beytdən mədh hissə başlayır. Cəlal əd-Dini hidayət yolçularının qılıncı, rəhbərlər rəhbəri, ölü quşlara həyat verən İsa, şəriətin dayağı və s. kimi ifadələrlə tərif edir. Burada ora əsr şairlərinə məxsus mübaliğələrə geniş yer verilib:

أعواده طوبى ومجلس مجده جنّات عدن موعد العرفاء
طوبى لطوبى إن غدت كرسيّه فالعرش يحسده على استعلاء

Dirəkləri Tuba ağacıdır, Ədn cənnətinə bənzəyən alicənab məclisi isə ariflərin görüş yeridir.

Tuba onun kürsüsü olmaqdan həzz alardı, Ərş onun ucalığına həsəd aparardı.

113-cü beytdən qəsidənin ikinci mətləsi başlayır:

إنّي لأخدم ناصح الخلفاء فرد الائمّة خاضع الحنفاء

Mən xəlifələrin məsləhətçisinə, imamlardan birinə, hənəfilərin (əsl müsəlmanların) etibarlısına xidmət edirəm.

Xaqaninin yenilikçi şair olduğu məlumdur. Bu qəsidədə də bunun şahidi olmaq olar. Məsələn, 160-cı beytdə şair yazdığı qəsidə ilə bağlı deyir:

قَرَّضْتُهُ بِقصيدة ألفيّة والحبر قرّطني بحرف الباء
يعنى لي التقديم كالالف التى قفّيتها و أنا أبو النقضاء[1]

Əlifiyyə qəsidəsi ilə onu mədh etdim və mürəkkəb bə hərfində məni cilovladı.

Yəni qafiyələndirdiyim əlif kimi təqdim etmək mənə məxsusdur və mən qarşıçıxmalar atasıyam.

Birinci beytdə şairin "bə hərfi" ilə "Bağdad" rədifli qəsidəsini nəzərdə tutduğunu və həmin qəsidənin həcmcə şirvanşah Cəlal əd-Dinə həsr olunan mədhiyyədən kiçik olmasını mürəkkəbin onu "cilovlaması" ilə əlaqələndirdiyini ehtimal etmək olar.

İkinci beytdə isə şair demək istəyir ki, qəsidəni "Əlifiyyə" kimi təqdim emək fikri şəxsən ona məxsusdur. Çünki qəsidə beytlərin son hərfinə uyğun olaraq, "həmziyyə" adlandırılmalı

[1] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳۴۶

idi, lakin poeziya sahəsində yenilikçi şair və yaxud şairin öz sözləri ilə desək, "qarşıçıxmalar atası" kimi tanınan Xaqani burada da öz ənənəsinə sadiq qalmış və onu istədiyi kimi təqdim etmişdir.

Qəsidənin sonuna doğru şair yazır:

قلمي كمنقار الحمام لرأسه حلك الغراب و منطق الببغاء
لو مسّه الطاء لصيّر زعمه صدق الغراب منبّئ الانباء
ضمّنتُ نصف البيت للطاء فها توهّمت باسم البحتري الطاء

Qələmim göyərçinin dimdiyi kimidir, ucunda qarğa qaralığı və tutuquşu dili var.

Əgər ət-Tai ona toxunsaydı, onun iddiası xəbər gətirən qarğanın həqiqətinə çevrilərdi.

Ət-Tainin beytinin yarısını daxil etdim, bununla da əl-Buhturi ət-Tainin adına işarə etdim.

Bu beyt, Xaqaninin qəsidəni əl-Buhturinin Əbu Səid Muhammməd bin Yusuf əs-Səğri ət-Taini mədh etdiyi qəsidəsinin təsiri altında yazdığını iddia etməyə əsas verir. Adı çəkilən qəsidə belə başlayır:

زَعَمَ الغُرابُ مُنبِّئُ الانباء أنَّ الأحِبَّة آذنوا بِتَنَاءِ[1]

Xəbərlər carçısı qarğa bildirdi ki, sevgililər uzaqlaşmaq üzrədirlər.

Xaqani *Ət-Tainin beytinin yarısını daxil etdim* deməklə الغراب مُنبِّئُ الانباء (xəbərlər carçısı qarğa) ifadəsindən istifadə etdiyini göstərmişdir. Əl-Buhturinin adı çəkilən qəsidəsi 56 beytdən, Xaqaninin qəsidəsi isə 171 beytdən ibarətdir. Buna görə də şair aşağıdakı beytdə mətləbi uzatdığına görə xəcalət çəkdiyini dilə gətirmişdir:

أطنبت حتّى كدت أغرق خجلة

[1] البحتري. ديوان. المحقق: حسن كامل الصيرفي. مصر: دار المعارف، ١٩٦٢. ص. ٥

Mətləbi o qədər uzatdım ki, az qaldı xəcalət tərində qərq olum.

Buhturi ilə Xaqaninin qəsidələri arasındakı oxşar cəhətləri belə göstərmək olar:

–hər iki qəsidə öz məzmununa görə mədhiyyədir;

–hər iki qəsidənin ravi hərfi həmzədir;

–hər iki qəsidə eyni bəhrdə – kamil bəhrində yazılıb.

Beytdə *ət-Tai* sözünün yazılışı ilə bağlı onu qeyd etmək istərdik ki, ərəbcə bu söz, düzgün yazılış qaydasına görə, ى hərfi ilə bitməli idi. Səccadi və Kəzzazi nəşrlərində[1] qəsidənin qafiyəsinə uyğun الطاء yəni dayaqsız həmzə ilə, Əli Abdur-Rasuli və Foruzənfər nəşrlərində[2] və M–247 şifrəli əlyazmada الطائي şəklində yazılmışdır.

Şairin həcmcə ikinci böyük mədhiyyəsi (48 beyt) **Dərbənd əmiri Seyf əd-Dinə** həsr olunan qəsidədir. Əvvəlcə əsərin mənbələrdə necə təqdim olunduğunu qeyd edək. Xaqaninin Dərbənd hakiminə iki dildə – fars və ərəb dillərində mədhiyyə yazdığı artıq qeyd olunub. Onun əlyazmalarının Bakı nüsxələri arasında M–204 şifrəli əlyazmada Dərbənd hakiminə hər iki dildə həsr olunan qəsidə ardıcıl şəkildə – əvvəlcə بمدح ملك سيف الدين كويد *hökmdar Seyf əd-Dinin mədhində deyir* başlığı altında fars dilində olan qəsidə, daha sonra أيضا له *yenə onundur* başlığı altında ərəbcə olan qəsidə təqdim olunub. M–242 şifrəli nüsxədə له أيضا قصيدة في المدح *onun mədh etdiyi daha bir qəsidə,* M–413 şifrəli nüsxədə adsız, B–7763 şifrəli nüsxədə qəsidənin ilk beyti ilə, C 61 şifrəli Sankt-Peterburq nüsxəsində (vərəq 147 b) قصيدة الرابع و المائة في مدح سيف الدين أبو المظفر بن محمد *Seyf əd-Din*

[1] خاقانی شروانی. دیوان. تصحیح ضیاء الدین سجادی. تهران، ۱۳۳۸، ص. ۹۴۷؛ خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران ، ۱۳۷۵، ص. ۱۳۴۷

[2] خاقاني شروانی. دیوان. بتصحیح عليّ عبد الرسولی. تهران، ۱۳۱٦، ص. ۹۳٦؛ خاقانی شروانی. دیوان. با مقدمه بدیع الزمان فروزانفر. تهران، ۱۳۸۹، ص. ۷۲۷

Əbu əl-Muzaffar bin Muhammədin mədhi olan 104-cü qəsidə adı altında verilib. Divanlarda da hər iki dildə yazılan qəsidə oxşar şəkildə təqdim olunduğuna görə,[1] onu *Dərbəndin sahibi (hökmdarı) Seyf əd-Din Muzaffar bin Muhammədin mədh olunduğu qəsidə* kimi qeyd edirik.

Mənbələrdə Dərbənd əmiri ilə bağlı fərqli fikirlərə rast gəldiyimizdən qəsidənin məzmununa keçməzdən əvvəl bu məsələyə aydınlıq gətirək. Azərbaycanın XI–XII əsrlər tarixini araşdırmaq üçün Məsud bin Namdar, Fələki Şirvani, Mücirəddin Beyləqani, Nizami Gəncəvi ilə yanaşı Xaqani Şirvaninin də əsərləri S. Aşurbəyli, Z. Bünyadov, V. M. Beylis, V. F. Minorski və s. kimi tarixçi alimlər üçün qiymətli mənbə rolunu oynamışdır. Z. Bünyadov yazır: "*Tarixçi üçün, hər şeydən əvvəl, Xaqaninin əsərləri ona görə qiymətlidir ki, burada tədqiq olunan dövrün on hökmdarının adı və titulu çəkilir"*.[2] Şirvanşahlar dövlətinin ən məşhur tədqiqatçısı S. Aşurbəyli «Государство Ширваншахов» ("Şirvanşahlar dövləti") əsərində Xaqaninin qəsidələrindən xeyli sitatlar gətirmişdir.

2007-ci ildə nəşr olunmuş "Azərbaycan tarixi" kitabı da bu cəhətdən istisna deyil. Amma kitabda şairin əsərlərinə əsasən fikir yürüdülərkən *"Xaqaninin şeirlərindən birində görünür...", "Buna öz mədhiyyələrindən birində şair Xaqani də işarə etmişdir", "Onun yazdığından aydın olur ki..."*[3] kimi ümumi ifadələrdən istifadə olunmuş və dəqiq mənbə göstərilməmiş, ədəbiyyat siyahısına isə 1987-ci ildə nəşr olunmuş "Seçilmiş əsərləri" daxil edilmişdir. Bu da həm şairin məhz hansı əsərinə

[3] خاقاني شروانى. ديوان. بتصحيح عليّ عبد الرسولى. تهران، ١٣١٦، ص. ١٨٧؛ ص. ٩٤٠

[2] *Bünyadov, Z.* Azərbaycan Atabəyləri dövləti. 1136–1225-ci illər. Bakı: Şərq-Qərb, 2007, s. 200

[3] Azərbaycan tarixi. III–XIII əsrin birinci rübü (məsul redaktor: N. Vəlixanlı). 7 cilddə: II c. Bakı: Elm, 2007, s. 343; s. 251; s. 344 və s.

istinad olunduğunu araşdırmağa imkan vermir, həm də poetik tərcümədən istifadə olunduğunu göstərir.

Dərbənd əmiri ilə bağlı olan məlumata diqqət edək: *"1154-cü ildə abxaz (gürcü) hökmdarı Demetre ilə Dərbənddə olmuş ərəb tarixçisi İbn əl-Əzraq Dərbənd əmiri, abxaz (gürcü) hökmdarının kürəkəni Əbülmüzəffərin adını çəkir. Xaqaninin mədhiyyəsində Dərbənd əmiri kimi göstərilmiş Əbülmüzəffər 1160-cı ildən sonra hakimiyyətə gəlmiş şirvanşah I Axsitanın (Tamarın və Mənuçehrin oğlunun) titulu olmuşdur. Güman etmək olar ki, 1154-cü ildə gələcək şirvanşah Axsitan Əbülmüzəffər də özünün bir çox sələfləri kimi əvvəlcə Dərbənd əmiri olmuşdur. Gürcü salnaməsi 1191/1192-ci ilə qədər şirvanşah kimi hakimiyyətdə olmuş Axsitanı "Movakan (Muğan), Şirvan və Dərbənddən Xalxaladək (Ərdəbil yaxınlığında) dəniz sahili vilayətlərin hökmdarı" kimi qələmə verir*".[1]

"Xaqaninin mədhiyyəsi" deyilərkən hansı mədhiyyənin nəzərdə tutulduğu qeyd olunmadığına görə belə ehtimal edirik ki, söhbət şairin Dərbənd əmirinə fars dilində yazdığı əsərdən gedir. İstənilən halda burada verilən məlumat Xaqaninin qəsidəsinə yox, ümumiyyətlə Dərbənd və Şirvanın tarixinə aid mənbələrə ziddir. Düzdür, Xaqani əsərlərində Axsitana Əbu əl-Muzaffar kimi müraciət etmişdir və *"Xaqani Əbul-Müzəffər dedikdə Axsitandan, Fəxrəddin dedikdə Mənuçehrdən danışır. Axsitan Müzəffərəddin ləqəbini, Əbul-Müzəffər künyəsini daşımışdır"*.[2] *Kunyə* sözünün mənası da ləqəbdir, أبو، أبن، أمّ، بنت (ata, qız, ana, oğul) kimi sözlər vasitəsilə yaranır, amma yalnız ləqəbə, kunyəyə əsaslanmaqla nəticə çıxartmaq düzgün deyil.

Ərəb mənbələrinə əsaslanan Vladimir Fyedoroviç Minorskinin (1877–1966) «История Ширвана и Дербенда X–XI

[1] Azərbaycan tarixi. III–XIII əsrin birinci rübü, II c. Bakı, 2007, s. 266
[2] *Kəndli-Herisçi, Q*. Xaqani Şirvani. Bakı, 1988, s. 369

веков» (“X–XI əsrlər Şirvan və Dərbənd tarixi”) əsərinə görə, təxminən 524–45-ci/1130–50 illər arasında əl-Babı ziyarət edən ispaniyalı ərəb – səyyah Əbu Hamid əl-Əndəlusi əl-Ğarnati yerli əmir *Seyf əd-Din Muhammәd bin Xəlif əs-Sulaminin* adını çəkmişdir və bu ad ərəb tarixçisi İbn əl-Əzraqın *Tə'rix Məyyafarıqın* əsərində də çəkilib, İbn əl-Əzraq göstərir ki, ona hicri 549/1154-cü ildə gürcü çarı Dmitrini müşayiət edərkən rast gəlib, çar Dmitrinin kürəkəni olan Əbul-Muzaffar qayınatasını qarşılamağa gəlibmiş.[1] Minorski Seyf əd-Dinin ərəb əsilli Haşimi Sulami sülaləsinin əmiri olduğunu göstərmiş və əlavə dəlil kimi görkəmli numizmat, arxeoloq Yevgeniy Aleksandroviç Paxomovun (1880–1965) tədqiqatına əsaslanmışdır.

Bütün ömrünü Qafqazın tarixinə həsr edən Y. A. Paxomov Azərbaycanda numizmatika elminin formalaşmasında müstəsna rol oynamışdır. O, qədim sikkələr əsasında XII–XIII əsrlərdə Dərbənd knyazlığının tarixi ilə bağlı əsaslı tədqiqat aparmış və bizim üçün əhəmiyyət kəsb edən dövrdə Dərbənddə 8 sikkə növünün olduğunu və onlardan 4-nün Muzaffara aid olduğunu göstərmişdir.[2] Minorski onun verdiyi məlumata əsaslanaraq İbn əl-Əzraqın adını çəkdiyi Əbu əl-Muzaffarın *əl-Məlik əl-Adil Muzaffar bin Muhammәd bin Xəlifə* olduğunu göstərmişdir.[3] Bu fikir Xaqaninin Dərbənd əmirinə ərəbcə yazdığı qəsidədən olan aşağıdakı beytlə üst-üstə düşür:

صاد الملوك الصيد صيد الاعصر الملك الذي السالمي العادل
بالسالمي الهاشمي المخبر قد عزّت العرب الاعاجم عزة[4]

[1] *Минорский, В. Ф.* История Ширвана и Дербенда X–XI веков. Москва: Издательство восточной литературы, 1963, с. 184

[2] *Пахомов, Е. А.* О Дербендском княжестве XII–XIII в. // Баку: Известия АзГНИИ, 1930, т. 1, вып. 2, с. 3

[3] *Минорский, В. Ф.* История Ширвана и Дербенда X–XI веков. Москва, 1963, с. 185

[4] خاقانی شروانی. دیوان. تصحیح ضیاء الدین سجادی. تهران، ۱۳۳۸، ص. ۹۵۵؛
C 61 şifrəli Sankt-Peterburq nüsxəsi, vərəq 145 a

Əs-Səlimi əl-'Adil kibrli hökmdarları zəmanəsinin ovçusu kimi ovlayan hökmdardır.

Həm ərəblər, həm əcəmlər islahatlar edən əs-Səlimi əl-Həşimi sayəsində güclü oldular.

Q. Kəndli-Herisçi də şairin Dərbənd səfəri ilə bağlı məlumat vermiş və onun Dərbəndə həbsindən az sonra – hicrətin 552-ci ilində səfər etdiyini və Dərbənd hakimi Seyf əd-Dinin ona dördmərtəbəli "zərnigar eyvanlı" qəsr və əsmər türk qızı ərməğan etdiyi qənaətinə gəlmişdir.[1]

Q. Kəndli-Herisçi Xaqaninin bu səfərindən bəhs edərkən Dərbənd hakiminin adına *Arslan* adını da əlavə etmişdir. "*Xaqaninin 552-ci ilin sonlarında Dərbəndə getməsi irəlicədən düşünülmüş bir səfər idi. O vaxt Şamaxı və Dərbənd hökümətləri arasında dolaşıqlıq və çəkişmə var idi. Buna görə də Şirvanşahlarla çəkişmədə olan Xaqani üçün Dərbənd əmirliyi əmin görünə bilərdi. O zaman Arslan Seyfəddin Müzəffər Dərbənd hökmdarı idi".*[2]

Xaqani kimi Mücirəddin Beyləqaninin də mədh etdiyi şəxsiyyətlər sırasına daxil olan Dərbənd hakimi onun da əsərində "*Dərbənd hakimi Müzəffər ibn Məhəmməd Arslan*"[3] kimi təqdim olunmuşdur. Minorski bu ada Arslan adının əlavə edildiyini həmin dövrdə Dərbənddə artıq türkləşmə prosesinin başlaması ilə əlaqələndirmişdir.[4]

Dərbənd əmirinin kimliyini araşdırmaq üçün şairin əlimizdə olan qəsidəsinə istinad etsək, belə nəticəyə gəlirik ki, "Azərbaycan tarixi" kitabında göstərildiyi kimi, əgər bu, I Axsitanın

---

[1] *Kəndli-Herisçi, Q*. Xaqani Şirvani. Bakı, 1988, s. 292

[2] *Kəndli-Herisçi, Q*. Xaqani Şirvani. Bakı, 1988, s. 291

[3] *Əlizadə, L*. Mücirəddin Beyləqani qəsidələrində bəzi tarixi faktlar // Klassik Azərbaycan və Şərq ədəbiyyatına dair araşdırmalar. Bakı, 2021, s. 164

[4] *Минорский, В. Ф*. История Ширвана и Дербенда X–XI веков. Москва: Издательство восточной литературы, 1963, с. 185

tituludursa, deməli, həmin vaxt Şirvanda hakimiyyətdə I Axsitanın atası II Mənuçehr olub. Qəsidədə Şirvandakı vəziyyətdən şikayət və Dərbənd əmirinin şairə göstərdiyi səxavətlə bağlı beytlər öz əksini tapıb. Onda belə çıxır ki, şair oğula atadan şikayət etmiş, həmin vaxt şairlə onsuz da soyuq münasibətləri olan Axsitan da bu şikayətin müqabilində şairə qayğı göstərmişdir.

Nəzərə alaq ki, hər iki dildə olan qəsidədə Dərbənd əmiri *Əbul-Muzəffər bin Muhammməd* kimi qeyd olunub. Ərəbcə olan qəsidədə şair deyir:

خضع الورى لمظفّر بن محمّد و محمّد فاق الورى بمظفّر[1]

İnsanlar Muzəffər bin Muhammədə itaət göstərdilər və Muhammməd müzəffərliyi ilə insanlar arasında seçildi.

Bu kimi hallar, eləcə də "Azərbaycan tarixi"nin *"Mənbələr və ədəbiyyatın siyahısı"*nda şairin ölkəmizdə nəşr olunan "Seçilmiş əsərləri"nin adının düzgün qeyd olunmaması Z. Bünyadovun illər öncə dediyi "*Nizami Gəncəvi, Xaqani Şirvani, Fələki Şirvani və başqa şairlərin əsərlərində tarixçi üçün mühüm olan hadisələrin xatırlanması, hökmdarların fəaliyyətinin qiymətləndirilməsi özünəməxsus yer tutur, müxtəlif vəzifə titulları göstərilir, ayrı-ayrı şəxsiyyətlərin xidməti və saraydakı mövqeyi qeyd edilir. Ancaq təəssüflə qeyd olunmalıdır ki, Azərbaycanın bizi maraqlandıran dövrdəki ədəbiyyat tarixinin tədqiqatçıları şairlərin, xüsusən Xaqani, Fələki, Mücirəddin Beyləqani kimi dahilərin yaradıcılığını tarixi şəraitlə bağlı şəkildə hələlik lazımi dərəcədə öyrənməmişlər"*[2] fikrini gündəmə gətirir, yəni klassik şairlərimizin əsərlərini araşdıran ədəbiyyat tarixi tədqiqatçıları ilə həmin dövr şairlərinin əsərlərinə tarixi mənbə kimi müraciət edən tarixçilər arasında iş birliyi çox vacibdir.

---

[1] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران ، ۱۳۷۵، ص. ۱۳۵۹

[2] *Bünyadov, Z.* Azərbaycan Atabəyləri dövləti. Bakı, 2007, s. 199

Deməli, ancaq belə iş birliyi sayəsində klassik şairlərmizin əsərlərini araşdıran ədəbiyyat tarixi tədqiqatçıları orada olan tarixi məqamları düzgün qiymətləndirə bilər; həmin dövrü tədqiq edən tarixçilər də ədəbi mənbələrdən düzgün istifadə edə bilərlər. Məsələn, Xaqaninin ərəbcə şeirlərinin filoloji tərcüməsində həmin dövrə aid tarixi mənbələr araşdırılsaydı, Dərbənd hakiminin kimliyini göstərən beyt təhrifə uğramazdı:

السالمي العادل الملك الذي صاد الملوك الصيد صيد الاعصر
قد عزت العرب الاعاجم عزة بالسالمي الهاشمي المخبر

O elə sağlam və ədalətə malik bir ölkə başçısıdır ki,
Başqa ölkə başçılarını əsrlər boyu ovçu kimi ovladı.
Artıq o, ərəblərin və əcəmlərin qüdrətini sağlamlığı,
Haşimiliyi və məlumatı ilə artırmışdır.[1]

("Seçilmiş əsərləri"ndə bu iki beyt tərcümə olunmayıb.[2])

Eləcə də, "Azərbaycan tarixi"nin tərtibçiləri Q. Kəndli-Herisçinin "Xaqani Şirvani (həyatı, dövrü, mühiti)" monoqrafiyasında şairin Dərbənd səfəri ilə bağlı verilən məlumatla ətraflı tanış olsaydılar, Dərbənd hakimi ilə şirvanşah I Axsitanı eyniləşdirməzdilər.

Qəsidənin məzmununa keçməzdən əvvəl qeyd edək ki, Xaqaninin Dərbənd hakiminə hər iki dildə yazdığı şeirlərin hər ikisinin ravi hərfi ر – *ra*dır və hər iki qəsidənin girişində səhərin gəlişi təsvir olunub. Şairin fars dilində yazdığı bir neçə mətlədən ibarət olan qəsidə belə başlayır:

چون آه عاشق، آمد صبح آتش مُعَنْبَر
سیماب آتشین زد در بادبان اخضر[3]

[1] *Xaqani Şirvani*. Ərəbcə şeirləri. Bakı, 2017, s. 89-90
[2] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1987, s. 215-218
[3] خاقانی شروانی. دیوان، جلد اول. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۲٦۷

Aşiqin odlu ahı səhər tezdən hər tərəfi ətrə boyayanda yaşıllıqlar yelkəninə günəş saçdı.

Ərəbcə olan qəsidə:

يا طيف ناضرة كصبح مسفر سفر الصباح نعم صباحا و اسفر

Ey açılan səhər kimi gözəl olan xəyal, səhər necə gözəldir, necə parlaqdır!

Qəsidələrin təbiət mənzərəsinin – səhərin açılmasının təsviri ilə başlamasını Səlcuqilər dövrü ədəbiyyatına xas bir xüsusiyyət kimi göstərən Muhammməd ət-Tunciyə görə, həmin dövrdə yaranan divanları qəsidə-mədhiyyələrin girişində verilən gül-çiçəyin, yığılan meyvənin, dənizlərin, çayların, səhərin, gecənin təsviri olmadan təsəvvür etmək mümkün deyildi.[1] Bu da ərəb ədəbiyyatında əl-Buhturi, İbn əl-Mu'təzz, İbn Rumi kimi vəsf ustalarının ənənələrinin davamı idi.

48 beytdən ibarət ərəbcə yazılan qəsidədə qəmgin notlar özünü göstərir. Çox güman ki, bu da şairin daxili narahatlığının əksidir. Çünki o, rahatlıq tapmaq ümidi ilə Şirvandan baş götürüb Dərbəndə səfər etmiş, amma arzusunda olduğu mənəvi rahatlığı tapa bilməmişdir.

Səhərin gəlişinin təsviri mədhiyyənin ilk 10 beytini əhatə edir. 11-ci beytdə şair daxilindəki yaralardan bəhs edir. Şirvanla bağlı acısını dilə gətirir, orada xoş gün keçirmədiyini, içinin yaralarla dolu olduğunu göstərir:

جرح الحشا حاشاك حشّ حشاشتى لا تنكري جرح الحشا لا تنكر
شكواي عن شَروان شرواها الشقاء عودي الى ثغر السعادة و اذكر[2]

Haşa, daxilimdəki yara son nəfəsimi də aldı, içimdəki yaranı qınama sən, qınama.

[1] التونجي، محمد. حول الادب في العصر السلجوقي. منشورات مكتبة قورينا، ١٩٧٤، ص. ١٩٥
[2] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ١٣٧٥، ص. ١٣٥٨

Şərvandan şikayətim onun ağır vəziyyətini göstərir, səadət olan yerə qayıt və zikr elə.

14-cü beytdən Dərbəndin təsvirinə keçid alan şair Dərbənddə ona hədiyyə edilən qəsri Kisra bürcü ilə müqayisə etmişdir:

أ ببرج كسرى صاغ حليك صائغ فكسرت طرف الغانيات السفّر
خلع الامير عليك أبهى خلعة فرفلتَ مضحاكا بالنضر منظر[1]

Yaradan səni Kisra bürcü iləmi bəzəyib? Gözəllərin qalıcı baxışlarını yayındırırsan.
Əmir səni ən gözəl xələtlə mükafatlandırıb, sən də gülümsəyərək bu gözəl mənzərəylə qürurlanırsan.

Şair məzmuna xələl gəlmədən, təmtəraqlı, yorucu cümlələrə yol vermədən öz məqsədinə doğru gedir və məmduhun mədhinə maraqlı bir keçid edir. O, qalanın uzaqdan diqqət cəlb etməsini hökmdar Seyf əd-Dinin döyüşdə parlayan qılıncına bənzədir.

ودنا لك الاقصى كأنك في الوغى من سيف سيف الدين برق الجوهر[2]

Seyf əd-Dinin qılıncı döyüşdə qiymətli daş-qaş kimi necə bərq vurursa, sən də uzaqdan elə görünürsən.

Xaqaninin burada qalanı *qılınca* bənzətməsi təsadüfi deyil. Çünki qılınc Şərq ədəbiyyatında sadə silah deyil, çoxmənalı simvolik obrazdır. O, hakimiyyət, cəsarət, ədalət, qəhrəmanlıq və s. kimi xüsusiyyətlərin rəmzi kimi çox məşhur olub. Məsələn, ilkin İslam dövrü şairi Kə'b ibn Zuheyr (v. 662) "Burdə" qəsidəsi kimi tanınan "Bənət Suad" (*Suad məni tərk etdi*) qəsidəsində Peyğəmbəri ﷺ qılınca bənzətmişdir:

[1] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳۵۹
[2] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران ، ۱۳۷۵، ص. ۱۳۵۹

إنّ الرسول لسيف يستضاء به مهنّد من سيوف الله مسلول

Peyğəmbər parlaq bir qılınc kimidir. O, Allah-təalanın qınından sıyırıb çıxardığı iti hind qılıncına bənzəyir.

(Tərcümə: A. Qasımova)[1]

Xaqani də Dərbənd sahibinin ədalətli hökmdar olmaqla yanaşı, həm də cəsarətli, qorxmaz bir sərkərdə olduğunu məhz qılınc obrazı ilə göstərmişdir.

18-ci beytdən mədh hissə başlayır. Dərbənd əmirinin ədalətindən, cəsarətindən, insanların ona olan sevgisindən bəhs edilir. Şairə görə, bu sevgini əmir öz xidmətləri sayəsində qazanıb. Həm onun rəiyyəti, həm əsgərləri əmirə zorakılıqla deyil, öz xoşlarına itaət göstərirlər. Onun adına xütbələr oxunur, üzündəki nura ibadət edilir.

Şair Dərbənd şəhərinə xüsusi məhəbbət bəsləmişdir. Bəlkə də bu, Dərbəndin tarix boyu "dəmir qapı Dərbənd" kimi mübarizlik, qəhrəmanlıq simvolu olmasından qaynaqlanmışdır. Xaqani təbii ki, Dərbənd şəhərinin Şərq tarixində qoyduğu izə yaxşı bələd idi. Buna görə də o, bu şəhərə "dünyanın cənnəti" deyə müraciət edərək İsa peyğəmbərin (s.) bu torpaqla təyəmmüm etdiyini və məhz bu torpağın paklığı, təmizliyi ilə göylərə qalxdığını göstərmişdir. Mədhiyyənin 35-39-cu beytlərini təşkil edən bu hissədə şair özünü də unutmur:

يا جنة الدنيا فديتكِ فاسمعي هذا الثناء عن شاعر متبحّر[2]

Ey dünyanın cənnəti, sənə qurban olum, məni dinlə, bu tərif alim-şairdən gəlir.

Qəsidənin son beytlərindən belə məlum olur ki, Dərbənd hakimi şairə qarşı çox səxavətli və əliaçıq davranmışdır:

---

[1] *Qasımova, A*. Ərəb ədəbiyyatı. V–XIII əsrlər (ikinci nəşr). Bakı, 2023, s. 236 (A.Qasımova. Ərəb ədəbiyyatı.pdf)

[2] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳۵۹

أحييتني كرما بفضل منشط وامتّنى خجلا ببذل منشر[1]

Sən alicənablıqla həvəsləndirici fəzilətinlə məni diriltdin, canlandırıcı səxavətinlə məni xəcalətimdən öldürdün.

Sonda Xaqani müdrikliyi özünü göstərir. Şair incə bir siyasətlə Seyf əd-Dinin səxavətindən, alicənablığından bəhs etməklə yanaşı, ona öz tövsiyələrini, məsləhətlərini verməkdən də çəkinmir. İdarə etmə işlərindən baş çıxaran şair dövlətin gücünün mərkəzi hakimiyyətin vəziyyətindən asılı olduğunu yaxşı bilirdi, buna görə də əmiri öz rəiyyətinə qarşı ədalətli, səxavətli olmağa, hakimləri isə ciddi nəzarətdə saxlamağa çağırır:

فاخلد وخلّد بالنفاذ يد الورى وأملك رقاب المالكين وسخّر
والله عاذ بنصره لك حافظا فاحفظ عباد الله طرّا وانصر[2]

Həmişə var ol və insanlara əl tutmaqda davam et, hakimlərin başının üstündə dur və özünə tabe et.

Allah səni hifz edərək sənə kömək olduğu kimi, sən də onun qullarını bir nəfər kimi qoru və kömək ol.

Xaqaninin digər mədhiyyəsi **Məlikul-Əʿzam Alə əd-Din Atsıza (1128–1156)** həsr olunub. Əvvəldə qeyd olunduğu kimi, şairin ərəb dilində iki müqəddiməsi – dibaçəsi var. Onlardan biri adı çəkilən qəsidəyə yazılıb. Müqəddimədə mənalı söz deməyə bir çağırış var; şair birdən-birə fars dilindən ərəb dilinə keçməsindən, lakin buna baxmayaraq, yenə də dildə söz oyununa yer verməməsindən, əsassız, təmtəraqlı nitqdən qaçmasından danışır.

Dibaçənin məzmunu şairin orta əsr Azərbaycan alimi Qutb əd-Din əl-Əbhəriyə farsca yazdığı məktuba uyğun gəlir. Həmin məktubunda da şair sözün işlənməsindəki çatışmazlıqlardan, çürümüş ifadələrin yazıdan çıxarılmasının gərəkliyindən, yeni

[1] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳٦۰
[2] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳٦۰

söz və deyimlərin yazıya gətirilməsi yollarından, hər sözün yerinə görə işlədilməsinin vacibliyindən söz açmışdır.[1]

Məktubda olduğu kimi, dibaçədə də Xaqani sözə yüksək qiymət vermiş və onu süası yaxında olan, ancaq yüksəkdə durduğuna görə əlçatmaz olan Günəşlə müqayisə etmişdir. Müqəddimədəki maraqlı fikirlərdən biri də belədir:

فلا ينبغي أن يكون الاديب شاعرا ولكن يجب أن يكون الشاعر أديبا كما
لا ينبغي أن يكون الطبيب فيلسوفا ولكن يجب أن يكون الفيلسوف طبيبا.[2]

Ədibin (elmi olanın, ziyalının) şair olması vacib deyil, lakin şairin ədib olması vacibdir. Necə ki, təbibin filosof olması vacib deyil, lakin filosofun təbib olması vacibdir.

Əvvəldə qeyd etdiyimiz kimi, dibaçənin bu hissəsi M. Sultanov və S. Rzaquluzadənin tədqiqatlarında öz əksini tapıb. Hər iki tədqiqatçı cümlələri tərcümə etsələr də, fikir şərh olunmamışdır.

Xaqani kimi mütəfəkkirin, filosofun sözlərini açıqlamaq çox çətindir. Amma yenə də bu maraqlı fikrə öz münasibətimi bildirmək istərdim.

Məlumdur ki, orta əsrlərdə şairə qoyulan tələblər çox sərt idi. Nizami Aruzinin verdiyi məlumata görə, şair bütün elmlərdən xəbərdar olmalı və müxtəlif adətlərə bələd olmalı idi; şeir istənilən elm sahəsinə fayda verə bildiyi kimi, istənilən elm sahəsi şeirdə öz əksini tapa bilərdi.[3] Deməli, şair əvvəlcə ədib, yəni ziyalı, savadlı, hərtərəfli dünyagörüşə malik olmalı, daha

---

[1] Kəndli-Herisçi, Q. Xaqani Şirvani // Azərbaycan ədəbiyyatı tarixi, II c. Bakı, 2007, s. 464

[2] خاقانی شروانی. دیوان. تصحیح ضیاء الدین سجادی. تهران، ۱۳۳۸، ص. ۹۵٦؛ خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ میر جلال الدین کزازی. تهران ، ۱۳۷۵، ص. ۱۳٦۲

[3] *Арузи, Н. С*. Собрание редкостей или четыре беседы (пер. с перс. С. И. Баевского и З. Н. Ворожейкиной). Москва: Издательство восточной литературы, 1963, с. 47, 59

sonra şair kimi qələmini sınamalı idi. Buna görə də, ədibin, ziyalının şair olması vacib deyil, amma şairin ədib olması vacibdir, filosof və təbib kimi. Bu iki termin arasındakı əlaqənin tarixi çox qədimdir. Hippokrat, Əbu Bəkr ər-Razi, İbn Sina kimi alimlər əvvəlcə görkəmli filosof, daha sonra isə təbib olmuşlar, yəni təbiblik filosofluqdan sonra gələn mərhələdir; buna görə də təbibin filosof olmağa ehtiyacı yoxdur, amma filosof getdikcə inkişaf edib təbib ola bilər.

Qəsidəyə keçməzdən əvvəl onu qeyd edək ki, eyni mövzuya hər iki dildə müraciət etmə ənənəsi Xaqani yaradıcılığı üçün xarakterikdir və bu ənənəyə uyğun olaraq, şair Alə əd-Dini də iki dildə – həm fars, həm də ərəb dilində mədh edib. Q. Kəndli-Herisçinin bununla bağlı gəldiyi qənaət belədir: "*Xaqani qəsidələrini oxşar bir şəraitdə yazaraq, 544-cü ildə Atsıza göndərmişdi. Bu əsərdə şair Atsıza əvvəlcə farsca, sonra ərəbcə şe'r yazdığını, "ərəbcəyə sarı üz qoyduğunu", ərəbcə hicaz ləhcəsi və şivəsilə nəzm və nəsr yazdığını bildirir. Xaqani bu şeirlərini Əlaəddinin xatirindən yorğunluğu çıxarmaq məqsədilə, vəzir Qivamül-Mülkün xahişilə qələmə aldığını Atsıza bildirmişdir. O, bu əsərini 544-cü ildə 24 yaşında ikən Şamaxıda yazaraq Atsıza göndərmişdir"*.[1]

Qəsidənin həcmi mənbələrdə fərqlidir: M–242 şifrəli Bakı əlyazmasında 43, C 61 şifrəli Sankt-Peterburq əlyazmasında 44, Kəzzazi və Səccadi nəşrlərində 45 beytdən ibarətdir. Qəsidənin həcmi kimi, mətni də mənbələrdə fərqli verildiyindən tərcümədə bütün mənbələri nəzərə almağa çalışdıq.

Qəsidənin ilk beyti haqqında əvvəlki paraqrafda məlumat verilib, qısa şəkildə bildiririk ki, burada şair fars dilini hicaz ləhcəsi ilə əvəz etdiyini bildirir. Növbəti beytdə yüksəklik təsvir olunur. 10-cu beytə qədər olan hissədə göstərilir ki, həmin yüksəkliyin zirvəsində İsa peyğəmbər (s.) üçün pənahgah var,

[1] *Kəndli-Herisçi, Q*. Xaqani Şirvani. Bakı, 1988, s. 206

İdris peyğəmbər (s.) üçün genişlik; ulduzlar onun yolunda oruc tutur, səma səcdəyə gedir.

11–15-ci beytlərdə şair, öz məmduhunu bu yüksəkliyin üzərində təsvir edir. 16–26-cı beytlər qəsidənin ən maraqlı hissəsidir. Burada hökmdar-şair arasındakı real münasibətlər ön plana çəkilmişdir. Məlum olur ki, Alə əd-Din Xaqaniyə qarşı həmişə diqqətcil davranmamış və şair də incə bir eyhamla onun səxavətinə ehtiyacı olduğunu dilə gətirmişdir:

أنا النبت أنماني بغيث سخائه فنبت الكرى ينمو إذا الغيث يهمع
أنا الماء اعلاني بشمس نواله فماء الربّى يعلو إذا الشمس تطلع[1]

Mən onun səxavət yağışı ilə böyütdüyü bitkiyəm, əkilən bitki yağış yağarsa, əmələ gəlib inkişaf edər.

Mən onun uğurlarının günəşi ilə göylərə qaldırdığı suyam, su günəş çıxarsa göylərə qalxar.

Şairin burada öz məmduhunun müsbət keyfiyyətlərini *yağışla, günəşlə* müqayisədə ön plana çıxartması Cahiliyyə və Əməvilər dövrünün poetik ənənələrini xatırladır.

Daha sonra şair Alə əd-Dinin bəzən şeirə qarşı laqeyd qalmasına toxunsa da, bu laqeydlikdən şikayət etmir, əksinə, belə bir münasibəti ədalətli və mərhəmətli Allahın (a.c.) öz bəndəsinə olan münasibəti ilə müqayisə edir:

هو البحر ذو الجزر والمدّ في الندى كذلك دأب الله يعطى ويمنع.

Səxavətdə (əliaçıqlıqda) o, qabarma və çəkilmələri olan dənizdir, bu, həm verən, həm də alan Allaha xasdır.

Xaqani yaradıcılığı üçün xarakterik olan didaktik fikirlər, nəsihətlər bu qəsidədə özünü daha parlaq şəkildə göstərir. Şair insanları doğru yoldan azdıran bəzi keyfiyyətləri tənqid etmək-

[1] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران ، ۱۳۷۵، ص. ۱۳٦۲

lə, sanki özünü də tərbiyə etməyə çalışır. Məsələn, aşağıdakı beytə nəzər salaq:

بواعث حرص المرء نار و صخرة فلا صخرة تروی ولا نار تشبع.

İnsan hərisliyinin səbəbi od və daşdır, amma susuzluğu yatıran daş yoxdur, aclığı doyuran da od.

Burada od (نار) qızıl, daş (صخرة) isə qiymətli daş-qaş mənasında işlədilmişdir. Şair insanı yolundan azdıran sərvət hərisliyinə qarşı çıxmış, qızılın, qiymətli daş-qaşın qarın doyurmadığını bildirmişdir. Eyni fikrə "Tuhfətul-İraqeyn"də də rast gəlirik:

زر چیست جز آتشی فسرده خاکی بیمار بلکه مرده[1]

Zər nədir? Kül olmuş atəşdən başqa bir şey deyil, xəstə torpaq, bəlkə də ölü torpaq.

Qiymətli daş-qaşın qarın doyurmadığı ilə bağlı fikirlər Nizami Gəncəvinin "İskəndərnamə" poemasında Bərdənin ağıllı hökmdarı Nüşabə ilə Makedoniyalı İskəndərin qarşılaşmasını yada salır. Poemada Makedoniyalı İskəndərin şərəfinə ziyafət düzəldib, yemək əvəzinə qarşısına daş-qaş düzdürən Nüşabə dünya şöhrətli sərkərdəyə yeyilə bilməyən daş üçün savaşmağın mənasız olduğunu göstərmiş, bu ağıllı hərəkəti ilə Bərdəni işğaldan qurtara bilmişdir.

Qəsidənin növbəti beytləri də didaktika üzərində qurulub. Burada "hər şeyin çoxu ziyandır" fikrinin təbliğini görürük:

نهاية فعل الخمر سُكر معاقر لمّا زاد فوق السكر فهو مضيّع
دوام نعيم بالزوال مخبّر وكثر دواء للطباع مفزع[2]

[1] خاقاني شرواني. تحفة العراقين. كتابخانه مجلس شورای اسلامی. ص. ۱۷
[2] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳٦۲

Şərabı çox içməyin sonu sərxoşluğa qurşanmaqdır, sərxoşluq artdıqca, qənimin olur.

Həzzin (xoş günlərin) uzun sürməsi yoxluqdan xəbər verər, dava-dərmanın çoxluğu insan təbiəti üçün təhlükəlidir.

Bu fikir "əl-Qur'ənul-Kərim" ayələrinin ("əl-Furqan" surəsi, 67-ci ayə; "əl-İsra'" surəsi, 29-cu və 110-cu ayələr) təsiri altında formalaşan خير الأمور أوسطها، لا إفراط ولا تفريط – *əməllərin xeyirlisi orta olanıdır, nə ifrata varmaq, nə də laqeydlikdir* hikməti ilə uzlaşır.

27-ci beytdən qəsidənin əsas hissəsi – Alə əd-Dinin mədhi başlayır. Şair burada orijinallıq nümayış etdirmiş və Alə əd-Dinin onun qəsidəsinə laqeyd qaldığını vurğulayaraq göstərmişdir ki, hökmdarın onun təmtəraqlı sözlərinə ehtiyacı yoxdur, çünki onun arxasında öz xalqı var və o, hər iki İraqda tanınıb sevilir:

فلا غرو أن يزرى بما انا حلته لاجل علاء الدين قوم سميدع
نظام المعالى من خراسان سيد عريق وفي صقع العراقين مصقع

Təəccüblü deyil ki, o, mənim bəzəkli sözlərimə laqeyd qaldı; çünki Alə əd-Dinin uğrunda qəhrəmanlıq göstərən xalq var.

Xorasandan olan bu yüksək keyfiyyətlər sahibi nəcib bir ağadır və hər iki İraqın ərazisində məşhurdur.

Alə əd-Dini "dövrünün Cahizi" adlandıran şair, onu iki tac sahibi Keyxosrov kimi qələmə vermiş, həm türklərin, həm də İranın ona itaət etdiyini göstərmişdir.

Qəsidədə şair Xaqanini filosof Xaqani əvəz etdikcə nücum, din, fəlsəfə, hikmətlə bağlı fikirlər də bir-birini ardıcıl şəkildə tamamlamışdır.

Xaqaninin qəsidələrindən biri də **Muhamməd Səm'aniyə** həsr olunmuş mədhiyyədir. Maraqlıdır ki, şairin ərəbdilli şeirləri arasında Səm'aniyə həsr olunmuş şeir ayrı-ayrı parçalar şəklində təqdim olunub. Səccadinin tərtib etdiyi divanda Səm'aninin adının çəkildiyi şeirlər 14 və 6 beytdən ibarət hissələr şək-

lində ardıcıl olaraq təqdim olunubsa,[1] Kəzzazinin tərtib etdiyi Divanda 14 beytlik şeir "قصيدة يمدح بها محمد السمعانى" "Muhammməd Səm‘aninin mədh olunduğu qəsidə"[2] adı altında, digər 6 beyt وله أيضا – həmçinin ona aiddir başlığı ilə ayrı-ayrı şeir nümunələri (4 və 2 beytlik)[3] kimi dağınıq şəkildə yer almışdır. Şairin əlyazmalarına gəlincə, şeirə Bakı nüsxələri arasında M–413 şifrəli əlyazmada rast gəlindi. Burada haqqında danışdığımız şeir parçaları eyni səhifədə yazılmışdır. Əvvəldə qeyd olunduğu kimi, həmin əlyazma digərlərindən öz strukturuna görə fərqlənir, yəni əlyazmada əsərlər vərəqlərin kənarlarında da yazılıb. Qəsidənin əsas hissəsi (əlyazmada bu hissə 13 beytdən ibarətdir) səhifənin mərkəzində yazılmış, qalan 6 beyt isə səhifənin sağ küncündəki boş yerə yerləşdirilmişdir. Şeir parçaları qafiyə və məzmun baxımından bir-birinə uyğun gəlir. Buna görə də, bu şeirlərin قصيدة يمدح بها محمد السمعانى *Muhammməd Səm‘aninin mədh olunduğu qəsidə* adı altında iki mətləli qəsidə kimi verilməsini daha doğru hesab edərək, həm tərcümə, həm də araşdırma prosesinə bu şəkildə yanaşdıq.

Şairin digər əsərlərinin tərcüməsi zamanı rastlaşdığımız çətinliklər burada da müşahidə olunur. Amma mənbələr arasında müqayisələr aparmaqla müəyyən nəticələr əldə etmək mümkün oldu.

Qəsidənin elə ilk beytlərindən şairin öz məmduhuna verdiyi yüksək dəyər özünü göstərir:

أحنى لكنز الفضل أسّ معانى خضر العلوم محمد السمعانى
فلك الفضائل شمس اوجات العلى نخل الشهاب الفرد ذى اللمعان[4]

---

[1] خاقانى شروانى. ديوان. تصحيح ضياء الدين سجادى. تهران، ۱۳۳۸، ص. ۹۶۶ – ۹۶۷

[2] خاقانى شروانى. ديوان، جلد دوم. ويراستۀ مير جلال الدين كزازى. تهران، ۱۳۷۵، ص. ۱۳۶۷

[3] خاقانى شروانى. ديوان، جلد دوم. ويراستۀ جلال الدين كزازى. تهران، ۱۳۷۵، ص. ۱۳۷۰ – ۱۳۷۱

[4] خاقانى شروانى. ديوان، جلد دوم. ويراستۀ جلال الدين كزازى. تهران، ۱۳۷۵، ص. ۱۳۶۷

Fəzilət xəzinəsi, elmlərin Xıdrı Muhammməd Səm'aniyə mənalar qaynağını baş əydirirəm.

Fəzilət və ləyaqət zirvəsinin Günəşi, tayı-bərabəri olmayan parlaq ulduzların bəzəyi sənə aiddir.

Şair qəsidədə Səm'aninin dərin və xeyirli biliklər sahibi olduğunu göstərmək üçün onu elmlərin Xıdrı kimi qələmə vermişdir. Çünki *Xıdr* "əl-Qur'ənul-Kərim"in "Kəhf" surəsində adı aşkar çəkilməyən alim kimi təqdim olunub: *(Musa və Yuşə orada) Öz dərgahımızdan mərhəmət (peyğəmbərlik və vəhy, yaxud ilham və kəramət) əta etdiyimiz və Öz tərəfimizdən elm (qeybə dair bə'zi biliklər) öyrətdiyimiz bəndələrimizdən birini (Xızırı) tapdılar.*

(Tərcümə: Z. Bünyadov, V. Məmmədəliyev).

Abdur-Rahmən əs-Sədinin təfsirində Xıdr belə təsvir olunur: "*Allah Xıdra xüsusi lütfkarlıqla yanaşaraq, ona dərin və xeyirli biliklər bəxş etmişdir. Özünün bəzi bilikləri ilə o, hətta dinin əsas ehkamları və digər şeylər barəsində ondan daha məlumatlı olan müqəddəs Musa peyğəmbəri (s.) də ötüb keçmişdi"*.[1]

Qəsidənin məzmunu ilə tanışlıqdan sonra belə ehtimal etmək olar ki, qəsidə XII əsrin əvvəllərində yaşamış Xorasandan olan hafiz, mühəddis, tarixçi, filoloq Əbu Səad Abdul-Kərim ibn Muhammməd əs-Səm'aniyə həsr olunub. Adların geneologiyasına aid səkkiz cildlik kitabı ona xüsusi şöhrət qazandırmışdır. Bu əsər qərbdə İspaniyadan tutmuş şərqdə Çinə qədər orta əsrlər müsəlman dünyasının bütün regionlarını əhatə edən ma-

[1] *Ас-Саади, Абд ар-Рахман*. Толкование Священного Корана (пер. с араб. Э. Кулиев). В 3 томах: т. 3. Москва, 2012, с. 471

terialı özündə hifz edir.[1] Xaqani aşağıdakı beytdə bu cəhətə toxunmuşdur:

قد سلّ من ظلمات غيم دواته ياقوتة لعداد اكرم عان[2]

O öz mürəkkəb qabısının qara buludlarının zülmətindən alicənab bəndələri saymaq üçün bir yaqut çıxartdı.

Bu qəsidədə də şair öz məmduhunu Suhban Vailə, Quss bin Saidəyə bənzətmiş və sonda özünü onun səsindən doğan əks-səda kimi qələmə vermişdir.

Xaqaninin növbəti qəsidəsi öz məzmununa görə mərsiyədir və o, imam **Muhammməd Yəhyaya** həsr olunub. Qəsidəyə keçməzdən əvvəl onun yazılma səbəbinə toxunaq. Şairin yaşayıb-yaratdığı XII əsr həm mədəniyyətin çiçəklənməsi, həm də siyasi hadisələrin, müharibələrin, hakimiyyət çəkişmələrinin güclənməsi ilə xarakterizə olunur. Belə siyasi hadisələrdən biri də *ğuzz* tayfaları ilə bağlıdır.

Həm Səlcuqilər kimi əzəmətli bir dövləti sarsıtması, həm də törətdiyi amansız qətlləri ilə tarixdə dərin iz buraxmış *oğuz, ğuzz* tayfalarının kimliyi, fəaliyyəti ilə bağlı fərqli fikirlər var. Ərəb tədqiqatçısı Muhammməd Xalid əl-Mumini "فتنة الغز والسلطان سنجر السلجوقي" ("Ğuzz qiyamı və Sultan Səncər əs-Səlcuqi") adlı məqaləsində yazır ki, bəzi mənbələrdə əcəm, qarışıq köçəri millət, heç bir dinə etiqad etməyən natəmiz yarımvəhşi tayfa kimi xarakterizə olunan *ğuzzlar* digər mənbələrdə türkman sözünün sinonimi hesab edilmiş və onların İslamı qəbul etmiş türk tayfaları kimi Türkiyədə, Türkmənistanda, Azərbaycanda, Qazaxıstanda, Qırğızıstanda, Özbəkistanda, qismən də Çində və Əfqanıstanda yaşadıqları göstərilmişdir; ğuzzların bolsulu və yaşıl otlaqlı ərazilər tapmaq ümidi ilə Orta Asiyadan gəldiyini və

[1] *Əliyeva, N. A*. Əbdülkərim əs-Səmani və onun elmi irsi // Bakı: AMEA-nın Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 2005. №5-6, s. 239

[2] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳۶۶

hicrətin II və IV yüzilliklərində Ceyhun və Seyhun çayları arasında məskunlaşdığını yazanlar da var.[1]

Ğuzzların (oğuzların) kökü ilə bağlı fikirlər müxtəlif olsa da, onların Səlcuqilər dövlətinin tarixindəki rolu türkiyəli tarixçi Mehmet Altay Köymen tərəfindən çox dəqiq təsbit edilmişdir: *"Böyük Səlcuq İmperatorluğunu quranlar Oğuzlar olduğu kimi, yıxanlar da Oğuzlardır"*.[2] Sultan Səncər (548–552/1153–1157) hakimiyyətinin sonlarına doğru oğuzlar Səlcuq ordusunu məğlub edərək Sultanı əsir aldılar. Hicrətin 550 (1153/54)-ci ilində baş verən və "Fitneyi-Ğuzz", yaxud "Oğuz üsyanı" kimi tarixdə iz buraxmış həmin hadisədə minlərlə insan, o cümlədən Nişapur Nizamiyyə mədrəsəsinin müdərrisi, öz dövrünün görkəmli alimi, bacarıqlı siyasətçisi, poeziya bilicisi İmam Muhammməd bin Yəhya qətlə yetirilmişdir. Nişapurda yaşayan Muhammməd bin Yəhya ğuzzların Nişapura hücumu zamanı şəhərin müdafiəsində iştirak etmişdir. Şəhəri ələ keçirən ğuzzlar bir çox alim, fəqih kimi, onu da xüsusi amansızlıqla öldürmüşlər. XII əsr tarixçisi və alimi Əbul-Fərəc ibn əl-Cauzi İmamın ölümü ilə bağlı yazırdı: *"Belə bir xəbər gəlib çatmışdır ki, türkman ğuzzları Nişapura daxil olaraq oranı qarət etmiş, əhalini və fəqihləri, o cümlədən şafii şeyxi Muhammməd bin Yəhyanı qətlə yetirmişlər, onların qətlə yetirdiklərinin sayı otuz minə yaxın idi"*.[3]

İbn əl-Əsirin verdiyi məlumata görə, *"Nişapur əhli onlara müqavimət göstərə bilmədi, ğuzzlar ora daxil olaraq, qətllər törədir, kişilərdən var-dövlət tələb edir, istədiklərini verənləri belə sağ qoymurdular, onların qətlə yetirdiyi çoxlu alim, imam arasında zəmanəsinin əvəzolunmaz Şafii fəqihi olan Muham-*

---

[1] المومني، محمد خالد. فتنة الغز والسلطان سنجر السلجوقي \\ دراسات، العلوم الإنسانية والاجتماعية، المجلّد ٤٢، العدد ٢، ٢٠١٥، ص. ٣٩٢

[2] *Köymen, M. A.* Selçuklu Devri Türk Tarihi. Ankara: Türk Tarih Kurumu Yayınları, 2017, s. 309

[3] ابو الفرج عبد الرحمن بن على بن محمد بن الجوزي. المنتظم في تاريخ الملوك والامم. بيروت: دار الكتب العلمية، ١٤١٢ هـ - ١٩٩٢ م. الجزء الثامن عشر، ص. ١٠١

məd bin Yəhya da var idi, onun yanına uzaq Şərq və Qərbdən çoxlu adam gəlirdi və ölümünə bir çox alimlər yas tutdular".[1]

Xaqani də bu hadisədən çox təsirlənmiş və həm fars, həm ərəbcə yazdığı əsərlərində öz kədərini ifadə etmişdir. Q. Kəndli-Herisçinin yazdığına görə, *"Xaqaninin "Fitneyi-ğuzz" və İmam Muhamməd Yəhyanın öldürülməsinə yazdığı mərsiyələr o vaxtkı müsəlman Şərqində yayılaraq dillər əzbəri idi. Bu əsərlər şairin şöhrətinin daha da çox yayılmasına səbəb oldu. 800 il ərzində "Fitneyi-ğuzz"dan danışan təzkiräçilər və tarixçilər Xaqaninin bu mövzuda yazdığı şe'rlərinə toxunmaqdadır"*.[2]

Şair bu hadisənin təsiri altında farsca mərsiyələr, "شد" və "خاك" rədifli şeirlərini, ərəbcə adını çəkdiyimiz qəsidəni və qəsidənin dibaçəsini yazmışdır.

Fars dilində olan خاك – *torpaq* rədifli qəsidəsində o, Muhamməd bin Yəhyanın ağzına torpaq basılaraq öldürüldüyünü,[3] شد rədifli qəsidədə isə dara çəkilərək edam edildiyini göstərib.[4]

Şairin yaradıcılığında İmamın ölümü ilə bağlı fərqli fikirlərin olduğunu Q. Kəndli-Herisçi həmin vaxt şairin Xorasandan çox uzaqlarda, yəni vətəni Şirvanda olması, öz şeirlərini eşitdiyi xəbərlər əsasında yazması ilə əlaqələndirmiş və həmin vaxt şairin Reydə ola bilmə ehtimalına haqq qazandırmamışdır.[5] Amma tarixi mənbələrdə də İmamın edamı ilə bağlı müxtəlif fikirlər var, hətta onun diri-diri yandırıldığı da iddia olunur.[6] Nəzərə alaq ki, ğuzzların Nişapurda törətdiyi 3 günlük qarət və

---

[1] ابن الاثير. الكامل في التاريخ، المجلد التاسع. بيروت: د ار الكتب العلمية، ١٣٠٧ هـ \ ١٩٨٧- م. ص. ٣٨٧

[2] *Kəndli-Herisçi, Q*. Xaqani Şirvani. Bakı, 1988, s. 234

[3] خاقانی شروانی. دیوان، جلد اول. ویراستهٔ میر جلال الدین کزازی. تهران، ١٣٧٥، ص. ١٣٨

[4] خاقانی شروانی. دیوان، جلد اول. ویراستهٔ میر جلال الدین کزازی. تهران، ١٣٧٥، ص. ٣٢٩

[5] *Kəndli-Herisçi, Q*. Xaqani Şirvani. Bakı, 1988, s. 233

[6] المومني، محمد خالد. فتنة الغز والسلطان سنجر السلجوقي \\ دراسات، العلوم الإنسانية والاجتماعية، المجلّد ٤٢، العدد ٢، ٢٠١٥، ص. ٣٩٦

talanda minlərlə insan amansızlıqla qətlə yetirilmişdi, buna görə də İmamın necə edam edilməsi ilə bağlı məlumatın dəqiq olmaması təbiidir.

Qəsidənin müqəddiməsi Xorasan torpağının mədhi ilə başlayır. Şair bu torpağı qoruması, ona qarşı ədalətin bərpa olunması üçün Allaha dua edir və qətlə yetirilən Muhammməd bin Yəhyanı xoş sözlərlə anaraq, ruhuna dualar oxuyur. Şair Xorasanı *"Dünyanın urvatı, əzəmətli İslam sultanlığından belə yüksək zirvə, elm adamlarının sığınacağı, dini qanunların anlamı, həqiqi vəsilələr məkanı, at belindəki igidlərin cıdır meydançası"* kimi qələmə vermiş, daha sonra şübhə ilə yanaşdığı astrologiyaya münasibət bildirmiş və bu sahədə dəqiqlik görmədiyini dilə gətirmişdir. Müqəddimənin sonunda şair Muhammməd bin Yəhyanı mücahid, mütləq imam, fədakar alim kimi təsvir etmiş, ruhuna dualar oxumuş, qəbrinin nurla dolmasını diləmişdir.

Səccadi və Kəzzazi nəşrlərində müqəddimə 5 beytlik şeir parçası ilə tamamlanmışdır.[1] İ. Həmidovun fikrincə, *"... beş beytlik parça qəsidənin qafiyəsinə uyğun gəlmir. Bu beytlər "yə" qafiyəli qəsidəyə giriş kimi götürülməlidir*".[2] Amma bu şeir parçasında ifadə olunan fikirlər yeni olmayıb müqəddimənin son hissəsinin cüzi əlavələrlə təkrarıdır, yəni Səccadi və Kəzzazi tərəfindən hazırlanan divanlarda müqəddimənin son hissəsi şeir şəklində yenidən verilib. Bizim əlimizdə olan əlyazmalardan ikisində – M–413 və M–242 şifrəli Bakı nüsxələrində bu müqəddimə var, amma şeir parçası yoxdur. *Lala İsmail* kolleksiyasından 00439 şifrəli əlyazmada isə müqəddimənin ancaq həmin hissəsi nəsr şəklində verilib. Müraciət etdiyimiz əlyazmalardakı bu cəhətləri, müqəddimənin son hissəsi ilə şeir parçasının eyni olduğunu və şeir parçasının ilk beytinin digər

[1] خاقانی شروانی. دیوان. تصحیح ضیاء الدین سجادی. تهران، ۱۳۳۸، ص. ۹۴۹؛ خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ میر جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳۴۸

[2] *Xaqani Şirvani*. Ərəbcə şeirləri. Bakı, 2017, s. 149

beytlərə uyğun gəlmədiyini nəzərə alaraq, onun Səccadi və Kəzzazinin müraciət etdikləri əlyazmanı hazırlayan katib tərəfindən müqəddiməyə əlavə olunduğunu iddia etmək olar.

Şeir parçası haqqında tam təsəvvür əldə etmək üçün onu burada göstərək:

وها فارسيا بالحجازي اشفع و احضر كسرى ثم نعمان اتبع
نعم هذه التحفة الدرية هي اثقب من الكواكب الدرية
والرماح الفصاحة احسن درية اشفعها بقطعة موسومة عربية
هي من امهات الاعجاز لابانطق الحجاز ارفع رتبة
بل هي من الشوارد القولية والاوابد الحولية بعربية

İlk beyt bizə artıq Məlikul-Ə′zam Alə əd-Dinə həsr olunan qəsidədən məlumdur və o, digər beytlərlə nə mənaca, nə də qafiyəcə uzlaşmır. Həm şeir parçası, həm də müqəddimənin son hissəsinin, demək olar ki, eyni olmasına rəğmən hər iki divanda onların mətnində fərqlər müşahidə olunur:

رياح – رماح؛ درية – درئة (درثة)؛ رتبة – رئية؛ بعربية – يعربيه.

Əlyazmalardan və divanlardan istifadə etməklə müqəddimənin son hissəsinin mətninin, fikrimizcə, düzgün variantı belədir:

نعم هذه التحفة الدرية هي اثقب من الكواكب الدرية والرياح، الفصاحة
احسن دريئة اشفعها بقطعة موسومة عربية، هي من امهات الاعجاز ارفع رتبة بل
هي من الشوارد القولية و الاوابد الحولية بعربية وأنا بها اباهي و هي

Bəli, bu bir inci töhfəsidir, o, parlaq ulduzlardan və küləklərdən belə güclüdür, fəsahət ən yaxşı qalxandır, mən onu ərəb dilində olan bir parça ilə müşayiət edirəm, o (yəni bu parça) icazın mənbəyidir, mən onu ərəbcə olan qədim deyimlərlə, məşhur məsəllərlə daha yüksəklərə qaldırıram, mən onunla fəxr edirəm və budur o...

Belə bir təqdimatdan sonra qəsidə başlayır. *Yə* rədifli qəsidə 17 beytdən ibarətdir. İlk beytlərdə Yəhyanın İsa kimi ölməzlik qazandığı, kəlamlarının sehrli təsirə malik olduğu göstərilmişdir. Mərsiyənin 4-cü beytinin mətnində müəyyən problem hiss olunur. Kəzzazi nəşrində beytin sonunda qoyulan (?) işarəsi fikrimizi təsdiqləyir. Əldə olan əlyazmalara baxsaq, M–242 və M–413 şifrəli Bakı nüsxələrində beyt öz əksini tapmayıb. Beytə ancaq Türkiyə nüsxəsində rast gəlindi.[1] Hər üç mənbədən istifadə etməklə beyti belə yazmaq olar:

أضحى خضرا و منه قسّ حاكى خضرا وحكم يحيا

Xıdra çevrildi, bununla da mömin oldu, Xıdra bənzədi və ölməz oldu.

Bir beyt daxilində Xaqani iki dəfə Xıdr peyğəmbərin (s.) adını çəkmiş və məmduhunu ona bənzətmişdir. Xıdr qissəsinə görə, o, Adəm (s.) peyğəmbərin ən uzunömürlü övladı olmuş və dünyanı su basarkən atasının vəsiyyətinə əməl edib onu istədiyi yerdə dəfn etmişdir. Buna görə də Allah (a.c.) ona ölməzlik bəxş etmişdir.[2] Şair də öz məmduhunun həm mömin olduğunu, həm də ölməzlik qazandığını Xıdrla müqayisə fonunda vermişdir.

Farsca olan şeirlərdən fərqli olaraq, ərəbcə yazdığı əsərdə Xaqani İmamın ölümü ilə bağlı təfərrüata varmır, sadəcə mücahid olduğunu göstərir:

سافر حصيرا جسد سنجارا جاور مصيرا نول يحيى[3]

Səncərin bədəni həbs olunaraq getdi, Yəhyaya çatan mücahidlik oldu.

---

[1] Türkiye Yazma Eserler Kurumu Başkanlığı. Diyarbakır İl Halk Kütüphanesi Koleksiyon no. 1250. Bibliyografik kayıt no. 420683, v. 55a

[2] ابن كثير. البداياة و النهاية. الجزء الاول. دار هجر. ص. ٢٤٣

[3] AMEA Əlyazmalar İnstitutunun əlyazması, M-413

Həm Səlcuqilər dövlətinin tarixi, həm ğuzzların törətdikləri qətllər, həm də İmamın kimliyi ilə bağlı daha düzgün nəticə əldə etmək üçün şairin bu hadisənin təsiri altında hər iki dildə yazdığı bütün əsərlər kompleks şəkildə öyrənilməlidir.

Qeyd olunduğu kimi, şairin ərəbdilli yaradıcılığında vəsfə gözəl nümunələr vardır. Belə nümunələrdən biri də **Bağdad şəhərinin mədhidir**.

Orta əsrlərdə Bağdad İslam mədəniyyətinin xüsusi mərkəzi kimi çoxlarının can atdığı şəhərlərdən idi. Bir çox dövlət və din xadimlərinin, filosofların, münəccimlərin, hüquqşünasların, şair və ədiblərin hazırlanmasında böyük rol oynayan Bağdad Nizamiyyə mədrəsəsi bu şəhərin nüfuzunu daha da artırdı.

Xaqani də digər şairlər kimi Bağdada xüsusi rəğbət bəsləmiş və Şərqin – İslamın mədəni mərkəzini görmək arzusu illər uzunu onu tərk etməmişdir. Şair Bağdada iki dəfə səfər etmiş və hər iki səfəri çox uğurlu olmuşdur. Birinci Bağdad səfəri zamanı Abbasilər xilafətində böyük siyasi və mənəvi nüfuzu olan Cəməl əd-Din Muhəmməd Mosuli sayəsində xəlifə əl-Muqtəfi tərəfindən böyük hörmətlə qəbul edilmişdir. Hər iki səfərlə bağlı Q. Kəndli-Herisçi geniş məlumat vermiş və bəzi mülahizələr irəli sürmüşdür. Şairin Bağdada ərəbcə həsr etdyi qəsidəsi onlardan ikisinin dəqiqləşməsinə kömək edə bilər:

1. Q. Kəndli-Herisçi şairin birinci səfəri ilə bağlı yazırdı: *"Qəbul mərasimində xəlifənin ən yaxın adamları, əl-Müqtəfinin türk xatınından doğulmuş oğlu-vəliəhdi, ədib ikinci dəfə Məkkəyə gedərkən xəlifə olan Yusif əl-Müstəncid də iştirak edirdi"*.[1] Lakin daha sonra şairin ikinci Məkkə səfərindən bəhs edərkən həmin dövrdə Bağdad xəlifəsi kimi əl-Mustədini göstərmişdir.[2]

Xaqani ərəbcə yazdığı qəsidənin son beytlərində 1170–1180-ci illərdə Bağdadda xəlifəlik etmiş Abbasilər sülaləsindən

[1] *Kəndli-Herisçi, Q*. Xaqani Şirvani. Bakı, 1988, s. 254
[2] *Kəndli-Herisçi, Q*. Xaqani Şirvani. Bakı, 1988, s. 425

olan əl-Mustədinin adını çəkmişdir ki, bu da şairin ikinci Bağdad səfəri zamanı əl-Mustədinin hakimiyyətdə olduğunu təsdiqləyir.

2. Q. Kəndli-Herisçi şairin ikinci Bağdad səfəri ilə bağlı yazırdı: "*Xaqaninin Məkkə səfərindən Şirvana qayıdaraq, daha sonra Təbrizə köçdüyünü... söyləyənlər bərk yanılmışlar"*.[1] Qəsidənin 30-cu beyti əksini göstərir, çünki şair üzünü Şirvan mehinə tutaraq deyir:

يا فيح شروان خذ كتابي ها واحمل ففيه ثناء بغداد[2]

Ey Şirvan mehi, budur yazdığımı götür və apar, orada olan Bağdadın tərifidir.

Beləliklə, beyt qəsidənin Şirvanda yazıldığını və şairin Bağdaddan sonra Şirvana qayıtdığını, sonra isə Təbrizə köçdüyünü deməyə əsas verir.

İki mətlədən ibarət qəsidənin birinci mətləsi 32 beytdən ibarətdir. Bağdadın suyunun, havasının müqəddəsləşdirildiyi, tərifləndiyi ilk iki beytini qəsidənin girişi kimi göstərmək olar:

أ مشرب الخضر ماء بغداد ونار موسى لقاء بغداد
كوثرنا دجلة و جنتنا الكرخ و طوبى هواء بغداد[3]

Xızdrın içdiyi Bağdad suyudurmu? Musanın odu Bağdadla görüşdənmidir?

Kövsərimiz Dəclə, cənnətimiz Kərx, ən xeyirlisi Bağdad havasıdır.

Üçüncü beytdən başlayaraq Bağdad–Misir qarşılaşması başlayır, 17-ci beytə kimi şair Bağdada qarşı çıxanlara cavab verir, onun hər cəhətdən üstün olduğunu göstərir:

---

[1] *Kəndli-Herisçi, Q*. Xaqani Şirvani. Bakı, 1988, s. 434

[2] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳۵٦

[3] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳۵۴

قيل لمضر أن تذكّر انت فما بمصر سناء بغداد
تالله للنيل صفو دجلة لا ولا لمصر بهاء بغداد[1]

Mudara deyildi ki, yadda saxla: Misirdə Bağdadın möhtəşəmliyi yoxdur.

Allaha and olsun ki, Nildə Dəclənin saflığı yoxdur, Misirdə Bağdadın gözəlliyi.

(*Mudar* şimal ərəblərinin əsasını qoyan şəxsin adıdır.)

Bu fikirlər şairin həmin dövrdə Misirdə və Bağdadda baş verən siyasi hadisələrə olan münasibətinin təcəssümü ola bilər, yəni şair Misri özlərinə mərkəz seçən İsmaililərə qarşı narazılığını Misrin, Nil çayının, Misir əhalisinin timsalında əks etdirmişdir.

18-ci beytdən 32-ci beytə kimi Bağdadın qədimliyindən, müqəddəsliyindən danışılır.

اعاد روحي هواء بغداد وزاد روحي فضاء بغداد

Bağdad havası ruhumu yenilədi, ömrümü uzadan Bağdad genişliyidir – beyti (33-cü beyt) ilə başlayan 37 beytdən ibarət ikinci mətlənin əvvəlində şair Bağdad qadınlarını da unutmur:

تصيد ليث الرجال حاملة بعين ظبي نساء بغداد
ترمي برشق اللحاظ واعجبا أ راميات ظباء بغداد

Aslan kimi kişiləri ovlayan ceyran gözlü Bağdad qadınlarıdır.

Gözəl baxışları ilə ox atırlar, acəba, ən mahir oxatanlar Bağdad ceyranlarımıdır?

Növbəti beytlərdə Bağdad gecələri vəsf olunmuşdur. Şairə görə, Bağdad gecələri öz aydınlığı ilə seçilir, Bağdad axşamı ona səhəri xatırladır...

[1] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳۵۵

52-62-ci beytlərdə şair özündən, şairlik istedadından, gözəl söz demək qabiliyyətindən bəhs etmiş, Bağdadın səfasını görəndən sonra özünü *yə*-si düşmüş kimi, yəni *xaqan* kimi qələmə vermişdir. Şair burada da ona həsəd aparanların olduğunu göstərmişdir:

ها انا عنقاء شائع خبري وحاسدي خنفساء بغداد
يسرق لفظي كأنه جرذ وبيته نافقاء بغداد[1]

Budur, mən Ənqa quşuyam, xəbərim (hər yerə) yayılıb, mənə həsəd aparan isə Bağdad böcəyidir.

Sözümü oğurlayıb, sanki bir siçovuldur, onun evi isə Bağdadın dəlmə-deşiyidir.

Belə məlum olur ki, şair Bağdadda çox sevilmişdir. Onun bu şəhərdə məşhurlaşmasına nə əcəmliyi, nə də kasıblığı mane olmuş və o, Quss bin Saidə, Ya'rub kimi fəsahətli söz dediyinə görə, digər əcəmlərdən fərqli olaraq, şöhrət qazana bilmişdir.

Qəsidənin son, yəni 64-69-cu beytləri xəlifə əl-Mustədinin mədhindən ibarətdir. Onu Bağdad qaranlığı üçün bir işıq kimi görən şair, xəlifənin əmirləri özünə tabe etdiyini, mərkəzi hakimiyyəti gücləndirdiyini qeyd etmiş və belə ağıllı siyasət nəticəsində Bağdadın sürətlə inkişaf etdiyini göstərmişdir.

Xaqaninin ərəbcə qitələri və digər şeirləri

Xaqaninin ərəbdilli əsərləri arasında qitələrin də öz yeri var. Bu qitələrdən həcminə görə ən böyüyü Rey şəhərinə həsr olunub. Tədqiqat işinin əvvəlində deyildiyi kimi, səyahətləri çox sevən Xaqaninin ərəb dilində olan irsinin müəyyən hissəsini Şirvan, Bağdad, Təbriz, Xorasan, Rey, İsfahan, Yəmən, İraq haqqında olan düşüncələri təşkil edir. Bu şəhərlər arasında Rey-

[1] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳۵۷

lə bağlı təəssüratlar fərqli xarakter daşıyır. Belə ki, şarin iki dildə yazdığı şeirlərdə Rey, daha çox, məzəmmət olunmuşdur.

Tehranın altı kilometrliyində yerləşən və Şərqin ən qədim şəhərlərindən biri olan, həm İslamdan əvvəl, həm də sonra mədəniyyət mərkəzi kimi öz əhəmiyyətini qoruyub saxlayan, görkəmli alimləri ilə tarixə düşən, əlverişli coğrafi mövqeyi, gözəl təbiəti, zəngin təbii sərvətləri ilə məşhur olan bu şəhərə qarşı belə münasibət maraq doğurmaya bilməz.

Şairin Rey səfərinə müxtəlif tədqiqatçılar tərəfindən fərqli fikirlər bildirilmişdir. Zənnimcə, bu sahədə ən doğru nəticə Q. Kəndli-Herisçiyə məxsusdur. Alim Reylə bağlı hər beyti diqqətlə araşdırmış və belə nəticəyə gəlmişdir ki, şair Reyə bir neçə dəfə səyahət etmişdir və Xorasan məqsədli Rey səfəri *"... onun Şirvanı tərk edərək Təbrizi seçdiyi zamanda baş vermişdir"*.[1] Bu səfərin tarixini araşdırmaq üçün Muhammməd Aufinin "Lubab əl-əlbab"da qeydə aldığı rəvayəti çox qiymətli hesab edən tədqiqatçı, Xaqaninin xəstələnərək Reydən Təbrizə qayıtdıqda nəzm və nəsrlə dolu bir heybə itirdiyini də göstərmişdir.[2]

Rey səfəri ilə bağlı ərəbcə yazılmış qitə 17 beytdən ibarətdir. قطعة يصف بها ما حله بالريّ – *Reydə baş verənlərin təsvir edildiyi qitə* kimi təqdim olunan bu şeir Xaqaninin bu şəhərə etdiyi səfərin qısa icmalıdır. Şairin bu səfərlə bağlı heç də xoş olmayan duyğularını özündə əks etdirən qitədən belə məlum olur ki, bir tərəfdən xəstəlik, digər tərəfdən vətən xiffəti şairə dinclik verməmiş, onu əldən salıb zəiflətmişdir:

مرضت بالري ثمّ خامرني همّ عليه القلوب مطبوعة
و أسلّ قلبي كأنّه رطب اصفرّ عنه النواة منزوعة.[3]

[1] *Kəndli-Herisçi, Q.* Xaqani Şirvani. Bakı, 1988, s. 464
[2] *Kəndli-Herisçi, Q.* Xaqani Şirvani. Bakı, 1988, s. 465
[3] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳٦۹

Reydə xəstələndim, sonra ürəklərə həmişəlik həkk olub qalan narahatlıq məni öz ağuşuna aldı,

Ürəyim çəyirdəyi çıxarılmış saralmış (yetişmiş) xurma kimi boş qaldı.

Qitədən belə anlaşılır ki, Xaqaninin xəstəliyi çox ciddi olmuşdur; cəhənnəm odu kimi qızdırma, halsızlıqla yanaşı, mənəvi iztirabları da ona rahatlıq verməmişdir. Reydən şikayətlənən, Reyin surətinin aldadıcı olduğunu göstərən şair daha sonra həkimin gəlişindən, təyin etdiyi müalicədən danışır:

و كان أتانى الطبيب في عكس عهد سقام أعدّ أسبوعة
كلّفني شرب مسهل بشيع والنفس عما اشتهته ممنوعة[1]

Yanıma həkim gəldi, xəstəliyin vaxtını bir həftə müəyyənləşdirdi.

Məni yüngülləşdirəcək, iyrənc (dərman) içməyi tapşırdı; ürək istəyənsə qadağandır.

Buradan belə qənaətə gəlmək olar ki, qitədəki Reydən narazılıq orada yaşanan çətin günlərdən qaynaqlanmışdır.

Şairin ərəb dilində yazdığı digər şeirlərdə də Reyin adı xatırlanmışdır ki, bu haqda sonra məlumat veriləcək.

Xaqaninin şeirləri arasında قطعة قالها في الشيب والهرم – *Qocalıq və ağ saçlar haqqında qitə* maraqlı bir mövzuya həsr olunub. Əvvəlcə onu qeyd edək ki, qitədə hədislərə müraciət var; digər klassik şairlər kimi Xaqani də hər iki dildə yazdığı mənzum və mənsur əsərlərində "əl-Qur'ənul-Kərim"in ayələrindən, qissələrdən, hədislərdən geniş şəkildə bəhrələnmişdir və monoqrafiyanın müvafiq fəslində bu cəhətə toxunulub. Haqqında danışdığımız qitədə isə hədislər əsərin məzmununu tamamladığından onlardan bu fəsildə bəhs etməyi daha məqsədəuyğun hesab edirik.

[1] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳٦۹

Qitənin mövzusu olan qocalıq və onun əsas əlamətlərindən olan ağarmış saçlarla bağlı fikirlərə müxtəlif xalqların həm şifahi, həm də yazılı ədəbiyyatında rast gəlinir. Bəzən şairlər ağ saçları, qocalığı ömrün müdrik çağı kimi mədh etmiş, bəzən isə onu ölümün ilkin mərhələsi, ölümün əkiz qardaşı, ölümün elçisi kimi qələmə vermiş və gəncliyə yas tutmuşlar.

Ərəb ədəbiyyatı da bu cəhətdən istisna deyil. Ərəb tədqiqatçısı Muhammməd ət-Tunci bu mövzuda yazılan əsərləri, yəni الشيب *ağ saçlardan bəhs edən şeir növünü* şikayətin bir növü və yaxud onun bir hissəsi kimi xarakterizə etmiş, qədim tarixə malik belə şeirlərdən mədhiyyələrin, risələrin, həcvlərin girişində istifadə olunduğunu göstərmiş, Səlcuqilər və onlardan sonrakı dövrdə belə əsərlərin bəzən ölümdən, əcəldən xəbər verdiyini, bəzən də gözəllərlə bağlı xoş xatirələrin yada salınması, gənclik illərinin xatırlanması məqsədi ilə yazıldığını qeyd etmişdir.[1]

Ağ saçlar haqqında olan şeir nümunələrinə bir çox şairlərin yaradıcılığında rast gəlinir. Məsələn, ərəb ədəbiyyatı tarixində şair, filoloq və "bir günlük xəlifə" kimi tanınan Abdullah İbn əl-Mu'təzz (247–296/861–908) divanına daxil olan şeir nümunələrindən birində üzünü Hind adlı gözələ tutaraq saçının ağardığını, amma qəlbinin qocalmadığını deyir;[2] başqa birində isə gəncliyin ona xəyanət etdiyini dilə gətirir[3] və s. Ədib hikmət dolu əxlaqi kəlamlarından ibarət كتاب الاداب – "Ədəb barədə kitab"ında ağ saçlara belə tərif vermişdir: "*Ağarmış saçlar faniliklə ilk görüşdür"*.[4]

---

[1] التونجي، محمد. حول الادب في العصر السلجوقي. منشورات مكتبة قورينا، ١٩٧٤، ص. ١٦٧

[2] ابن المعتز. ديوان. بيروت: دار الصادر، دون تأريخ. ص. ٢٥٨

[3] ابن المعتز. ديوان. بيروت ، دون تأريخ. ص. ٣٤٧

[4] *Крачковский, И. Ю*. Избранные сочинения. В 6 томах: т. 2. Москва-Ленинград: Издательство Академии Наук СССР, 1956, с. 53

Ağ saçlar, qocalıq mövzusunda yazılan şeirlər arasında *zuhdiyyə* janrının (*"Zuhd tərki-dünyalıq anlamına gəlib insanları fani dünyanın nemətlərinə uymamağa çağırır. O dövrdə yenicə yaranmağa başlayan Sufi düşüncəsində zuhd mühüm yer tutub mistik kamilləşməyə aparan əsas məqamlardan sayılırdı. Amma bir şeir janrı kimi, bu poeziya heterodoks sufizmdən daha çox ortodoks İslam təfəkkürünə yaxın idi. Çünki zuhdiyyə şeirində məqsəd olaraq Allaha yaxınlaşmaq deyil, insanlara İslam düşüncə tərzini aşılamaq dayanırdı*"[1]) ən görkəmli nümayəndəsi Əbul-Atahiyənin (130–213/747–826) şeiri xüsusilə məşhur idi:

بَكيتُ عَلى الشَّبابِ بِدَمع عَيني فَلَم يُغنِ البُكاءُ وَلا النَحيبُ
فَيا أَسَفا أَسِفتُ عَلى شَبابٍ نَعاهُ الشَيبُ وَالرَأسُ الخَضيبُ
عَريتُ مِنَ الشَبابِ وَكانَ غَضّاً كَما يَعرى مِنَ الوَرَقِ القَضيبُ
فَيا لَيتَ الشَبابَ يَعودُ يَوماً فَأُخبِرُهُ بِما صَنَعَ المَشيبُ[2]

Göz yaşlarımla gəncliyə ağladım, amma nə ağlamağın, nə də göz yaşlarının bir faydası olmadı.

Təəssüf... ağarmış saçların, rənglənmiş başların yas tutduğu gəncliyə üzülürəm.

Yarpaqlarını itirmiş budaq kimi, mən də təravətli gəncliyimdən məhrum oldum,

Kaş ki, bir gün gənclik geri dönəydi və ona qocalığın (mənə) nələr etdiyini deyərdim.

Şeir parçasından da göründüyü kimi, gəncliyə həm *ağarmış saçlar*, həm də *rənglənmiş başlar* yas tutur. Rənglənmiş saçlarla bağlı fikirlərə digər şairlərin əsərlərində də rast gəlinir, yəni əksər şairlər ağ saçlardan danışarkən, onların boyanması məsələsinə də toxunublar. Bu da hələ İslamdan

[1] *Qasımova, A*. Ərəb ədəbiyyatı. V–XIII əsrlər. Bakı, 2023, s. 354 (A.Qasımova. Ərəb ədəbiyyatı.pdf)

[2] https://www.aldiwan.net/poem10339.html

əvvəl ərəblər arasında mövcud olmuş saç boyama adəti ilə bağlıdır. Coğrafiya, botanika, astronomiya, riyaziyyat, tarix kimi elm sahələrində ensiklopedik biliyə malik Əbu Hənifə Əhməd bin Davud əd-Dinəvəri (212–282/828–895) adlı müsəlman (milliyyəti ilə bağlı fikirlər müxtəlifdir) aliminin tərtib etdiyi "Bitkilər haqqında kitab"ın boyaq bitkilərinə həsr olunmuş xüsusi fəslində ərəb ölkələrində yetişən boyaq bitkilərindən bəhs olunmuş, məişətlə yanaşı, poeziyada da onlara hansı məqsədlə müraciət olunduğu göstərilmişdir.[1] Həmin poeziya nümunələrinə əsasən demək olar ki, ərəblər öz torpaqlarında yetişən boyaq bitkilərinin xüsusiyyətlərinə yaxşı bələd olmuş, onlardan həm müalicəvi, həm də kosmetik məqsədlərlə istifadə etmişlər. Məhz həmin kitabda hansı bitkinin hansı rəng verməsi dəqiq şəkildə göstərilmişdir. Bu da tüklərin boyanmasının ərəblər arasında geniş yayıldığını təsdiqləyir.

Dini rəvayətlər və hədislər göstərir ki, İslamın formalaşdığı ilkin dövrlərdə boyama məsələsi daha aktual olub. Səhih hədis toplularında yəhudilər və xristianlar arasında saç boyamaq adəti olmadığına görə, məhz onlardan seçilmək üçün müsəlmanlara saç boyamağın buyrulduğuna işarə edən hədislərə rast gəlinir: *Ağ saçlarınızı boyayın ki, yəhudilərə oxşamayasınız* (Ət-Tirmizi, 1860); *Ağ saçlarınızı boyayın ki, nə yəhudilərə, nə də xristianlara oxşamayasınız* (Əhməd bin Hanbəl, 7545); *Yəhudilər və xristianlar boyanmırlar, onlardan seçilin* (əl-Buxari, 5899); *Ağ saçları boyamağın ən yaxşı yolu hinnə və kətəmdir* (ən-Nisə'i, 5093) və s.

İslamda saç boyamanın məkruh və ya caiz olması, hansı rəngə üstünlük verilməsi və s. kimi məsələlər ilahiyyat alimləri tərəfindən fərqli şəkillərdə şərh olunub. Hədislərə görə boyan-

[1] الدينوري، أبو حنيفة أحمد بن داود. كتاب النبات. الجزء الثالث. 1394هـ 1974 م. ص. 165-183

ma caiz qəbul edilsə də, boyamada hansı rəngə üstünlük vermək, nə ilə boyamaq, hansı yaşda boyamaqla bağlı mübahisəli məqamlar hökm sürür.

Türkiyəli alim Muhammməd Enes Topgül "Hicri 3. Asrın Başlarında Sünnete Sarılmak: "Saç-Sakalını da Boyardı!" adlı araşdırmasında həm *ricāl* (hədis ravilərinin nəql etdikləri xəbərlərin qəbul edilib-edilməmə cəhətdən araşdırılması, ravilərin kimlikləri haqqında tədqiqat aparan dini elm sahəsi) mətnlərinə dövrün göstərdiyi təsirləri incələmiş, həm də boyamaya yüklənən anlamın dəyişim məcrasını rivayət mətnləri əsasında təqib etmişdir. Tədqiqatçı sonda belə nəticəyə gəlmişdir ki, erkən dövrlərdə boyamanın vacib olub-olmadığı, hansı rəngə üstünlük verilməsi ətrafında ixtilaflar olsa da, zamanla boyamanın və boyamada bəlli rənglərdən istifadə etmənin sünnət olduğu qəbul edilmişdir.[1]

Boyanma məsələsi Avropa tədqiqatçılarının da diqqətini cəlb etmiş və ilk araşdırma G. H. A. Juynboll (1935–2010) tərəfindən aparılmışdır.[2] İslamda saç boyanmasına niyə bu qədər önəm verildiyinə aydınlıq gətirməyə çalışan müəllif boyama və boyaq maddələri ilə bağlı rəvayətləri Hicaz, Suriya və İraq kimi bölgələrə uyğun olaraq incələmişdir. Juynboll məsələ ilə bağlı həm sünni, həm də şiə mühəddislərinin söylədikləri hədisləri toplayaraq onlara münasibət bildirmiş və tədqiqatın yekununda belə nəticəyə gəlmişdir: hər iki məzhəbdəki hədislərdə müşahidə olunan ixtilaflar bu məsələnin birbaşa mühəddislərin əlində olduğunu göstərir; İslamdan əvvəl, demək olar ki, əhəmiyyət verilməyən saç boyamasının Peyğəmbərin ﷺ vəfatından sonra bu qədər önəmli olması

[1] *Topgül, Muhammməd Enes*. Hicri 3. Asrın Başlarında Sünnete Sarılmak: "Saç-Sakalını da Boyardı" // Ankara Üniversitesi İlahiyat Fakültesi Dergisi 59:1 (2018), s.110

[2] *Juynboll, G. H. A.* Dyeing the Hair and Beard in Early Islam: A Ḥadīth-Analytical Study. Arabica, 38(1), 1986, pp. 49-75

ərəblər tərəfindən fəth olunan ərazilərdə boyanmada istifadə olunan kosmetik vasitələrə marağın yaradılması, yəni komersiya məqsədi daşıyıb.[1]

Dini mənbələrdə olduğu kimi, ədəbiyyatda da ağ saçların boyanmasına münasibət birmənalı olmayıb; şairlər bəzən rənglənmiş saçları təsvir obyektinə çevirmiş, bəzən də bu adətə qarşı çıxmışlar.

Ərəb ədəbiyyatında boyama deyərkən ilk yada düşən şair Hassən bin Səbitdir (m.554–674). Əbul-Fərəc əl-İsfəhaninin (284–356/897–967) verdiyi məlumata görə, Hassən bin Səbit bığını və saqqalının alt dodaqla çənə arasında olan hissəsini (ərəbcə buna عنفقة ‘*anfaqa* deyilir) həna ilə rəngləyirmiş, qalan hissəsinə isə toxunmazmış, oğlu Abdur-Rahmən ondan niyə belə etdiyinin səbəbini soruşduqda isə belə cavab verir ki, mən ağzı öz ovunun qanına bulaşmış şir kimi görünmək istəyirəm.[2]

Bəzi şairlər isə saç-saqqalını rəngləyib cavanlıq eşqinə düşən qocaları tənqid etmiş, bunun işə yaramadığını göstərmişlər. Məsələn, Əbu Abdullah İbn ət-Tubi adlı şair yazırdı:

يا خاضب الشيب دعه فليس يخفى المشيب
حصلت منه على أن يقال شيخ خضيب

Ey ağ tüklərini rəngləyən, burax bu işi. Bununla qocalığını gizlədə bilməyəcəksən.

Uzaqbaşı sənə “saqqalı rənglənmiş qoca” deyəcəklər.[3]

Abbasilərin birinci dövründə yaşayan şairlərindən olan Mahmud bin Hasən əl-Vərraqın (m. 844–850-ci illər arası vəfat edib) şeirinə baxaq:

---

[1] *Juynboll, G. H. A.* Dyeing the Hair and Beard in Early Islam: A Ḥadīth-Analytical Study. Arabica, 38(1), 1986, p. 72

[2] الاسفهاني، أبو الفرج. كتاب الاغاني، الجزء الرابع. القاهرة: دار الكتب المصرية، ١٣٦٩ هـ - ١٩٥٠ م. ص. ١٣٦

[3] *Qasımova, A*. Ərəb ədəbiyyatı. V–XIII əsrlər. Bakı, 2023, s. 641-642

يا خاضِبَ الشَيْبِ الَّذي في كُلِّ ثالِثَةٍ يَعودُ
إِنَّ النُصولَ إِذا بَدا فَكَأَنَّهُ شَيبٌ جَديدُ
وَلَهُ بَديهَةُ رَوعَةٍ مَكروهُها أَبَداً عَتيدُ
فَدَع المَشيبَ كَما أَرادَ، فَلَن يَعودَ كَما تُريدُ [1]

Ey (rənglənmənin) hər üçüncü günü yenidən ağaran saçlarını rəngləyən,

Rəngin getməsi yeni ağlıq kimi görünür,

Onun qorxulu şəkildə qəfil gəlməsi həmişə xoşagəlməz olub,

Ağ saçları istədiyi kimi boş burax, çünki o, sənin istədiyin kimi olmayacaq.

İbn əl-Mu‘təzz ağarmış saçların gözəl olmadığı kimi, onları rəngləməyin də gözəl görünmədiyini belə ifadə etmişdir:

حيلةُ الشَيبِ في عِذاري تَلوحُ وَفُؤادي في الغَيِّ بَعدُ جَموحُ
قَبُحَت شِيةُ المَشيبِ كَما أَنّ الخِضابَ الكُميتَ أَيضاً قَبيحُ
ذا شَبابٌ مُلَفَّقٌ لَيسَ يَخفَى وَمَضى ذَلِكَ الشَبابُ الصَحيحُ[2]

Gicgahımda ağ saçlar görünür, qəlbimsə hələ gənclik əhvalındadır.

Ağ saçlar eybəcərdir, amma onların rənglənməsi də gözəl görünmür.

Çünki o, yalançı gənclikdir və onu gizlətmək olmur, əsl gənclik isə artıq keçib.

Xaqaninin qitəsi də qocalıq, ağarmış saçlar və onların boyanması haqqındadır. Qitə ilə tanışlıq belə deməyə əsas verir ki, mövzu yuxarıda toxunduğumuz şeir parçaları ilə oxşardır, amma məzmun, qocalığa, saç boyamaya münasibət tam fərqlidir. Sanki o, həm dini mənbələrdə, həm də ərəb ədəbiyyatında ağarmış saç-

[1] الورّاق، محمود بن حسن. ديوان .جمع و تحقيق: عدنان راغب العبيدي. بغداد، ١٩٦٩، ص. ٦٠–٦١

[2] ابن المعتز. ديوان. بيروت: دار الصادر، دون تأريخ. ص. ١٥٢

lar, qocalıq, saç rəngləmə ilə bağlı yazılanları oxumuş və oxuduqlarına kiçik bir qitə daxilində münasibət bildirmişdir.

Qitənin əvvəlində şair ağarmış saçlarını rəngləyənlərə haqq qazandırıb saç rəngləməyin qəbahət olmadığını bildirmiş, insanları qocalıqdan qorxmamağa, bacardıqca onun əlamətləri ilə mübarizə aparmağa səsləmişdir. Əgər dini mənbələrdə saç boyamada qırmızı, sarı, qara kimi rənglərdən söhbət gedirsə, Xaqaninin əsərində ancaq qırmızı rəngə boyanmış saç-saqqal təsvir olunmuşdur. Şair خضب (xḍb) feilindən istifadə etmişdir ki, "Lisənul-arab"a görə, bu kökdən olan sözlərdən, əsasən, qırmızı rənglə boyamada istifadə olunur.[1]

Ədəbiyyatda geniş istifadə olunan mükalimə (dedilər-dedim) şəklində qurulmuş qitə saqqalını boyayana (boyama deyərkən həm saç, həm saqqal rəngləməsi, bəzən isə ancaq saqqal rəngləməsi nəzərdə tutulur) tutulan iradla başlayır:

قالوا خضبت فما هذا السواد له بريق خط كدور النون و القلم

Dedilər: (saqqalını) rəngləmisən, bu qaralıq nədir? Onun xəttinin parıltısı mürəkkəb və qələmin (yaratdığı) dövrə kimidir.

Şairin özünün saç-saqqal boyayıb-boyamaması dəqiq məlum olmadığından, beyti saç-saqqalını rəngləyənlərə cəmiyyət tərəfindən tutulan irad kimi qəbul edirik.

Qitənin ikinci beyti bu irada cavab üzərində qurulub; şair Peyğəmbər ﷺ və onun ətrafının ağ tüklərini boyadığını göstərməklə bu irada belə cavab vermişdir:

نعم خضبت فخير الناس قد خضبوا إلى النبيّ اوّليّ القربى ذوي النعم

(Dedim:) Bəli, rəngləmişəm, çünki Peyğəmbərə, onun yaxınlarına və alicənab insanlara qədər bütün yaxşı insanlar (saqqallarını) rəngləyiblər.

[1] ابن منظور. لسان العرب. بيروت: دار الصادر. المجلد الخامس، ص. ٨٥

Dini mənbələrdə Peyğəmbərin ﷺ saç-saqqalını boyaması ilə bağlı fərqli fikirlərə rast gəlinir. Əl-Buxaridə Ənəs bin Malikdən söylənilən iki hədis Peyğəmbərin ﷺ saç-saqqalını boyaması fikrini təkzib edir. Belə ki, hər iki hədisə görə, Ənəsdən bu barədə soruşduqda o, belə cavab verir ki, Peyğəmbərin ﷺ saçları boyamaya ehtiyac duyulacaq qədər ağarmayıbmış.[1]

Usmən bin Mauhəb əl-Həşimidən olan iki hədisə görə isə Umm Sələmə Peyğəmbərin ﷺ rənglənmiş tüklərini onlara göstərib. İkinci hədisdə tüklərin qırmızıya boyandığı da göstərilib.[2]

Xaqani Peyğəmbərin ﷺ yaxınları deyərkən, çox güman ki, Əbu Bəkr əs-Siddiqi (573–634) və Umar bin əl-Xəttabı (586–644) (Allah onlardan razı olsun) nəzərdə tutub. Çünki onların ağ tüklərini boyamaları hədislərdə öz təsdiqini tapır.

Qitənin 3-cü beytində Xaqani yazır:

حتّى الإمامان صهراه و لقد كتما لون المشيب بماء الخِطْرِ و الْكَتَمِ

Hətta iki imam da onu (saqqalını) qırmızıya boyayıb, qocalığın rəngini xitr və kətəm suyu ilə gizlədiblər.

Rəngləmə ilə bağlı bütün mötəbər hədislərdə, əsasən, İmam Huseynin və İmam Əbu Cəfərin adı çəkildiyindən, şair də iki imam deyərkən, çox güman ki, onları nəzərdə tutub. Məsələn, şiə muhəddisi və alimi Əbu Cəfər Muhammad bin Yaqub əl-Kuleyni ər-Razinin (təxminən h. 328-329/m. 939-940-da vəfat edib) "Əl-Kafi" adlı məşhur hədis toplusunda Peyğəmbər ﷺ və onun əhlinin, Huseyn bin Alinin, Əbu Cəfərin (a.) tüklərini kətəmlə rənglədiklərinə dair hədislər var.[3]

---

[1] صحيح البخاري. أللباس. ٥٥٥٥ \ ٥٥٥٦. ص. ٢٢١٠
pdf.مكتبة كتوباتي - صحيح البخاري

[2] صحيح البخاري. أللباس. ٥٥٥٧ \ ٥٥٥٨. ص. ٢٢١٠
pdf.مكتبة كتوباتي - صحيح البخاري

[3] الكليني، الشيخ محمد بن يعقوب. الكافي. الجزء السادس. طهران: دار الكتب الاسلاميّة، ١٣٦٧ ش. ص. ٤٨٠

Beytdə adı çəkilən *xitr* və *kətəm* isə boyaq bitkiləridir və mənbələrdə təbii saç boyamasından danışılarkən əsas xına, kətəm və xitr kimi bitkilərin adı çəkilir. Məsələn, "Lisənul-arab"da verilən məlumata görə, hələ qədimdən ərəblər arasında tüklərin qara rəngə boyanması üçün xitr bitkisindən[1], qırmızıya boyanması üçün isə kətəm bitkisindən istifadə olunub.[2]

Xaqani növbəti beytlərdə ağarmış saçları nura bənzətmiş və onu boyamağı işığın zülməti əvəzləməsi, Günəşin tutulması kimi təbii hesab etmişdir:

الشيب نور باذن الله اَخضبه فالله يخضب قرب الشمس بالظلم
أما ترون كسوف الشمس يخضبها بسنّة الله يهدى سنّة الأمم

Ağ saçlar nurdur və mən Allahın izniylə onu boyayıram, Allah da Günəşi zülmətə boyayır.

Onu (Günəşi) boyayan Günəş tutulmasını görmürsünüz? Ümmətlərin qaydalarını Allahın qanunları müəyyənləşdirir.

Birinci beytdə şairin ağ tükü nura bənzətməsi hədislərdən qaynaqlanmışdır. Yenə də əl-Kuleyninin hədis toplusundan bir hədisə baxaq: *Bir kişi Peyğəmbərin ﷺ yanına gəlir, onun saqqlındakı ağ tükü görən Peyğəmbər ﷺ deyir: (Ağ tük) nurdur. Sonra əlavə edir: kimin tükü İslamda ağarıbsa, bu, Qiyamət günündə onun işığı olacaq. Həmin kişi həna qoyub yenidən Peyğəmbərin ﷺ yanına gəlir. Peyğəmbər ﷺ onun (saqqalını) rənglədiyini görüb deyir: nur və İslam. Sonra kişi (saqqalını) qaraya boyayır. Peyğəmbər ﷺ deyir: nur, İslam və iman; qadınlarınızın qəlbinə məhəbbət, düşmənlərinizin qəlbinə qorxu*.[3]

İkinci beytdə isə şair saç boyamağı Günəş tutulması kimi təbii hesab edir və "əl-Qur'ənul-Kərim"in əl-Əhzab surəsi 62-ci ayə, əl-Fəth surəsi 23-cü ayə, Fatır surəsi 43-cü ayədə buyu-

[1] ابن منظور. لسان العرب. بيروت: دار الصادر. المجلد الخامس، ص. ١٠٠–١٠١
[2] ابن منظور. لسان العرب. بيروت: دار الصادر. المجلد الثالث عشر، ص. ٢٣ – ٢٤
[3] الكليني، الشيخ محمد بن يعقوب. الكافي. الجزء السادس. طهران ، ١٣٦٧ ش. ص. ٤٨٠

rulan وَلَنْ تَجِدَ لِسُنَّةِ اللَّهِ تَبْدِيلًا – *Sən Allahın qanunlarında heç bir dəyişiklik tapa bilməzsən* hökmünə işarə edərək göstərir ki, əgər ümmətlərin qanunları Allahın qoyduğu qanunlarla müəyyənləşirsə, onda nura, işığa bənzəyən ağ saçların boyanması da təbii qəbul edilməlidir.

Ağ tüklərin nura bənzədilməsinə Beyləqandan olan XI əsr kürd əsilli şair Məsud bin Namdarın yaradıcılığında da rast gəlinir. Amma onun mövqeyi fərqlidir:

لقد زعم الغواني شبتَ فأخضب معاذ الله والشهر الحرام
فإنّ الشيبَ نور الله عندي ونور الله خير من ظلام
إذا شاب ابنُ آدام طاب عيشا وتاب عن الفواحش والمُدام
وزيَدَ نُهىً وحلما بل وقارا وجهّز للمعاد بلا أثام
وأسلمَ وجهَه للهِ حقّا ليدخلَ سالما دارَ السلام[1]

Gözəl qadınlar dedilər ki, saçın ağarıb, (onları) rənglə. Allah qorusun, həm də bu mübarək ayda!

Ağ saçlar mənim üçün Allahın nurudur, Allahın nuru isə qaranlıqdan yaxşıdır.

Adəm övladının saçları ağardıqda həyatı gözəlləşir, pis əməllərdən, içkidən tövbə edir.

Nəinki ağlı, səbri, hətta vüqarı da artır və günahsız şəkildə axirətə hazırlaşır.

Üzünü həqiqətən Allaha tutur ki, cənnətə sağlam halda daxil ola bilsin.

Klassik ədəbiyyatda qocalığa, saç boyama məsələsinə iki fərqli münasibət bu iki şeir nümunəsində gözəl əks olunmuşdur: Məsud bin Namdar daxili gözəlliyi əsas tutaraq, ağ saçları təmizlik, hikmət, günahlardan tövbə simvolu kimi qəbul etmiş və onu boyamağa qarşı çıxmışdır; Xaqani isə sünnəyə uyğun

[1] Məsud bin Namdarın Fransa Milli Kitabxanasının ərəb fondunda 4433 şifri altında saxlanılan əlyazması, vərəq 48 (52)

olaraq, insanları ağarmış saçları rəngləməyə, xarici görünüşə diqqət yetirməyə səsləmişdir.

Əgər iki şeir arasında müqayisə aparsaq, mənə görə, Xaqaninin beytləri daha fəlsəfi, daha dərindir. Məsud bin Namdarın əsərində iki simvol var: nur və zülmət; bu iki simvola da uyğun gələn iki rəng var: ağ və qara; şair romantik bir şəkildə xarici görünüşü əhəmiyyətsiz hesab edir, insanın yaşı artdıqca, saçı ağardıqca pis əməllərdən tövbə edəcəyinə inanır. Bu da şairi reallıqdan uzaqlaşdıran bir illüziyadır.

Xaqaninin qitəsində isə real lövhələr üstünlük təşkil edir. Burada real həyatda olduğu kimi, ağ və qaradan başqa da rənglər var, eləcə də ağ və qara ancaq nuru və zülməti təmsil etmir, məsələn, şair qanın (qırmızı rəngin) quruduqca qaraldığını göstərmiş, qırmızıya boyanmış saqqalı alova bənzətmişdir:

ماذا الخضاب ولكنّ مقلتي قطرت بعارضي فبدت سوداء كالحمم
اَضحى دم الجفن فوق الخدّ منجمدا فاسودّ ما جفّ هذا حكم كلّ دم
كانّني مضرم نار الهوى أبدا فقد علاني دخان النار بالضرم

Boyama nədir ki?! Gözümdən yanağıma yaş axdı və kömür kimi qara göründü.

Kirpiklərdən axan qan yanaqlarda donub qaldı və qaraldı; bu da qanın xüsusiyyətidir.

Sanki mən əbədi eşq odunda yanıram və o odun tüstüsü məni qırmızı alova bürüyüb.

Daha sonra şair insanlara Peyğəmbərin ﷺ vəsiyyətini xatırladaraq onları özlərinə fikir verməyə, qocalığın insanın xarici görünüşündə buraxdığı xoşagəlməyən izləri gizlətməyə çağırmışdır:

أوصى النبيّ ذوى القربى أن اكتحلوا وغيّروا شيبكم تنفوا ذوي الهرم

Peyğəmbər öz yaxınlarına vəsiyyət edib ki, gözlərinizə sürmə çəkin, ağarmış saçlarınızı rəngləyin, qocalığın gətirdiyi pis görüntünü dəf edin.

Beyt əl-Kuleyninin topladığı Əbu Cəfərdən olan hədislərdən birini xatırladır: *Bir dəstə adam Huseyn bin Alinin yanına gələndə onu (saqqalına) qara rəng qoymuş görürlər. Ondan bu haqda soruşduqda o, əlini saqqalına çəkib deyir: Allahın Rəsulu ﷺ müharibələrin birində müşriklər üzərində güclü görünmək üçün qara rəng qoymağı buyurmuşdu.*[1]

Qitənin son beytlərində Xaqani daha real mövqe tutaraq qocalıqdan qaçılmaz olduğunu dilə gətirmişdir:

و في الغروب ترى الدنيا إذا هرمت صارت خضيب الدجى مسودّ باللمم
جرت عليّ وحظّا الشيب عاتبه و ما تلقت عتيبا من أذى الهرم

(Günəş) qürub edərkən görürsən ki, dünya qocalanda Xadıb (ulduzu) da qara rəngə boyanmış kütləyə çevrilir.

(Qocalıq) məni axtarır, ağ saçlar da onu təqib edir, qocalığın gətirdiyi acılardan qaça bilən Atibə rast gəlinmir.

Burada adı çəkilən خضيب *Xadıb* ulduzu ingilis dilində *Caph*, ərəbcə الكف *əl-Kəff* kimi də tanınır və o ulduz qədimdən ərəblər arasında xına qoyulmuş qadın əlinə bənzədilmişdir.[2]

Beytdə istifadə olunan عتيب (Atib) kəlməsi çox maraqlı məna ifadə edir: "Lisənul-arab"da bu söz belə açıqlanır: "*Atib: qəbilədir. Ərəblərdə belə bir məsəl var: Atib kimi öldü. Yəməndən olan bu qəbilənin əsasını Atib bin Əsləmə bin Malik bin Şənuət bin Tədil qoyub, Malik dininə məxsus olan qəbilədir. Sonralar digər tayfalar onlara hücum edib, kişiləri əsir alıb onları qula çeviriblər. Onlar deyirdilər: əgər bizim oğlan uşaqlarımız böyümüş olsaydılar, bizi xilas edərdilər. Onlar*

[1] الكليني، الشيخ محمد بن يعقوب. الكافي. الجزء السادس. طهران، ١٣٦٧ ش. ص. ٤٨١
[2] ابن منظور. لسان العرب. دار الصادر بيروت، المجلد الخامس، ص. ٨٦

əsirlikdə ölənə qədər belə davam etdi və ərəblərdə məğlub olub ölənlə bağlı belə bir məsəl yarandı: Atib öldü;" [1]

Deməli, şair qocalıqla mübarizənin bir arzu, xəyal olduğunu göstərərək, bunu imkansız hesab edir. Şairin fikrincə, əgər atiblilər xilas olmaq üçün xəyal qururdularsa, qocalıq qarşısında bu xəyal belə imkansızdır; atiblilərin xilas olmaq üçün qurduqları xəyal imkansız, qocalıq qarşısında isə bu xəyalı etmək yersizdir.

Mövzusuna görə belə qənaətə gəlmək olar ki, Xaqani onu ömrünün yaşlı vaxtlarında, saçlarının ağardığı dövrdə yazmışdır.

Xaqani yaradıcılığı üçün xarakterik olan cəhətlərdən biri də nəsihatamiz fikirlərdir. Şair demək olar ki, bütün şeirlərində didaktikaya yer vermişdir. Onun ərəbcə yazdığı həcmcə üçüncü böyük qitəsi sırf didaktika üzərində qurulub. 9 beytdən ibarət və dayaqsız həmzə ilə bitən sözlərlə qafiyələnmiş qitə ilk beytdən başlayaraq sona kimi nəsihət xarakteri daşıyır.

Əvvəlcə qitənin mətninə toxunaq. Qeyd olunduğu kimi, şairin ərəbcə əsərlərinin elmi-tənqidi mətni hazırlanmadığına görə, onlar müxtəlif mənbələrdə fərqli şəkildə təqdim olunub. Bu əsərin də ilk beyti Səccadi və Kəzzazi tərəfindən hazırlanan divanlarda (istifadə olunan digər 2 divanda bu şeir yoxdur) belə verilib:

أأفضل كافي الابرار خيرا و مائل كل مال بالاخاء[2]

Birinci beyt M–242 və M–413 şifrəli Bakı nüsxələrində fərqli şəkildə yazılıb:

أفضل اسرار كافي النحراء وقابل كل قال بالاخاء

[1] ابن منظور. لسان العرب. دار الصادر بيروت، المجلد العاشر، ص. ٢٣

[2] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳۴۹؛ خاقانی شروانی. دیوان. تصحیح ضیاء الدین سجادی. تهران، ۱۳۳۸، ص. ۹۵۸

Fikrimizcə, hər iki variantda naqislik var. Divanlara görə, qitə أ *'ə* sual ədatı ilə başlayıb, amma verilən suala cavab olmadığından məna natamam qalır; eləcə də ikinci misra tərcüməyə yatmır. Burada iki amil nəzərə alınmalıdır:

–qitənin növbəti iki beyti əmr formasında olan feillə başlayır. Deməli, birinci beyti də əmr formasında yazmaq daha məntiqlidir;

– həmin üç beyt فضل، كرم، حسن – *fḍl, krm, ḥsn* kökləri ilə başlayır və həmin kökdən olan hər üç feilin birinci babda *muḍari'* (indiki) zaman formasında tipik saiti *u* olduğuna görə onların əmr forması eyni qayda ilə düzəlir, yəni *'ufḍul, 'ukrum, 'uḥsun.* Bu da şeiri həm ahəng, həm də məna baxımından tamamlayır. Beləliklə, həm əlyazmalardan, həm də divanlardan istifadə edərək, qitənin ilk 3 beytini belə verməyi məqsədəuyğun hesab edirik:

أُفْضُلْ كافي الابرار خيرا وقابلْ كل قال بالاخاء
وأُكْرُمْ مَنْ اهانكَ ثمّ ناقِضْ إساءتَهُ باحسان الثناء
وأُحْسُنْ ثمّ لا تَنْظُرْ جزاءً ففي الاحسان تعبيبة الجزاء

Xeyirli iş görməkdə saleh insanları ötüb keç, deyilən hər sözü dostcasına qarşıla.

Səni təhqir edənlə alicənab davran, sonra onun təhqirinə yaxşı sözlə (kobudluq etmədən) etiraz et.

Yaxşılıq et, amma əvəzini gözləmə, yaxşılığın özü mükafat deməkdir.

Növbəti beytlər:

وعُودْ نفسك الناس المرخى فَنَفِّس النفسَ حاملة الرخاء
إذا المُعْطِي أراكَ الْمَنْعَ فأجْعَلْ قُبُولَكَ مَنْعَهُ كنز العطاء

Üzünü zəif, incik insanlara çevir, alicənab qəlblərə təsəlli ol.

Əgər hədiyyə verən sənə imtina edirsə onun imtinasını əta xəzinəsi kimi almış kimi qəbul et.

Xaqani burada da özünəməxsusluq nümayiş etdirir. İnsanları xalqı incidən, cəfa çəkdirən valilərdən, hakim təbəqədən yaxşılıq gözləməməyə çağırır:

قلوب الناس تأنس بالأيادي وقلبك آنسٌ بأذى الجفاء
فحلوا في جفاء القوم فاقبل و لا تقبل إيادي المولاء
وكن كالدهر يقتل كلّ نار تحرّقه ويأبى كلّ ماء

İnsanların qəlbi iltifata meyl edir, sənin qəlbinsə cəfanın ağrısına.

Onlar (ağalar) xalqın cəfası hesabına güclənirlər; bunu qəbul et və ağaların yaxşılığını qəbul etmə.

Zaman kimi ol: onu yandıran hər odu söndürür, hər suyu da qəbul etmir.

Bu beytləri Xaqaninin əxlaq kodeksi kimi də qəbul etmək olar: xeyirxah ol, deyilən hər sözə fikir vermə; pisliyə yaxşılıqla cavab ver, səbirlə öz etirazını bildir; təmənnasız yaxşılıq et; hakim təbəqə qarşısında məğrur ol və s.

Şairin yaradıcılığı boyu təbliğ etdiyi xüsusiyyətlərdən biri də səxavət, əliaçıqlıqdır. Məsələn, başqa bir şeirində deyir:

فقم واستمع أخبار معن و وحاتم وذكّر فحسن الذكر احسن قصّة
و لا تدّخر مالا واتلفه بالندى فعندك ما أتلفت انفع حصّة

Ayağa qalx, Məan və Hatim haqqında deyilənlərə qulaq as. Yadda saxla ki, xatirələrin yaxşısı yaxşı hekayələrdir.

Mal-dövlət yığma, onu (malını) səxavətlə xərclə, xərclədiklərin (malının) ən xeyirli hissəsidir.

Beytdə adları çəkilən *Məan bin Zaidə əş-Şeybani* (m.769-cu ildə vəfat edib) və *Hatim ət-Tai* (m. 605-ci ildə vəfat edib)

öz səxavətləri ilə məşhur olan insanlardır. Səxavət simvolu kimi onların adına şairin hər iki dildə yazdığı əsərlərində rast gəlinir.

Xaqaninin ərəbcə yazdığı kiçik mədhlərdən biri 3 beytdən ibarət İzz əd-Dinə həsr olunan qitədir. Ola bilsin ki, əsər həcmcə daha böyük olmuş, bir hissəsi itib-batmışdır. Qitənin tərcüməsi zamanı İzz əd-Dinin kimliyini müəyyənləşdirmək mümkün olmadı. Bu istiqamətdə aparılan araşdırma nəticəsiz qalsa da, məlum oldu ki, şair "Tuhfətul-İraqeyn"də İzz əd-Din adlı iki şəxsi mədh etmişdir. Onlardan biri – در مدح عز الدين محمد قصار "İzz əd-Dini tərif" adı altında dilimizə tərcümə olunsa da,[1] haqqında məlumat verilməmişdir. İkinci şəxs isə در مدح امام عز الدين ابو الفضل محمد سعيد اشعري başlığı altında təqdim olunub və həmin hissə tərcümədə öz əksini tapmayıb.

Qitənin kiçik olması və həsr olunduğu şəxsin kimliyinin naməlum qalması onun tərcüməsini çətinləşdirir.

Şairin digər mədh xarakterli 3 beytlik qitəsi isə İməd əd-Din adlı şəxsə həsr olunub. Həmin qitədə şair mədh etdiyi şəxsin məziyyətlərindən danışır. İmad əd-Dinin vəzir olma ehtimalını irəli sürən Q. Kəndli-Herisçiyə görə, Xaqani "*İmadəddin adına ərəbcə yazdığı bir şe'rdə onu qəlbinin parçası, gözünün işığı sanmış, şairi ölümdən qurtardığını, pis günündə ona sarı əl uzatdığını bildirmişdir*".[2]

233028 nömrəli əlyazmanın 161 b vərəqində, 242153 nömrəli əlyazmanın 206 a vərəqində, M-242 şifrəli əlyazmada yer alan qitənin yazılışı divanlardan fərqlənir. Həmin mənbələr arasında ikinci beytin 233028 nömrəli əlyazma variantını daha məntiqli hesab edərək, eləcə də digər variantları da nəzərə alaraq, qitəni belə anlamaq olar:

[1] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1987, s. 88-89
[2] *Kəndli-Herisçi, Q*. Xaqani Şirvani. Bakı, 1988, s. 468, 469

حسبت عماد الدين عود مهجتي أردّ به شرّ الحوادث ما أحمى
اسميه عيسى محسنا شبح الدري به الموت يحيى والحياة به يحيى
فوا عجبا حالي بذلّة خاطري أتاني حمى العيش ويحرقني الحمى

İmadəddini həyatımın xilaskarı hesab etdim, onunla məni yandıran müsibətlərin şərini dəf etdim.

Mən ona İsa deyirəm, xeyirxah, nurlu ruh; çünki ölüm onunla dirilir, həyat onunla dirçəlir.

Könlümün zillətinə düşmüş halım çox qəribədir! Həm həyatın qızdırması məni təqib edir, həm də (xəstəlik) qızdırması məni yandırır.

Şairin bəzi şeirləri tədqiqat işlərində qitə kimi təqdim olunsalar da, qafiyələnmə sisteminə görə qitəyə qoyulan tələbatı ödəmir. Ərəb müəlliflərinin divanlarında da 2, 3, 4 və s. beytlərdən ibarət kiçik həcmli əsərlərə rast gəlindiyindən həmin beytlərin müstəqil bir əsər olma ehtimalı da var. Çünki həmin nümunələrdə konkret fikir var. Həmin şeirləri beytlərin sayına görə ayıraraq onları **digər şeirlər** adı altında qruplaşdırmışıq. Belə şeirlərdən birində Şirvanla Bağdaddan bəhs edilir.

Bağdad mövzusuna Xaqaninin hər iki dildə yazdığı əsərlərində tez-tez rast gəlinir. Şairin Bağdada həsr etdiyi ərəbcə qəsidəsindən monoqrafiyanın müvafiq hissəsində ətraflı şəkildə bəhs olunub. Əgər həmin qəsidədə şair Bağdadla Misri qarşılaşdıraraq, üstünlüyü Bağdada verirsə, ərəbcə yazdığı qitələrdə vəziyyət dəyişir və onun müraciət etdiyi mövzular sırasına Bağdadın həcvi də daxil olur. Belə bir yanaşma bizə İbn əl-Mu‘təzzi xatırladır: *“... ərəb ədəbiyyatında şəhərlərin tərifi ilə bağlı şeirlər olub. İbn əl-Mu‘təzz isə ədəbiyyata şəhərlərin, konkret olaraq Bağdadın həcvini gətirib. Bəzən o, sinkretik şeir yaradır; bir şeirdə Bağdadı həcv edb, Samarranı tərifləyir”.*[1]

[1] *Qasımova, A*. Ərəb ədəbiyyatı. V–XIII əsrlər: dərslik. Bakı, 2023, s. 410 (A.Qasımova.Ərəb ədəbiyyatı.pdf)

Əgər İbn əl-Mu‘təzz Samarra şəhərini Bağdada qarşı qoyursa, Xaqani də Şirvanı Bağdadla qarşılaşdırır və üstünlüyü “Şirvana qurban olum” deyərək doğma yurduna verir. Bu məzmunda, yəni Şirvan-Bağdad qarşılaşması ərəbcə yazılmış iki qitədə əks olunub. Birinci qitə 8 beytdən ibarətdir (dilimizə ilk tərcümə edilən əsər kimi haqqında əvvəldə məlumat verilib). Burada şair Şirvanı hər cəhətdən Bağdaddan üstün bilir:

شروان ام العلى لكل اب راحت روحي نسيمها بآب
فديت شروان من صحيح بنا بغداد منها مزيد منشعب
ترى بشروان كل غانية بأساء ذات النسب و النشب
تلقى ببغداد كل زانية عمياء ذات الصراخ و الصخب
فقيره برّت كلّ فاقرة بنات أهل الغنى ذوى النسب
ترضي لخبز الشعير قانعة بنصف الأرز من الذهب
سعى صرّة بلحظتي رقّة كلتاهما السوأتان بالأدب
أعني كسيرا فنصف لفظته من عجم ثمّ نصفها عرب

Şirvan hər kəs üçün ülviyyətin anasıdır, onun yaydakı nəsimi ruhumun dərmanıdır.

Bir həqiqətdir ki, Bağdada axışan çoxdur, amma mən Şirvana qurban olaram!

Şirvanda həm əsil-nəcabətli, zəngin, həm də kasıb gözəllər görərsən.

Bağdaddasa səsli-küylü kor zinakarlarla rastlaşarsan.

Şirvanın həm kasıb, həm əsil-nəcabətli qızları şərəflidilər,

Onlar yarım düyü boyda olan qızıla yox, arpa çörəyinə qane olurlar.

(Amma Bağdadda) hər ikisi (həm kasıbı, həm varlısı) pul kisəsinə can atır, onların hər ikisində ədəb yaxşı deyil.

Mən sözünün yarısı əcəmcə, yarısı ərəbcə olanları nəzərdə tuturam.

Şirvan-Bağdad qarşılaşmasına başqa şeirdə də rast gəlinir. 4 beytdən ibarət şeirdə Xaqani Bağdadla bağlı xəyallar qursa

da, fikri-zikri doğma məkanda dolaşdığından, bu xəyalların gerçəkləşməyəcəyini dilə gətirir:

لئن كنت أفرغ في برهة سأنشي لديوان دار الخلافه
أُصيّر وشي الدُّمى برده وأجعل نخلَ المُعلّى خلافه
ولكن بشروان داعى الهوى جرى العهد لي كيف أبغى خلافه
ببغداد صدّ عن الخلّ بي لعلمي بأنّ من الخلّ آفه[1]

Əgər bir anlıq imkanım olsaydı, xilafətin sarayının divanını yenidən qurardım.

Onun zolaqlı (ağ-qara) paltarını rəngli (xüsusən də qırmızı çalarlı) naxışlarla əvəz edərdim.

Onun söyüd ağaclarını (ərəblərdə geniş yayılmış zərif və nazik agac növü) hündür xurma ağaclarına döndərərdim.

Amma eşq carçısı Şirvandadır; mən onunla əhd bağlamışam – ona necə xilaf çıxım?!

Məndə Bağdaddakı dostluğa qarşı bir sədd (maneə) var. Bilirəm ki, bu dostluqdan ancaq bəla gəlir.

Xaqani həm fars, həm də ərəbcə yazdığı əsərlərdə qədim Şirvandan, el adətlərindən bəhs etmiş, xalq məsəllərindən, əfsanələrdən bəhrələnmişdir. Bu baxımdan şairin hələ qədimdən milli bayramımız kimi böyük təntənə və coşğu ilə qeyd olunan Novruza həsr etdiyi şeirlər maraq doğurur. Ərəbcə Novruza həsr olunan 4 beytlik şeirdə deyilir:

أهنيك بالنيروز يا مقتدى الأمم وبل أنت نيروزي يحيّى ويغتنم
فأوبة شمس الجوّ في أشرف الذرى تخصّ بنيروز الزمان ذوي النسم
و او بك شمس الدين في ذروة العلى لقد خصّ بالنيروز شروان في العجم
فذا اليوم نيروز الخلائق واحد ولي منك نيروزان من سائر الامم[2]

[1] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳۴۸
[2] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران ، ۱۳۷۵، ص. ۱۳۴٦

Ey ümmətləri hidayət yolu ilə aparan, səni Novruz münasibəti ilə təbrik edirəm, mənim canlandıran və bərəkətləndirən Novruzum sənsən.

Təbiətin Günəşinin ən yüksək zirvəyə qayıdışı təbiətin Novruzu kimi insanlar arasında qeyd edilir.

Dinin Günəşi isə sənin ilə ən yüksək zirvədə təcəlli edir və əcəmlər arasında Şirvandakı Novruz bununla fərqlənir.

Bu gün təbiətdə Novruz birdir, amma başqa ümmələrlə müqayisədə mənim sənə görə iki Novruzum oldu.

misrası و او بك شمس الدين في ذروة العلى İ. Həmidov tərəfindən "*Sən Şəmsəddini yüksək zirvədə görməlisən"* – kimi tərcümə edilmiş və Şəms əd-Din burada mədh olunan şəxs kimi qələmə verilmişdir.[1]

Amma şeirin şairin əmisi oğlu Vəhid əd-Dinə həsr edildiyini iddia etmək olar. Xaqaninin öz əsərlərindən məlum olduğu kimi, təhsil almasında, ziyalı kimi yetişməsində xüsusi rolu olan şəxslərdən biri əmisi oğlu Vəhid əd-Dindir. Dövrünün ziyalılarından olan musiqişünas Vəhid əd-Din tibb, nücum, hikmət kimi elmlərə də bələd idi. Xaqaninin əsərlərindən o da məlum olur ki, Vəhid əd-Din yeni ilin təqvimini yaratmışdır. Şairin farsca yazdığı əsərlər arasında əmisi oğlunu Novruz bayramı münasibəti ilə təbrik etdiyi şeirlər var. Tədqiqat işində şairin eyni mövzuya hər iki dildə müraciət etdiyi qeyd olunub. Zənnimcə, bu şeir də istisna deyil və Xaqani *Şəms əd-Din* dedikdə Şəms əd-Din adlı şəxsi deyil, Vəhid əd-Dini nəzərdə tutmuşdur.

Qədim tarixi ilə məşhur olan, ərəb aləmində xüsusi əhəmiyyət kəsb edən Yəmən torpağı da şairin təsvir obyektlərindən biridir. Mənbələrdə Yəmənlə bağlı maraqlı fikirlər var. Bu fikirlərin əksəriyyəti Yəmənin əlverişli coğrafi mövqedə yerləşdiyini, məhsuldar torpağı, zəngin təbii sərvətləri olduğunu, Yə-

[1] *Xaqani Şirvani.* Ərəbcə şeirləri. Bakı, 2017, s. 129; 155

mən əhalisinin isə imanlı, əxlaqlı olduğunu təsdiqləyir. Sözün lüğəvi mənası da sağ və xoşbəxt kimi izah olunur, yəni Yəmənin adı imana, xoşbəxtlyə, rifaha bərabər tutulmuşdur. Əl-Qəzvini "Kitəbu əsərul-biləd və əxbərul-'ibəd" əsərində yazır ki, Peyğəmbər əfəndimiz ﷺ Yəmən əhalisi haqqında belə söyləmişdir: *"Mən Yəmən savabında olan bir Allah qulu tapmıram. Ona Aus və Xəzrəcə qalib gəlməyi arzu edirəm. Həmçinin demişdir: iman yəmənli, hikmət yəmənlidir"*.[1] Ərəb şairi əl-Mutənəbbi (915–965) (المتنبّي) deyir:

ومجدي يدُلُّ بني خندفٍ على أنّ كلّ كريم يمانِ[2]

Mənim şöhrətim Xindif tayfasına şahidlik edir ki, hər alicənab insan yəmənlidir.

Mənbələrdə Yəmənlə bağlı fikirlər üst-üstə düşsə də, ziddiyyətli məqamlara da rast gəlinir. Yaqut əl-Haməvi "Mu'cəmul-buldən" əsərində Yəmən adının etimologiyasını müxtəlif müəlliflərin fikirləri əsasında belə açıqlayır: "*Əş-Şərqi deyib: Yəmən onların sağa – Yəmənə tərəf getdiklərinə görə Yəmən adlanıb, İbn Abbas deyib: ərəblər bölündülər; onlardan sağa gedənlər əl-Yəmən adlandılar və belə deyilir ki, Məkkədə adam çox idi, o artıq bu sıxlığı daşıya bilmirdi və yəmənlilər Yəmənə üz tutdular, bu, sağda olan torpaq idi və belə də adlandı, mən isə deyirəm: insanların sağa tərəf getmələri və o torpaqların Yəmən adlanması fərziyyədir, çünki Kəbə kvadrat şəklindədir, onun nə sağı, nə də solu var, əgər əl-Yəmən bir qrup adamdan sağda yerləşirdisə, digərlərindən solda yerləşirdi, yəni bu, sağ küncü daha üstün hesab edib onu belə qəbul edənlərin istəyidir, halbuki orada dörd cəhət vardı, doğrusunu Allah (c) bilir*".[3]

---

[1] القزويني، زكرياء بن محمود. آثار البلاد وأخبار العباد. بيروت، ١٣٨٠ هـ - ١٩٦٠ م. ص. ٦٥

[2] المتنبّي. ديوان. بيروت، ١٤٠٣هـ – ١٩٨٣ م، ص. ٣٣

[3] الحموى، ياقوت. معجم البلدان، بيروت ، ١٩٧٧ م \ ١٣٩٧هـ. ص. ٤٤٧

Belə ziddiyyətli fikirlərə baxmayaraq, Xaqani bu qədim ölkəni də diqqətdə saxlamış və Yəmənlə bağlı lirik duyğularını kiçik bir qitədə dilə gətirmişdir. 6 beytdən ibarət "Yəmən" rədifli qitədə şair Yəmənin gözəllərini, Yəmənin dağlarını sevə-sevə təsvir etmişdir:

كم غزال في حجال اليمن مهجتی مرعی غزال اليمن
كم جمال فوقها مهد المها متّ من قبل جمال اليمن
طلع اليوم علينا قمر مغربيّ من جبال اليمن
كم عيون عودت صوم الهوى عيّدت قبل هلال اليمن[1]

Bəzəkli Yəmən evlərində nə qədər ceyran var, qəlbim Yəmən ceyranlarının (gözəllərinin) oylağıdır.

Ahuların beşiyi (məskəni olan) neçə gözəl (məkan) Yəmənin gözəlliyi ilə ram edildi.

Bu gün üzərimizə Yəmən dağlarından məğrib ayı doğdu.

Eşq orucluğuna adət etmiş neçə göz Yəmən ayı görünənə qədər bayram etdi.

Şair qitəni çox maraqlı bir sonluqla bitirmişdir:

كبرت عيني على الترك إذا سجدت قبل جمال اليمن
يمن التركي شوم أبدا إنّما اليَمَن يقال اليمن

Əgər Yəmənin gözəlliyinə səcdə etsəydim, gözlərim türkə qarşı haqsızlıq etmiş olardı,

Türkün sağı həmişə bədbəxtlik olub, halbuki sağ tərəfə xoşbəxtlik deyilib.

Şairin farsdilli yaradıcılığında türklə bağlı beytlərin olduğunu nəzərə alıb, belə ehtimal etmək olar ki, burada türk-yəmənli (ərəb) qarşılaşdırması həmin dövr ədəbiyyatına məxsus xüsusiyyətlə bağlıdır. Həmin dövrdə ədəbiyyata daxil olan türk mövzusu fərqli məna kəsb edirdi; bəzi şairlərin yaradıcılığında

[1] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳۶۸

türklər mədh, digərlərində həcv olunurdusa, bir başqaları türk gözəllərinə qəzəllər həsr edirdilər. Səlcuqilər dövrü ədəbiyyatını xarakterizə edən ərəb tədqiqatçısı Muhammməd ət-Tuncinin fikrincə, bu dövrdə yeni mövzu axtarışında olan şairlər türk qulam və cariyələrinə şeirlər həsr edirdilər.[1] Çünki həmin dövrdə cariyələr əsasən türk qızları olurdu və bu cariyələrə aşiq olub onlara əsərlər həsr edən şairlərin sayı az deyildi. Məsələn, Bağdad şairlərindən biri türk gözəli ilə bağlı deyib:

Gənc türk qızın gözləri ürəyimi yaralayıb zəiflətdi.
Şərab suya qarışdığı kimi, eşqlə döyünən qəlbim onun qəlbilə elə bütövləşdi.
Gənclik libasımı çıxartdığım zaman zülmət gecəm səhərə çevrildi.[2]

Bəlkə də şair bunu nəzərə alaraq, türkün gözəllyinin ona xoşbəxtlik gətirmədiyini, əksinə başına bəla olduğuna işarə etmişdir.

Şairin ərəbcə əsərlərindən 4-ü 3 beytdən ibarətdir. Biri İzz əd-Dinə həsr olunan qitə kimi təqdim olunub. Digərləri isə adsızdır. Onlardan biri məzmununa görə fəxriyyə kimi qələmə verilə bilər. Burada şair öz natiqlik qabiliyyətindən və bu qabiliyyəti sayəsində mənsəb əldə etməsindən danışır:

أنا مفحم انا مكالم مفلقا جاز الحقائق ثمّ نال مناصبا
إنّي أكاتبه ومن انا عنده ولو أنّ لي دون الكتاب كتائبا
أين الجهام من الغمام مخائلا اين الكهام من الحسام مضاربا

Mən susdurmağı bacaran biriyəm, mən həqiqətləri qəbul edib mənsəblər qazanan gözəl natiqəm,

[1] التونجي، محمد. حول الادب في العصر السلجوقي. منشورات مكتبة قورينا، ١٩٧٤، ص. ١١١
[2] الكاتب، عماد الدين الاصبهانى. خريدة القصر وجريدة العصر (قسم شعراء العراق). الجزء الثالث (المجلد الثاني). هـ ١٣٨٤/١٩٦٤ م. ص. ٣٣٦

Mən onun katibiyəm, əgər katiblik üçün yazmaq qabiliyyətim olmasaydı mən onun yanında kim olardım?

Buludlar arasında yağış yağdırmayanı harada olar? Vurmaq üçün nəzərdə tutulan qılınc küt olarsa harada olar?

Xaqani ədəbiyyat tarixində daha çox fəlsəfi məzmunlu əsərləri, cəsarətli fikirləri, realist düşüncələri, yanıqlı mərsiyələri ilə tanınıb. Amma yaradıcılığı lirik duyğulardan da xali deyil. Qəzəllərində, rübailərində özünü daha çox büruzə verən belə duyğulara ərəb dilində yazdığı bir əsərdə rast gəlindi. 4 beytdən ibarət bu şeirin əks olunduğu əlyazma azdır. Bu cəhəti Səccadi də qeyd edib.[1] Səccadi və Kəzzazi tərəfindən hazırlanan divanlarda şeirin mətnində çoxsaylı təhriflərin olması da, çox güman ki, bununla bağlıdır. Şeirin aşağıda təqdim olunmuş mətni divanların və 233028 nömrəli Türkiyə nüsxəsinin köməyi ilə (vərəq 149 a) hazırlanıb:

أشكو إليك ما بي من لوعة التصابي
فاسمع إلى فراق لم يخل من عذاب
ينفي الكرى دموعي ينفي الهوى شبابي
ليت الكرى يوافي ليت الهوى يجاب
أهواك ثمّ أهوي اذ لامني صحابي
فقرتُ في رداءٍ اقصر من العتاب
خذ في الزجاج راحا كالشمس في الضباب
والراح في الزجاج كالبحر في السراب

Gəncliyin mənə verdiyi əziyyətdən sənə şikayət edirəm, məni bu əzabdan qurtara bilməyən ayrılığa qatlanıram.

Yuxumu göz yaşlarım qaçırtdı, gəncliyimi eşq sürgün etdi, kaş ki, yuxu geri dönəydi, eşqimə isə cavab gələydi.

Səni sevirdim, amma dostum məni məzəmmət etdikdə geri çəkildim, köhnə paltarda danlaqdan kiçilmiş vəziyyətdə qaldım.

[1] خاقانی شروانی. دیوان. تصحیح ضیاء الدین سجادی. تهران، ۱۳۳۸، ص. ۹۵۹

Dumandakı günəşə bənzəyən büllur şərab qədəhini götür, qədəhdəki şərab dənizdəki ilğım kimidir.

Son beytdə klassik ədəbiyyatda bir simvol kimi şairlərin yaradıcılığında istifadə olunan şərab xatırlanır. Şərabın fars və ərəb poeziyasında müxtəlif məqsədlərlə istifadə edildiyi məlumdur. Natalya Yuryevna Çalisova «Вино – великий лекарь» ("Şərab – böyük Loğmandır") adlı məqaləsində[1] ərəb poeziyası mövzuları sırasına daxil olan şərabın insanlara sevinc və sakitlik gətirdiyinə və ağrıları azaldıb, kədəri uzaqlaşdırdığına görə şairlərin yaradıcılığında xüsusi yer tutduğunu göstərmişdir.

Xaqaninin ərəbdilli yaradıcılığında şərabla bağlı beytlər çox yer tutmasa da, onunla bağlı maraqlı məqamlar var. Məsələn, yuxarıdakı beytdə şair eşq acısı çəkir və bu acını yüngülləşdirmək üçün, dərdini unutmaq üçün şərab qədəhinə müraciət edir. Burada o, şərabı bildirmək üçün الراح sözündən istifadə etmişdir ki, bu sözün kökü rahatlamaq mənasına gedib çıxır, yəni ərəb dilində şərab mənasını verən sözlərdən məhz rahatladıcı xüsusiyyətinə uyğun olaraq bu sözə üstünlük verir.

Alə əd-Dinə həsr etdiyi qəsidə də isə şair şərabın insanlara haram buyrulan içki mənasından çıxış etdiyinə görə, şəraba verilmiş ümumi addan, yəni الخمر *xəmr* sözündən istifadə etmiş və onu çox içməyin ziyanlı olmasına işarə etmişdir:

نهاية فعل الخمر سُكر معاقر لما زاد فوق السكر فهو مضيِّع[2]

Şərabı çox içməyin sonu sərxoşluğa qurşanmaqdır, necə ki, sərxoşluq artdıqca, qənimin olur.

---

[1] *Чалисова, Н. Ю*. Вино – великий лекарь. К истории персидского поэтического топоса // Москва: Вестник РГГУ. Серия «Востоковедения. Африканистика», 2011. №2 (63) // 11, с. 126-157

[2] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳٦۲

Beytdə şərabı çox içməyi zərərli vərdiş hesab edən şair başqa bir şeirində özü insanlar üçün şərab sıxır:

كأنّى نلت عنقود الثريا فأعصر منه خمرا للعباد

Sanki mən Sürəyya salxımını əldə etmişəm və ondan bəndələr üçün şərab hazırlayıram.

Burada istifadə olunan xəmr – şərab adi içki deyil, bu, məcaz, mübaliğə, təşbih kimi izah oluna bilən qeyri-adi bir bənzətmədir, yəni şair klassik poeziyada yüksəkliyin, əlçatmazlığın, parlaqlığın rəmzi olan ulduz topasını üzüm salxımına bənzədir və ondan insanlar üçün şərab hazırlayır, hazırlanan şərab onun əsərlərinə işarədir, yəni şair insanlara öz əsərləri ilə hikmət paylayır, mənəvi zövq verir, onları rahatladır.

Xaqaninin dini görüşləri də maraq doğuran məsələlərdəndir. Şairin dini-siyasi görüşlərini, fəlsəfi baxışlarını araşdıran tədqiqatçılar məsələ ilə bağlı müxtəlif fikirlər irəli sürmüşlər. Q. Kəndli-Herisçi, S. Rzaquluzadə, Ə. Səidzadə, O. L. Vilçevski Xaqaninin fəlsəfi baxışları, dünyagörüşü barəsində müəyyən mülahizələr yürütsələr də, bu mülahizələrin əksəriyyəti Sovet dövrünün abu-havasını özündə əks etdirir. Xaqaninin beytlərinə yazılan şərhlər kimi, şairin fəlsəfi dünyagörüşünün də yenidən işlənməsinə böyük ehtiyac duyulur. Şairin ərəbcə yazdığı şeirlər arasında Şafii məzhəbinin, onun yaradıcısı olan əhli-sünnənin dördüncü fiqh imamı hesad edilən, alim, fəqih Muhammməd bin İdris əş-Şafi‘inin və Babaveyh ər-Rafi‘inin adına rast gəlinir. Əvvəlcə qeyd edək ki, aşağıda təqdim etdiyimiz 4 beyt qafiyə və məzmun baxımından çox oxşar olmalarına rəğmən divanlarda və bəzi əlyazmalarda 2 iki beytlik şeir kimi təqdim olunub. Amma 233028 nömrəli Türkiyə nüsxəsində həmin parçalar 4 beytlik şeir kimi verilib. Biz də məhz bu variantı düğün hesab edərək, həm ədəbi-tənqidi mətnin hazırlanmasına, həm də tərcümə prosesinə eyni qayda ilə yanaşmışıq.

إلى الله في الحشر بعد النبي أرى ثاني الشافعي شافعي
وليس تصح الدهر لي حافظا فبابويه الرافعي رافعي
أرى ارض قزوين باب الجنان وإدريسه نائب الشافعي
و من يقصد الباب مفتاحه موالاة بابوية الرافعي

Allahın yanında qiyamət günündə Peyğəmbərdən sonra ar-xam kimi gördüyüm əş-Şafi‘idir,

Dəhr məni qoruya bilməsə, mənim kömək edənim Baba-veyh ər-Rafi‘idir.

Qəzvin torpağını cənnətin qapısı kimi görürəm, onun İdrisi əş-Şafi‘inin naibidir,

O qapıya getmək istəyən olsa onun açarı movla Babaveyh ər-Rafi‘idir.

Xaqaninin bu iki şeyxi çox hörmətlə anması çox güman ki, onun bu məzhəbin dini baxışlarına rəğbət bəsləməsinin nəticəsidir. Şairin əş-Şafi‘ini qapıya, ər-Rafi‘ini açara bənzətməsi Peyğəmbərin ﷺ أنا خزانة العلم وعلي مفتاحه *Mən elmin xəzinəsiyəm, Əli onun açarı* deyimini xatırladır.

Xaqaninin ərəbdilli irsində rast gəlinən **iki beytlik şeirlərdə** şairin Rey, Bağdad haqqında düşüncələri əks olunub. Rey səfərinə həsr olunan qitədən fərqli olaraq, bu şeirlərdə fərqli fikirlərə rast gəlinir. Onlardan birində Rey şəhərini cənnət bağlarına, onun ziyarətçisini isə İdrisin ruhuna bənzədən Xaqani başqa bir şeirində Reydə qaldığını, lakin burada həmsöhbətin, dərdini bölüşəcəyi kimsənin olmadığını dilə gətirmişdir:

نزلت بالريّ في خان اكابده يدى الاقامة حتّى اعتلّ عثماني
ما فيه شخص ولا شخص يؤانسنى كبيت جلال الفضل او قبر عثماني

Reydə əyanların qonaq evində qaldım, qaldığım müddətdə Osman xəstələndi,

Orada məni Fəzl sahibinin evi və ya Osmanın qəbri kimi təsəlli edəcək kimsə yoxdur.

Ola bilsin ki, şeir şairin əmisi oğlu Vəhid əd-Din Osmanın ölümünə həsr olunub. Çünki əmisi oğlu vəfat edərkən şairin səfərdə olduğuna dair məlumat var.

Bütün dinlərə hörmətlə yanaşan şair yaradıcılığında İslam dini, onun peyğəmbəri, İslamın müqəddəs yerləri ilə də bağlı təsvirlərə geniş yer verib. Aşağıdakı beytlərdə şair Peyğəmbəri ﷺ mədh etməklə yanaşı, həm də özünün haqq yolundan döndüyünü, amma sonradan yenidən dinə qayıtdığını göstərmişdir:

يا صفوة الرحمن شافع خلقه إنّي أتيتك عند رق غايباً
قد كنت مرتدّاً فأدركني الهدى فغدوتُ مرتدياً بدينك ثانياً[1]

Ey məxluqatın şəfaəti üçün Yaradanın seçdiyi, ehtiyacım olanda sənin yanına gəldim.

Mən yolumdan dönmüşdüm, lakin mənə hidayət gəldi və yenidən sənin dinini qəbul etdim.

Burada Peyğəmbərimizin ﷺ şəfaəti nəzərdə tutulmuşdur. Dini terminologiyaya görə şəfaət axirətdə günahı olan möminlərin bağışlanması üçün Allah dərgahında məqamı yüksək olan birinin ona dua etməsi, bağışlanmasını istəməsidir. Dini mənbələrə görə, peyğəmbərlər içində şəfaəti qəbul ediləcək peyğəmbər Hz. Muhammədd ﷺ (Müslim, Fədail 2). Hz. Peyğəmbərin şəfaəti ilə hesaba və sorğuya çəkilmədən cənnətə girənlər də olacaq (əl-Buxari, Təfsir Surə 18; Müslim, İman 84). Cənnətdə dərəcələrin artırılması üçün ilk şəfaət edəcək olan da Hz. Muhammədd ﷺ. Peyğəmbərimiz bir hədisində: "*Cənnətdə insanların əvvəlcə şəfaət edəni mənəm*", (Müslim, İman 85) – buyurmuşdur".[2]

[1] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳۵۰
[2] https://www.irfandergisi.com/sfat.html

Xaqaninin ərəbcə məktubları

Xaqani Şirvaninin nəsri Azərbaycan xaqanişünaslığında ən az öyrənilmiş sahədir. Şairin nəsri haqqında ilk məlumatı M. Sultanov verir: "*Hələlik bizə Xaqaninin "Töhfətül-İraqeyn" əsərinə yazdığı bir müqəddiməsi, dostu Nizamiyə yazdığı bir məktubu, Şirvanşah Axsitana yazdığı iki məktubu və ərəb dilində nəsrlə yazdığı bir əsəri mövcuddur*".[1]

Burada adı çəkilən əsərlərə aydınlıq gətirək:

1) *Xaqaninin "Tuhfətul-İraqeyn" əsərinə yazdığı müqəddimə.* Öyrənilmə tarixi M. Sultanovla başlayıb. O, müqəddiməni "*Azərbaycan mühitində, azərbaycanlı ədib tərəfindən yazılmış bədii nəsr nümunəsi kimi*" qiymətləndirmiş, faktiki əhəmiyyət daşıdığını göstərmiş və ilk dəfə ixtisarla tərcüməsini təqdim etmişdir.[2]

2) *Dostu Nizamiyə yazdığı bir məktub*. Bununla hansı əsərin nəzərdə tutulduğu məlum deyil. Əvvəldə də qeyd etdiyimiz kimi, şairin məktublarının ünvanlandığı şəxslər arasında Nizami adına rast gəlinmir.

3) *Şirvanşah Axsitana yazdığı iki məktubu.* Xaqaninin elmə məlum farsca 60 məktubundan 7-si Şirvanşah Axsitana ünvanlanıb. Tədqiqatçıya onlardan 2-si məlum olub.

4) *Ərəb dilində nəsrlə yazdığı bir əsər.* Burada Məlikul-Əʿzam Alə əd-Din Atsıza həsr olunan qəsidənin müqəddiməsi nəzərdə tutulur. M. Sultanov öz monoqrafiyasında həmin əsərdən kiçik bir hissənin tərcüməsini də vermişdir.

Daha sonra nəsr haqqında məlumata türkiyəli alim Ahmed Ateşin tədqiqatında rast gəlinir. O şairin özünə qədər elmə məlum nəsr əsərlərini belə göstərmişdir: "*Tuhfat al-'İrakayn'ninin önsözü, Paris Bibliotheque Nationale'de bulunan bir Kulliyat-i*

[1] *Sultanov, M. S.* Xaqani Şirvani. Bakı, 1954, s.60
[2] *Sultanov, M. S.* Xaqani Şirvani. Bakı, 1954, s.60-62

Hakani nüshasında görülen 7 mektup ve Armağan dergisinde yayınlanmış olan 2 mektup".[1]

Ahmed Ateş Xaqaninin farsca məktublarının böyük hissəsini üzə çıxarılmasında böyük iş görmüşdür. Ustadı Mükrimin Halil Yinanç 1933-cü ildə *Lala İsmail Efendi Kütüphanesinde* gördüyü məktublar dərgisindən Ahmed Ateşə bəhs etmiş, o da kitabxanada 600 nömrə ilə qeyd olunan nüsxədə Xaqaninin məktublarını aşkar etmişdir. Adı çəkilən kitabxananın fihristində, əlyazmanı hazırlayanın adı göstərilmədən, yalnız "Munşa'at" adı ilə qeydə alındığına görə diqqətdən kənarda qaldığını ehtimal edən Ahmed Ateş VIII / XIV yüzilə aid olan nüsxənin Xaqaninin 27 məktubunu ehtiva etdiyini yazmışdır. Məktubların məzmunu haqqında məlumat əldə etmək üçün ən dəyərli mənbə də onun araşdırmasıdır. Əlyazmanı vərəq-vərəq incələyən alim onların kimə yazıldığını göstərmiş və bir çoxunun qısa məzmununu təqdim etmişdir.

Lala İsmail Efendi kitabxanasına aid nüsxəyə aid olan məktublar bunlardır:

1) *Əbu İsḥāḳ İbrâhim al-Bāku'i'yə* yazılmış məktub;
2) *Seyf al-Din Şāh-i Ərmən Bəktimir'ə* yazılmış məktub;
3) *'Alā' al-Din Muhammad b. Aḥmad al-Mustavfî al-Marvazi'yə* yazılmış məktub;
4) *Şərəf al-Din Rukn al-İslām al-Haravi'yə* yazılmış məktub;
5) *Şəms al-Din Beylqāni'yə* yazılmış məktub;
6) *'Ayn al-Davla al-Zāncani'yə* yazılmış məktub;
7) *Hākān-i A'zam Cəlāl al-Din'ə* yazılmış məktub;
8) *Əmir Nəcm al-Din'ə* yazılmış məktub;
9) *Əmir Seyf al-Din'ə* yazılmış məktub;

[1] *Ateş, A*. Hakaninin mektubları dergisi. Belleten, 1961. XXV cilt, s. 239

10) *Sultān al-Nasārā'ya* yazılmış məktub;
11) *Seyf al-Din'e* yazılmış məktub;
12) İsmi zikr edilməmiş bir *şeyx'ə* yazılmış məktub;
13) *Şihāb al-Din'ə* yazılmış məktub;
14) *Şams al-Din'ə* yazılmış məktub;
15) *Sirāc al-Din'ə* yazılmış məktub;
16) *'İsmat al-Din'ə* yazılmış məktub;
17) *Zahir al-Din'ə* yazılmış məktub;
18) *Mubāriz al-Din'e* yazılmış məktub;
19) *Şərəf al-Din'ə* yazılmış məktub;
20) *Muhaẕẕab al-Din'ə* yazılmış məktub;
21) *Muzaffar al-Din'ə* yazılmış məktub;
22) *Qutb al-Din'ə* yazılmış məktub;
23) *Razi al-Din'ə* yazılmış məktub;
24) *Sadid al-Din'ə* yazılmış məktub;
25) *Mu'ayyad al-Din'ə* yazılmış məktub;
26) *Şams al-Din'ə* yazılmış məktub;
27) Şirvān xalqından şikayət.

Əlyazmadakı məktubların hamısı yeni olmamışdır. Onlardan ilk dördü Parisdəki *Külliyyat* nüsxəsindəki, VIII məktub isə *Armağan* dərgisində yayınlanan məktubla (giriş hissəsi istisna) eynidir.[1] Buradan belə nəticə əldə edirik ki, Ahmed Ateş sayəsində ədibin 22 yeni məktubu elm aləminə məlum olub.

Alim "*benzeri bulunmayan bir mektuplar dergisi*"[2] kimi xarakterizə etdiyi bu əsərləri Raşid əd-Din Vatvat və Muntacib əd-Dinin məktubları ilə müqayisə etmiş və "*bilakıs kendisi ta-*

[1] *Ateş, A*. Hakaninin mektubları dergisi. Belleten, 1961. XXV cilt, s. 241
[2] *Ateş, A*. Hakaninin mektubları dergisi. Belleten, 1961. XXV cilt, s. 247

rafından ve kendisine ait meseleler için yazılmış mektuplar" olduğuna görə üstünlüyü Xaqaninin məktublarına vermişdir.

Bu sahədə növbəti iş İran alimi Ziya əd-Din Səccadinin adı ilə bağlıdır. O, Xaqaninin farsca yazdığı 31 məktubunu h/ş 1346 (1967)-cı ildə nəşr etdirmişdir.

Bu işi digər İran alimi Muhamməd Rouşən davam etdirərək müxtəlif əlyazma nüsxələri (Lala İsmail Efendi, Süleymaniye Şehit Ali Paşa, Sipəhsalar, Paris Milli Kitabxanası, "Armağan" dərgisi) əsasında birinci dəfə h/ş 1349 (1970)-cu, ikinci dəfə 1362 (1983)-ci ildə Tehranda "Munşəat Xaqani" adı altında çap etdirmişdir. Bura təxminən 60 məktub daxildir.

Azərbaycan ədəbiyyatı tarixində Xaqaninin məktubları ilə bağlı geniş məlumata Q. Kəndli-Herisçinin tədqiqatlarında rast gəlinir. Alim öz monoqrafiyasında şairin həyatı ilə bağlı cəhətlərə aydınlıq gətirmək üçün onun nəzm əsərləri ilə yanaşı, məktublarına da bir mənbə kimi müraciət etmişdir. Lakin monoqrafiyanın tədqiqat obyekti məktublar yox, şairin həyatı, dövrü, mühiti olduğundan onlarla bağlı verilən məlumat dağınıq haldadır. 2007-ci ildə çap olunan 6 cildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin "Xaqani Şirvani" bəhsində[1] məktublarla bağlı daha konkret məlumat əldə etmək olar. Burada məktubların ünvanlandığı şəxsiyyətlər göstərilmiş və Qutb əd-Din əl-Əbhəriyə, Qızıl Arslana, Dərbənd əmiri Seyf əd-Din Muhəmməd Arslan şaha yazılan məktubların qısa təhlili verilmişdir. Amma onlar tam şəlkildə Azərbaycan dilinə tərcümə edilməmişdir.

Hazırda Xaqaninin elmə məlum nəsr əsərləri haqqında daha geniş məlumat vermək olar:

Xaqani hər iki dildə mənsur əsərlər yazmışdır. Mənsur əsərlərinin əsas hissəsi məktublardan, kiçik hissəsi isə müqəddimələrdən ibarətdir. Müqəddimələrin sayı azdır: farsca–1,

[1] *Kəndli-Herisçi, Q*. Xaqani Şirvani // Azərbaycan ədəbiyyatı tarixi (red. hey. sədri: M. Kərimov). 6 cilddə: II c. Bakı: Elm, 2007, 463-469

ərəbcə–2. Farsca yazılmış "Tuhfətul-İraqeyn" poemasının müqəddiməsi ərəbcə yazılmış müqəddimələrdən həcmcə daha böyükdür. Burada şairin Dəclə çayı ilə "söhbəti", hikmətli fikirlər öz əksini tapıb. Ərəbcə yazılan müqəddimələr Məlikul-Əʹzam Alə əd-Dinə və İmam Muhammməd Yəhyaya ithaf olunan qəsidələrə yazılıb. Məlikul-Əʿzam Alə əd-Dinə həsr olunan qəsidəyə yazılan müqəddimə həcmcə daha kiçikdir və burada şair sözə verdiyi yüksək dəyərdən danışmış və mənalı söz deməyə bir çağırış etmişdir. İkinci müqəddimədə isə əsasən, Xorasan torpağı mədh edilmiş, İmamın ruhuna dualar oxunmuşdur. (Hər iki müqəddimə məzmun baxımından aid olduqları qəsidələri tamamladıqdan onlardan qəsidələr bölməsində geniş şəkildə bəhs olunub.)

Şairin ərəbcə mənsur əsərlərinin əsas qolunu məktublar təşkil edir. Hazırda elmə onun 62 məktubu məlumdur. Onlardan 60-ı fars dilində, 2-si ərəb dilindədir. Fars dilində olan məktublar barədə yuxarıda məlumat verilib. Ərəbcə olan məktublar son illərdə elmə məlum olub. Onlar ilk dəfə İran ədəbiyyatşünas alimi Muhammməd Rza Turki tərəfindən Dublindəki (İrlandiya) *Chester Beatty* kitabxanasından və *Süleymaniye kütüphanesindən* (Türkiyə) aşkar edilmişdir. Tədqiqatçı bu barədə h/ş 1397-ci (2018) ildə yazdığı məqalədə ümumi məlumat vermiş, h/ş 1398-ci (2019) ildə isə artıq məktubların elmi-tənqidi mətni, tərcüməsi və təhlilindən ibarət kitab nəşr etdirmişdir.

Azərbaycanda isə bu məktublar ilk dəfə tərəfimizdən aşkar edilmiş, hər iki kitabxanadan onların fotosurəti əldə edilmiş və tədqiqata cəlb edilmişdir. Tədqiqatın ilkin nəticələri elmi mətbuatda öz əksini tapmışdır.[1]

[1] *Zeynalova, E*. Xaqani Şirvaninin ərəb dilində yazdığı məktublar // Bakı: Azərbaycan ədəbiyyatşünaslığı. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əsərləri, 2020. № 1, s. 32-37; Xaqani Şirvaninin nəsri və şairin yeni əlyazması // "Risalə". Elmi-araşdırmalar jurnalı. №1 (22). Bakı, 2022, s. 65-72 və s.

Məktublardakı məlumat həm xaqanişünaslıq, həm Azərbaycan nəsrinin tarixi, həm də hicrətin VI əsrində Azərbaycanda hökm sürən dini-ictimai vəziyyəti öyrənmək üçün əhəmiyyət kəsb edir. Bu qiymətli nəsr nümunələri bütün müsəlman dünyasında fərqli şəkillərdə özünə yer edən təsəvvüfün Azərbaycanda necə yayıldığını, eləcə də Xaqaninin sufiliyə münasibətini özündə əks etdirir.

Azərbaycan ərazisində ilk sufi təkkələrinin Şirvan və Bakıda yarandığını nəzərə alsaq, şairin hələ gənc yaşlarından sufiliyə maraq göstərməsi təbiidir. Böyük sufi şairi, filosof Sənai Qəznəvinin (1080–1131) yaradıcılığının təsiri altında olan gənc şairin götürdüyü iki təxəllüs məhz sufizmlə bağlı olub:

1) Həqayiqi təxəllüsü – bu təxəllüsü Xaqani Qəznəvinin "Hadıqatul-həqaiq" əsərinin təsiri altında götürüb;

2) Bədil təxəllüsü (bəzən atasının verdiyi ad kimi də göstərilir) – bu təxəllüslə bağlı şair بدل من آمدم جهان سنائی *(Sənayinin bədəli kimi dünyaya mən gəldim)* deməklə özünü Sənainin *bədili* – əvəzi hesab etmişdir.

Ərəbcə *bədəl* və ya *bədil* sözlərinin cəmi olan أبدال – *əbdəl* təsəvvüf terminologiyasında *abdal* kimi özünə yer edib. İbn Mənzurun "Lisənul-arab"ında *abdal* بدل – əvəz sözünün cəm forması kimi göstərilib və belə izah olunur: Abdal – Allahın yer üzündə bərqərar etdiyi bir qrup salih insandır, onlardan 40 nəfəri Şamda, 30 nəfəri isə digər ölkələrdə yaşayıb, onlardan heç kim öz yerinə biri doğulmamış ölməzmiş, buna görə də *abdal*, yəni *əvəzlər* adlanıblar.[1]

Xaqani yaradıcılığında *bədəl, bədil* sözlərinin işləndiyi bir sıra beytlər vardır. Şairin sufizmlə olan əlaqəsini belə beytlərin və ərəbcə olan məktubun geniş tədqiqata cəlb olunması sayəsində düzgün müəyyənləşdirmək mümkündür. Buna görə də, həmin məktublar xüsusi bir tədqiqat işinin mövzusu kimi

[1] ابن المنظور. لسان العرب، المجلد الثاني. بيروت: دار الصادر. ص. ٣٩

əhatəli şəkildə araşdırılmalıdır. Burada onlar haqqında ümumi məlumatla kifayətlənirik.

Məktublardan birincisi və həcmcə daha böyüyü haqqında çox az məlumat olan Azərbaycan alimi imam Qutb əd-Din əl-Əbhəriyə yazılıb. Ədibin bu şəxsiyyətə farsca yazdığı 3 məktub elmə məlumdur. Həmin məktublardan ikisinin qısa məzmunu əvvəlcə Ahmed Ateş, daha sonra Q. Kəndli-Herisçi tərəfindən verilsə də, Qutb əd-Dinin kimliyi konkret şəkildə göstərilməyib. Çünki mənbələrdə bu şəxs haqqında məlumat yox dərəcəsindədir. Ərəbcə yazılan məktubda Xaqani Qutb əd-Dinlə tanışlığından bəhs edərək onu dərviş kimi təsvir etmişdir. Bu da haqqında çox az şey məlum olan Qutb əd-Dinin bir sufi dərviş olduğunu göstərir. Məktubda şair onu belə mədh edir: *Əl-Hasən əl-Bəsridən[1] və Əbu'l-Feyd əl-Mısridən[2] daha nəsihətamiz və daha hafiz; əl-Kəttani[3] və əl-Kirmanidən[4] daha zahid və daha*

[1] Əl-Hasən əl-Bəsri / الحسن البصريّ (21–85-86/642–728). İlahiyyatçı, muhəddis, sufi alimlərindən olub, Həccac bin Yusuf İraqın valisi olarkən Qur'an mətnlərinə diakritik işarələrin qoyulmasının son mərhələsində iştirak edib; xəlifə Umar Abdul-Azizin dövründə Bəsrənin qazisi təyin edilib, nüfuzu o qədər böyük olub ki, həm sünnilər, həm sufilər, həm də rasionalistlər onu öz müəllimləri hesab ediblər.

[2] Əbu'l-Feyd əl-Mısri / أبو الفيض المصريى (179–245/796–859). Muhəddis, İslam alimi, sufi mütəfəkkiri kimi tanınıb, sufizmin terminoloji və ideya qurucularından və "mərifət əhli" anlayışının əsasını qoyanlardan hesab olunur.

[3] Əl-Kəttani / الكتاني (v. 322). Sünni sufi alimlərindən olub.

[4] Əl-Kirmani / الكَرْماني (352– 412/963–1021). Huccətul-İraqeyn kimi tanınıb, İsmaili fəlsəfi kəlam məktəbinin görkəmli nümayəndəsi, mütəfəkkir; fəlsəfi və teoloji əsərləri bu gün də İsmaili düşüncəsini öyrənmək üçün əsas mənbələrdən hesab olunur.

abid, Əbu Turab ən-Nəxşəbidən[1] və Əbu Osman əl-Məğribidən[2] daha arif və daha şərəfli, ən-Nuri[3] və ən-Nəhracuridən[4] də seçilmiş və ixlaslı, əl-Cuneyd[5] və İbn Nuceyddən[6] daha düzgün yol tutan və daha mömin; əz-Zəqqaq[7] və əd-Dəqqaqdan[8] daha doğru danışan və daha məharətlidir.

---

[1] Əbu Turab ən-Nəxşəbi / أبو تراب النخشبي (v. 245/859-60). Erkən Xorasan sufi məktəbinin, sünni təsəvvüfünün görkəmli nümayəndəsi olub. Bəlx ətrafındakı Nəxşəb şəhərindəndir, həccə gedərkən yolda vəhşi heyvanlar tərəfindən parçalanıb. Təvəkkül, səbir, nəfsin tərbiyəsi ilə bağlı maraqlı fikirləri var.

[2] Əbu Osman əl-Məğribi / أَبُو عُثْمَان سعيد بن سَلام المغربي. Sünni təsəvvüf alimi, bir müddət Məscidul-Həramda şeyxlik etmiş, sonra Nişabura getmiş, orada da vəfat etmişdir. Müstəqil əsəri bizə gəlib çatmayıb, amma fikirləri bəzi kitablarda əks olunub.

[3] Ən-Nuri (Əbu'l-Hüseyn ən-Nuri) / أبو الحسين النوري (v. 295/907). Bağdad sufi məktəbinin, İslam təsəvvüf tarixinin önəmli nümayəndələrindən biridir, Xorasan əsillidir, Bağdadda doğulub, boya-başa çatıb, orada da vəfat edib. Ən-Nuri nisbəsi nur, ilahi nur mənası ilə əlaqələndirilir. Cüneyd Bağdadi, Sərrac, Şibli kimi məşhur sufilərlə eyni mühitdə yetişmişdir. Bəzi sufilərlə birlikdə "şəthiyyə" xarakterli sözlərinə görə ittiham edilmiş, Cüneyd Bağdadinin müdaxiləsi ilə azad olunmuşdur.

[4] Ən-Nəhracuri (Əbu Yaqub ən-Nəhracuri) / أبو يعقوب النهرجوري (v. 330/941-942). Sünni məzhəbli sufilərdəndir, dövrümüzə qədər əsərləri gəlib çatmayıb.

[5] Əl-Cuneyd əl-Bağdadi / الجنيد البغدادي – (215–297/830–909). Şafei fiqhinə mənsub olduğu qəbul edilir. Zahiri elm (fiqh, hədis) ilə batini halı vəhdətdə görmüşdür, əl-Cuneyd "sahv (ayıqlıq) məktəbi"nin əsas qurucusudur. Əl-Cuneydin kitabları günümüzə tam çatmamışdır, lakin risalələri, məktubları, kəlamları klassik mənbələrdə qorunmuşdur. Təsəvvüfü elmiləşdirən və sistemləşdirən, şəriət–həqiqət vəhdətini nəzəri şəkildə əsaslandıran şəxs olub.

[6] İbn Nuceyd (ən-Nişaburi) / ابن نجيد النيسابوري (272–366/885–977). Sünni təsəvvüf alimidir, səhih hədislər ehtiva edən *əl-Cuz* adlı risaləsi var.

[7] Əz-Zəqqaq – ?

[8] Əd-Dəqqaq (ən-Nişaburi) / الدقّاق النيسابوري (v. 405/1015). Nişapur (Xorasan) əsillidir. Zuhd, ixlas, nəfsin tərbiyəsi, ədəb kimi anlayışlarla bağlı hikmətli fikirləri klassik sufi təzkirələrində qorunur.

Xaqaninin ərəbcə mənzum əsərlərinin həcmindən bəhs edərkən, onun nəsr əsərlərində də ərəbcə beytlərin olduğu qeyd edilib. Bu məktub da istisna deyil. Burada bir neçə mənzum parçadan istifadə olunub ki, onlara Xaqaninin digər əsərlərində rast gəlinmir, məsələn:

مَثَّلْتَ لِي عَهْدَ الصِّبَى بَعْدَ اللَّتَيَّا وَالَّتِي
وَ رَدَدْتَ أَيَّامَ اللِّوَى غِبَّ اللَّيَالِي وَلَّتِ
فَسُقِيتُ مِنْ جَنَّةِ جَنْبَتِهِ أَوْفَرَتَسنِيمِ الزُّلْفَةِ
ونَشِفْتُ من رَيَّا رُؤْيَتِهِ أَذْفَرَ نَسِيمِ الْأُلْفَةِ

Sən mənə kiçik-böyük bəlalardan sonra yenidən yeniyetməlik (gənclik) dövrünü xatırlatdın.

Keçib getmiş gecələrdən sonra Liva günlərini geri qaytardın.

Onunla yaxınlığın cənnətindəki Təsnim hövzəsindən bolsulu sudan içdim.

Onu görməyin ülfətin nəsimindən də ətirli rayihəsini duydum.

اللَّتَيَّا وَالَّتِي sözləri: "Lisənul-arab"a görə, التي - الداهية الكبيرة böyük bəla, onun kiçiltmə forması اللتيّا - الداهية الصغير, yəni kiçik bəla deməkdir.[1]

بعد اللتيا والتي – yəni salik kiçik və böyük bəlalardan, mənəvi dolaşıqlıq, nəfs mücadiləsi və s. kimi çətin mərhələlərdən sonra Allah (a.c.) onu "عَهْدَ الصِّبَا" – fitrət və ilkin halına, saflığın ilkin mərhələsinə qaytarır.

أيّام اللوى – Əl-Əsməiyə görə, qumluq ərazi; əl-Cauhəriyə görə, qumluqdan sonra gələn hamar torpaq ərazi[2] kimi izah olunan bu sözə verilən klassik şərhlərə istinadən belə demək olar ki, məkan adlarının qəsidə başlanğıcında zikri gənclik və

[1] ابن المنظور. لسان العرب، المجلد الثالث عشر. بيروت: دار الصادر. ص. 168
[2] ابن المنظور. لسان العرب، المجلد الثالث عشر. بيروت: دار الصادر. ص. 260

vəsl günlərinə işarədir, yəni *liva* burada keçmiş məhəbbət və gənclik günlərinin keçdiyi məkan mənasında işlədilib.

جنّة جنبته – aşiqin (mürşidin) hüzuru;

تسنيم الزلفة – ən yüksək yaxınlıq mərtəbəsi; Sufi yozumda Allahla xüsusi yaxınlıq halıdır. "Əl-Mutaffifin" surəsinin 27-28-ci ayələrində deyilir: "*Ona Təsnim suyu qatılmışdır. O, Allaha yaxın olanların su içdikləri bir bulaqdır*". Buradan su içmək salikin artıq ünsiyyət mərhələsinə çatdığını göstərir.

نَسِيم الأُلْفَةِ – daimi ünsiyyət və rahatlıq mərhələsi.

Beytlər zahirdə məhəbbət şeiri təsiri bağışlasa da, batində mürid–mürşid, bəndə–Haqq münasibətlərini ifadə edir.

Klassik sufi poeziyası üçün xarakterik olan bu beytlər həm də Xaqaninin ərəb dilinə, sufi ədəbiyyatına dərin bələd olduğunu göstərir.

Məktubda Azərbaycanda sufiliyin yayılması ilə yanaşı, orta əsrlərdə Azərbaycanda sənətkarlığın necə inkişaf etdiyini də öyrənmək olar. Burada öz ziyalıları ilə məşhur olan Xunəc şəhərindən bəhs edilir, kağız istehsalına, bıçaq hazırlanmasına toxunulur. Eyni məlumata İməd əd-Din əl-İsfəhani əl-Kətibin "Xəridətul-qasr va cəridətul-'asr" kitabında da rast gəlinir. Müəllif burada əslən Azərbaycandan olan bir şair – Əbu Nəcm əl-Xunəci haqqında məlumat verərkən əvvəlcə onun nisbəsinə aydınlıq gətirmişdir. Belə ki, müəllif من أهل أذربيجان (*Azərbaycan əhlindəndir*) kimi təqdim etdiyi şairin *əl-Xunəci* nisbəsini belə açıqlamışdır: "*Rey yolunun üstündə Marağa və Zəncan arasında yerləşən Xunəcə aid olub. Hicrətin 104-cü ilində İbn Hauqəl onun haqqında deyib ki, bu şəhər öz atları, qoyunları və inəkləri ilə məşhur idi. Yaqut əl-Haməvinin verdiyi məlumata görə, o, bura hicrətin 107-ci ilində səyahət edib, şəhərin adı "Xunə" olub, lakin əhali bu addan xoşlanmadığına görə, ona "Xunəc"*

deyiblər. Onun vaxtında şəhər "كاغد كنان" "kağız düzəldən" adlandırılıb".[1]

Xaqaninin məktubda verdiyi məlumat ərəb mənbələrindəki məlumatla üst-üstə düşür. Şair Xunəcdə istehsal olunan kağızın yüksək keyfiyyətini, hazırlanan bıçaqların itiliyini şairanə bir dildə təsvir etmişdir.

İkinci məktub Əvhəd əd-Din əl-Ğəznəviyə yazılıb. Bu şəxs haqqında mənbələrdən məlumat əldə etmək mümkün olmadı. Xaqaninin fars dilində yazdığı məktublar arasında da Əvhəd əd-Din əl-Ğəznəvi adına rast gəlinmir. Məktubda Əvhəd əd-Din şair, muhəddis, xəttat, bəlağət sahibi kimi təsvir edilmiş, yeddi dil bildiyi göstərilmişdir.

Bu məktub özünəməxsus üslubu ilə diqqəti cəlb edir. Xaqani burada rəqəmlərdən geniş istifadə etmişdir. Rəqəmlərə müxtəlif mənaların yüklənməsindən əvvəlki fəsildə bəhs etmişdik. İslamda 7 rəqəminin simvolik, sakral xüsusiyyətləri ilə də bağlı müəyyən məlumat verilib. Demək olar ki, yeddi rəqəmi üzərində qurulmuş bu məktub deyilənləri bir daha təsdiqləyir. Məktubda dörd, səkkiz, min kimi rəqəmlərə də bir neçə yerdə təsadüf olunur. Məlumdur ki, klassik İslam ədəbiyyatında dördlük də çox mühüm simvolik sistemdir. Amma həm İsalmda, həm də məktubda yeddi rəqəminin sehri, anlamı tam fərqlidir. Şair burada təxminən 60 dəfə yeddi rəqəmindən istifadə etmişdir: *Yeddi dəniz, yeddi kainat, yeddi iqlim, yeddi ayə, yeddi gün, yeddi ay, yeddi rəng, yeddi yaşıl sünbül, yeddi inək, yeddi bədən üzvü, yeddi dəfə, yeddi gecə, yeddi qare, yeddi dil, yeddi il, yeddi xalça, yeddi çadır, yeddi qəsidə, yeddi qanun, yeddi kəlmə, yeddi təkbir, yeddi ulduz (planet), yeddi ərkan* və s.

Təbii ki, onlardan hər birinin açıqlaması var. Məsələn:

[1] عماد الدين الاصبهانى الكاتب. خريدة القصر وجريدة العصر (قسم شعراء العراق). الجزء الثالث (المجلد الثاني). هـ ١٣٨٤/١٩٦٤ م. ص. ٢٢٩

yeddi ulduz (السبعة الشهب) – Günəş, Ay, Zuhal, Müştəri, Mirrix, Zuhra, Utarid;

yeddi qəsidə – Cahiliyyə dövründə yeddi müəllifin – İmrul-Qeys, Tərəfə ibn əl-Abd, Zuheyr ibn Əbi Sulmə, Ləbid ibn Rabiə, Amr ibn Kulsum, Antəra ibn Şəddad və Haris ibn Hillizənin yazdığı müəlləqələr;

yeddi qare – "əl-Qur'ənul-Kərim"in məşhur yeddi qaresi, yəni Əbu Abdur-Rahmən Nafi bin Abdur-Rahmən bin Əbi Nəim, Abdullah bin Kəsir, Əbu Bəkr Asim, Həmzə bin Habib əz-Zəyyat, Ali bin Həmzə əl-Kisəi, Əbu Amr bin əl-Əlai və Abdullah bin Amir;

yeddi ayə – "əl-Fətiha" surəsi;

yeddi kəlimə – yeddi sözdən ibarət "Kəlimətuş-şəhədə",

yeddi təkbir – dini bayramlardakı təkbirlərin sayı;

yeddi bədən üzvü – namaz vaxtı yerə dəyməli olan yeddi bədən üzvü (səhih hədisə görə, *Peyğəmbər ﷺ deyib ki, mənə yeddi sümük üzərində səcdə etmək buyurulub: alın (əli ilə burnuna işarə etdi), iki əl, iki diz və iki ayağın uc hissəsi* bunların da cəmi yeddi edir);

yeddi yaşıl sünbül, yeddi inək – "Yusuf" surəsinin 43, 46-cı ayələri və s.

Xaqaninin həm farsca, həm də ərəbcə yazdığı məktublar xüsusi araşdırma tələb edir. Bu məktublar ətraflı şəkildə tədqiq edilsə, həm şairin özü, həm müasirləri, həm də yaşadığı mühitlə bağlı yeni faktlar ortaya çıxa bilər. Çünki şairin məktubları yaxınlarına, dövrünün görkəmli alimlərinə və siyasi xadimlərinə ünvanlanıb; yaxınlarına göndərdiyi məktublar onun öz həyatını, alimlərə yazdığı məktublar həmin dövrdə elm və mədəniyyətin inkişafını, hökmdarlara, siyasi xadimlərə göndərdiyi məktublar isə XII əsrin siyasi xəritəsini daha yaxşı anlamağa kömək edə bilər. Buna görə də, hazırda xaqanişünaslıqda ən aktual problem onun məktublarının öyrənilməsi hesab olunmalıdır.

XAQANİNİN ƏRƏBCƏ ƏSƏRLƏRİNİN İDEYA-BƏDİİ XÜSUSİYYƏTLƏRİ

Klassik Şərq ədəbiyyatında istifadə olunan janrların, bədii təsvir vasitələrinin əksəriyyətinin kökü qədim ərəb ədəbiyyatı ilə bağlıdır. Bu ədəbiyyatın mərkəzində qədim ərəb poeziyasının durduğu məlumdur və ona hansı tərəfdən yanaşsaq, kökü yenə də ərəb dilinə, ərəb ədəbiyyatına, ərəb mühitinə gedib çıxır.

Bunun bir səbəbi İslam dini, bu dinin ədəbiyyata təsiri ilə bağlıdırsa, ikinci səbəbi İslama qədər Cahiliyyə dövründə ərəblər arasında sözə verilən yüksək qiymətlə izah olunur. Bəlağətli, fəsahətli söz demək bacarığını ilahi bir istedad kimi qiymətləndirən bədəvi ərəblərin köçəri həyat tərzi, susuz səhralar, qızmar günəş, səhra külәkləri, isti iqlim şəraiti, tayfalararası müharibələr, qədim adət-ənənələr və s. kimi mövzularla xarakterizə olunan Cahiliyyə poeziyası klassik ədəbiyyatın ana xəttini təşkil edirdi. Hələ İslamdan əvvəl yaranan bu poeziya əsrlər boyu Şərq ədəbiyyatı, Şərq poeziyası üçün etalon olmuşdur.

Zaman keçdikcə, insanların yaşam tərzi, düşüncə tərzi dəyişdikcə təbii ki, poeziyada da müəyyən yeniliklər yaranır, poeziyaya yeni mövzular, motivlər daxil olur, köhnə ənənələr unudulurdu. Lakin klassik ədəbiyyatın bəzi dəmir qaydaları dəyişməz olaraq qalırdı. Bu qaydalar, yəni Şərq poetikasının ənənəvi normaları orta əsr şairlərinin şeirlərini tənzimləyən əsas meyarlar idi. Bu normalar kor-koranə şəkildə meydana gəlməmişdi, onlar poeziya bilicilərinin, poetika alimlərinin gərgin əməyinin məhsulu idi. Ənənəvi Şərq poetikasına daxil olan hər termin İbn Quteybə, Xəlil ibn Əhməd, əl-Cahiz, Qudəmə ibn Cəfər, əl-Əsğari və digər alimlərin əsərlərində incəliyinə qədər izah edilmişdir. Təsadüfi deyildir ki, dünya ədəbiyyatında mövcud olan poetika elminin üç böyük sistemindən biri məhz ərəb poetikasıdır. Bu poetik sistem zaman keçdikcə inkişaf etmiş, digər xalqlara

məxsus ədəbi ənənələri də özündə əks etdirərək, Yaxın Şərqdə vahid sistemə çevrilmişdir.

Ərəb dili müsəlman xalqlarının mədəni inkişafında əvəzsiz rol oynasa da, poeziyada fars təsiri getdikcə güclənirdi. *"Poeziyanın xarici formalarını ərəblərdən əxz edən farslar onu öz ruhlarına uyğun elə bir uğurla inkişaf etdirdilər ki, fars poeziyası öz rəngarəngliyinə və bədiiliyinə görə müsəlman xalqları arasında birinci yer tutaraq, Türk və Hind poeziyası üçün də bir nümunə oldu*".[1]

Orta əsrlərdə poeziyada aparıcı dil kimi fars dilinə üstünlük verilsə də, ərəb dilinə olan ehtiyac azalmadı. Çünki klassik dövr şairləri arasında, bir qayda olaraq, ərəb dastanlarından, "Min bir gecə" nağıllarından, Qur'an rəvayətlərindən, Qur'an qissələrindən, hədislərdən qaynaqlanan mövzulara, süjetlərə, obrazlara geniş yer verilir, yazılmış əsərlərdə ayələrdən, hədislərdən genbol istifadə edilir, ya deyilən fikri qüvvətləndirmək üçün, ya da bir tendensiya kimi bəzi sözlər, ifadələr ərəb dilində verilir, ərəb mühiti ilə bağlı bədii təsvir vasitələrinə geniş müraciət olunurdu.

Klassik Azərbaycan şairləri bu nizam əsasında yazıb-yaratmaqla yanaşı, öz əsərlərində yaşadıqları coğrafi əraziyə uyğun elementlərdən də istifadə edirdilər. Bu da onları digər Şərq şairlərindən fərqləndirirdi. Kamil Hüseynoğlu XII əsr Azərbaycan şairlərinin yaradıcılığının özünəməxsus üslubda inkişaf edərək, ədəbiyyatda Azərbaycan məktəbi yaratdıqlarını qeyd etmiş və bunun səbəbini belə göstərmişdir: *"Mənşəcə türk olan və dövrün siyasi-mədəni tələblərinə görə (səlcuqlar fars dilini dövlət dili kimi qəbul etmişdilər) farsca yazmaq məcburiyyətində qalan XII əsr Azərbaycan şairləri üçün isə farslarla ərəblər arasında gedən siyasi-mədəni mübarizənin heç bir əhəmiyyəti*

[1] *Залеман, К.* Четверостишия Хакани. Санкт-Петербург: Типография Императорской Академии Наук, 1875, с. 3

yox idi. Millətçilik və təəssübkeşlik hisslərinin fövqündə duran və islamın bərabərlik və humanist prinsiplərinə əsaslanan bu şairlərin əsas məqsədi bütün imkanlardan, o cümlədən də zəngin ərəb bədii vasitələrindən, sözlərindən və mövzularından istifadə etməklə gözəl sənət əsərləri yaratmaq idi".[1]

Xaqani də mümkün ədəbi vasitələrdən istifadə etməklə, çox gözəl əsərlər yaratmışdır. Bu əsərlərin poetikasını araşdırmaq böyük nəzəri bilik və təcrübə tələb edir. Buna görə də, burada əvvəlcə şairin əsərlərindəki ərəb-islam mədəniyyətinə xas elementlərdən, daha sonra vəzn, qafiyə məsələlərindən və bədii təsvir vasitələrinin işlədilmə xüsusiyyətlərindən bəhs edəcəyik.

Xaqaninin əsərlərində ərəb-islam mədəniyyətinə aid cəhətlər

Xaqaninin əsərləri müxtəlif xalqların mədəniyyətinə, adət-ənənəsinə, müxtəlif dinlərə, müqəddəs kitablara müraciətlə çox zəngindir. Bu barədə tədqiqat işinin birinci fəslində məlumat verilsə də, təbii ki, ədib, filosof, alim, mütəfəkkir kimi xarakterizə olunan bir dahinin fikirlərini tam əhatə etmək qeyri-mümkündür. Onun ədəbi irsində folklor, fəlsəfə, İslam, coğrafi məkanlar, tarixi şəxsiyyətlər və s. kimi mövzular tək-tək geniş şəkildə öyrənilməlidir. Çünki "*... Xaqani türk, fars və ərəbin bədii düşüncəsinə, elmi və zehni nailiyyətlərinə yiyələnmiş böyük və taysız bir istedaddır"*.[2] Şairin Xaqani (türk), Həqayiqi (fars), Hassənul-əcəm (ərəb) kimi təxəllüsləri onun yaradıcılığının bu üç mühitdən paralel şəkildə qaynaqlandığının bariz göstəricisi-

[1] *Hüseynoğlu, K*. Fars poeziyasında Azərbaycan səbki və onun yaranmasında Xaqaninin rolu // Bakı: Risalə. Araşdırmalar toplusu, 2005. №2, s. 99
[2] *Kəndli-Herisçi, Q*. Xaqani Şirvani. Bakı, 1988, s. 3

dir. Monoqrafiyanın mövzusunun şairin ərəbcə yazdığı əsərlərlə, ərəb mühiti ilə bağlı olduğu nəzərə alınaraq, burada şairin əsərlərindəki ərəb-islam mədəniyyətinə aid ünsürlərdən, bu ünsürlər çox olduğuna görə isə konkret olaraq, ərəb hərfləri, ərəb ədəbi mühiti, Qur'an ayələri və hədislərlə bağlı cəhətlərdən bəhs edilmişdir.

Ərəb hərflərindən istifadə. Klassik ədəbiyyatda şairlərin əsərlərində istifadə etdikləri ədəbi priyomlar sırasına ərəb hərfləri də daxil idi. "*Ərəb və fars klassik poeziyasında qrafik (hərfi) metaforalar və qarşılaşdırmalar geniş yayılmışdı. Belə hesab olunur ki, ayrı-ayrı hərflərlə yaradılan qarşılaşdırmalara ilk dəfə olaraq ərəb şairi Zu-r-Rummənin yaradıcılığında (735-ci ildə vəfat edib) rast gəlinir. Məhəbbət lirikasında, məsələn, sevgilinin gözəlliyinin təsviri zamanı, gözəl qamət əliflə, cığalar kəf, cim, ra, ağız mimlə və s. qarşılaşdırılırdı. Beləliklə, ərəb hərfləri antropomorfik xüsusiyyət kəsb edərək, insan sifətinin təsvirinə xidmət edirdi"*.[1]

Xaqani də əsərlərində öz fikirlərini daha qabarıq şəkildə göstərmək üçün ərəb hərflərinin həm qrafikasından, həm yazıda daşıdığı qrammatik vəzifələrdən məharətlə istifadə etmişdir. Onun yaradıcılığında *zeyn, dəl, ayn, sin, şin, hə* və s. kimi hərflərlə bağlı maraqlı bənzətmələrə, fikirlərə tez-tez rast gəlinir. Məsələn, "Tuhfətul-İraqeyn"əsərində ərəb dilində Misir (مصر) sözündəki *ṣa:d* (ص) hərfini *ḍa:d* (ض) hərfi ilə əvəz etməklə, onu zərərverən, ziyankar (مُضِرٌّ) kimi qələmə vermiş və özü də kiçik bir nöqtədə olan hikmətə təəccüb qalmışdır:

بر مصر نقطة نهی مضرّ است زیر نقطی هزار سرّ است[2]

Misrə nöqtə qoysan, zərərverən olar, *bir nöqtədə nə qədər sirr var*.

[1] *Куделин, А. Б.* Арабская литература. Москва, 2003, с. 249

[2] خاقاني شرواني. تحفة العراقين. كتابخانه مجلس شورای اسلامی. ص. ۱۷۸

Xaqaninin əsərləri fəlsəfi məna ehtiva etmək baxımından həmişə diqqət mərkəzində olub. Bu beytə də ilk baxışda təsəvvürümüzdə hərfin üzərinə qoyulan adi bir nöqtə canlanır. Lakin irfani mənada bu, Həzrəti Əlinin أنا هي النقطة تحت الباء *mən bə hərfinin altındakı həmin nöqtəyəm* deyiminə bir işarədir ki, bu nöqtə də dini ədəbiyyatda müxtəlif şəkillərdə izah olunan məsələlərdəndir. Böyük ehtimalla, yaradıcılığında Sənai Qəzvini kimi sufi şairinin böyük təsiri duyulan şairi təəccübləndirən *ṣa:d* (ص) və *ḍa:d* (ض) hərflərini bir-birindən fərqləndirən adi nöqtə yox, ilahi-mistik rəmzi məna daşıyan sirli nöqtədir.

Eyni məsələ şairin digər beytində də özünü göstərir:

نقطهٔ خون شد از سفر دل من خود سفر هم به نقطه ای سقر است[1]

Beytin M. M. Əlizadə tərəfindən Azərbaycan dilinə edilən poetik tərcüməsi çox dəqiqdir:

Qan nöqtəyə döndərdi ürəyimi bu səfər.
"Səfər" o nöqtə ilə çevrilib oldu "səqər".[2]

Beyt Peyğəmbərin ﷺ səfərlə bağlı[3] السفر قطعة من العذاب *səfər əzabın bir parçasıdır* deyimini xatırladır. Burada istifadə olunan *səfər* (سفر) və *səqər* (سقر) ərəb sözləridir. Səfərin mənası məlumdur. Ərəb dilində bu sözdəki *fə* hərfinin yazılışı *saqar* sözündəki *qaf* hərfinin yazılışı ilə eynidir. Fərq yalnız nöqtədədir. *Fə* hərfi bir, *qaf* hərfi isə iki nöqtə ilə yazılır. Şair mənanı dəyişmək üçün lazım olan bu nöqtəni səfər zamanı əzab, əziyyət çəkən, qan ağlayan ürəyinin qanından alır və nəticədə, tam fərqli məna yaranır, yəni *səfər* klassik lüğətlərdə cəhənnəmin adlarından biri kimi təqdim olunan, cəhənnəmin əzablı, yandırıcı

---

[1] URL: https://ganjoor.net/khaghani . خاقانی. دیوان اشعار

[2] *Xaqani Şirvani.* Seçilmiş əsərləri. Bakı, 1987, s. 314

[3] الجامع الصحيح للبخاري. الجزء الاول. تقديم وتحقيق و تعليق: عبد القادر شيبة الحمد. الرياض، ١٤٢٩ هـ – ٢٠٠٨ م. ص. ٤٩٣

odunu özündə əks etdirən *saqar* (نعوذ بالله من سقر – *(Cəhənnəm) Odundan Allaha pənah aparırıq*) sözü ilə əvəz olunur. Beləliklə, şair səfərlərin onu incitdiyini, əzab verdiyini bir nöqtənin "sehr"indən istifadə etməklə göstərməyə nail olur. Bəlkə də səfərdə başına gələn hadisələri, üzləşdiyi çətinlikləri bir-bir sadalayıb, bütün təfərrüatı ilə təsvir etsəydi, səfərin çətinliyinin dəqiq inikasına nail ola bilməzdi.

Xaqani ərəb hərflərinin yazılışını da unutmamışdır. Məsələn, aşağıdakı beytdə *sevgi, eşq* الهوى (əl-hava) sözündə *hə* hərfinin "ikigözlü" yazılmasına belə işarə edilir:

قالوا الهوى تبكي بلا عين بلى تبكي و ها عيناه حرف الهاء[1]

Deyirlər, eşq gözsüz ağlayar, heç də yox; o ağlayır və onun gözləri hə hərfidir.

Başqa bir misal:

لكنّ لي قلبا كماءٍ غائرٍ يشكو اشتمال الصخرة الصماء
قلبي لجسمى نقطة موهومة في نصف دائرة كحرف الياء[2]

Lakin mənim dərin suya bənzər qəlbim var. O, sal qayaların əhatəsində olmasından şikayətlənir.

Qəlbim cismimin qaynar (vahiməli) nöqtəsidir. Dairənin ortasında gələn ya hərfi kimi.

Birinci beytdə الصخرة الصماء ifadəsi şairin qəlbinin, daxili aləminin hansı vəziyyətdə olduğunu çox gözəl ifadə etmişdir. الصخرة الصماء üzərində heç bir çat, yarıq olmayan sal qayalara işarədir. Belə sal qayaların əhatəsində olan qəlb təbii ki, çox narahat olmalıdır.

İkinci beyti belə açıqlamaq olar: şair öz qəlbini təhlükəli, qorxulu bir nöqtə kimi qələmə verərək, onu dairənin ortasındakı

[1] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳۴۱
[2] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳۴۴

yə hərfinə bənzədir. Belə ki, dairə sözünün ortasında gələn *yə* hərfi burada həmzənin dayağı rolunu oynayır. Əgər bu dayağı götürsək, əmələ gələn دارة sözü yeni mənalar bildirir. Zənnimcə, bu mənalardan ikisi beytin məzmununa uyğun gələ bilər. Onlardan biri *açıq sahə*, digəri isə qumun üzərində açılan *deşik, yarıq* mənalarıdır. Şair burada öz qəlbini dairə sözündəki *yə* hərfi ilə müqayisə edərək göstərmişdir ki, *yə*-siz dairə açıq sahəyə, yaxud deşiyə, yarığa çevrilirsə, mənim də qəlbim cismim üçün elə təhlükəlidir. Əgər bu qəlb sal qayaların əhatəsindədirsə, təbii ki, onun olduğu can da rahat ola bilməz.

Yə hərfi ilə bənzətməyə başqa bir şeirdə də rast gəlinir. Xaqani bir hərfin sözün mənasına, həmin sözün isə öz həyatına göstərdiyi təsiri ərəbcə yazdığı 4 beytdən ibarət bir şeirdə belə əks etdirmişdir:

رددت إلى خاقانها ياء نسبة فذا حرف العلّة بكل حساب
فأصبحت خاقان الكلام نباهة صحيح بنا النون نصب صواب
أ من نقطتي ياء تعدّ مثابتي و ليس محيط الكائنات حجاب
أ بالدلو أبغى يوسف لاحقا وسيارة الافلاك سير ركاب[1]

Yə nisbəsini xaqana geri verdim, bu, hesabları olan zəif hərfdir.

Beləliklə, şöhrətlənərək sözün xaqanına çevrildim, bizim üçün sağlam düşüncənin təyinatı <u>nun</u>dur.

Məgər mənim mövqeyim <u>yə</u>nin iki nöqtəsi ilə müəyyən edilir? Axı kainatı qoruyan örtük deyil.

Məgər Yusuf vedrə ilə xilas olmadımı? Fələyin dövranı insanların taleyini müəyyən edir.

Şeirdə iki hərf – *yə* və *nun* hərfləri qarşılaşdırılmışdır. Şair yə hərfinin ərəb dilində daşıdığı vəzifəni kiçik bir şeirdə çox gözəl şəkildə əks etdirmişdir. *'Əlif, yaːy, yəː* (ا، و، ي) hərfləri ərəb əlifbasında *zəif hərf, illətli hərf* kimi (حروف العلّة) qəbul edil-

[1] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳۵۱

mişdir. Şairin istifadə etdiyi *yə* hərfinin ərəb qrammatikasında daşıdığı vəzifələrdən biri nisbə, mənsubiyyət bildirməkdir ki, buna da ياء نسبة – nisbə bildirən *yə* deyilir. Sözlərin sonuna əlavə edilən həmin şəkilçi sayəsində şairin təxəllüsü *Xaqani* (xaqana aid) olmuşdur ki, şeirdə şair onu saraya, xaqana bağlayan yədən imtina etdiyini, alınan *xaqan* sözü ilə sözün, şeirin xaqanı olduğunu göstərir.

Xaqani (خاقاني) sözü *yə* hərfi, xaqan (خاقان) sözü isə *nun* hərfi ilə bitir. *Nun* hərfinin rəmzi mənaları ilə bağlı birinci fəsildə geniş məlumat verilib. Həmin mənalardan biri də elmlə bağlıdır. Bu iki hərfi qarşılaşdırmaqda şairin məqsədi seçdiyi yolun tabelik, itaət yox, elm olduğunu göstərməkdir.

ياء نسبة – nisbə bildirən *yə* ilə bağlı fikir Bağdada ərəbcə həsr olunmuş qəsidədə də əks olunub.[1]

Fars dilində olan şeirlərindən birində isə şair *Xaqani* sözündən *qaf* hərfini düşürmüşdür:

گوید این خاقانی دریا مثابت خود منم خوا نمش خاقانی اما از میان افتاده قا[2]

Deyirlər ki, bu dərya cəlallı Xaqani bizik,
Doğrudur, mən də onları Xaqani adlandırıram, amma ortalarından "qa" düşmüşdür.[3]

Beytlərin filoloji tərcüməçisi Q. Darabadi əmələ gəlmiş yeni – خانی *xani* sözünü *tufeyli* kimi izah etmişdir. Beyt əvvəlki tədqiqatçılar tərəfindən də fərqli şəkillərdə şərh olunmuşdur: "*Məlumdur ki, böyük şairin təxəllüsü "Həqayiqi" olmuş, sonra Şirvan hakimlərindən Xaqan Mənuçöhrlə yaxınlaşdığı üçün təxəllüsünü dəyişdirib, "Xaqani" (yəni xaqana mənsub) qoymuşdur. Yuxarıdakı beytin ikinci misrasında özünün dediyi*

[1] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳۵٦
[2] خاقاني شروانی. دیوان. بتصحیح علیّ عبد الرسولی. تهران، ۱۳۱٦، ص. ۱۹
[3] *Darabadi, Q.* Ədəbiyyat İnstitutunun arxivi, inv. № 634, vərəq 126

kimi, "Xaqani" sözündən "qa"nın düşməsi Axsitanla Xaqaninin arasında münaqişə baş verməsinə və şairin hökmdardan üz çevirməsinə işarədir";[1] yaxud "*Xaqani" sözündən "qa"nın düşməsilə "Xani" qalır ki, bu da öz qarnını güdən yalavaclara işarədir*".[2]

Şərhlərdən heç biri beytin mənasına uyğun gəlmir. Kəzzazi خانی sözünün *çeşmə* mənasını götürərək, beyti belə izah etmişdir: onun şeirlərini eşidən, istər-istəməz onları özününkü sayacaq və deyəcək: Dəniz kimi Xaqani elə mən özüməm! Xaqani belə adamlara cavab olaraq deyir: Mən onu Xaqani adlandırıram, lakin elə bir Xaqani ki, onun ortasından *qa* düşmüş və *xani* qalmışdır. Xani isə çeşmə deməkdir, yəni başqaları onunla – dənizlə müqayisədə yalnız kiçik bir çeşmə, gölməçə ola bilərlər.[3]

Sözü ərəb dilli خنی *qəbahətli söz danışmaq* feilinin faili kimi qəbul edib, həmin mənaya əsaslanaraq, *özünü şairə bənzətməyə çalışanlar gözəl söz deyənlər yox, qəbahətli söz danışanlardır* kimi də şərh etmək olar. Amma *dərya* sözünə istinad edərək, ona zidd məna kimi Kəzzazinin verdiyi şərhin beytin mənasını daha aydın tamamladığını düşünürəm.

Ərəb intellektual aləminə müraciət. Xaqani ərəb dilinin incəlikləri ilə yanaşı, ərəb mədəniyyətinə və bu mədəniyyəti təmsil edənlərin fəaliyyətinə də yaxşı bələd olmuş, əsərlərində yeri gəldikcə İmrul-Qeys, Ləbid ibn Rabiə, Bəşşar ibn Burd, Əbu Nuvas, əl-Buhturi, əl-Cahiz, Quss bin Saidə, əl-Əşa və s. kimi şəxsiyyətləri xatırlamışdır. Məsələn, elə şairin təxəllüslərindən biri olan *Hassənul-əcəm* ərəb şairi **Hassən bin Səbitin** adı ilə bağlıdır və "Tuhfətul-İraqeyn"əsərinə intinad etsək, bu ləqəbi şairə əmisi verib:

---

[1] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1956, s. 441

[2] *Xaqani Şirvani*. Seçilmiş əsərləri. Bakı, 1987, s. 570

[3] کزازی، جلال الدین. گزارش دشواریهای دیوان خاقانی. چاپ دوم. تهران ، ۱۳۸۰، ص. ۵۲

چون دید که سخن تمامم حسّان عجم نهاد نامم[1]

Gördü ki, mən söz mülkünə hakiməm, Hassəni-əcəm adını o mənə verdi.

Təxəllüsdən əlavə, Hassən bin Səbitin adına əsərlərində də tez-tez rast gəlinir. Bəs yaradıcılığı, əsasən, ənənəvi mədhiyyələrdən ibarət olan ilkin İslam dövrü şairi ilə fəlsəfi məzmunlu şeirlər müəllifi Xaqani arasında oxşar və fərqli cəhətlər hansılardır?

Hassən bin Səbit bin əl-Munzir bin Haram, Malik bin Nəccar nəslinə məxsus olmuşdur. Xaqani Şirvaninin də atasının adının Nəccar Əli olduğunu və Xaqaninin yaşadığı dövrdə Hassən bin Səbitin İslam şairi kimi Şərqdə böyük nüfuza malik olduğunu[2] nəzərə alsaq, şairə əmisinin verdiyi bu adın məhz Hassən bin Səbitin şərəfinə olduğu fikri ilə razılaşırıq. Şirvanşah Mənuçehrə həsr etdiyi şeirində Xaqani hökmdara olan bağlılığını, sədaqətini ön plana çəkmək üçün Hassənul-əcəm təxəllüsündən məharətlə istifadə etmişdir.

Ərəb ədəbiyyatı tarixində Peyğəmbərin ﷺ Hassənin timsalında bütpərəstliklə mübarizədə yeni dini təmsil edən şairi gördüyü bildirilir. Əvvəlcə tayfa şairi, sonra saray şairi, ömrünün sonuna yaxın isə İslam şairi kimi tanınıb "İslam nəğməkarı" adını alan Hassən İslamı, Muhəmməd peyğəmbəri ﷺ ilk mədh edən şairlər sırasına daxil olduğundan öz dövrünün hörmətli şairlərindən hesab olunub. Mənbələrdə Hassən bin Səbit əsəbi, tez özündən çıxan, özündən və qövmündən çox razı, xarici görünüşünə önəm verən, saqqalına rəng qoyan, acıdil biri kimi təsvir olunub. Hətta onun kəskin dili haqqında belə deyirdilər: "و لو

[1] خاقاني شرواني. تحفة العراقين. كتابخانه مجلس شورای اسلامی. ص. ٢٢١

[2] شوقي ضيف. تأريخ الادب العربي. العصر الاسلامي. مصر: دار المعرف، ١٩٦٣، ص. ٧٧

وضعته على صخر لفلقه"[1] *–əgər onu (dilini) daşın üstünə qoysan, daşı belə parçalayar*.

Hanna əl-Fahuri Hassən yaradıcılığını mərhələlər üzrə belə xarakterizə edir:

1) Hassən öz tayfasının şairi kimi – yaradıcılığında islamaqədər üslubda yazılmış fəxriyyələr üstünlük təşkil edir;

2) Hassən mənfəət güdən şairdir – saray şairinə çevrilərək hakim təbəqəni mədh edir;

3) Hassən İslam şairi kimi – İslamı qəbul edib dini və siyasi şeirlər yazır;

4) Hassən əyləncələr şairidir – İslamı qəbul etməzdən qabaq kef məclislərində yaxından iştirak edərək, xəmriyyə janrında lirik əsərlər yaratmışdır.[2]

İslamı qəbul etdikdən sonra bütün yaradıcılıq istedadını İslamın təbliğinə yönəldərək, dini və siyasi mübarizədə öz qələmi ilə Peyğəmbərin ﷺ ən yaxın adamlarından birinə çevrilən Hassənin ədəbi fəaliyyətini əks etdirən bu mərhələlərlə Xaqani yaradıcılığı arasında ciddi oxşarlıq yoxdur. Onlar arasında olan oxşarlıq hər iki şairin əsərlərinin mühüm tarixi əhəmiyyət kəsb etməsidir. Əgər Hassən bin Səbit öz dövründə baş verən hadisələri, döyüşləri, həmin döyüşlərdə iştirak edən qəhrəmanları təsvir edibsə, Xaqani də şahidi olduğu tarixi hadisələri, görkəmli şəxsiyyətləri öz qəsidələrində tərənnüm edib.

Bəs Xaqani yaradıcılığında Hassən bin Səbitə münasibət necə olmuşdur? Şairin Hassən bin Səbitlə bağlı olan beytlərindən birində deyir:

رشک نظم من خورد حسان ثابت را جگر دست نثر من زند سحبان وایل راقفا.[3]

---

[1] الرافعي، مصطفي صادق. تاريخ آداب العرب. مصر: الهنداوي، ٢٠١٣، ص. ٦٥٨

[2] *Аль-Фахури, Х.* История арабской литературы [в 2 томах]. Перевод с арабского В. В. Атамали. Т. 1. Москва, 1959, с. 183

[3] خاقانی شروانی. دیوان، جلد اول. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۳۲

Mənim nəzmimin həsədi Həssan Sabitin ciyərini yeyər, mənim nəsrimin əli Söhban Vailin boynunu vurar.[1]

Şairin Hassən bin Səbitin adını çəkdiyi başqa bir beytə nəzər salaq:

زاهدم، أمّا برهمن دين؛ نه يحيى سيرتم؛
شاعرم، امّا لبيذآيين؛ نه حسّان مخبرم.[2]

Zahidəm, ancaq Brəhmən dininə (məxsus), Yəhya məsləkinə aid deyiləm.
Şairəm, amma Ləbid üslublu, Hassən üslublu deyiləm.

(Fars dilindən filoloji tərcümə: Lalə Əlizadə)

Beyt M. Sultanov və Ə. Cəfər tərəfindən belə şərh olunub: *"Yəhya peyğəmbər Allaha həddən artıq ibadətlə məşğul olmuşdur. Brəhmən dini oda sitayiş etmiş olan hind dinlərindəndir. Həssan Məhəmməd peyğəmbəri məhd edən məşhur Həssan ibn Sabit, Ləbid isə şeri Məkkədə divardan asılan cahiliyyət dövrünün şairlərindən olub, Həssanın əleyhinə olmuşdur. Xaqani təvazökarlıqla özünü Brəhmən və Ləbidə oxşadır".*[3]

Beytə verilən şərhdə şairin təvazökarlıqla özünü Brəhmənə və Ləbidə bənzətməsi fikri mübahisə doğura bilər. Şair burada Ləbid təbiətli olduğunu göstərir. Ləbid ibn Rabiə müəlləqəsi Kəbə divarından asılmış yeddi məşhur şairdən biridir. Haqqında məlumat az olsa da, qəsidəsinin Kəbə divarlarından asılması Ləbidin Hassən bin Səbitdən zəif şair olmadığını göstərir. Zənnimcə, şairin özünün Ləbid tiynətli qələmə verməsinin təvazökarlıqla heç bir əlaqəsi yoxdur. Əbul-Fərəc əl-İsfəhaninin "Kitəbul-əğani" əsərindəki məlumata görə, Ləbid uzun ömür sürdüyünə və Muhəmməd peyğəmbərdən ﷺ, onun xələfləri olan

[1] *Sultanov, M. S.* Xaqani Şirvani. Bakı, 1954, s. 60
[2] خاقانی شروانی. دیوان، جلد اول. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۳۹۰
[3] *Xaqani Şirvani.* Seçilmiş əsərləri. Bakı, 1987, s. 612

Raşidi xəlifələrindən sonra öldüyünə baxmayaraq, onun ədəbi fəaliyyəti demək olar ki, tamamilə islamaqədərki dövrlə bağlıdır. Mənbələrə görə, İslamı qəbul edən (bəlkə də şair İslamı 630-cu ildə Mədinədə olarkən qəbul edib) Ləbid Kufəyə getmiş və yaradıcılıqdan tamamilə imtina etmişdir.[1]

Hər iki şair – həm Ləbid ibn Rabiə, həm də Hassən bin Səbit haqqında deyilənlərdən belə bir nəticə əldə etmək olar ki, Xaqaninin bu beytdə özünü Hassənə yox, Ləbidə tay tutması şairin onların həyat və yaradıcılığına yaxşı bələd olmasından irəli gəlir, yəni şair Hassən bin Səbit kimi sakit həyat seçmədiyini, zəmanənin tələbinə uyğun mədhiyyələr yazmadığını göstərmək istəmişdir.

Ləbid ibn Rabiə ilə Xaqani yaradıcılığını birləşdirən ümumi cəhət kimi hər iki şairin risə janrında gözəl əsərlər yaratmaları ola bilər. Həm Ləbid ibn Rabiənin, həm də Xaqani Şirvaninin yanıqlı mərsiyələri dərin təsir gücü və səmimiliyi ilə fərqlənir.

Deməli, Xaqani öz yaradıcılığında digər tanınmış şəxslər kimi Hassən bin Səbitin adından fikirlərini daha aydın ifadə etmək üçün faydalansa da, öz yaradıcılığını Hassənin yaradıcılığından üstün tutmuş, Hassən təxəllüsündən və bu təxəllüsün səbəbkarı olan Hassən bin Səbit adından ədəbi bir priyom kimi bəhrələnmişdir. Yaradıcılıq sahəsində isə öz sənətini Hassənin yaradıcılığına qarşı qoymuş və sənətkarlıq baxımındam özünü daha qüdrətli hesab etmişdir.

Q. Kəndli-Herisçi şairin təxəllüsləri ilə bağlı araşdırma apararkən bu məqamı belə vurğulamışdır: *"Həssan ibn Sabit Məhəmmədə nətlər yazdığı üçün sənətinə görə ona böyük hörməti vardır. Həssanın müsəlman Şərqində böyük hörmət və nüfuzu var idi. An-*

[1] الاصفهاني، ابو الفرج. كتاب الاغاني. تحقيق عبد السلام محمد هارون. في اربعة وعشرين جزءاً: الجزء الخامس عشر. القاهرة، ١٩٥٩، ص. ٣٦٢ – ٣٧٩

caq yaradıcılıq və sənət məsələlərinə gəldikdə Xaqani Həssan ibn Sabiti özü ilə qarşılaşdırmaq fikrində belə deyildir...”[1]

Şairin hər iki dildə yazdığı əsərlərdə simvol kimi xatırlanan adlardan biri **əl-Cahizdir.** Əl-Cahiz klassik ərəb nəsrinin görkəmli nümayəndəsi Əbu Osman Amr ibn Bəhr bin Məhbubun (159–255/775–868) ləqəbidir. Mənbələrə görə, çox mütaliə edən, əlindən kitab düşməyən əl-Cahiz dövrünün savadlı adamlarından olmuşdur. Əbu Həffan onunla bağlı yazır ki, mən kitabı, elmi əl-Cahizdən artıq sevəni nə görmüşəm, nə də eşitmişəm. O, necə olursa-olsun, əlindəki kitabı oxumamış yerə qoymazdı, kitab dükanlarında gözətçi kimi gecələyir, əvəzində kitab oxuyurdu.[2]

Haqqında müxtəlif maraqlı rəvayətlər olan əl-Cahiz “Əlbəyən vat-təbyin”, “Kitəbul-buxələ’” və s. kimi qiymətli əsərlərin müəllifidir. Xaqaninin dünyagörüşündə, fəlsəfəsində baş verən dəyişikliyi, yəni əvvələr aludə olduğu yunan fəlsəfəsinə sonralar şübhə ilə baxmasına bəlkə də əl-Cahizin də təsiri olmuşdur. Çünki əl-Cahiz Aristotel fəlsəfəsi haqqında “Onun məntiqi heç bir ərəb oratoruna aydın deyil” demişdi.[3] Bu məsələ geniş araşdırma tələb etdiyindən şairin əl-Cahizin adına hansı məqsədlə müraciət etdiyini göstərməklə kifayətlənək.

Əl-Cahizin yaradıcılığına yaxşı bələd olan Xaqani bu addan iki məqsəd üçün istifadə etmişdir:

1)özünün və yaxud məmduhunun dərin biliyini, elmini göstərmək üçün:

كأنّ علاء الدين جاحظ دهرنا حوى شيمتي دهر يريح ويوجع[4]

Sanki ‘Alə əd-Din zəmanəmizin Cahizidir, həm rahatladan, həm əzab verən zəmanənin hər iki xüsusiyyətini özündə əks etdirir.

---

[1] *Kəndli-Herisçi, Q*. Xaqani Şirvani. Bakı, 1988, s. 95

[2] الحموی، یاقوت. معجم الادباء: في عشرين جزءا. الجزء الثامن عشر، ص. ٧٥

[3] *Крачковский, И. Ю*. Избранные сочинения, т. 2. М.-Л., 1956, с. 363

[4] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ١٣٧٥، ص. ١٣٦٢

2) nəsr sahəsində olan qabiliyyətini vurğulamaq üçün. Çünki əl-Cahizin nəsr əsərləri bu gün də klassik ərəb ədəbiyyatının fəxarət obyektidir. Şair özünün nəsrdə olan istedadını belə göstərir:

Əgər Müizzi və Cahiz mənim zamanımda olsaydılar, nəzm və nəsr sahəsində mənim xidmətçim olardılar.[1]

(*Müizzi Nişaburi* (معزّي نيشابوري) XI–XII əsrlərdə Səlcuqilərin sarayında yaşamış fars şairidir.)

Şairin yaradıcılığında tez-tez rast gəlinən adlardan biri də **Quss bin Saidə əl-İyədidir (قُسُّ بن ساعدة الإيادي)**. O, İslamdan əvvəl yaşamış bir müdrikdir və əl-İyədi burada onun mənsub olduğu tayfanı bildirir. İbn Kəsirin verdiyi məlumata görə, Peyğəmbər ﷺ İyədi qəbiləsinin nümayəndələrinə müraciət edir ki, mən Quss bin Saidəni Ukaz bazarında qırmızı dəvənin üzərində camaata çox gözəl nitq söyləyərkən gördüm, amma onun nitqini yadda saxlaya bilmədim, indi o, nə edir? Peyğəmbərə ﷺ onun həlak olduğunu xəbər verirlər. Hətta Quss bin Saidənin xütbələrindən, şeirlərindən misallar da gətirirlər.[2] Əl-Cahiz "əl-Bəyən vat-təbyin" əsərində Quss bin Saidəni gözəl xütbə ustası kimi xatırlamışdır. Xaqani də öz məmduhunu gözəl keyfiyyələrinə görə Quss bin Saidəyə bənzətmişdir.

هو قسّ بن ساعدة الايادي آخذ بيد الايادي ساعد الشعراء

O, Quss bin Saidə əl-İyədidir, kömək əli ilə şairlərin qolundan tutandır.

Bağdada həsr etdiyi qəsidədə şair Quss bin Saidə kimi xütbə söylədiyini demişdir:

---

[1] *Sultanov, M.S.* Xaqani Şirvani. Bakı, 1954, s. 59

[2] ابن كثير. البداية والنهاية. في خمسة عشر جزءاً، الجزء الثاني. بيروت: مكتبة المعارف، ١٩٩٠، ص. ٢٣٠

خطبتُ فيها كقسّ ساعدة فساعدتني ذكاء بغداد[1]

Quss bin Saidə kimi xütbə söylədim, mənə kömək edən Bağdadın zəkası oldu.

Xaqaninin əsərlərində adı çəkilən şəxslərdən biri də **Suhban Vaildir (سحبان وائل).** Ərəb mənbələrində orta əsrlərdə bəlağət və bəyan elmində kiminsə məharətini mədh edərkən, onu məhz Suhban Vaillə müqayisə etmək ənənəsinin mövcud olduğu göstərilir. له بلاغة سحبان؛ له لسان سحبان[2] (*onda Suhban bəlağəti var; Onda Suhban dili var*) kimi ifadələr haqqında söhbət gedən şəxsin bəlağətli dilinin olduğuna işarə idi. Xaqani də bu ənənəyə sadiq qalmış, gözəl söz söyləmək bacarığından danışarkən, Suhban Vailin adını xatırlamışdır. Məsələn, İmam Muhammməd bin Yəhyanın xatirəsinə yazdığı şeirdə deyir:

سبحان معيد كل فرد هذا سحبان عاد حيّا[3]

Hər kəsi geri qaytarana həmd olsun, bu, Suhbandır, dirilib geri qayıdıb.

Əksər beytlərində şair Quss bin Saidə ilə Suhban Vailin adını eyni beytdə çəkmişdir; Alə əd-Dinə həsr etdiyi qəsidədə şair məmduhun yüksək keyfiyyətlərə sahib olduğunu belə göstərmişdir:

له يد فضل زندها العلم و الحجا فقسّ لها ظفر و سحبان اصبع

Onun (Alə əd-Dinin) fəzilətli əli var, onun (əlin) yuxarı hissəsi (qolu) elm və ağıldır, Quss onun (əlin) dırnağıdır, Suhban isə barmağı.

---

[1] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳۵۷

[2] *Баранов, Х. К.* Арабско-русский словарь. Москва, 2005, с. 349

[3] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳۴۸

Adı çəkilən şəxslərdən başqa Xaqani yaradıcılığı ilə ərəb şairlərinin yaradıcılığı arasında oxşarlıqlar müşahidə olunur. Məsələn, şairin əsərlərində ərəb ədəbiyyatının ən böyük şairlərindən hesab olunan əl-Məʻarrinin təsiri aydın hiss olunur. Əl-Məʻarri ənənəvi saray mədhiyyəçiliyinə qarşı çıxan şair olub.[1] Yaradıcılığının ilk mərhələsindən etibarən yazdığı mədhiyyələrə görə mükafat istəməyən şair ikiüzlülük və yaltaqlıq üzərində qurulan mədhiyyə janrını inkar etmiş, ədəbiyyatda daha fəlsəfi məzmun kəsb edən əsərləri ilə şöhrət qazanmışdır. Xaqani isə yaradıcılığının ikinci mərhələsində saraydan uzaqlaşmağa çalışmış, çörək xatirinə əsərlər yazmayacağını bəyan etmiş və fəlsəfi məzmunlu əsərlərə üstünlük vermişdir.

Qur'an ayələrinə və hədislərə müraciət. Tarix boyu dinlə ədəbiyyat arasında sıx bağlılıq olmuş və bu bağlılıq özünü müxtəlif şəkillərdə göstərmişdir. Məsələn, İslamın yarandığı ilk dövrlərdə bəzi şairlər öz qələmləri ilə yeni dinin müdafiəsinə qalxdıqları halda, bütpərəst şairlər İslamı həcv edir, onun yayılmasını əngəlləməyə çalışırdılar; Orta əsrlərdə yazılan əsərlər nətlə, munacatla başlayır, Allahın zikrinə, Muhəmməd peyğəmbərin ﷺ mədhinə, Kəbənin, Qara daşın təsvirinə geniş yer verilirdi.

"... Bəşəriyyət tarixində möhtəşəm rol oynayan nadir kitablardan"[2] hesab olunan "əl-Qur'ənul-Kərim"in əsrlər boyu ədəbiyyata təsiri böyük olmuşdur. Şairlər dedikləri sözlərin, çatdırmaq istədikləri fikrin təsir gücünü artırmaq məqsədi ilə Qur'an ayələrinə, Qur'an qissələrinə müraciət edirdilər. Ədəbiyyatşünaslıqda bu metod **iqtibas**, **təlmih** kimi poetik fiqurlarla ifadə olunub. Dini mənbələrə yerli-yerində edilən istinadlar üslub baxı-

[1] *Фильштинский, И.М.* История арабской литературы. X-XVII века. Москва: Главная Редакция Восточной Литературы, 1991, с. 169

[2] *Резван, Е. А*. Коран и его мир. Санкт-Петербург: Наука, 2001, с. 6

mından üstün olmaqla yanaşı, həm də şairin bilik səviyyəsindən xəbər verirdi.

Hərfi mənası sitat gətirmək olan iqtibas (الاقتباس) bədiʿ termini kimi belə izah olunur: iqtibas – deyilən sözü bəzəmək məqsədi ilə "əl-Qur'ənul-Kərim" dən söz və ya ayə gətirilməsidir [1] və yaxud *"... iqtibas, ayə və ya hədisdən bir hissə götürərək ayə və ya hədis olduğunu göstərmədən, sözü bəzəmək və mənanı qüvvətləndirməkdir"*.[2]

Hərfi mənası "eyham vurmaq", "işarə etmək", "gözü ilə başa salmaq" olan **təlmih** bir termin kimi poetik fiqur olub, şeirdə "*fikri və lirik hissi oxucunun zehnində daha da canlandırmaq üçün çox vaxt tarixi hadisələrə, əsatir və əfsanəyə, ayə və hədislərə, məşhur alim və filosofların hikmətli sözlərinə, dövrünün mütədavil elmlərinin qanun-qaydalarına, dini-tarixi və ya əfsanəvi şəxsiyyətlərə, xalq içərisində çox işlədilən məsəl və atalar sözlərinə işarə edilməsidir"*.[3]

Xaqani də hər iki dildə yazdığı əsərlərdə bu poetik fiqurlardan geniş istifadə etmiş və çatdırmaq istədiyi fikri Qur'andan etdiyi təlmih və iqtibaslarla bəzəmişdir.

Şairin şirvanşah Cəlal əd-Dinə həsr etdiyi qəsidəsinin klassik ərəb qəsidələrinə bənzədiyini əvvəldə qeyd etmişdik. Bu qəsidədə müraciət olunan dini motivlər xüsusilə maraqlıdır. Məsələn:

سبحان من أسرى بخاطر عبده ليلا إلى الأقصى بذى الإسراء

Gecə öz qulunun xəyalını əl-Əqsaya aparan Allaha bu gecə səyahətinə görə həmd olsun.

---

[1] كاظم عبد الفريح المولى الموسوي. اقتباس والتضمين في نهج البلاغة. دراسة اسلوبية. ص. ١٤

[2] *Devellioğlu, F.* Osmanlıca–Türkce ansiklopedik luğat. Ankara: Aydın kitabevi, 2017, s. 117

[3] *Qasımova, A. Ş.* Quran qissələri XIV–XVI əsrlər Azərbaycan ədəbiyyatının ideya-bədii qaynaqlarından biri kimi. Bakı: Nurlan, 2005, s. 19

Beyt Quranın 17-ci surəsi – "əl-İsra'" surəsinin birinci ayəsi ilə səsləşir:

سُبْحَانَ الَّذِي أَسْرَى بِعَبْدِهِ لَيْلًا مِنَ الْمَسْجِدِ الْحَرَامِ إِلَى الْمَسْجِدِ الْأَقْصَى الَّذِي بَارَكْنَا حَوْلَهُ لِنُرِيَهُ مِنْ آيَاتِنَا إِنَّهُ هُوَ السَّمِيعُ الْبَصِيرُ

Bə'zi ayələrimizi (qüdrətimizə dəlalət edən qəribəlikləri və əcaibliklərі) göstərmək üçün bəndəsini (Peyğəmbər əleyhissəlamı) bir gecə (Məkkədəki) Məscidülhəramdan ətrafını mübarək etdiyimiz (bərəkət verdiyimiz) Məscidüləqsaya (Beytülmüqəddəsə) aparan Allah pak və müqəddəsdir. O, doğrudan da, (hər şeyi) eşidəndir, görəndir!

(Tərcümə: Z. Bünyadov, V. Məmmədəliyev)

Yaxud:

أصبحت داود الفصل خطابه ام بل مزامير النهى باداء

Üstünlüyü düzgün hökm vermək, yaxud düşündürücü Məzəmirə əməl etmək olan Davud olmuşam.

Beytin birinci misrasındakı الفصل خطابه ifadəsi "əl-Qur'ənul-Kərim"in 38-ci surəsi – "Ṣa:d" surəsinin 20-ci ayəsindən iqtibas olunub.

وَشَدَدْنَا مُلْكَهُ وَآتَيْنَاهُ الْحِكْمَةَ وَفَصْلَ الْخِطَابِ

Biz onun mülkünü (səltənətini) möhkəmləndirmiş, ona hikmət (peyğəmbərlik) və (haqla batili ayırd edib) düzgün hökm vermək qabiliyyəti bəxş etmişdik. (Davud çox müşkül məsələləri asanlıqla həll edər, ədalətli hökm çıxarardı)

(Tərcümə: Z. Bünyadov, V. Məmmədəliyev)

İkinci misrada isə təlmih var. Şair *məzəmir* sözü ilə Davud peyğəmbərə verilən Zəbura işarə etmişdir: "*Zəbur tamamilə mənzum bir kitabdır. Belə ki, Kitabi-Müqəddəsdə "Məzmurlar"*

adı ilə bir bölmə vardır ki, bu, musiqi sədaları altında deyilən mənzum parçalar mənasına gəlir”.[1]

Hər iki beytdə şair kiçik dəyişikliklərlə ayələri iqtibas edib ki, bu da poeziyada yolverilən idi.

Bu qəsidədə şair İslamda xüsusi önəm verilən həyadan da bəhs etmiş və utancaq, həyalı olmasını belə göstərmişdir:

نفسي كبنت شعيب إن فتشتها من خجلتي تمشي على استحياء

Baxsan, görərsən ki, qəlbim Şueybin qızı kimidir,
Xəcalətimdən utana-utana yeriyir.

Beytdəki تمشي على استحيا – *utana-utana yeriyir* ifadəsi 28-ci surə, yəni “əl-Qasas” surəsinin 25-ci ayəsindən iqtibas olunub.

۞ فَجَاءَتْهُ إِحْدَاهُمَا تَمْشِي عَلَى اسْتِحْيَاءٍ قَالَتْ ۞

Sonra (o iki qadından, qızdan) biri utana-utana (Musanın) yanına gəlib dedi...

(Tərcümə: Z. Bünyadov, V. Məmmədəliyev)

Şair öz qəlbini utancaqlıqda Şueybin qızına bənzətmişdir. *Şueybin qızı* deməklə o, Musa peyğəmbərin (s.) qissəsinə işarə etmişdir. Bəzən Bibliya personajı İoforla eyniləşdirilən[2] Şueyb (s.) (شعيب) Madyan əhlinin peyğəmbəri hesab olunur. Musa peyğəmbərin (s.) qissəsinə görə, o, fironun zülmündən Misirdən Madyana qaçır, yolda Şueybin qızlarına qoyunlara su vermələrinə kömək edir, sonra qızlardan biri utana-utana onun yanına gəlib atasının onlara kömək edən şəxsin haqqını ödəmək üçün onu yanına çağırdığını bildirir. Şueyb Musanın başına

[1] Qurani-Kərim və Hədislərə görə Peyğəmbərlər tarixi. Bakı: İpəkyolu nəşriyyatı, 2012, s. 614

[2] *Пиотровский, М. Б.* Коранические сказания. Москва: Наука, 1991, с. 76

gələnləri eşitdikdən sonra səkkiz il ona işləmək şərti ilə qızlarından birini ona ərə verir.

Aşağıdakı beytdə isə şair öz şairlik qabiliyyətini, insani keyfiyyətlərini ön plana çəkmək üçün "Səbə' " surəsinin 11-ci ayəsinə işarə etmişdir:

مهما نسجت دروع مجد في السماء حلق الدروع و شمسها حرباء

Nə də olsa, səmada alicənablıq zirehləri toxudum,
Onun (səmanın) günəşi zirehli geyimin mismarı oldu.

Ayədə deyilir:

۞أَنِ اعْمَلْ سَابِغَاتٍ وَقَدِّرْ فِي السَّرْدِ وَاعْمَلُوا صَالِحًا إِنِّي بِمَا تَعْمَلُونَ بَصِيرٌ ۞

(Biz Davuda belə buyurduq:) "Geniş, uzun (insan bədənini örtən) zirehlər düzəlt, (onları) toxuduğun zaman ölçüyə riayət et! (Zirehin həlqələri bir-birinə uyğun gəlsin, biri böyük, biri kiçik olmasın!) Və (siz də, ey Davud ailəsi!) yaxşı işlər görün! Həqiqətən mən sizin etdiyiniz əməlləri görürəm!

(Tərcümə: Z. Bünyadov, V. Məmmədəliyev)

Tədqiqat işinin müvafiq bölməsində Xaqaninin qitələrindən ən böyüyünün Reyə, daha doğrusu, onun Rey səfərinə həsr olunduğundan bəhs olunub. *Reydə baş verənlərin təsvir edildiyi qitə* adlanan əsərdə şair Reydən şikayətlənmişdir. Onun iki beytlik şeirlərindən biri sanki məzmunca həmin qitəni tamamlayır. Şair Reyin cənnətə bənzədiyini, şairin onu sevdiyini, amma orada qismətinə xəstəlik düşdüyünü göstərir:

شارفت روضة الخلد الريّ زائرها كنفس إدريس اَهواها كما واحبّا
فحلّ به السقم حالا قد خلّلت بها أيورث السقم روض الخلد واعجبا[1]

Cənnətin bağları Reydə təcəlli tapdı, oranı ziyarət edən İdrisin ruhu (cənnətə) can atdığı kimi onu arzuladı.

[1] M–242 və M–413 şifrəli əlyazmalar

Ona (ziyarətçiyə) ziyankar xəstəlik üz verdi, acəba, cənnət bağının miras qoyduğu şey xəstəlikmidir?

Şeirdə haqqında az məlumat olan İdris peyğəmbərin (s.) adı çəkilmişdir. M. Piotrovski bunu İdris peyğəmbərlə (s.) bağlı Ərəbistanda gəzən hekayətlərin bizə naməlum qalması ilə əlaqələndirsə də,[1] orta əsr ərəb mənbələrində də onun haqqında məlumat çox deyil. İbn Kəsirə görə, İdris (s.) Adəmdən (s.) və Şisdən (s.) sonra peyğəmbərlik verilən ilk insandır, o mələyin belində göyə qalxmış və orada qalmış, İsa (s.) peyğəmbər kimi ölməzlik qazanmışdır.

Rəvayətə görə, İdris peyğəmbər (s.) ömrü boyu insanları doğru yola dəvət etmiş, mömin həyat sürmüşdür. Ömrünün sonuna yaxın ölüm mələyi onun yanına gəlir. İdris (s.) peyğəmbər ondan bir anlıq ruhunu almasını istəyir. Allah-Təalanın izni ilə mələk onun dediyini edir. Sonra Allah-Təala onun ruhunu geri qaytarır. İdris peyğəmbər (s.) mələkdən onu səmaya qaldırmasını istəyir. Allah-Təalanın izni ilə mələk onun dediyinə əməl edir. Peyğəmbər əvvəlcə cəhənnəmi, sonra cənnəti görür. Cənnətdən çıxmaq istəmir. Səbəbini soruşduqda belə cavab verir ki, Allah-Təala "كل نفس ذائقة الموت" *(Hər kəs ölümü dadacaqdır)* deyib, mən ölümü daddım, "*Hər kəs cəhənnəmə gedəcəkdir*" deyib, mən cəhənnəmi gördüm, "*onlar cənnətdən çıxmayacaqlar*" buyurub, mən də cənnətdən çıxmıram. Allah-Təalanın izni ilə orada qalır.[2]

Məryəm surəsinin 56-57-ci ayələrində İdris peyğəmbərin (s.) adı çəkilmişdir:

۞ وَاذْكُرْ فِي الْكِتَابِ إِدْرِيسَ ۚ إِنَّهُ كَانَ صِدِّيقًا نَبِيًّا ۞

[1] *Пиотровский, М. Б.* Коранические сказания. Москва, 1991, с.125

[2] جوان، علی اردلان. تجلّی شاعرانه اساطیر و روایات تاریخی و مذهبی در اشعار خاقانی. مشهد، ۱۳۷۳، ص. ۱۷۷

(Ya Rəsulum!) Kitabda (Qur'anda) İdrisi də yad et! O, həqiqətən, büsbütün doğru danışan kimsə (siddiq) – bir peyğəmbər idi. Biz onu yüksək bir məqama (Cənnətə, yaxud dördüncü göyə) qaldırdıq.

(Tərcümə: V. Məmmədəliyev, Z. Bünyadov)

Xaqani də şeirdə məhz bu ayəyə və rəvayətə işarə etmiş və göstərmişdir ki, Reyin bağları cənnətə bənzədiyindən İdrisin ruhu cənnətdən çıxmaq istəmədiyi kimi, Reyə gələn də ordan getmək istəmir. Amma xəstəliyə tutulan bu gözəlliyə laqeyd qalır.

Şərq ədəbiyyatında geniş yayılmış Quran qissələrindən biri Yusufun hekayətidir. Yusuf qissəsinin ədəbiyyatımıza təsiri iki istiqamətdə olmuş, bu mövzu ilə bağlı ilk anadilli poemamız – Qul Əlinin "Qisseyi-Yusuf" əsəri yaranmış, eləcə də lirik şeirimizdə Yusuf (s.) və onun atası Yaqubla (s.) bağlı çoxsaylı təlmihlər işlənmişdir.

"Ərəb dilinin bədii imkanlarını digər Quran qissələrindən daha parlaq əks etdirən"[1] bu qissənin bədii ədəbiyyata böyük təsiri olmuşdur. Təbii ki, bu təsir ilk növbədə, xarici gözəlliklə bağlıdır. Həm şifahi xalq ədəbiyyatı, həm də yazılı bədii ədəbiyyat nümunələrində müsbət qəhrəmanların daxili aləminin gözəlliyi ilə yanaşı, xarici gözəlliyinə də böyük önəm verilirdi. Bu baxımdan Şərq ədəbiyyatında Yusuf obrazı çox aktual idi. Yusufun gözəlliyi, qardaşları tərəfindən quyuya atılması, qardaşların atalarına danışdığı yalan və s. şairin yaradıcılığında öz əksini tapmışdır. Belə ədəbi priyomlar həm də lakonikliyə, az sözlə çox məna ifadə etməyə xidmət edir. Məsələn, xarici görünüşün uzun-uzadı təsvirinə ehtiyac qalmadan, yalnız Yusufun adını çəkməklə obyektin gözəlliyi barədə tam təsəvvür yaradılır; yaxud insanın düşdüyü çətin vəziyyət Yusufun qardaşları tərəfindən atıldığı quyuya bənzədilir və s.

[1] *Пиотровский, М. Б.* Коранические сказания. Москва, 1991, с. 90

Həm daxili, həm də xarici gözəllik, həm kədər, həm də xoşbəxt sonluq simvoluna çevrilən bu obrazdan Xaqani bol-bol bəhrələnmişdir. Şairin hər iki dildə yazdığı mənsur və mənzum əsərlər belə misallarla çox zəngindir. Məsələn, açılan səhərə gözəlliyinə görə *Yusuf sifətli* deyə müraciət edilmişdir:

يا شبح يوسف فزت عن سجن الدجى تالله هيت لك اقربي لا تنفر[1]

Ey Yusuf sifətli, zülmət həbsxanasından azad oldun, Allah xətrinə, mənə yaxınlaş, qaçma.

Yaxud hər şeyin taleyin əlində olmasına Yusufun bir təsadüf nəticəsində quyudan xilas olmasını göstərməklə işarə etmişdir:

اَ بالدلو ابغی یوسف لاحقا[2]

Məgər Yusuf ona çatan vedrə ilə xilas olmadımı?

Şairin həm ərəbcə, həm də farsca yazdığı əsərlər belə nümunələrlə çox zəngindir. Məsələn,"Həbsiyyə"dən götürülmüş aşağıdakı beytlərə nəzər salaq:

پس از تحصیل دین از هفت مردان پس از تاویل وحی از هفت قرا
پس از الحمد و الرحمن والکهف پس از یاسین و طاسین میم و طاها[3]

Yeddi kişidən dini öyrəndikdən sonra, yeddi oxucudan vəhyi şərh etdikdən sonra,

Əl-Hamd, ər-Rahmən, əl-Kəhfdən sonra, Yəsin, Ta Sin Mim və Tahadan sonra.

Birinci misrada şair kinayə vasitəsi ilə *yeddi kişi* dedikdə Əshabul-kəhfə işarə edir. Mənbələrə görə, "əl-Qur'ənul-Kərim" personajları olan yeddi gənc tək Allaha iman gətirdikləri və büt-

[1] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳۵۸
[2] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳۵۱
[3] URL: https://ganjoor.net/khaghani / اشعار دیوان خاقانی

lərə inanmaqdan imtina etdikləri üçün öz qövmlərini tərk edirlər. Bir mağarada gizlənib Allahın mərhəmətinə sığınırlar.[1]

Yeddi oxucu deməklə isə "əl-Qur'ənul-Kərim"in məşhur yeddi oxucusu nəzərdə tutulmuşdur; Peyğəmbər ﷺ öz sağlığında ilahi kitabın düzgün oxunuşunu özü camaata izah edərmiş, onun vəfatından sonra isə surə və ayələrin düzgün oxunuşu ilə bağlı əshabə və onların tərəfdarları arasında müəyyən ixtilaflar yaranmağa başlayır. Məsələnin daha da kəskinləşəcəyindən qorxuya düşən Huzeyfə bin əl-Yəmən Usmən bin Affanın (m. 576–656) yanına gəlib onu məsələdən hali edir. Usmən, Peyğəmbərin ﷺ zövcələrindən Hafsa bint Umarda (m. 604-665) olan orijinal nüsxəni gətizdirir, Zeyd bin Səbitə həmin nüsxənin əsasında 8 nüsxə hazırlamasını əmr edir. Nüsxələr hazır olduqdan sonra onlar Bəsrəyə, Kufəyə, Şama, Məkkəyə, Yəmənə, Bəhreynə göndərilir. Bir nüsxə Mədinədə saxlanılır. Axırıncı nüsxəni Usmən özündə saxlayır və qalan nə varsa, hamısının yandırılmasını əmr edir. Beləliklə, müxtəlif şəhərlərin qareləri "əl-Qur'ənul-Kərim"i vahid qaydada oxumağa başlayırlar. Onların arasında yeddi qare – Əbu Abdur-Rahmən Nafi bin Abdur-Rahmən bin Əbi Nəim, Abdullah bin Kəsir, Əbu Bəkr Asim, Həmzə bin Habib əz-Zəyyat, Ali bin Həmzə əl-Kisəi, Əbu Amr bin əl-Əlai və Abdullah bin Amiri İslam aləmində xüsusi şöhrət qazanırlar.[2] Xaqani də *vəhyi yeddi kişidən öyrəndim* deməklə, "əl-Qur'ənul-Kərim"in düzgün oxunuşunu etibarlı mənbələrdən öyrəndiyini göstərmişdir.

İkinci misrada isə 7 surəyə işarə var. Yalnız bir surənin الكهف – əl-Kəhf surəsinin adı çəkilmişdir, qalan 6 surənin isə birinci sözü iqtibas edilmişdir: الحمد – əl-Fətiha; الرحمن – ər-Rah-

[1] Ислам. Энциклопедический словарь (отв. секр. С. М. Прозоров). Москва: Наука, 1991, с. 24

[2] ابن مجاهد. كتاب السبعة في القراءات. تحقيق شوقى ضيف.مصر: دار المعارف. ص. ٧

mən; ياسين – Yəsin; ميم طاسين – əş-Şu‘ara və əl-Qasas; طاها – Taha surələrinə işarədir.

Ərəb mühiti ilə bağlı olan beytlər Xaqaninin həm bu dilə, həm bu dildə yaranan ədəbiyyata, həm də İslam dininin əsaslarına dərindən bələd olduğunu göstərir.

Xaqaninin ərəbcə şeirlərinin vəzn və qafiyə məsələləri

Ərəb şeirinin yarandığı və əsrlər boyu Şərq ədəbiyyatının qırağa çıxa bilmədiyi əruz *"ərəb şeirlərinə uyğun olan şer vəznlərinin elmi"*[1] kimi izah olunub. Onun əsası VIII əsr ərəb filoloqu Xəlil ibn Əhməd (m. 718–791) tərəfindən qoyulmuşdur. Belə ki, Xəlil ibn Əhməd ilk dəfə olaraq, ərəb şeirinin ritmini müəyyənləşdirmiş və onları *təvil, mədid, bəsit, vafir, kamil, həzəc, rəcəz, rəməl, səri, munsarih, xəfif, mudari, muktadab, muctəss, mutəqarib, mutədarik* kimi 16 fərqli bəhrdə qruplaşdırmışdır.[2]

M. F. Köprülü əcəm şairlərinin ərəblər arasnda ən çox yayılmış tavıl, mədid, basıt, vafir və kamil kimi bəhrlərə çox az müraciət etdiklərini qeyd etmişdir.[3] Tədqiqatçılara görə isə Xaqani farsca yazdığı əsərlərində məhz bu beş bəhrdən istifadə etmişdir. *"Xaqani Şirvani qitə və qəzəllərini beş ərəb bəhrində (mədid, tavıl, basıt, vafir və kamil) yazıb, bu bəhrlər fars poeziyası üçün xarakterik deyil, eləcə də şairin ərəbcə şeirləri arasında fasr poeziyasına aid bəhrlərdə yazılan qitə və qəsidələrə rast gəlinir"*.[4]

Xaqani şirvanşah Cəlal əd-Dinə həsr olunmuş qəsidəsində qədim ərəb şeirinin ənənələrinə əməl etmiş, İbn Quteybənin

---

[1] *Cəfər, Ə.* Əruzun nəzəri əsasları və Azərbaycan əruzu. Bakı: Elm, 1977, s. 27

[2] *Куделин, А. Б.* Арабская литература. Москва, 2003, с. 225

[3] *Köprülü, M. F.* Türk edebiyatı tarihi. İstanbul, 1980, s. 134

[4] *Тамимдари, А.* История персидской литературы. С-П, 2007, с. 172

klassik qəsidəyə qoyduğu tələbdən kənara çıxmamağa çalışmışdır. Qəsidənin yazıldığı bəhr haqqında da eyni sözləri demək olar. Belə ki, qəsidə ərəb əruzunun beşinci bəhri olan kamil bəhrinin əsas təfiləsində – *ɱutəfA'ilun ɱutəfA'ilun ɱutəfA'il* təfiləsində yazılıb. Cahiliyyə dövrü şairlərindən Ləbid ibn Rabiənin və Antəra ibn Şəddadın, yenilikçi şairlərdən əl-Buhturinin qəsidələri bu bəhrdədir.

Ərəb qafiyə təliminə görə, qafiyəni yaradan sözün hərflərindən axırıncısı ravi hərfdir. Ərəb dilində الرَّوِيُّ *ər-raviyyu* sözü رواء *rivaun* – yükü dəvəyə bərkitmək üçün istifadə olunan ip mənasını verir. İbn Qeyz ər-Raziyə görə, şeirin bütün beytləri üçün bu hərf əsas götürüldüyünə görə, yəni beytləri bir-birinə bağladığına görə həmin hərf belə adlandırılıb.[1] "Lisənul-arab" da bu söz belə açıqlanır: *"Ər-ravi – qafiyənin hərfidir; qəsidə onun üzərində qurulur və onun bütün beytlərində eyni yerdə işlənməlidir"*.[2]

Zəif hərflər hesab olunan *əlif, vav, yə* (أ، و، ي) həflərindən başqa qalan bütün hərflər ravi hərf ola bilər. Xaqani də müxtəlif ravi hərflərdən istifadə etmişdir. Onun ərəbcə yazdığı əsərlər ب، ر، ع، ق، م، ن kimi hərflərlə qafiyələnmişdir. Şairin əsərlərinin qafiyə quruluşu onun ərəb dilində zəngin söz ehtiyatına malik olduğunu göstərir. Bəzən həmqafiyə sözlər eyni əsər daxilində ya mənaca bir-birini tamamlamış, ya da tamamilə əks məna ifadə etmişdir, bəzən də qafiyə bir söz yox, bütov söz birləşməsi üzərində qurulmuşdur. Məsələn,

خيرُ مِنَصَّةٍ – أحسن قِصَّةٍ – أنفَعُ حِصَّةٍ – شَرُّ غُصَّةٍ

[1] *Ибн Кайс ар-Рази*. Свод правил персидской поэзии, II. М., 1997, с. 83
[2] ابن منظور. لسان العرب. بيروت: دار الصادر. المجلد السادس، ص. ٢٧٢

Xaqaninin ərəbcə şeirlərində bədii ifadə vasitələrinin işlədilmə xüsusiyyətləri

Azadə Rüstəmova klassik şairlərimizin üslubu ilə bağlı yazırdı: *"Klassik Şərq, eləcə də Azərbaycan şerinin özünəməxsus cəhətlərə malik romantik üslubu olmuşdur. Şərqin Rudəki, Sənai, Firdovsi, Xaqani, Nizami, Rustaveli, Hafiz, Sədi, Nəsimi, Nəvai, Füzuli kimi ölməz sənətkarları əsərlərini başlıca olaraq romantik təsvir üsulunda yaratmışlar. Xəyalın süslü və əlvan aləminə romantik uçuş Şərq şerində aparıcıdır, əhatəlidir"* .[1]

Novatorluğu ilə seçilən, özündən sonra gələn Azərbaycan və Yaxın Şərq şairlərinə təsir edən Xaqani Şirvaninin əsərləri fəlsəfi məna tutumu ilə seçildiyi kimi, alimin qeyd etdiyi kimi, təmtəraqlı üslubu, bədii təsvir vasitələrinin zənginliyi ilə də diqqəti cəlb edir. Dahi şairimiz bədii təsvir vasitələrindən, poetik fiqurlardan yerli-yerində istifadə etməklə həm əsərlərinin məna tutumunu zənginləşdirmiş, həm də poetika elminə yaxşı bələd olduğunu nümayiş etdirmişdir. Onun fars dilində yazdığı əsərlərin sənətkarlıq xüsusiyyələrini araşdıran M. Sultanov XII əsr Azərbaycan ədəbiyyatı tarixində şairin tutduğu yüksək mövqeni əsərlərində göstərdiyi sənətkarlıq və poetik xüsusiyyətlərlə izah etmişdir. *"Xaqani öz fikirlərini daha qabarıq surətdə ifadə etmək üçün ayrı-ayrı hərflər, kəlmələr və bədii vasitələr üzərində özünə məxsus bir icadlıqla düşünmüş və yeri gəldikcə onlardan istifadə etmişdir"*[2] deyən alim Xaqaninin işlətdiyi həmin hərflərin, kəlmələrin və bədii vasitələrin mənası üzərində özünəməxsus işgüzarlıqla çalışmış, şairin farsca yazdığı əsərlərdə *təshif* (klassik Şərq şeirində nöqtənin yerini dəyişməklə yeni məna yaratmaq üsulu), *maqlub* (sözlərin hərfini tərsinə düzməklə yeni məna yaratmaq üsulu), *iyhamul-vasl* (sözləri hərflərə parçala-

[1] *Rüstəmova, A*. Seçilmiş əsərləri (tərtib edən: F. Əzizova). 2 cilddə: I c. Bakı: Elm, 2014, s. 53

[2] *Sultanov, M*. S. Xaqani Şirvani. Bakı, 1954, s. 73

maq üsulu) kimi vasitələrə dair nümunələr gətirmiş, eləcə də rəqəmlərin həm əbcəd hesabı, həm də müxtəlif rəmz və əlamətləri haqqında məlumat vermişdir.

Xaqaninin fars dilində yazdığı əsərlər kimi, ərəb dilində yazdığı əsərlər də sənətkarlıq xüsusiyyətləri ilə diqqəti cəlb edir.

Məlum olduğu kimi, klassik ərəb ədəbiyyatının əsasında duran bəlağət elminin tərkib hissələri *bəyan, məan və bədi'* hesab olunur. Allah-Təalanın nemətlərindən hesab olunan bəyan elmi haqqında Qur'anın "ər-Rahmən" surəsində deyilir:

الرَّحْمَنُ ﴿١﴾ عَلَّمَ الْقُرْآنَ ﴿٢﴾ خَلَقَ الإِنْسَانَ ﴿٣﴾ عَلَّمَهُ الْبَيَانَ ﴿٤﴾

1. Rəhman! (Mərhəmətli olan Allah!) 2. (Öz peyğəmbərinə) Qur'anı öyrətdi. 3. İnsanı yaratdı. 4. Ona danışmağı (fikrini və duyğularını bəyan etməyi) öyrətdi.

(Tərcümə: Z. Bünyadov, V. Məmmədəliyev)

Deməli, bəyan aydın, səlis şəkildə fikrin ifadəsidir. Bəyanın dəqiq tərifi belədir: *Bəyan – bəyan alimlərinin terminologiyasında bir mənanın müxtəlif yollarla ona açıq dəlalət edən şəkildə izah olunduğu elmdir.*[1]

Təşbih, məcaz, kinayə, istiarə bəyanın ərkanları hesab olunur. Poeziyada istifadəsi xüsusi qaydalarla tənzimlənən bu fiqurlara danışığın daha gözəl, bəlağətli ifadəsi üçün müraciət olunur.

Adı çəkilən ərkanlardan olan **təşbihin** ərəb dilindən hərfi tərcüməsi bənzətmədir. Təşbihə ərəb nəzəriyyəçi alimləri tərəfindən müxtəlif təriflər verilib. Ərəb ədəbiyyatşünası Abdul-Aziz Atiq, əl-Qəzvini, İbn Raşiq, Səkkaki kimi bəlağətçilərin təşbihlə bağlı dediklərini öz kitabında belə ümumiləşdirmişdir:

Təşbihin dörd ərkanı var:

[1] عبد العزيز عتيق. علم البيان. بيروت، ١٩٨٥، ص. ١٥

Bənzəyən tərəf (əl-muşəbbəh); bənzədilən tərəf (əl-muşəbbəh bihi), bu ikisi "*təşbihin tərəfləri*" adlanır; bənzətmə ədatı – *kimi* ədatıdır; bənzətmənin xüsusiyyəti, bu da tərəflər arasında uyğunluq yaradan bir və ya bir neçə əlamətdən ibarətdir.[1] Nəzəriyyə kitablarında təşbihə daha çox yer ayrılıb ki, bunun da səbəbi belə izah olunur: "*Poetik kateqoriyaların şərhləri içərisində ən geniş yer təşbihə ayrılıb. Bunun da əsas səbəblərindən biri Şərq bədii təfəkkür sisteminin əsasən bu bədii ifadə vasitəsi üzərində qurulması, ikinci tərəfdən əksər poetik katerqoriyaların təşbihlə bağlılığı, üçüncü cəhət isə müasir oxucunun bu bədii ifadə vasitəsilə nisbətən ətraflı tanış olmasıdır"*.[2]

Təşbihlərə digər şairlərin əsərlərində olduğu kimi, Xaqaninin də yaradıcılığında tez-tez rast gəlinir. Şairin təşbihləri çox canlı və təbiidir. Məsələn, şair gah gülüb, gah da ağlamasını dolub-boşalan buludlara, onun sözünü oğurlayanları zirzəmidə yaşayan siçovullara, sözü qiymətdə ağır, çəkidə yüngül daşqaşa və s. bənzətmişdir. Məsələn, aşağıdakı beytin hər misrasında təşbihə nümunə var. Şair əvvəlcə içində şərab olan şüşə qədəhi duman içərisindən boylanan günəşə, qədəhdəki şərabı isə ilğımdakı dənizə bənzətmişdir:

خذ في الزجاج راحا كالشمس فى الضباب
والراح فى الزجاج كالبحر فى السراب[3]

Dumandakı günəşə bənzəyən büllur şərab qədəhini götür, qədəhdəki şərab dənizdəki ilğım kimidir.

Yaxud:

جرم كجمر خامد متألّق

---

[1] عبد العزيز عتيق. علم البيان. بيروت، ١٩٨٥، ص. ٦٤

[2] *Quliyeva, M.* Klassik Şərq poetikası. Bakı: Yazıçı, 1991, s. 29; Quliyeva, M. Şərq poetikasının əsas kateqoriyaları. Bakı: 2010, s. 91

[3] خاقانی شروانی. ديوان، جلد دوم. ويراستهٔ جلال الدين كزازی. تهران ، ١٣٧٥، ص. ١٣٥٢

Cisim – sönmüş, amma işartısı qalmış köz kimidir.

جمر السعير يرى رخيصا سعره هي حمرة كالمسك ذات علاء

Odun közü qiymətcə ucuz görünür, amma o, dəyərli müşk kimi qırmızı rəngdədir.

Bəyan elminin təşbihdən sonra ikinci ərkanı **məcazdır (المجاز).** Məcazda hər hansı fikir obrazlı ifadə olunur.

شرفي **بماء العلم** بل غرقي به غرق المحيا لي **بماء حياء**

*Şərəfim **elm suyundadır**, orada üzüm **həya suyunda** qərq olduğu kimi qərq oluram.*

Yeni dövr şairlərinin ədəbi ənənələrini "Kitəb əl-bədi" əsərində sistemləşdirən İbn əl-Mu'təzz bura beş əsas fiqur daxil etmişdir ki, onlardan birincisi **istiarədir**.[1] Bu termini Aristotelin "Poetika"sına uyğun olaraq, B. Şidfar "metafora" kimi tərcümə etməyi məqsədəuyğun hesab etmişdir.[2] İbn əl-Mu'təzzin nümunələrinə əsasən İqnatiy Yulianoviç Kraçkovski (1883–1951) belə hesab edir ki, istiarənin mənası daha genişdir.[3] Raşid əd-Din Vatvat istiarəni belə izah edir: "*İstiarə farsca "borc almaq" mənasını verir. Bu, belə izah olunur: sözün öz həqiqi mənası var, dəbir və ya şair isə onun həqiqi mənasını sanki borc götürərək, başqa sözə keçirir. Bu priyoma bütün dillərdə rast gəlinir, bənzətmə yaxın və təbiidirsə, nitqin bəzədilməsinə xidmət edir"*.[4]

Qeyd edək ki, ərəb mənşəli bu söz həm borc almaq, həm də sözü məcazi mənada işlətmək mənasını verir. Xaqani ərəbcə

[1] *Крачковский, И. Ю*. Избранные сочинения, т. 2. М.-Л., 1956, с. 364
[2] *Шидфар, Б. Я*. Наука, 1974, с. 155
[3] *Крачковский, И. Ю*. Избранные сочинения, т. 2. М.-Л., 1956, с. 364
[4] *Ватват, Рашид ад-Дин*. Сады волшебства в тонкостях поэзии (хадаик ас-сихр фи дакаик аш-шир). Перевод с персидского Н. Ю. Чалисовой. Москва: Наука, 1985, с. 117

yazdığı əsərlərdə istiarələrə maraqlı nümunələr yaratmışdır. Məsələn:

هي سحر بابل عند كل عراق

O (mədhiyyə) hamı üçün Babil sehridir.

Burada şairin adını çəkdiyi Babil sehrinin maraqlı açıqlaması var: qədim Mesopotamiyanın ən məşhur şəhəri olan Babil özünəməxsus keyfiyyətləri ilə tarixdə iz qoymuşdur. Belə keyfiyyətlərdən biri də sehir olmuşdur. Qədim babillilərin sehirlə xəstələrə şəfa verməsinə dair rəvayətlər var. "Əl-Qur'ənul-Kərim"in əl-Baqara surəsinin 102-ci ayəsində Babil şəhərinin bu özəlliyinə işarə edilmişdir. Xaqani də öz şeirini Babil sehrinə bənzətməklə, onun qeyri-adi təsirə malik olduğunu göstərmişdir.

Başqa bir şeirində isə şair donmuş göz yaşlarını yaquta bənzətməklə istiarə yaratmışdır:

جمدت دموعي فاعتدت ياقوتة نيطت بعروة بزّتي عفراء[1]

Göz yaşlarım dondu və toz rəngində olan paltarımın ətəyində yaqut kimi ilişib qaldı.

Xaqaninin ərəbdilli əsərlərində çox rast gəlinən poetik fiqurlardan biri də cinas, yaxud təcnisdir. Bəlağət elminin bədiʿ hissəsinə daxil olan istilahlardan olan **cinas (الجناس) (təcnis)** dilimizə tərcümədə "iki şeyin bir-birinə bənzəməsi" mənasını verir. Ədəbi termin kimi isə *cinas* mənaları fərqli, yazılışı və ya deyilişi eyni və ya oxşar olan sözlərin bir yerdə işlədilməsidir, yəni cinas əmələ gətirən sözlərin hərflərinə, onların düzülüşünə, sayına və hərəkələrinə diqqət edilməlidir. Bu cəhətlərə görə ci-

[1] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳۴۰

nas müxtəlif növlərə ayrılır ki, Səkkaki "Miftəhul-ʿulum" əsərində onlardan beşini göstərmişdir.[1]

Xaqani yaradıcılığında cinasa aid nümunələrə baxaq:

–**tam təcnis (التجنيس التامّ)**: bu zaman cinas yaradan sözlərin hərfləri, hərflərin sayı, sıralanması və hərəkələri eyni olmalıdır. Cinas yaradan kəlmələrin isim və ya feil olmasından asılı olaraq da, tam təcnis iki yerə ayrılır:

–Kəlmələrin hər ikisi isim və ya feildirsə belə cinasa *cinas muməsil* جناس مماثل;

–biri isim, digəri feildirsə *cinas mustaufə* جناس مستوفى deyilir.

Xaqani deyir:

يحيي اسمه فصار عيسى ميت الحسنات منه يحيي

Adı Yəhya idi, özü İsa oldu, məhv olmuş yaxşı əməllər onunla yenidən həyat tapacaq.

Eyni bənzətməyə Əbu Təmməmin Yəhya bin Abdullaha yazdığı mərsiyədə də rast gəlinir:

ما مات من كرم الزمان فإنه يحيا لدى يحيي بن عبد الله

Ölen kiymetli zaman, Yəhya b. Abdullahın yanında həyat bulur.[2]

Hər iki nümunədə cinas əmələ gətirən sözlər tələffüz və formasına görə eyni, mənaca fərqli olan sözlərdir. Xaqaninin beytində birinci söz يحيى – *Yəhya* məmduhun adı, ikinci söz يحيى – *yəhya* hayyə (yaşamaq, mövcud olmaq) feilinin indiki zaman (mudari') formasıdır, yəni *yaşayır*. Əbu Təmməmin beytində isə birinci söz feil, ikincisi məmduhun adıdır.

[1] السكاكي، سراج الملقة والدين أبي يعقوب يوسف ابن أبي بكر محمد بن على. مفتاح العلوم. بيروت: دار الكتب العلمية، ١٩٨٧، ص. ٤٢٩

[2] *Akdemir, H*. Belağat terimleri ansiklopedisi. İzmir: Nil yayınları, 1999, s.27

H. Akdemir bunu *cinas-ı təmmi basıt* (الجناس التام البسيط) kimi qələmə versə də, ərəb mənbələrində o, yazılışda olan kiçik fərqə görə *naqis təcnis* kimi də qeyd olunub. Hər iki şairin mərsiyə yazdığı şəxslərin adı da, istifadə etdikləri feil də eynidir, sadəcə ərəb şairinin əsərində feil يحيا, Xaqani də isə يحيى kimi yazılıb. Ərəb qrammatikasına görə, يحيا variantı daha düzgün olsa da, sözün Xaqaninin mərsiyəsinin qafiyəsinə uyğun olaraq ى ilə yazıldığı ehtimal olunur. Sözlərin biri isim, digəri feil olduğuna görə, Xaqaninin beytini tam təcnisin cinas mustaufə növünə nümunə kimi veririk.

–**naqis təcnis** (**التجنيس الناقص**): burada hərflərin yazılışında, yaxud hərəkələrində kiçik fərq olur. Məsələn:

قيل لمضر أن تذكّر انت فما لمصر سناء بغداد

Mudara deyildi ki, yadda saxla: Misirdə Bağdadın möhtəşəmliyi yoxdur.

Beytdə naqis təcnis iki xüsusi isim vasitəsilə əmələ gəlib: لمصر لمضر. Hər iki sözdə لِـ ön qoşmasından istifadə olunub. Birinci misrada şəxs adıdır və لِمُضَرَ *limudara* kimi oxunaraq *Mudara*, ikinci misrada ölkə adıdır لِمِصْرَ *limısra* kimi oxunaraq *Misrin* mənasını verir.

–**muzəyyəl təcnis** (**التجنيس المذيل**): bu zaman cinas yaradan sözlərdən birinin hərfi artıq olur. Məsələn:

حَتَّى الإمامانِ صَحَرَا وَ لَقَدْ كَتَمَا لَوْنَ الْمَشِيبِ بِمَاءِ الْخِطْرِ وَ الْكَتَمِ

Hətta iki imam da qırmızı boyadan istifadə ediblər və qocalığın rəngini xitr və kətəm suyu ilə gizlədiblər.

Birinci misrada كتم (kətəmə) feil olub gizlətmək mənasını verir, ikinci misrada isə saçları qırmızıya boyayan كتم (kətəm) kətəm bitkisinin adını bildirir. Sözlərdən biri feil, digəri isimdir.

Aşağıdakı beytdə isə şair eyni beyt daxilində həm naqis, həm də muzəyyəl təcnis yaratmışdır:

هو قسّ بن ساعدة الايادي آخذ بيد الايادي ساعد الشعراء

O, Quss bin Saidə əl-İyədidir, kömək əli ilə şairlərin qolundan tutandır.

Beytdə şair müdrik, xətib kimi tanınan Quss bin Səidə əl-İyədinin (haqqında məlumat əvvəldə verilib) həm kunyəsindən, həm də nisbəsindən istifadə etmişdir. *Naqis təcnis:* şairin nisbəsi الإيادي – *Əl-'İyədi* tayfasının adı, الأَيادي – *əl-'əyədi* əl (bu da *iştiqaqa* misaldır) sözünün cəm formasıdır, burada *kömək, yaxşılıq* mənasında işlədilib. ساعدة – şəxsin kunyəsi, ساعد – *qol* mənasını verir.

Dərbənd hakiminə həsr olunan qəsidədən götürülmüş aşağıdakı beyt isə həm mürəkkəb cinasa, həm naqis cinasa, həm də iştiqaqa misal ola bilər:

جرح الحشا حاشاك حشّ حشاشتي لا تنكري جرح الحشا لا تنكر

Haşa, daxilimdəki yara son nəfəsimi də aldı, içimdəki yaranı qınama sən, qınama.

Eyni beyt daxilində bir neçə poetik fiqurdan istifadəyə Xaqani yaradıcılığında tez-tez rast gəlinir. Bunu fars dilində yazdığı əsərlərin tədqiqatçıları da qeyd ediblər: *"Xaqani şeirlərində təsvirlər hörümçək toru kimi bir-birinə qarışmışdır".*[1]

Şərq poetikasında çox işlənən poetik kateqoriyalardan biri də təzaddır. "*Məzmun etibarı ilə bir-birinə zidd olan anlamların qarşılaşdırılması olan təzad"*[2] ərəb dilçi alimləri tərəfindən *əl-addad* kimi qəbul edilmiş və o, hicrətin II əsrindən etibarən araşdırılmağa başlanmışdır. Addad, dilçilərlə yanaşı, şairlərin də diqqətini cəlb etmişdir. Amma bədi‘ alimləri əks mənalı sözlərin işlədilməsini – **التضاد (المقابلة)، (الطباق)** kimi terminlərlə ifadə etmişlər. Hər üç termin fərqli köklərdən yaransa da, bədi‘ el-

[1] *Mətləbi, A*. Farsdilli poeziyada Azərbaycan üslubu. Tehran, 2013, s. 91
[2] *Cümşüdlü, R*. Füzulinin ərəbcə poetik irsi. Bakı: 2012, s. 171

mində iki zidd mənanı bir araya gətirməklə, fikrin daha qüvvətli, daha təsiri ifadəsinə xidmət edir: *"... çoğunluğun kabul ettiği görüşe göre "tıbak, bir-birine zıt iki manayı bir ifadede toplamaktır" ki bu sanat aynı zamanda "mutabakat, tatbık, tetabuk, tezad, tekafü" adları da verilir".*[1] Bu terminlərdən ən geniş yayılanı التضاد – təzaddır ki, Xaqani də digər klassik şairlər kimi təzadlara geniş müraciət etmişdir. Şairin yaratdığı təzadlara misal:

قتل – إحياء؛ فضل – جهل؛ سهل – صعب؛ شمس – ظلمة؛ الصبح – الدجى؛ طيور النحس – طير السعد؛

öldürmə – diriltmə; fəzilət – cəhalət; asan – çətin; günəş – zülmət; sübh – zülmət; nəhs quşları – xoşbəxtlik quşu və s.

Yaxud:

كأنّ علاء الدين جاحظ دهرنا هوى شيمتى دهر يريح و يوجع

*Sanki Alə əd-Din zəmanəmizin Cahizidir, həm **rahatladan**, həm **əzab verən** zəmanənin hər iki xüsusiyyətini sevir.*

Bəzən şairin bir beyti iki fərqli təzad üzərində qurulmuşdur:

هو البحر ذو الجزر والمدّ في الندى كذلك دأب الله يعطي و يمنع

*Səxavətdə (əliaçıqlıqda) o, **qabarma** və **çəkilmələri** olan dənizdir, bu, həm **verən**, həm də **alan** Allaha xasdır.*

Burada məmduhun Allahla (a.c.) müqayisə edilməsi halına rast gəlirik ki, bu da mədhiyyələrdə yolverilən idi.

Klassik mədhiyyələrdə məmduhun əsas dörd məziyyəti mədh olunmalı idi: ağıl, igidlik, ədalət və müdriklik. Təbii ki, bu keyfiyyətlərin daha çox nəzərə çarpdırılması üçün şairlər **mübaliğələrə** müraciət edirdilər. Bədi' termini kimi mübaliğə

[1] *Akdemir, H.* Belağat terimleri ansiklopedisi. İzmir, 1999, s.377

“bir vəsfin güc və ya zəiflik baxımından imkanı çox güclü olan bir dərəcəyə və ya gerçək olması muhal olan bir mərtəbəyə çıxarılaraq ifadə edilməsidir”.[1]

Mahir mədhiyyə ustası olan Xaqani mübaliğəyə tez-tez müraciət etmişdir. Məsələn, şair şirvanşah Cəlal əd-Dinin ağlını belə təsvir edir:

ما أعجبتني عند ضوءِ ضميره أنوار سبعة أنجمٍ غرّاءِ[2]

Onun ağlının işığının yanında məni, yeddi parlaq ulduzun işığı belə heyrətləndirmədi.

Yeddi ulduz deyərkən şair Buğa bürcündə toplaşan yerə ən yaxın olan, buna görə də ən aydın, ən parlaq görünən ulduzları nəzərdə tutub. Bu ulduzlar yunan mifologiyasında 7 nimfa bacının şərəfinə *pleyada*, yaxud *yeddi bacı* adlandırılıb.

Şair Dərbənd hakiminin qorxmaz, cəsarətli bir sərkərdə olduğunu belə vurğulamışdır:

حمَّ الجبال عن انتضاء حسامه فبدا لها الرحضاء سبعة ابحر[3]

Onun qılıncını sıyırmasından dağlar elə tərləyir ki, yeddi dəniz suyu qədər tər əmələ gəlir.

Eyni bənzətməyə “Luqmən” surəsinin 27-ci ayəsində rast gəlirik:

۞ وَلَوْ أَنَّمَا فِي الْأَرْضِ مِن شَجَرَةٍ أَقْلَامٌ وَالْبَحْرُ يَمُدُّهُ مِن بَعْدِهِ سَبْعَةُ أَبْحُرٍ مَّا نَفِدَتْ كَلِمَاتُ اللَّهِ ۗ إِنَّ اللَّهَ عَزِيزٌ حَكِيمٌ ۞

Əgər yer üzündəki bütün ağaclar qələm, dərya da arxasından yeddi dərya qatılaraq (mürəkkəb) olsaydı, yenə də Allahın sözləri (yazmaqla) tükənməzdi. Həqiqətən, Allah yenilməz qüdrət, hikmət sahibidir!

(Tərcümə: Z. Bünyadov, V. Məmmədəliyev)

---

[1] *Akdemir, H.* Belağat terimleri ansiklopedisi. İzmir, 1999, s. 250

[2] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳۴۴

[3] خاقانی شروانی. دیوان، جلد دوم. ویراستهٔ جلال الدین کزازی. تهران، ۱۳۷۵، ص. ۱۳۵۹

Ayədəki *yeddi dəniz* İbn Kəsirin təfsirində mübaliğə kimi izah olunub.[1]

Eyni köklü sözlərin müxtəlif formalarından istifadə poeziyada **iştiqaq** adlandırılır. Zəngin söz ehtiyatına malik ərəb dilində yazılan əsərlərdə iştiqaqların olması təbiidir. Xaqaninin ərəbcə yazdığı əsərlərdə iştiqaqlardan geniş istifadə olunub:

كأنّى **مضرم** نار الهوى أبدا فقد علانى دخان النار في **الضرم**

Sanki mən əbədi eşq odunda yananam, eşq tüstüsü məni alovlar içində göylərə qaldırır.

Beytdə ضرم (yanmaq, alovlanmaq) kökündən əmələ gələn sözlər iştiqaq əmələ gətirib. Birinci söz *mudrim* – yanan, ikinci söz *daram – od, alov* mənasını bildirir.

Yaxud:

ما شيمتى الخيلاء لكن همتى ذات الغنى وبفقر استغناء[2]

Lovğalıq xasiyyətim deyil, lakin himmətim özü bir sərvətdir (sərvət sahibidir) və zənginlik kasıblıqdadır.

Beytdə iştiqaq ikinci misradadır. Naqis köklü غنى (varlı, zəngin olmaq) feilinin I və X bablarının məsdər formalarından istifadə olunub. Hər iki söz bir-birinə yaxın mənaları bildirir.

Bədiʿ elmində rast gəlinən fiqurlardan biri də *raddul-acz aləs-sadrdır* **(رد العجز على الصدر)**. Sözün lüğəvi mənası ikinci misranın birinci misraya gətirilməsidir, termin kimi isə beytin əvvəlindəki sözün beytin sonunda verilməsidir.[3] Həmin sözlər üç yerə ayrılır:

---

[1] https://quran.ksu.edu.sa/tafseer/katheer/sura31-aya27

[2] خاقانى شروانى. ديوان، جلد دوم. ويراستهٔ جلال الدين كزازى. تهران ، ١٣٧٥، ص. ١٣٤٣

[3] جواهر البلاغة في المعاني والبيان والبديع. تأليف أحمد الهاشمي. المملكة المتحدة: الناشر مؤسسة هنداوي سي آي سي. ٢٠١٩، ص. ٤١٣؛ محمد أحمد قاسم، محي الدين ديب. علم البلاغة (البديع والبيان والمعاني). لبنان، ٢٠٠٣، ص. ١٢١؛

Akdemir, H. Belağat terimleri ansiklopedisi. İzmir, 1999, s. 309

1.Tələffüz, forma və məna baxımından təkrarlanan sözlər;

2.Tələffüz və formasına görə eyni, mənaca fərqli olan sözlər;

3.Eyni köklü sözlərin təkrarlanması.

Bu sözlərin beytdəki işlənmə yerinə görə, raddul-acz aləssadrın dörd növü qeydə alınıb ki, Xaqani yaradıcılığında da bu poetik fiqurun hər dörd növünə rast gəlindi.

1) Sözlərdən biri birinci misranın əvvəlində, digəri isə beytin sonunda gəlir. Xaqaninin aşağıdakı beyti buna misal ola bilər:

نعم خضبت فخير الناس قد خضبوا إلى النبيّ اوّلي القربى ذوي النعم

(Dedim:) Bəli, rəngləmişəm, çünki Peyğəmbərə, onun yaxınlarına və alicənab insanlara qədər bütün yaxşı insanlar (saqqallarını) rəngləyiblər.

2) Sözlərdən biri beytin sonunda, digəri birinci misranın ortasında gəlir. Məsələn:

اَضْحَى دَمُ الْجَفْنِ فَوْقَ الْخَدِّ مُنْجَمِداً فَاِسْوَدَّ مَا جَافَّ هَذا حُكْمُ كُلِّ دَمِ

Kirpiklərdən axan qan yanaqlarda donub qaldı və qaraldı; bu da qanın xüsusiyyətidir.

Burada Xaqaninin istifadə etdiyi sözlər tələffüz, forma və məna baxımından eynidir, *qan* mənasını verir.

3) Sözlərdən biri beytin sonunda, digəri birinci misranın sonunda gəlir. Məsələn:

وأُحْسُنْ ثمّ لا تَنْظُرْ جزاءً ففي الاحسان تعبيبة الجزاء

Yaxşılıq et, amma əvəzini gözləmə, yaxşılığın özü mükafat deməkdir.

Şairin istifadə etdiyi sözlər tələffüz, forma və məna baxımından təkrarlanan sözlərdir; *mükafat, əvəz* mənasını verir.

4) Sözlərdən biri ikinci misranın əvvəlində, digəri həmin misranın sonunda gəlir:

يا طيف ناضرة كصبح مسفر سفر الصباح فعم صباحا و اسفر

Ey açılan səhər kimi gözəl olan xəyal, səhər necə gözəldir, necə parlaqdır!

Xaqani əsərlərində **təşxisdən** – şəxsləndirmədən də istifadə etmişdir. XI-XIV əsrlər farsdilli ədəbiyyatda "Həbsiyyə" şeirlərini tədqiq edən Yekatrina Oleqovna Akimuşkina Xaqani yaradıcılığı üçün xarakterik olan bu cəhəti belə vurğulamışdır: "*Xaqani özünün "şirvan" (həm də "həbsiyyə") qəsidələrində Şirvanda onu Şirvanşahların zorla saxladığını bir dəfə də olsun açıq şəkildə göstərməmişdir, onun bütün şikayət və giley-güzarı Şirvana ünvanlanmışdır, yəni Şirvan hökmdarın substitutu (əvəz edəni) kimi çıxış edə bilir*".[1]

Xaqani yaradıcılığında tez-tez rast gəlinən bu cəhəti İ. Həmidov farsdilli şeirdə Xaqaninin təmsil etdiyi Azərbaycan məktəbinin fərqləndirici cəhətlərindən biri kimi qiymətləndirmişdir.[2] Eyni mövzuya biz "Kitabi-Dədə Qorqud" dastanında da rast gəlirik. Bu dastanda Qazlıq dağı şəxsləndirilir, qız-gəlin bu dağı qayınataları zənn edərək, dağa baxanda yaşmaq tuturlar. Dirsə xan oğlu Buğac xan yaralandıqda anası onu yaralayana yox, Qazlıq dağına qarğış edir:

Niyə axır sənin suların, Qazlıq dağı,
Belə axmaqdansa, heç axmasın!
Niyə bitir sənin otların, Qazlıq dağı,

[1] *Акимушкина, Е. О*. Тюремная лирика в персидской литературе XI-XIV вв.: генезис и эволюция. Автореферат диссертации на соискание ученой степени кандидата филологических наук. Москва, 2004, с. 21

[2] *Həmidov, İ. Y.* Azərbaycan ədəbiyyatı klassikləri ərəb ədəbiyyatşünaslığında. Bakı: Elm, 2007, s. 44

Belə bitməkdənsə, heç bitməsin!
Keyiklərin qaçır sənin, Qazlıq dağı,
Qaçar ikən qaçmaz olsun, daşa dönsün! [1]

Xaqaninin ərəbdilli irsində Dəclə və Nil, Bağdad və Şirvan şairin siyasi fikir meydanında şəxsləndirilərək qarşı-qarşıya qoyulmuşdur.

Yuxarıdakı nümunələr Xaqaninin əsərlərinin poetik fiqurlarla zəngin olduğunu göstərir. Belə əsərlər orta əsrlərdə yüksək qiymətləndirilirdi. Amma poetik cəhətdən gözəl olan əsərlərin tərcüməsi çətin başa gəlir. Y. E. Bertels Füzulinin ərəbcə əsərlərinin sənətkarlıq xüsusiyyətlərindən danışarkən *tansıq əs-sıfatın* (burada şair, yaxud ədib bir obyektin müxtəlif adlarını, yaxud müxtəlif təyinlərini ardıcıl olaraq verir. Bu fiqura İslamdan əvvəlki ədəbiyyatda da rast gəlinsə də, o daha çox "əl-Qur'ənul-Kərim"lə, hədislərlə əlaqələndirilir) işlənməsi ilə bağlı yazır ki, bu metod şeirin ahəngdarlığını artırsa da, məna ikinci plana keçmiş olur və belə beytlərin tərcüməsi çətinləşir.[2] Zənnimcə, bu fikir əksər poetik fiqurlara aiddir. Çünki əsərin yazıldığı dillə tərcümə olunan dilin imkanları eyni olmur. Poetik fiqurlar orijinal dilin imkanları daxilində ahəngdarlığı artırmağa xidmət edirsə, həmin dildə gözəl səslənirsə, tərcümə olunan dildə buna əməl etmək çətin olur, nəticədə ya tərcümə sönük qalır, ya da orijinaldan kənarlaşma halları baş verir. Buna görə də, şairin əsərlərinin sənətkarlıq xüsusiyyətlərindən danışarkən əsərin poetik tərcüməsi yox, orijinalı tədqiqata cəlb olunmalıdır. Çünki *"XII yüzil Azərbaycan ədəbi məktəbi nümayəndələrinin yaradıcılığında bədii təsvir vasitələrinin biçimli*

[1] Kitabi-Dədə Qorqud (tərtib edən: F. Zeynalov, S. Əlizadə). Bakı: Yazıçı, 1988, s. 137

[2] *Бертельс, Е. Э.* Арабские стихи Фузули // Избранные труды. Низами и Фузули. Москва: Издательство восточной литературы, 1962, с. 512-513

şəkildə işlədilməsi həmin dövr sənətkarlarının əruz, qafiyə, bəlağətdən ibarət poetikanın üç sahəsinə dərindən yiyələnmələrinin sayəsində mümkün olmuşdur".[1] Xaqani də bu məktəbin qabaqcıl nümayəndəsi kimi əsərlərində göstərdiyi sənətkarlığı ilə xələfləri üçün bir məktəb yaratmışdır. Təsadüfi deyildir ki, bu gün qəsidədən bəhs edilən bütün mənbələrdə ilk xatırlanan adlardan biri Xaqanidir.

[1] *Əlizadə, L*. Xaqani Şirvani lirikasının bədii siqləti // Bakı: Ədəbiyyat məcmuəsi, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Əsərləri, 2017. XXX c., s. 40

NƏTİCƏ

Şərq ədəbiyyatı tarixində öz fəlsəfi məzmunlu əsərləri ilə şöhrət tapan Xaqani Şirvani Şərqin iki işlək dili – fars və ərəb dillərində gözəl əsərlər yaratmışdır. Xaqaninin mürəkkəb yaradıcılığı öz dərin məzmunu ilə seçilir. Onun ədəbi irsi xalqımızın böyük sərvətidir ki, bu sərvətə asanlıqla sahib olmaq mümkün deyil. Şairin öz sözləri ilə desək, *"sərvətə ancaq zəhmətlə çatmaq olar"*.

Xaqani "Divan"ını fars dilindən rus dilinə tərcümə edərək, 2004-cü ildə Moskvada nəşr etdirən şair-tərcüməçi Mixail Sinelnikov özünə belə bir sualla müraciət edir: *"Şairi tərcümə etmək nə deməkdir? Bu, onu öz beynindən, ürəyindən keçirmək deməkdir... Mən gecəmi-gündüzümü Xaqani şeirlərinə həsr etdim və bu görkəmli şairin dünyasına daxil olduğum və belə bir əbədi, ölməz bir varlıqla doğmalaşdığım üçün çox xoşbəxtəm"*.

Biz də bu nadir söz ustadımızın ərəbcə fikir dünyasına daxil olmaq üçün əlimizdə olan bir neçə yüz beyti və bir neçə nəsr nümunələrini araşdırdıq və belə bir fikrə gəldik ki, şairin ərəb dilində yazdığı əsərlərdən dövrümüzə qədər çox az bir hissə gəlib çatsa da, onların əsasında Xaqani yaradıcılığının bu qolu haqqında müəyyən təsəvvür əldə etmək mümkündür. Bəlkə də şairin ərəbdilli yaradıcılığı həm janr, həm də mövzu baxımından daha zəngin olmuşdur. Amma çox təəssüf ki, bu gün Xaqaninin ərəbdilli yaradıcılığı ilə bağlı araşdırma apararkən, onun ərəbdilli poeziyası haqqında fikir söyləyərkən əlimizdə olan bir neçə yüz beytlə, nəsri haqqında danışarkən iki müqəddimə, iki məktubla kifayətlənməli oluruq. Həmin əsərlərin tədqiqatı göstərdi ki, şairin ərəbcə yazdığı əsərlər onun yaradıcılığının ayrılmaz hissəsi olub, həm forma, həm də məzmun cəhətdən gözəl sənət nümunələridir.

Hikmət və nəsihət dolu beytləri ilə məşhurlaşan şair ərəbcə yazdığı əsərlərdə öz həyat fəlsəfəsini dolğun şəkildə əks etdir-

mişdir. Əsərlərinin dilinin mürəkkəb olmasına baxmayaraq, nəsihət, əxlaqi dəyərlər çox aydın və sadə bir dildə təbliğ olunub.

Şairin yaradıcılığının araşdırılması istiqamətində aparılan tədqiqatatdan əldə edilən nəticələri belə ümumiləşdirmək olar:

–Xaqaninin ərəbdilli yaradıcılığının tədqiqinə İranda daha erkən başlansa da, həmin əsərlərə müraciətin tarixi XXI əsrin əvvəllərinə aiddir. Azərbaycanda isə bu əsərlər geniş tədqiqata cəlb olunmasa da, onların ilk tərcüməsi XX əsrin 50-ci illərinə təsadüf edir. Bu əsərlərdən ilk dəfə dilimizə Muxtar Əfəndi tərəfindən 106 beyt tərcümə edilmişdir.

–Xaqaninin məşhur "Şiniyyə" qəsidəsi əksər mənbələrdə "Mir'ətus-safə" adı altında təqdim olunsa da, "Mir'ətus-safə" Xaqaninin yox, Əmir Xosrov Dəhləvinin "Şiniyyə"sinə verilən ad kimi daha məşhurdur.

–Xaqaninin vəfat tarixi hazırda 1999 (595)-cu il kimi qəbul edilsə də, son aşkar olunan *Chester Beatty* əlyazması bu tarixi sual altına alır. Nüsxənin hazırlanma tarixinə və orada verilən məlumata əsasən Xaqaninin vəfat tarixi təxminən 580-581-ci il kimi göstərilə bilər.

–şairin ərəbcə yazdığı əsərlər ayrıca əlyazmalarda deyil, külliyyat və divanlarda farsca yazılan əsərlərlə qarışıq şəkildə verilib. Ərəbcə əsərlə müraciət etdiyimiz kitabxanaların əlyazma fondlarında M–247, M–242, M–413 şifrəli Bakı; *Süleymaniye Kütüphanesi Fatih* kolleksiyası 03810*, Lala İsmail* kolleksiyası 00439*, Damad İbrahim Paşa* kolleksiyası 01173-001 nömrəli Türkiyə; Fransa Milli Kitabxanası Pesan 1816; C 61, C 1424, B 136 şifrəli Sankt-Peterburq nüsxələrində daha geniş təmsil olunub.

–bu vaxta qədər şairin ərəbcə mənzum əsərlərinin həcmi müxtəlif şəkillərdə verilsə də, ilk dəfə bu tədqiqat işində C 61 şifrəli Sankt-Peterburq nüsxəsindən və *Süleymaniye Kütüphanesi Fatih* kolleksiyasından 03810 nömrəli (bibliyografik kayıt no.:

242153) nüsxədən aşkar edilən iki beyt əsasında şairin ərəbcə yazdığı beytlərin sayı 504 kimi göstərilmişdir. Monoqrafiyada həmin beytlər həm formasına, həm də ideya-məzmununa görə *qəsidə, qitə, mufrad və digər şeirlər* adı altında qruplaşdırılmışdır.

–REA Şərq Əlyazmaları İnstitutunda saxlanılan C 61 şifrəli əlyazmaya və digər mənbələrə əsasən müəyyən edilmişdir ki, şairin ərəbcə yazdığı 171 beytlik ən böyük qəsidəsi şirvanşah Cəlal əd-Din I Axsitan ibn Mənuçehrə həsr olunub.

–Xaqaninin ərəbcə yazdığı nəsr əsərlərindən bu vaxta qədər bizə yalnız iki qəsidəyə yazdığı müqəddimələr məlum idisə, ilk dəfə bu tədqiqat işində *Süleymaniye kütüphanesi Damad İbrahim Paşa Koleksiyonu'nda* yer alan 233028 və *Chester Beatty* kitabxanasındakı MS 3798 şifrəli əlyazmalarda şairin ərəbcə yazdığı iki məktub aşkar edilib. Şairin ərəbcə yazdığı munşəatdan elmə məlum ilk nümunələr olan məktublardan birincisi Qutb əd-Din əl-Əbhəriyə, ikincisi Əvhəd əd-Din əl-Ğəznəviyə ünvanlanmışdır. Həmin iki məktub sayəsində deyə bilərik ki, Xaqaninin elmə 62 məktubu (60 farsca, 2 ərəbcə) məlumdur.

–Bu vaxta qədər şairin əlyazmaları arasında ən qədimi kimi hicri tarixi ilə 664-cü ildə (1266-cı il) üzü köçürülmüş Londonda Or. 7942 şifri ilə saxlanılan Xocand əlyazması hesab olunurdu. Artıq şairin ən qədim əlyazması Abdul-Vahhəb bin Əbi əl-Fadl ət-Təbrizi tərəfindən hicri 581-ci ilin ramazan ayının 1-də (26 noyabr 1185-ci il) tərtib olunan *Chester Beatty* nüsxəsi hesab olunmalıdır.

–Xaqaninin yaradıcılığı ərəb-islam mədəniyyətinə aid elementlərlə çox zəngindir. Şair ərəb hərflərinin qrafik xüsusiyyətlərindən və qrammatik vəzifələrindən istifadə etmiş, ərəb ədəbi mühitinin nümayəndələri ilə bağlı fikirlər söyləmiş, *təlmih, iqtibas* vasitəsilə Qur'an ayələrinə, qissələrə, hədislərə müraciət etmişdir;

–Xaqaninin hər iki dildə yazdığı əsərlərində fars və ərəb ədəbiyyatına məxsus cəhətlər özünü büruzə verir. Məsələn, şair ərəbcə yazdığı bəzi qəsidələrində fars və ərəb qəsidələrini fərqləndirən əsas xüsusiyyətlərdən biri olan mətlədən istifadə etmişdir; farsca öz əsərlərini *mədid, tavıl, basıt, vafir və kamil* kimi fars poeziyası üçün xarakterik olmayan bəhrlərdə yazdığı halda, ərəbcə şeirləri arasında fars poeziyasına aid bəhrlərdə yazılan qitə və qəsidələrə rast gəlinir.

–Xaqani ərəb dilində yazdığı əsərlərində, fars dilində olduğu kimi, yüksək sənətkarlıq nümayiş etdirmişdir; müxtəlif poetik fiqurlardan bəhrələnmişdir; onun yaradıcılığında təşxisdən istifadə edilmiş və coğrafi məkanlar şəxsləndirilərək şairin nəzərdə tutduğu obyektin subsitutu rolunda çıxış etmişdir.

ƏDƏBİYYAT

Azərbaycan dilində

1.*Araslı, Həmid.* Azərbaycan ədəbiyyatı: Tarixi və problemləri (Seçilmiş əsərləri). Bakı: Gənclik, 1998, 732 s.

2.*Araslı, Həmid*. Böyük Azərbaycan şairi Füzuli. Bakı: Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1958, 312 s.

3.*Araslı, Həmid.* Xaqani Şirvani. Bakı: Yazıçı, 1982, 62 s.

4.Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə: I c. Red.: H. Araslı, M. Quluzadə, M. C. Cəfərov. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1960, 589 s.

5.Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə: II c. Red. hey. sədri: M. Kərimov. Bakı: Elm, 2007, 632 s.

6.VII–XII əsrlər Azərbaycan şe´ri. Xaqani Şirvani // Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə, II c. Bakı: Elm, s. 118-312

7.Azərbaycan tarixi. III–XIII əsrin birinci rübü (məsul redaktor: N. Vəlixanlı). 7 cilddə: II c. Bakı: Elm, 2007, 492 s.

8.*Bünyadov, Ziya.* Dinlər. Təriqətlər. Məzhəblər. Bakı: Şərq-Qərb, 2007, 171 s.

9.*Cabbarlı, S.* Xaqani Şirvani əsərləri bəyazlarda // Xaqani Şirvani. Anadan olmasının 870 illiyinə həsr edilmiş Respublika konfransının tezisləri, Bakı, 1997, s. 31-33

10.*Cəfər, Əkrəm.* Əruzun nəzəri əsasları və Azərbaycan əruzu. Bakı: Elm, 1977, 415 s.

11. *Cümşüdlü, Ruhəngiz.* Füzulinin ərəbcə poetik irsi. Bakı: 2012. 240 s.

12. *Əliyev, Akif.* Ərəb ədəbiyyatşünaslığı və Xaqani yaradıcılığının bəzi məsələləri // Bakı: Azərb. SSR EA-nın Xəbərləri. Ədəbiyyat, dil və incəsənət seriyası, 1983. №3, s. 46-53

13. *Əliyev, Sabir.* Bircə sözün xatası, yaxud Füzulinin dedikləri və ... demədikləri // Azərbaycan Füzulişünaslığının qaynaqları. 3 cilddə, III c. Bakı, 2011, s. 221-255

14. *Əliyeva, A.* Xaqani Şirvani əsərlərinin Bakı nüsxələri // "Orta əsr əlyazmaları Azərbaycan mədəniyyəti tarixi problemləri" möv-

zusunda Xaqani Şirvaninin 880 illiyinə həsr edilmiş X Respublika elmi-nəzəri konfransının materialları. Bakı, 2006, s. 33-42

15. *Əliyeva, Nərgiz.* Əbdülkərim əs-Səmani və onun elmi irsi // Bakı: AMEA-nın Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 2005. №5-6, s. 236-241

16. *Əlizadə, Lalə.* Xaqani Şirvani lirikasının bədii siqləti // Bakı: Ədəbiyyat məcmuəsi, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Əsərləri, 2017. XXX c., s. 40-49

17. *Əlizadə, Lalə*. Klassik Azərbaycan və Şərq ədəbiyyatına dair araşdırmalar. Bakı: Elm və təhsil, 2021, s. 257-323

18. *Əlizadə, Lalə.* Mücirəddin Beyləqani qəsidələrində bəzi tarixi faktlar // Klassik Azərbaycan və Şərq ədəbiyyatına dair araşdırmalar. Bakı: Elm və təhsil, 2021, s. 164-177

19. *Əlizadə, Məmməd Mübariz.* Nizami insanın mənəvi məziyyətləri haqqında // Bakı: Nizami Gəncəvi–850. Elmi məqalələr toplusu, 1992, s.104-125

20. *Feyzullayeva, Vəcihə.* Füzulinin qəsidələri. Bakı: Elm, 1985, 184 s.

21. *Hacıyeva, A.* Elmə və alim adına sədaqət nümunəsi. 525-ci qəzet https://science.gov.az/az/news/open/14337, 25.09.2020

22. *Həbibbəyli, İsa.* Azərbaycan multikulturalizm yollarında // İdentiklik, multikulturalizm, dialoq fəlsəfəsi. Elmi məqalələr toplusu, I kitab. Bakı: Elm və təhsil, 2018, s. 5-15

